# MEMORİAL

## Vətən müharibəsi şəhidləri

## II

803 qəhrəmanın bioqrafiyası

# H-L

TEAS PRESS

# MEMORİAL

## Vətən müharibəsi şəhidləri

*803 qəhrəmanın bioqrafiyası*

# II

# H–L

TEAS PRESS

**Memorial. Vətən müharibəsi şəhidləri**
*803 qəhrəmanın bioqrafiyası*
II cild (H-L)

*Koordinator:*
Ülkər Hüseynova

*Layihə üzərində işləyənlər:*
Famil Cəfərli, Kərim Kərimli, Vüsalə Babayeva,
Arzu Cəfərova, Arzu Mehdiyeva, Xan Abdulla

*Layihənin bədii rəhbəri:*
Sevinc Ələkbərova

*Dizayner:*
Mahir Allahverdiyev

*Fotoredaktorlar:*
Vüqar Nağıyev, Samir Cəfərzadə

*Texniki redaktor:*
Rəşad İsmixanov

Bakı, TEAS Press Nəşriyyat evi, 2022, 556 s.
ISBN 978 9952 563 06 1

Kitab TEAS Press Nəşriyyat evi tərəfindən
tərtib olunaraq çapa hazırlanıb.

www.teaspress.az
Bütün hüquqlar qorunur.
© TEAS Press Nəşriyyat evi, 2022

## MÜNDƏRİCAT

| | |
|---|---|
| H | 1-189 |
| X | 191-221 |
| İ | 223-347 |
| K | 349-385 |
| Q | 387-541 |
| L | 543-548 |

# NƏŞRİYYATDAN

*Əziz oxucu!*

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanımız cənab İlham Əliyevin Azərbaycan torpaqlarını erməni işğalından azad etmək üçün gördüyü böyük işlər məhz onun komandanlığı altında ölkəmizin möhtəşəm Zəfəri ilə başa çatmasına səbəb oldu. Ulu Öndərimiz Heydər Əliyevin işıqlı ideallarının layiqli varisi və davamçısı olan cənab İlham Əliyev bu tarixi qələbə ilə torpaqlarımızın azad edilməsi ilə bağlı böyük Ata vəsiyyətini gerçəkləşdirmiş oldu. Vətənimizin bu taleyüklü savaşında qazandığımız şanlı Qələbəyə görə, müzəffər Ali Baş Komandanımızın özünün də bütün çıxışlarında dönə-dönə vurğuladığı kimi, ilk növbədə şəhidlərimizə borcluyuq. Bu Zəfər minlərlə igid Azərbaycan oğlunun misilsiz şücaəti, fədakarlığı, canı-qanı bahasına başa gəldi. TEAS Press Nəşriyyat evinin çap etdiyi bu kitab məhz həmin qəhrəmanlarımıza - Vətən müharibəsinin müqəddəs şəhidlərinə həsr olunub.

Vətən müharibəsi başa çatandan sonra şəhidlərimiz haqqında, onların Vətən sevgisi və misilsiz rəşadəti barədə saysız-hesabsız məqalə, bədii-publisistik yazı, hekayə, esse, oçerk, roman, şeir və poema yazılıb, filmlər və rəsm əsərləri çəkilib, reportajlar hazırlanıb, mahnılar bəstələnib. Elə bir gün olmaz ki, televiziya və radio kanallarında, internet və çap mediasında, sosial mediada şəhidlərimizin adı çəkilməsin, onlar haqda danışılmasın, müqəddəs ruhları ehtiramla anılmasın. Bütün bunlar, əlbəttə ki, təqdirəlayiqdir və belə də olmalıdır. Bununla yanaşı, o qənaətdəyik ki, Vətən müharibəsi şəhidlərinin hamısının əhatə olunduğu, haqlarında qısa, lakin dolğun bioqrafik məlumatların yer aldığı memorial məzmunlu bir

kitaba da böyük ehtiyac var. Bu mənada hazırda qarşınızda olan kitabı Vətən müharibəsində bizə qələbə sevincini yaşadan şəhidlərimiz haqqında xatirə kitabı kimi böyük sevgi və qürur hissi ilə, şəhidlərimizlə bağlı bütün zəruri fakt və bilgiləri birbaşa mənbələrdən məlumat əldə etməklə çapa hazırlamışıq.

Qeyd edək ki, bu kitaba sırf Vətən müharibəsində (27.09.2020 - 10.11.2020), həmçinin azad edilmiş torpaqlarda Azərbaycan Ordusunun mövqelərinin möhkəmləndirilməsi prosesinin davam etdiyi 2021-ci il dekabrın 31-dək olan müddətdə şəhadətə ucalmış qəhrəmanlarımız barədə məlumatlar daxil edilib.

Kitab üzərində işə başlayanda bu işin məsuliyyətini də, həcmini də, qarşıya çıxa biləcək çətinlikləri də, əlbəttə ki, nəzərə almışdıq. Çətinliklər ilk növbədə şəhidlərimiz haqda məlumatların dəqiq və dolğun olmaması ilə bağlı idi. İşin gedişində isə bu çətinliyin təsəvvür etdiyimizdən də böyük olduğunu gördük. Söhbət müxtəlif mənbələrdəki (internet və çap mediasındakı, bəzən hətta ayrı-ayrı kitablardakı) məlumatların bir-biri ilə uyğun gəlməməsindən, həmin məlumatlardakı qeyri-dəqiqlik hallarından, şəhidlər haqdakı yazıların və bioqrafik məlumatların bəzən səthi hazırlanmasından gedir. Bu da gələcək tədqiqatçılar və digər müəlliflər üçün çətinlik yaradacaq bir məqamdır. Buna görə də biz məsələyə fərqli yanaşdıq - hər bir şəhid ailəsi ilə ayrı-ayrılıqda əlaqə saxlayıb bütün faktları və bioqrafik məlumatları məhz həmin ailələrin bilavasitə özləri ilə dəqiqləşdirdik.

Şəhidlərin kitabda verilən siyahısı Azərbaycan Respublikası Müdafiə Nazirliyinin təqdim etdiyi ən son rəsmi məlumatlar əsasında tərtib olunub. "Təltifləri" bölməsində təqdim edilən məlumatlar istisnasız olaraq yalnız Prezidentin müvafiq sərəncamları əsasında hazırlanıb. Hər bir şəhidə verilmiş orden və medalların siyahısı həmin sərəncamlara istinadən bir-bir dəqiqləşdirilib.

Bir məqama da diqqətinizi çəkmək istərdik. Kitabda, məsələn, Hüseyinov, Namik, Ehdiram, Ehtibar, Fizuli, Həmizəyev, Hökuməli, Hökmüran, Bəhrəm, Neymət, Sucayət, Müşviq... kimi ad-soyadlar var. Amma ad-soyadların bu cür yazılışı nəşriyyat tərəfindən yol verilən orfoqrafik səhv kimi qəbul olunmamalıdır. Bu ad-soyadların dəqiq yazılışı həm şəhid ailələrinin özləri ilə və ya onların nəşriyyata təqdim etdiyi sənədlərlə dəqiqləşdirilib, həm də Prezident sərəncamları ilə tutuşdurulub. Xeyli müzakirədən sonra biz həmin adları Azərbaycan Respublikasının rəsmi sənədlərində necə yazılıbsa, elə də təqdim etmək qərarına gəldik. Amma burada da istisnalar var. Məsələn, şəhid ailələri ad-soyadların bəzi sənədlərdə də yanlış yazıldığını bildirir. Kitab bütün bu incə məqamlar diqqətlə nəzərə alınmaqla çapa hazırlanıb.

Xatirə kitabı üç cilddən ibarətdir. Şəhidlər haqda məlumatlar ümumi qaydaya uyğun olaraq, soyadlar üzrə əlifba sırası ilə təqdim edilir. Bu nəşr memorial kitabımızın ikinci cildidir və H-dən L-ə qədərki hərflərlə başlayan (L hərfi də daxil olmaqla) soyadları əhatə edir. Hazırda kitabın üçüncü cildi çapa hazırlanır, o da tezliklə işıq üzü görəcək.

Bu kitabın ərsəyə gəlməsində göstərdiyi informasiya dəstəyinə görə "YAŞAT" Fonduna xüsusi minnətdarlığımızı bildiririk.

Bir çox şəhid ailələri ilə əlaqə saxlamaqda yardım etdiklərinə görə ayrı-ayrı rayonların icra hakimiyyətlərinin müvafiq strukturlarına və fəal vətəndaşlarımıza da ayrıca təşəkkürümüzü bildiririk.

TEAS Press Nəşriyyat evinin müqəddəs şəhidlərimizin ruhu qarşısında az da olsa, öz mənəvi borcunu vermək məqsədilə çapa hazırladığı bu kitab hər şəhid ailəsinə bir nüsxə olmaqla hədiyyə ediləcək, yerdə qalan nüsxələrin satışından əldə olunan gəlir isə "YAŞAT" Fonduna ianə ediləcəkdir.

Müqəddəs şəhidlərimizin əziz xatirəsi hər bir Azərbaycan vətəndaşının, hər bir azərbaycanlının qəlbində əbədi yaşayacaq! Onların ruhunu sonsuz ehtiramla anır, hər birinə Uca Tanrıdan rəhmət diləyirik!

H

63.3(5Aze)622.8
M 36





## HACI-İSMAYILOV
### Rahib Məmmədemin oğlu
(17.09.1991 – 20.10.2020)

Şəki şəhərində anadan olub. 2006-cı ildə Şəki şəhəri 19 saylı orta məktəbin IX sinfini bitirib. 2009-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb. Müharibənin ilk günlərindən ön cəbhədə, döyüş meydanlarında olub, düşmənlə ölüm-dirim savaşına atılaraq igidliklə vuruşub. Qəhrəman əsgər döyüşlərə Tərtər-Ağdərə cəbhəsində başlayıb, Talış və Suqovuşanın işğaldan azad olunması uğrundakı qanlı savaşlarda böyük şücaət və hünər göstərib, öz qorxmazlığı və cəsurluğu ilə xüsusi seçilib. Oktyabrın 20-də Ağdərə ətrafında gedən qızğın döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Şəki şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## HACIƏHMƏDLİ
### Hacıəhməd Həsən oğlu
(06.04.1998 – 09.11.2020)

Qax rayonunun Zərnə kəndində anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Zərnə kənd orta məktəbində və Bakı şəhəri 272 saylı orta məktəbdə, ali təhsilini 2015-2019-cu illərdə Azərbaycan Texniki Universitetində alıb. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2020-ci ildə tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirib. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsini SQ-nin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən döyüş meydanlarında olub, rəşadətlə vuruşub. Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan, Qubadlı, Laçın və Şuşa uğrunda döyüşlərdə misilsiz şücaət göstərib, bir dəfə yaralansa da, müalicəsini yarımçıq qoyaraq yenə cəbhəyə yollanıb. Noyabrın 9-da Şuşa ətrafındakı şiddətli döyüşdə qəhrəmancasına savaşaraq şəhadətə ucalıb. Zərnə kəndində dəfn edilib. Subay idi.





**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2021); "Döyüşdə fərqlənməyə görə" medalı (2021).*



## HACILI
### Feyruz Bəhruz oğlu
(04.03.1994 – 14.10.2020)

İsmayıllı şəhərində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə əvvəlcə Rusiyanın Surqut şəhərində, daha sonra isə Bakı şəhər 286 saylı orta məktəbdə alıb. Ali təhsil almaq məqsədilə Ukraynaya gedib və 2017-ci ildə Kiyev Milli Tibb Universitetini bitirib. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Savaşın ilk günlərindən ön cəbhədə düşmənlə ölüm-dirim mübarizəsinə atılan qəhrəman əsgər döyüşlərə Füzuli cəbhəsində başlayıb, igidliklə vuruşub. Xocavənd uğrunda gedən qızğın döyüşlərdə böyük hünər və rəşadət göstərib. Oktyabrın 14-də Xocavənd ətrafındakı qanlı döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhid olub. II Fəxri xiyabanda dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021).*

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 128560



## HACIYEV
## Abakar Məhəmməd oğlu
**(11.04.1979 – 27.10.2020)**

Zaqatala rayonunun Dardoqqaz kəndində anadan olub. Orta təhsilini 1986-1996-cı illərdə Zaqatala rayon Sumaylı kənd və Zaqatala şəhər 3 saylı orta məktəblərdə, ali hərbi təhsilini isə 1996-2000-ci illərdə Bakı Ali Hərbi Dənizçilik Məktəbində (indiki H.Əliyev adına AAHM) alaraq leytenant rütbəsində zabit kimi xidmətə başlayıb. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin mayoru kimi zabit mundirində qarşılayıb, ilk gündən döyüş meydanlarında olub. Döyüş yolu Füzuli, Cəbrayıl və Xocavənd uğrundakı savaşlardan keçib, bu qanlı döyüşlərdə misilsiz igidliklə vuruşub. Rəşadətli zabitin son döyüşü oktyabrın 27-də olub. Həmin gün Xocavənd cəbhəsində, Qırmızı Bazar-Şıxer istiqamətindəki şiddətli döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Dardoqqaz kəndində dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Azərbaycan Bayrağı" ordeni (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021).*



## HACIYEV
## Aydəmir Sənan oğlu
**(07.03.1992 – 02.11.2020)**

Quba rayonunda Qırmızı qəsəbədə anadan olub. 2007-ci ildə Qırmızı qəsəbə 2 saylı orta məktəbin IX sinfini bitirib. 2011-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, döyüş bölgəsində - Tərtərdə xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi

KİTABXANASI İnv. №





qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb, oktyabrın 17-də cəbhəyə yollanaraq düşmənlə ölüm-dirim savaşına atılıb, bu həlledici döyüşlərdə rəşadətlə vuruşub. Füzuli, Cəbrayıl və Xocavənd uğrundakı qızğın döyüşlərdə hünərlə iştirak edərək böyük qəhrəmanlıq göstərib. Cəsur əsgərin son döyüşü noyabrın 2-də olub. Həmin gün Xocavənd cəbhəsində, Qırmızı Bazar istiqamətində gedən qanlı döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhidlik məqamına yüksəlib. Quba şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020).*



## HACIYEV
## Davud Novruz oğlu
**(14.07.1998 – 17.10.2020)**

Xaçmaz şəhərində anadan olub. Orta təhsilini 2004-2013-cü illərdə Xaçmaz şəhər 6 saylı orta məktəbdə, daha sonra Xaçmaz Peşə Liseyində alıb. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılaraq təlimlərə cəlb edilib. Bir həftədən sonra Vətən müharibəsi başlayan kimi ön cəbhəyə göndərilib, ilk saatlardan düşmənlə ölüm-dirim savaşına atılaraq misilsiz igidliklə vuruşub. Döyüşlərə Goranboy istiqamətində başlayıb, daha sonra Füzuli və Cəbrayıl cəbhələrində misilsiz rəşadətlə vuruşub, bu rayonların azad olunması uğrundakı qanlı döyüşlərdə böyük hünər göstərib. Qəhrəman əsgər oktyabrın 10-da Füzuli döyüşlərində ağır yaralanaraq hospitala yerləşdirilib. Həkimlərin səylərinə baxmayaraq, oktyabrın 17-də şəhadətə qovuşub. Xaçmaz rayonunun Qaraqurdlu kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## HACIYEV
## Elmaz Elmar oğlu
**(09.05.1994 – 04.11.2020)**

Şamaxı rayonunun İkinci Çaylı kəndində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə İkinci Çaylı kənd orta məktəbində alıb. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə xəttində - Tərtərdə xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Savaşın ilk günlərindən döyüş meydanlarında olub, iştirak etdiyi həlledici döyüşlərdə şücaətlə vuruşub. İgid əsgərin döyüş yolu Füzuli, Qubadlı və Laçın cəbhələri səngərlərindən keçib, bu rayonlar uğrundakı qanlı döyüşlərdə misilsiz rəşadət göstərib. Noyabrın 4-də Laçın uğrunda ağır döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhadətə ucalıb. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 2-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Bakının Binə qəsəbəsində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2021).*



## HACIYEV
## Elnur Yaqub oğlu
**(12.06.1979 – 17.10.2020)**

Ucar şəhərində anadan olub. Orta təhsilini 1986-1996-cı illərdə Ucar şəhər 5 saylı orta məktəbdə, ali hərbi təhsilini isə 1997-2002-ci illərdə Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbində alaraq zabit kimi xidmətə başlayıb. Qobustan, Tovuz, Ağdam, Gədəbəy və Ağstafada 18 il xidmət edəndən sonra 2020-ci ilin fevralında mayor rütbəsində tərxis edilərək ehtiyata göndərilib. Həmin il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Bir həftədən sonra başlayan Vətən müharibəsinin ilk





günlərindən peşəkar zabit kimi ön cəbhədə, döyüş meydanlarında olub. Əvvəlcə Tərtər cəbhəsində döyüşüb. Daha sonra Füzuli cəbhəsinə göndərilib, orada tabor komandirinin müavini kimi vuruşub. Oktyabrın 17-də Füzuli uğrundakı qanlı döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Ucar şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## HACIYEV
## Fərid Təşkilat oğlu
**(04.10.1989 – 28.09.2020)**

Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində anadan olub. 2006-cı ildə Biləsuvar rayonundakı 4 saylı Cəbrayıl qəsəbəsində yerləşən Böyük Mərcanlı kənd orta məktəbini bitirib. 2008-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2013-cü ildə yenidən ordu sıralarına qayıdaraq 2016-cı ilədək MAHHXHQ kimi xidmət edib. 2016-cı il Aprel döyüşlərindən az əvvəl yenə də orduya çağırılıb, bu döyüşlərdə igidliklə vuruşub. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayanda Beyləqanda xidmət edən qəhrəman kəşfiyyatçı ilk gündən Füzuli cəbhəsində savaş meydanlarına atılaraq böyük şücaət göstərib. Sentyabrın 28-də Füzulidəki şiddətli döyüşlərdə hünərlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Nəşi noyabrın 30-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Biləsuvardakı 3 saylı qəsəbədə dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## HACIYEV
## Hacı Rafiq oğlu
## (25.09.1999 – 09.11.2020)

Qax rayonunun Çüdüllü kəndində anadan olub. Orta təhsilini 2006-2017-ci illərdə Çüdüllü kənd ümumi və Marsan kənd tam orta məktəblərində alıb. 2017-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində - Beyləqanda xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Müharibənin ilk günlərindən savaş meydanlarında olub, qatıldığı həlledici döyüşlərdə igidliklə vuruşub. Döyüş yolu Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Şuşa cəbhələrindən keçib, bu döyüşlərdə böyük hünər göstərib. Rəşadətli əsgərin son döyüşü noyabrın 9-da olub. Həmin gün Şuşa şəhəri ətrafında gedən qızğın döyüşlərdə misilsiz şücaətlə vuruşaraq şəhidlik məqamına ucalıb. Nəşi noyabrın 17-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Çüdüllü kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020).*



## HACIYEV
## Hikmət Şubay oğlu
## (07.12.1984 – 08.11.2020)

Şəmkir şəhərində anadan olub. Orta təhsilini əvvəlcə Şəmkir şəhər Məhəmməd Füzuli adına tam orta məktəb-liseydə alıb, 1999-cu ildən isə C.Naxçıvanski adına Hərbi Liseydə davam etdirib. 2002-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2006-cı ildə AAHM-i bitirərək leytenant rütbəsi alıb və təmas xəttində - Füzuli bölgəsində zabit kimi xidmətə başlayıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin





kapitanı kimi zabit mundirində qarşılayıb. Savaşın ilk günündən ön cəbhədə olub, misilsiz rəşadətlə vuruşub. Cəbhənin Füzuli rayonu istiqamətindəki qanlı savaşlara atılan qəhrəman zabit oktyabrın 2-də rayonun Qaraxanbəyli kəndi uğrundakı şiddətli döyüşlər zamanı ağır yaralanıb. Uzun müddət Bakıda xəstəxanada müalicə olunsa da, həyatını xilas etmək mümkün olmayıb. Noyabrın 8-də şəhadətə qovuşub. Şəmkir şəhərində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## HACIYEV
## İntiqam Eynullah oğlu
## (11.10.1998 – 13.10.2020)

Ağcabədi rayonunun Minaxorlu kəndində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Minaxorlu kənd orta məktəbində alıb. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılaraq hərbi təlimlərə cəlb edilib. Bir həftədən sonra Vətən müharibəsi başlayan kimi ön cəbhəyə göndərilib, ilk saatlardan düşmənlə ölüm-dirim savaşına atılaraq misilsiz rəşadətlə vuruşub. Cəbhənin Füzuli, Cəbrayıl və Xocavənd istiqamətlərində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında hünərlə iştirak edib, bu qanlı döyüşlərdə böyük qəhrəmanlıq göstərib. Cəsur əsgərin son döyüşü oktyabrın 13-də olub. Həmin gün Xocavənd ətrafında gedən şiddətli döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə yüksəlib. Doğulub boya-başa çatdığı Minaxorlu kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## HACIYEV
## İsmət Şölət oğlu
**(20.01.1993 – 27.09.2020)**

Quba şəhərində anadan olub. İlk təhsilini Quba şəhər 5 saylı orta məktəbdə alıb. 2008-2011-ci illərdə C.Naxçıvanski adına Hərbi Liseydə, 2011-2015-ci illərdə isə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində oxuyub. 2015-ci ildə AAHM-i leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin baş leytenantı kimi zabit mundirində qarşılayıb. Savaşın ilk saatlarından düşmənlə ölüm-dirim mübarizəsinə atılan igid kəşfiyyatçı-zabit bu qanlı savaşlarda bir komandir kimi misilsiz rəşadətlə vuruşub. Tərtər-Ağdərə cəbhəsindəki ağır döyüşlərdə böyük hünər göstərib. Müharibənin elə ilk günü - sentyabrın 27-də Suqovuşan istiqamətində gedən həlledici döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhid olub. Quba şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## HACIYEV
## İsrayıl Səməd oğlu
**(28.02.2002 – 28.09.2020)**

Şəmkir rayonunun Zəyəm Cırdaxan kəndində anadan olub. 2017-ci ildə Zəyəm Cırdaxan kənd 2 saylı tam orta məktəbinin IX sinfini bitirib. 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Cəbhə xəttində - Beyləqan rayonundakı N saylı hərbi hissədə həmlə taborunda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb.





Savaşın ilk saatlarından döyüş meydanlarında olub, qatıldığı qanlı döyüşlərdə böyük şücaət göstərib. Qəhrəman əsgər cəbhənin Füzuli və Cəbrayıl istiqamətlərindəki həlledici döyüşlərdə iştirak edib, öz cəsurluğu ilə fərqlənib. Sentyabrın 28-də Füzuli uğrundakı şiddətli döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Doğulub boya-başa çatdığı Zəyəm Cırdaxan kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021).*

## HACIYEV
## Kamran Füzuli oğlu
**(16.01.1994 – 21.10.2020)**



Bakının Şüvəlan qəsəbəsində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Bakı şəhəri 237 saylı orta məktəbdə alıb. 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində - Tovuz rayonunda xidmət edib. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına yazılmaq üçün könüllü müraciət edib. Həmin ilin sentyabrında Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində yenidən orduya çağırılıb. İlk günlərdən düşmənlə ölüm-dirim savaşının getdiyi döyüş meydanlarında olub, misilsiz rəşadətlə vuruşub. Füzuli və Cəbrayıl rayonları, Hadrut qəsəbəsi və Ərgünəş dağı uğrundakı qanlı döyüşlərdə qəhrəmanlıq göstərib, öz qorxmazlığı ilə xüsusi fərqlənib. Cəsur çavuşun son savaşı oktyabrın 21-də olub. Həmin gün Ərgünəş zirvəsi uğrunda gedən qızğın döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Bakının Qala qəsəbəsində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## HACIYEV
## Kənan İmran oğlu
### (17.11.2001 - 05.10.2020)

Astara rayonunun Anbuba kəndində anadan olub. Orta təhsilini 2008-2019-cu illərdə Astara rayon Motalayataq kənd orta məktəbində və Lənkəran şəhər 4 saylı humanitar təmayüllü məktəb-liseydə alıb. 2019-cu ildə Bakı Biznes və Kooperasiya Kollecinə daxil olub. 2020-ci ilin yanvarında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə xəttində - Füzuli rayonunda xidmət edirdi. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, Füzuli və Xocavənd uğrundakı qanlı döyüşlərdə igidliklə iştirak edib, böyük qəhrəmanlıqlar göstərib. Oktyabrın 5-də Füzulinin Yuxarı Seyidəhmədli kəndi uğrunda gedən qızğın döyüşdə misilsiz şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 9-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Anbuba kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## HACIYEV
## Qubad Cəmil oğlu
### (19.05.1988 - 27.09.2020)

Tərtər şəhərində anadan olub. 2005-ci ildə Tərtər şəhər 1 saylı orta məktəbi bitirib. 2006-2007-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2015-ci ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini kiçik çavuş rütbəsində MAHHXHQ kimi davam etdirməyə başlayıb. Xidmət dövrü Tərtər, Ağdam və Goranboy istiqamətlərində ön xətdə keçib. 2016-cı ildə Aprel





döyüşlərində hünər göstərib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin kiçik çavuşu kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən düşmənlə ölüm-dirim savaşına atılaraq rəşadətlə vuruşub. Qəhrəman döyüşçü cəbhənin Tərtər-Ağdərə istiqamətindəki qanlı döyüşlərdə iştirak edərək şəxsi igidlik və şücaət göstərib. Yaralansa da, döyüş meydanından çəkilməyib. Müharibənin elə ilk günü - sentyabrın 27-də Suqovuşan uğrundakı qanlı döyüşlərdə misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Yevlax rayonunun Köyük kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## HACIYEV
## Qurban Əsəbəli oğlu
### (18.04.1997 - 30.09.2020)

Balakən rayonunun Gərəkli kəndində anadan olub. Orta təhsilini 2003-2014-cü illərdə Balakən Mahamalar kənd orta məktəbində alıb. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb edilib. Bir həftədən sonra başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin əsgəri kimi əldə silah döyüş meydanlarında qarşılayıb, ilk gündən qanlı savaşlara atılaraq misilsiz rəşadətlə vuruşub. İgid əsgər Tərtər-Ağdərə cəbhəsindəki döyüşlərdə böyük şücaət göstərib. Sentyabrın 30-da Suqovuşan urğundakı qızğın döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhadətə qovuşub. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 17-də müəyyən edilərək ailəsinə təhvil verilib. Balakən şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Vətən uğrunda" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## HACIYEV
## Murad Eynulla oğlu
### (18.10.1997 – 13.10.2020)

Ağdaş rayonunun Gürcüva kəndində anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Gürcüva kənd orta məktəbində alıb. 2015-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2016-cı il Aprel döyüşlərində igidlik göstərib. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb edilib. Bir həftədən sonra başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən həlledici savaşlara atılaraq şücaətlə vuruşub. Cəsur əsgərin döyüş yolu Tərtər-Ağdərə cəbhəsindən keçib. Talış və Suqovuşan döyüşlərində qəhrəmanlıq göstərib. Oktyabrın 13-də Tərtər-Ağdərə cəbhəsindəki qanlı döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 17-də müəyyən edilərək ailəsinə təhvil verilib. Gürcüva kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## HACIYEV
## Nazim Feyruz oğlu
### (16.12.1995 – 14.10.2020)

Şamaxı rayonunun Şərədil kəndində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə rayonun Şərədil və Şirvan kənd orta məktəblərində alıb. 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, xidmətini təmas xəttində - Ağcabədi və Ağdamda başa vurub. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb edilib. Bir həftədən sonra başlayan Vətən





müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin əsgəri kimi əldə silah Tərtər-Ağdərə cəbhəsi səngərlərində qarşılayıb, düşmənlə ölüm-dirim savaşında rəşadətlə vuruşub. Suqovuşan və Ağdərə uğrundakı qanlı döyüşlərdə hünərlə iştirak edib, şəxsi igidlik nümunəsi göstərib. Qəhrəman əsgərin son döyüşü oktyabrın 14-də olub. Həmin gün Suqovuşan ətrafında gedən şiddətli döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə ucalıb. Doğulduğu Şərədil kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021).*



## HACIYEV
## Nicat Cahangir oğlu
### (24.05.1989 – 02.10.2020)

Füzuli rayonunun Saracıq kəndində anadan olub. 1993-cü ildə ailəsi Mingəçevirə köçüb. Orta təhsilini 1996-2007-ci illərdə Mingəçevir şəhər 4 saylı orta məktəbdə alıb. 2007-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2011-ci ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirib. 2016-cı il Aprel döyüşlərində igidlik göstərib. 2019-cu ildə tərxis olunub. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən orduya çağırılaraq təlimlərə cəlb edilib. Bir həftədən sonra başlayan Vətən müharibəsini əldə silah səngərlərdə qarşılayıb. Rəşadətli əsgər Füzuli və Cəbrayıl uğrunda döyüşlərdə şücaət göstərib. Oktyabrın 2-də Cəbrayılın Nüzgar kəndi ətrafındakı qanlı döyüşdə hünərlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Mingəçevir şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## HACIYEV
## Ramid Nəriman oğlu
(11.02.1987 – 16.10.2020)

Cəbrayıl rayonunun Mirək kəndində anadan olub. 1993-cü ildə ailəsi Bakıya köçüb. Orta təhsilini 1994-2002-ci illərdə Bakı şəhəri 249 və 48 saylı orta məktəblərdə alıb. 2002-2005-ci illərdə C.Naxçıvanski adına Hərbi Liseydə oxuyub. 2005-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2009-cu ildə AAHM-i leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. Əsasən təmas xəttindəki bölgələrdə – Tovuz, Murovdağ, Mingəçevir və Tərtərdə xidmət edib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin mayoru kimi zabit mundirində qarşılayıb. Müharibənin ilk günündən savaş meydanlarında olub, rəşadətlə vuruşub. Cəsur zabitin döyüş yolu əsasən Tərtər-Ağdərə cəbhəsindən keçib, Suqovuşan uğrundakı həlledici savaşda böyük hünər göstərib. Oktyabrın 16-da Suqovuşan ətrafındakı qanlı döyüşlərin birində igidliklə vuruşaraq şəhadətə ucalıb. II Fəxri xiyabanda dəfn olunub. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Qarabağ" ordeni (2020); "Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## HACIYEV
## Rüstəm Firqani oğlu
(22.09.2001 – 29.09.2020)

Tərtər rayonunun Yuxarı Qapanlı kəndində anadan olub. Orta təhsilini 2008-2019-cu illərdə Yuxarı Qapanlı kənd tam orta məktəbində alıb. 2019-cu ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, təmas xəttində – Daşkəsən rayonunda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk saatlarından ön xətdə, döyüş meydanlarında olub, düşmənlə ölüm-dirim çarpışmasına atılaraq misilsiz rəşadətlə vuruşub. İgid əsgər cəbhənin Murovdağ yüksəklikləri istiqamətində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında hünərlə iştirak edib, bu qanlı döyüşlərdə böyük şücaət göstərib. Sentyabrın 29-da Kəlbəcərin işğaldan azad olunması uğrunda gedən şiddətli döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhadətə qovuşub. Doğulub boya-başa çatdığı Yuxarı Qapanlı kəndində dəfn edilib. Subay idi.





**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020).*



## HACIYEV
## Sayad Azad oğlu
(14.03.2001 – 14.10.2020)

Zaqatala rayonunun Bazar kəndində anadan olub. Orta təhsilini 2007-2015-ci illərdə Bakı şəhəri 90 və 316 saylı orta məktəblərdə alıb. 2015-ci ildə Azərbaycan Dövlət Dəmir Yolu Liseyinə daxil olub. 2019-cu ildə liseyi bitirib və həmin ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin əsgəri kimi əldə silah ön xətdə, səngərlərdə qarşılayıb. Müharibənin ilk günündən düşmənlə qızğın savaşlara atılan cəsur əsgərin döyüş yolu cəbhənin əsasən Tərtər-Ağdərə istiqamətindəki qanlı vuruşmalardan keçib. Ağdərə, Talış və Suqovuşan uğrunda gedən həlledici döyüşlərdə misilsiz şücaət və qəhrəmanlıq nümunəsi göstərib, igidliyi ilə seçilib. Oktyabrın 14-də Suqovuşan ətrafında növbəti döyüş tapşırığını yerinə yetirərkən misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Doğulduğu Bazar kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



F. Köçərli adına Respublika Uşaq KİTABXANASI
İNV. № 128560



## HACIYEV
## Sərxan Eldar oğlu
**(08.07.1990 – 11.10.2020)**

Rusiya Federasiyasının Saratov vilayətində anadan olub. Orta təhsilini 1997-2008-ci illərdə Qobustan rayonu Mərəzə qəsəbəsindəki orta məktəbdə alıb. 2008-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Goranboyda xidmət edib. 2017-ci ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb və ilk günlərdən qanlı döyüşlərə atılıb. Qəhrəman əsgər Füzuli cəbhəsindəki həlledici döyüşlərdə hünərlə iştirak edərək rəşadətlə vuruşub. Yaralansa da, döyüş meydanını tərk etməyib. Oktyabrın 11-də Füzuli cəbhəsində gedən şiddətli döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə ucalıb. Nəşi oktyabrın 23-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Qobustan şəhərində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## HACIYEV
## Şəhriyar Şahlar oğlu
**(02.08.1999 – 09.10.2020)**

Gədəbəy rayonunun Novoivanovka kəndində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Novoivanovka kənd və Xırdalan şəhər 6 saylı orta məktəblərdə alıb. 2016-cı ildə Kazan Dövlət Texnologiya Universitetinə (Tatarıstan, Rusiya) qəbul olunub. 2017-ci ildə təhsilini yarımçıq qoyaraq vətənə qayıdıb və Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə yollanıb. Cəbhə xəttində - öncə Goranboyda, sonra isə Tərtərdə xüsusi təyinatlı kəşfiyyat taborunda xidmət edib. 2019-cu ildə tərxis olunub. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində yenidən orduya çağırılıb. Rəşadətli əsgər ilk günlərdən savaş meydanlarında olub, Tərtər-Ağdərə cəbhəsindəki qanlı döyüşlərdə igidliklə vuruşub. Oktyabrın 9-da Suqovuşan ətrafındakı döyüşlərdə hünərlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Nəşi oktyabrın 26-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Novoivanovka kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## HACIYEV
## Şükür Aslan oğlu
**(08.03.2000 – 05.11.2020)**

Yevlax şəhərində anadan olub. Əslən Laçın rayonunun Budaqdərə kəndindən idi. Orta təhsilini 2006-2017-ci illərdə Yevlax rayon Varvara kənd, Yevlaxda yerləşən Kəlbəcər rayon orta və Yevlax şəhər 10 saylı orta məktəblərdə alıb. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, döyüş bölgəsində - Tovuzda xidmət edib. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına yazılmaq üçün könüllü müraciət edib. Həmin ilin sentyabrında Vətən müharibəsi başlayandan sonra - oktyabrın 20-də SHXÇDX tərəfindən orduya çağırılıb. Cəsur əsgər döyüşlərə Füzuli cəbhəsində başlayıb, qəhrəmancasına vuruşub, yaralansa da, savaş meydanını tərk etməyib. Qubadlı döyüşlərində şücaəti ilə xüsusi fərqlənib. Son döyüşü noyabrın 5-də olub. Həmin gün Daşaltı ərazisində, Şuşa uğrundakı ağır döyüşlərdə misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Ağdam rayonunun Quzanlı qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2021).*



## HACIYEV
## Şükür Bayram oğlu
**(25.08.1999 - 12.10.2020)**

Naxçıvan MR Babək şəhərində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə əvvəlcə Babək şəhər 1 saylı orta məktəbdə, daha sonra H.Əliyev adına Hərbi Liseydə alıb. 2016-cı ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olunub. 2020-ci ildə AAHM-i leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. Təmas xəttində - Tərtərdə xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini də Tərtər-Ağdərə cəbhəsində qarşılayıb, savaşın ilk saatlarından döyüş meydanlarında olub, rəşadətlə vuruşub. Xüsusi təyinatlı kəşfiyyat taborunun tərkibində vuruşan igid zabit Ağdərə və Suqovuşan uğrundakı qanlı savaşlarda böyük şücaət göstərib. Oktyabrın 12-də Suqovuşan ətrafındakı yüksəkliklər uğrunda gedən qızğın döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhadətə qovuşub. Babək şəhər qəbiristanının şəhidlər guşəsində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2021).*



## HACIYEV
## Teymur Zaur oğlu
**(28.01.1991 - 13.10.2020)**

Qazax rayonunun Yuxarı Salahlı kəndində anadan olub. Orta təhsilini 1997-2008-ci illərdə Yuxarı Salahlı kənd tam orta məktəbində alıb. 2009-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Hərbi xidmətdə olarkən SQ-nin Təlim-Tədris Mərkəzində gizir hazırlığı kursuna qəbul olunub və kursu başa vuraraq xidmətini gizir kimi davam etdirib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin baş giziri kimi mundirdə qarşılayıb, ilk gündən savaş meydanlarında olub. Döyüşlərə Füzuli cəbhəsində başlayıb, Horadiz kəndi istiqamətindəki şiddətli döyüşlərdə misilsiz şücaət göstərib. Daha sonra Cəbrayıl və Xocavəndin azadlığı uğrunda hünərlə vuruşub. Cəsur hərbçi oktyabrın 13-də Füzuli-Cəbrayıl-Xocavənd istiqamətində gedən qanlı döyüşlərin birində rəşadətlə vuruşaraq şəhid olub. Yuxarı Salahlı kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## HACIYEV
## Toğrul Rüfət oğlu
**(17.02.1997 - 09.10.2020)**

Füzuli rayonunun Əhmədbəyli kəndində anadan olub. Orta təhsilini 2003-2014-cü illərdə Bakının Bakıxanov qəsəbəsində yerləşən Zəngilan rayon 18 saylı orta məktəbdə, Zəngilan rayon Bartaz kənd orta musiqi məktəbində və Sulutəpə qəsəbəsindəki 313 saylı orta məktəbdə alıb. 2014-2020-ci illərdə Azərbaycan Milli Konservatoriyasında bakalavr və magistr pillələrində ali musiqi təhsilini tamamlayıb. 2020-ci ilin aprelində Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb. Qəhrəman əsgər müharibənin ilk günlərindən həlledici savaşlara atılıb, Füzuli cəbhəsindəki qızğın döyüşlərdə hünərlə iştirak edərək igidliklə vuruşub. Oktyabrın 9-da Füzulinin azad olunması uğrunda gedən şiddətli döyüşlərin birində misilsiz şücaətlə savaşaraq şəhidlik zirvəsinə ucalıb. Bakının Biləcəri qəsəbəsində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## HACIYEV
## Toğrul Siyavşah oğlu
## (04.02.1991 - 25.10.2020)

Göyçay rayonunun Çayarxı kəndində anadan olub. Orta təhsilini 1997-2008-ci illərdə Çayarxı kənd orta məktəbində və Göyçay Peşə Liseyində alıb. 2009-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində yenidən ordu sıralarına çağırılıb və sentyabrın 29-da cəbhəyə yollanıb. Döyüşlərə Lələtəpə istiqamətində başlayan rəşadətli əsgər daha sonra Füzuli, Cəbrayıl, Xocavənd və Hadrut cəbhələrində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında igidliklə iştirak edib. Xocavənd uğrundakı qanlı döyüşlərdə qəhrəmanlığı və qorxmazlığı ilə seçilib. Oktyabrın 25-də Xocavəndin azadlığı uğrunda gedən qızğın döyüşlərin birində hünərlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Çayarxı kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## HACIYEV
## Ülvi Şirin oğlu
## (13.11.1994 - 19.10.2020)

Bakıda anadan olub. Orta təhsilini 2001-2012-ci illərdə Bakı şəhər 141 saylı məktəbdə alıb. 2016-cı ildə Azərbaycan Dövlət İqtisad Universitetinin bakalavr, 2018-ci ildə magistr pillələrini bitirib. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra orduya yazılmaq üçün könüllü müraciət edib. Həmin il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən





səfərbərlik çərçivəsində yenidən orduya çağırılıb, Füzuli cəbhəsində düşmənlə ölüm-dirim savaşına atılaraq rəşadətlə vuruşub. Cəsur əsgər Cəbrayıl və Xocavənd cəbhələrindəki döyüşlərdə də şücaət göstərib. Oktyabrın 19-da Xocavənd ətrafında gedən qanlı döyüşlərdə igidliklə vuruşaraq şəhadətə ucalıb. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 4-də müəyyən edilərək ailəsinə təhvil verilib. II Fəxri xiyabanda dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## HACIYEV
## Zamiq Eldar oğlu
## (22.11.1983 - 29.10.2020)

Beyləqan şəhərində anadan olub. Orta təhsilini 1990-2001-ci illərdə Beyləqan şəhər 3 saylı orta məktəbdə alıb. 2002-2003-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2009-cu ildə yenidən ordu sıralarına qayıtmağa qərar verib və SQ-nin Təlim-Tədris Mərkəzində müvafiq kurs keçərək xidmətini baş çavuş rütbəsində MAHHXHQ kimi davam etdirməyə başlayıb. Döyüş bölgəsində - Beyləqanda xidmət edirdi. 2016-cı il Aprel döyüşlərində şücaətlə vuruşub. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsinin ilk saatlarından ön xətdə olub, hünərlə savaşıb. İgid döyüşçü Füzuli, Cəbrayıl, Hadrut, Zəngilan, Qubadlı və Xocavənd uğrundakı həlledici vuruşmalarda misilsiz rəşadət göstərib. Oktyabrın 29-da Xocavənd rayonunun Tuğ kəndi istiqamətində gedən qızğın döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhadətə qovuşub. Beyləqan şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## HACIYUSİFOV
## Əhməd Teymur oğlu
**(23.06.2001 - 07.11.2020)**

Şəki rayonunun Baş Göynük kəndində anadan olub. 2007-2018-ci illərdə Baş Göynük kənd 2 saylı orta məktəbdə təhsil alıb. 2019-cu ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Təmas xəttində – Füzulidə xidmət edirdi, peşəkar snayper təlimləri keçmişdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, ilk saatlardan düşmənlə ölüm-dirim savaşına atılaraq misilsiz igidliklə vuruşub. Cəsur əsgərin döyüş yolu Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan və Qubadlı cəbhələrindən keçərək Şuşa uğrundakı qanlı savaşlara qədər uzanıb, bu həlledici döyüşlərdə böyük hünər və mətinlik göstərib. Noyabrın 7-də Şuşa uğrunda gedən şiddətli döyüşlərdə rəşadətlə vuruşaraq şəhid olub. Doğulduğu Baş Göynük kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## HACIZADƏ
## Ceyhun İfrayıl oğlu
**(23.08.1992 - 07.10.2020)**

Tərtər rayonunun Evoğlu kəndində anadan olub. Orta təhsilini 1999-2010-cu illərdə Evoğlu kənd orta məktəbində alıb. 2011-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və hərbi təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini ön xətdə, Tərtər-Ağdərə cəbhəsi





səngərlərində qarşılayıb. Müharibənin ilk saatlarından düşmənə qarşı amansız savaşa atılıb, bu qanlı döyüşlərdə öz hünəri və qorxmazlığı ilə xüsusi fərqlənib. Qəhrəman əsgər Ağdərə, Talış, Seysulan və Suqovuşanın azad olunması uğrundakı həlledici döyüşlərdə şəxsi igidlik nümunəsi və rəşadət göstərib. Oktyabrın 7-də Suqovuşan ətrafında gedən qızğın döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə ucalıb. Doğulub boya-başa çatdığı Evoğlu kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021).*



## HADIYEV
## Raqim Teymur oğlu
**(19.03.1999 - 21.10.2020)**

Lənkəran rayonunun Alazəpin kəndində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə rayonun əvvəlcə Alazəpin, sonra isə Biləsər kənd orta məktəblərində alıb. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Müharibənin ilk günlərindən qanlı savaş meydanlarında olan rəşadətli əsgər döyüşlərə Füzuli cəbhəsində başlayıb. Daha sonra Cəbrayıl və Hadrut uğrunda gedən həlledici vuruşmalarda igidliklə iştirak edib, bu döyüşlərdə qəhrəmanlıq nümunələri göstərib. Oktyabrın 21-də Qubadlı uğrundakı qızğın döyüşlərin birində hünərlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Nəşi noyabrın 4-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Lənkəran rayonunun Seliqavol kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## HADIYEV
## Vüsal Balarəzi oğlu
### (18.10.2000 – 05.10.2020)

Lənkəran rayonunun Gəgiran kəndində anadan olub, ailəsi daha sonra Masallı şəhərinə köçüb. Orta təhsilini 2006-2017-ci illərdə Masallı şəhər 2 saylı tam orta məktəbdə alıb. 2019-cu ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk saatlarından ön xətdə olub, düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq qəhrəmancasına vuruşub. Tərtər-Ağdərə cəbhəsində döyüşən cəsur əsgər Suqovuşanın azad olunması uğrundakı həlledici savaşlarda hünərlə iştirak edərək rəşadət göstərib, bu qanlı savaşlarda qorxmazlığı və mətinliyi ilə seçilib. Oktyabrın 5-də Ağdərə istiqamətində gedən şiddətli döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Nəşi oktyabrın 22-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Masallı şəhərində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## HAXVERDİYEV
## Novruz Əli oğlu
### (25.03.1996 – 02.10.2020)

Daşkəsən rayonunun Alunitdağ qəsəbəsində anadan olub. 2014-cü ildə Alunitdağ qəsəbəsindəki tam orta məktəbi bitirib. 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, döyüş bölgəsində – Beyləqanda xidmət edib. Tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2016-cı ildən MAHHXHQ kimi davam etdirib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən Murovdağ cəbhəsində düşmənlə ölüm-dirim savaşına atılıb. İgid kəşfiyyatçı-əsgər Təkə qaya, Ağ dağ mövqelərində rəşadətlə döyüşüb, şücaət göstərib. Oktyabrın 2-də Murovdağ istiqamətində gedən qanlı döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhadətə qovuşub. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi 2021-ci il yanvarın 19-da müəyyən edilərək ailəsinə təhvil verilib. Gəncə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Vətən uğrunda" medalı (2021).*



## HAQVERDİYEV
## Ayhan Akif oğlu
### (28.03.2002 – 30.09.2020)

Bakıda anadan olub. 2017-ci ildə Binəqədi rayonu ərazisində yerləşən Cəbrayıl rayonu Sirik kənd orta məktəbinin IX sinfini bitirib. 2020-ci ilin aprelində Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Cəbhə bölgəsində – Ağcabədidə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, düşmənlə ölüm-dirim çarpışmasının getdiyi Füzuli cəbhəsindəki ağır döyüşlərdə misilsiz rəşadət göstərib. Füzulinin Alxanlı və Qaraxanbəyli kəndləri istiqamətində düşmən mövqelərinin yarılmasında şücaəti ilə seçilib. Sentyabrın 27-də Qaraxanbəyli istiqamətində Üçtəpə deyilən ərazidəki qızğın döyüşlərdə ağır yaralanaraq koma vəziyyətinə düşüb. Hospitala çatdırılsa da, həkimlərin səylərinə baxmayaraq, həyatını xilas etmək mümkün olmayıb. Sentyabrın 30-da şəhadətə yüksəlib. Binəqədi qəsəbə qəbiristanı ərazisində yerləşən Vətən müharibəsi Şəhidlərinin xiyaban-kompleksində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## HASSAN
## Xalid Mahmud oğlu
**(26.01.1995 – 04.11.2020)**

Sumqayıt şəhərində anadan olub. Misir vətəndaşı olan atasının işi ilə əlaqədar ailəsi Qazaxıstana köçüb. Orta təhsilini 2001-2012-ci illərdə Bərdədə çadır şəhərciyində yerləşən 2 saylı Ağdam rayon orta məktəbində, Almatı şəhərində və Ağdamın Bənövşələr qəsəbəsində yerləşən 2 saylı Ağdam rayon orta məktəbində alıb. 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Tovuzda xidmət edib. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra könüllü olaraq ordu sıralarına yazılıb. Həmin ilin sentyabrında Vətən müharibəsi başlayandan sonra cəbhəyə göndərilməsi üçün dəfələrlə müraciət edib. Oktyabrın 8-də səfərbərliyə alınaraq cəbhəyə göndərilib. Cəsur əsgərin döyüş yolu Tərtər-Ağdərə cəbhəsindən keçib, Suqovuşan, Talış və Ağdərə döyüşlərində misilsiz şücaət göstərib. Noyabrın 4-də Suqovuşan istiqamətindəki qanlı döyüşlərdə rəşadətlə vuruşaraq şəhid olub. Ağdamın Quzanlı qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## HAŞIMOV
## Fuad Ceyhun oğlu
**(01.09.1996 – 22.10.2020)**

Bakının Digah qəsəbəsində anadan olub. 2013-cü ildə Digah qəsəbə orta məktəbini bitirib. 2018-ci ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, xidmətdə olarkən XTQ kursunu keçib. Tərxis olunandan sonra - 2020-ci ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini XTQ-də davam etdirib. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsini xüsusi təyinatlı döyüşçü kimi Murovdağ cəbhəsində qarşılayıb, bu qanlı döyüşlərdə rəşadətlə vuruşub. Daha sonra Füzuli, Cəbrayıl və Xocavənd istiqamətindəki qızğın savaşlara atılaraq hünərlə döyüşüb. Hadrut uğrunda həlledici döyüşdə misilsiz şücaət göstərib. Oktyabrın 22-də Xocavəndin Tuğ kəndi ətrafındakı şiddətli döyüşdə ağır yaralansa da, döyüş meydanından çıxmayıb və qəhrəmancasına şəhid olub. Digah qəsəbəsində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021); "Füzulinin azad olunmasına görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## HAŞIMOV
## Tərzan Qəhrəman oğlu
**(13.04.1989 – 20.10.2020)**

Lerik rayonunun Bibiyani kəndində anadan olub. Orta təhsilini 1995-2006-cı illərdə Bibiyani və Hamarmeşə kənd orta məktəblərində alıb. 2007-2008-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2009-cu ildə yenidən ordu sıralarına qayıdıb və SQ TTM-də gizir hazırlığı kursu keçərək xidmətini davam etdirib. 2010-cu ildən XTQ kursu keçib, 2011-ci ildən XTQ sıralarında xidmətə başlayıb. Cəsur hərbçi 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib və yaralanıb. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini XTQ döyüşçüsü kimi səngərlərdə qarşılayıb. Cəbrayıl və Füzuli uğrunda döyüşlərdə misilsiz rəşadətlə vuruşub. Oktyabrın 19-da Füzuli cəhbəsində ağır yaralanıb, oktyabrın 20-də şəhidlik zirvəsinə yüksəlib. Bibiyani kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Azərbaycan Bayrağı" ordeni (2021).*



## HEYBƏTOV
## Ağa Əmi Elçin oğlu
**(06.06.1993 – 16.10.2020)**

Bakının Buzovna qəsəbəsində anadan olub. 2011-ci ildə Bakı şəhər 125 saylı orta məktəbi bitirib və Azərbaycan Dövlət İncəsənət Universitetinə qəbul olunub. 2015-ci ildə universiteti bitirib və Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2016-cı il Aprel döyüşlərində igidliklə iştirak edib, həmin ilin iyulunda hərbi xidmətini başa vurub. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra orduya yazılmaq üçün könüllü olaraq müraciət edib. Həmin ilin sentyabrında Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində yenidən ordu sıralarına çağırılıb və sentyabrın 29-da ön cəbhəyə yola salınıb. Rəşadətli əsgərin döyüş yolu Tərtər-Ağdərə cəbhəsindən keçib. Suqovuşan və Talış uğrunda döyüşlərdə misilsiz şücaət göstərib. Oktyabrın 16-da Tərtər cəbhəsindəki qanlı döyüşlərin birində hünərlə vuruşaraq şəhidlik məqamına ucalıb. Buzovna qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## HEYDƏRLİ
## Ayxan İlham oğlu
**(26.12.1996 – 05.10.2020)**

Beyləqan rayonunun Orta Əlinəzərli kəndində anadan olub. Orta təhsilini 2003-2014-cü illərdə Orta Əlinəzərli kənd 2 saylı orta məktəbində alıb. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Naxçıvanda xidmət edib. Tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini 2016-cı ildən etibarən MAHHXHQ kimi davam etdirib. Əvvəlcə Beyləqanda, sonra Ağcabədidə xidmət edib.





2020-ci il iyul Tovuz döyüşlərində hünərlə iştirak edib. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsini XTQ döyüşçüsü kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk günündən qızğın döyüşlərə atılaraq qəhrəmanlıq göstərib. Cəbrayıl və Füzuli istiqamətindəki həlledici döyüşlərdə rəşadətlə vuruşub. Oktyabrın 5-də Füzuli cəbhəsində gedən qanlı döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə yüksəlib. Beyləqan şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2021).*



## HEYDƏROV
## Adəm İkram oğlu
**(26.03.2000 – 13.10.2020)**

Qəbələ rayonunun Bum qəsəbəsində anadan olub. Orta təhsilini 2006-2017-ci illərdə Bum qəsəbə orta məktəbində alıb. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və sentyabrın 29-da cəbhəyə yollanıb. Savaşın ilk günlərindən düşmənlə ölüm-dirim çarpışmasının getdiyi Tərtər-Ağdərə cəbhəsi səngərlərində qanlı döyüşlərə atılıb, hünərlə vuruşub. Qəhrəman əsgər Ağdərə, Suqovuşan və Talış istiqamətlərindəki həlledici döyüşlərdə misilsiz rəşadət göstərib. Oktyabrın 13-də Ağdərə cəbhəsində gedən qızğın döyüşlərin birində şücaətlə vuruşaraq şəhadətə qovuşub. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 17-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Bum qəsəbəsində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## HEYDƏROV
## Amid Rəbbil oğlu
## (20.05.1988 – 03.10.2020)

Lerik şəhərində anadan olub. 2006-cı ildə Lerik şəhər inteqrasiya təlimli internat tipli gimnaziyanı bitirərək H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2010-cu ildə AAHM-i leytenant rütbəsində başa vuraraq zabit kimi xidmətə başlayıb. 2016-cı il Aprel döyüşlərində böyük hünər göstərib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin mayoru kimi zabit mundirində qarşılayıb, ilk gündən döyüş meydanlarında olub. Komandiri olduğu hərbi hissə Cəbrayıl və Füzulinin azadlığı uğrunda ən qaynar nöqtələrdə döyüşüb, Füzulidə düşmənin mövqelərini darmadağın edərək üç zolağı azad edib, düşmənin möhkəmləndirilmiş cəbhə xəttini ilk yaranlardan biri olub. Rəşadətli zabit oktyabrın 3-də Cəbrayıl cəbhəsində - rayonun Nüzgar kəndi ətrafında gedən qanlı döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhid olub. Lerik şəhərində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən Müharibəsi Qəhrəmanı" adı (2020); "Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## HEYDƏROV
## Anar Bəhruz oğlu
## (01.06.1988 – 01.10.2020)

Şamaxı şəhərində anadan olub. 2006-cı ildə Sumqayıt şəhər 10 saylı orta məktəbi bitirib, həmin il də H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2010-cu ildə AAHM-i leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kapitanı kimi zabit mundirində qarşılayıb,





ilk saatlardan ağır döyüşlərə atılaraq şücaətlə vuruşub. İgid zabit döyüşlərə Murovdağ yüksəklikləri istiqamətində başlayıb, bu qanlı savaşlarda böyük qəhrəmanlıq göstərib. Daha sonra Tərtər-Ağdərə cəbhəsində döyüşüb. Oktyabrın 1-də Suqovuşan uğrundakı şiddətli döyüşlər zamanı misilsiz rəşadətlə vuruşaraq şəhidlik zirvəsinə ucalıb. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 30-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Vətən uğrunda" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## HEYDƏROV
## Ehtiram Şahin oğlu
## (05.03.2000 – 04.10.2020)

Xaçmaz rayonunun Uzunoba kəndində anadan olub. Orta təhsilini 2006-2017-ci illərdə Uzunoba kənd orta məktəbində alıb. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə xəttində - Ağdamda xidmət edib. Tərxis ediləndən az sonra yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini 2019-cu ildən etibarən MAHHXHQ kimi davam etdirib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah döyüş meydanlarında qarşılayıb, ilk gündən ön cəbhədə olub, misilsiz rəşadətlə vuruşub. Cəsur əsgərin döyüş yolu Tərtər-Ağdərə cəbhəsi səngərlərindən keçib. Çaylı, Talış və Suqovuşan uğrundakı döyüşlərdə şücaət göstərib, öz qorxmazlığı və mətinliyi ilə xüsusi seçilib. Oktyabrın 4-də Talış-Ağdərə istiqamətində gedən qanlı döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Nəşi oktyabrın 15-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Uzunoba kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## HEYDƏROV
## Əli Vaqif oğlu
**(09.02.2002 – 30.09.2020)**

Naxçıvan MR Sədərək rayonunda anadan olub. Orta təhsilini 2008-2019-cu illərdə Bakı şəhəri 135 saylı orta məktəbdə alıb. 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Cəbhə bölgəsində – Beyləqanda xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin əsgəri kimi əldə silah ön xətdə, səngərlərdə qarşılayıb, müharibənin ilk günündən savaş meydanlarında olub, düşmənlə ölüm-dirim çarpışmasına atılaraq misilsiz şücaətlə vuruşub. Qəhrəman əsgərin döyüş yolu Füzuli cəbhəsindən keçib, qatıldığı həlledici vuruşmalarda qorxmazlığı və mətinliyi ilə xüsusi seçilib. Sentyabrın 29-da Füzuli cəbhəsində gedən qanlı döyüşlərin birində igidliklə vuruşub və bu savaşda ağır yaralanıb. Göstərilən bütün səylərə baxmayaraq, həyatını xilas etmək mümkün olmayıb. Sentyabrın 30-da şəhidlik məqamına yüksəlib. Bakının Pirşağı qəsəbəsindəki "Şuşa qəbristanı"nda şəhidlər üçün ayrılmış guşədə dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## HEYDƏROV
## Qadir Ədalət oğlu
**(11.05.1998 – 29.10.2020)**

Cəlilabad rayonunun Əsədli kəndində anadan olub. Orta təhsilini Bakı şəhəri 59 saylı və Bakı şəhəri Mehdiabad qəsəbəsindəki 1 saylı orta məktəblərdə alıb. 2016-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Cəbhə zonasında – Goranboy və Tərtərdə xidmət edib. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. İlk günlərdən döyüş meydanlarında olub, hünərlə vuruşub. İgid əsgər cəbhənin Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı istiqamətlərində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında şücaətlə iştirak edib, bu döyüşlərdə misilsiz rəşadət göstərib. Son döyüşü oktyabrın 29-da olub. Həmin gün Qubadlı cəbhəsindəki şiddətli döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhid olub. Bakının Mehdiabad qəsəbəsində dəfn edilib. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*







## HEYDƏROV
## Qismət İsmayıl oğlu
**(20.07.2002 – 03.10.2020)**

Goranboy rayonunun Erkeç kəndində anadan olub. Əslən Kəlbəcər rayonunun Qanlıkənd kəndindən idi. Orta təhsilini 2008-2019-cu illərdə Erkeç kənd orta məktəbində və Goranboyun Qaraçinar kəndində yerləşən Kəlbəcər rayon 63 saylı orta məktəbdə alıb. 2020-ci ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə zonasında – Beyləqanda xidmət edirdi. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah ön xətdə, səngərlərdə qarşılayıb. Cəsur əsgər müharibənin ilk günündən düşmənə qarşı ölüm-dirim savaşının getdiyi Füzuli cəbhəsində qəhrəmancasına döyüşüb. Qatıldığı həlledici döyüşlərdə böyük şücaət göstərib, qorxmazlığı və mətinliyi ilə xüsusi seçilib. Oktyabrın 3-də Füzulinin azad olunması uğrunda gedən qanlı döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhidlik zirvəsinə ucalıb. Goranboy rayonunun Yolqullar kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "İgidliyə görə" medalı (2021).*



## HEYDƏROV
## Rafiq Rahim oğlu
**(01.07.1995 - 14.10.2020)**

Bakıda anadan olub. 2012-ci ildə Bakı şəhəri 157 saylı orta məktəbi bitirərək Azərbaycan Dövlət Memarlıq və İnşaat Universitetinə daxil olub. 2016-cı ildə universiteti bitirib və elə həmin ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2017-ci ildə ordudan tərxis olunandan sonra magistr təhsilini davam etdirib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Savaşın ilk günlərindən qanlı döyüşlərə atılan qəhrəman əsgər cəbhənin Füzuli, Xocavənd və Cəbrayıl istiqamətlərində həyata keçirilmiş əks-hücum əməliyyatlarında şücaətlə iştirak edib, şəxsi igidlik göstərib. Oktyabrın 14-də Xocavənd cəbhəsində, Hadrut-Tuğ istiqamətində gedən şiddətli döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. II Fəxri xiyabanda dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## HEYDƏROV
## Sabir Ceyhun oğlu
**(27.06.1998 - 02.10.2020)**

Şamaxı rayonunun Şərədil kəndində anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Şamaxı şəhər 2 saylı orta məktəbdə alıb. 2016-cı ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə zonasında - Tərtərdə xidmət edib. Hərbi xidməti dövründə XTQ sıralarına keçirilib. Burada gizir hazırlığı kursu keçib və 2018-ci ildə xidməti başa çatandan sonra da XTQ sıralarında qalaraq xidmətini davam etdirib. 2020-ci





ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kiçik giziri kimi əldə silah döyüş meydanlarında qarşılayıb. Əvvəlcə Murovdağ döyüşlərində hünər göstərib. Daha sonra Cəbrayıl və Füzuli cəbhələrindəki döyüşlərdə igidliklə iştirak edib. Oktyabrın 2-də Füzuli cəbhəsində gedən qanlı döyüşlərdə misilsiz şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Şamaxı şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Azərbaycan Bayrağı" ordeni (2021).*



## HEYDƏROV
## Vasif Nazim oğlu
**(05.01.1997 - 27.09.2020)**

Tovuz rayonunun Aran Yanıqlı kəndində anadan olub. 2003-2012-ci illərdə Aran kənd 2 saylı orta məktəbdə, 2012-2015-ci illərdə C.Naxçıvanski adına Hərbi Liseydə təhsil alıb. 2015-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2019-cu ildə AAHM-i leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayanda Azərbaycan Silahlı Qüvvələrinin leytenantı kimi zabit mundirində şiddətli döyüşlərə atılıb. İlk gündən ön xətdə olub, düşmənlə ölüm-dirim savaşında misilsiz şücaət göstərib. Qəhrəman zabit Füzuli cəbhəsindəki qanlı döyüşlərdə yaralansa da, savaş meydanından geri çəkilməyərək son nəfəsinə qədər rəşadətlə vuruşub. Sentyabrın 27-də Füzuli uğrundakı qızğın döyüşlərdə igidliklə vuruşaraq şəhadətə ucalıb. Nəşi oktyabrın 30-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Aran Yanıqlı kəndində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "İgidliyə görə" medalı (2021); 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2021).*



## HƏBİBİ
## Fizuli Nizami oğlu
### (08.03.1995 - 06.11.2020)

Cəlilabad şəhərində anadan olub. Orta təhsilini 2001-2012-ci illərdə Cəlilabad şəhər 8 saylı məktəb-liseydə alıb. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, DİN Daxili Qoşunlarında xidmət edib. 2016-cı il Aprel döyüşləri zamanı cəbhəyə getmək üçün könüllü müraciət edərək qeydiyyatdan keçib. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra da ordu sıralarına yazılmaq üçün könüllü müraciət edib. Həmin ilin sentyabrında Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində orduya çağırılıb. Sentyabrın 29-dan savaş meydanlarında olub, qatıldığı həlledici döyüşlərdə böyük qəhrəmanlıq nümunəsi göstərib. Füzuli, Cəbrayıl və Qubadlı uğrunda gedən şiddətli döyüşlərdə igidliklə iştirak edib. İgid əsgərin son döyüşü noyabrın 6-da olub. Həmin gün Şuşa uğrundakı qanlı döyüşlərdə misilsiz rəşadətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Cəlilabad şəhərində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## HƏBİBİ
## Şəhriyar Vidadi oğlu
### (19.01.1993 - 28.10.2020)

Lənkəran rayonunun Osakücə kəndində anadan olub. 2010-cu ildə Osakücə kənd orta məktəbini bitirərək Bakı Dövlət Universitetinə daxil olub. 2015-ci ildə universiteti bitirib və elə həmin il də Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə zonasında - Tərtərdə xidmət edib. 2016-cı il Aprel döyüşlərində bir əsgər kimi hünər göstərib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Savaşın ilk günlərindən düşmənlə ölüm-dirim çarpışmasına atılan cəsur əsgərin döyüş yolu Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlı cəbhələrindən keçib, qatıldığı döyüşlərdə misilsiz rəşadət göstərib. Oktyabrın 28-də Cəbrayıl-Qubadlı istiqamətində gedən qızğın döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhid olub. Osakücə kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*







## HƏBİBOV
## Murad Asəf oğlu
### (15.05.2001 - 03.10.2020)

Quba şəhərində anadan olub. Orta təhsilini 2008-2019-cu illərdə Quba şəhər 6 saylı tam orta məktəbdə alıb. 2019-cu ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Cəbhə bölgəsində - Tərtərdə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin əsgəri kimi əldə silah Tərtər-Ağdərə cəbhəsi səngərlərində qarşılayıb, müharibənin ilk saatlarından ön xətdə, döyüş meydanlarında olub, igidliklə vuruşub. Rəşadətli əsgər cəbhənin Suqovuşan, Talış və Ağdərə istiqamətlərindəki həlledici döyüşlərdə hünərlə iştirak edərək böyük qəhrəmanlıq nümunəsi göstərib, öz mətinliyi və qorxmazlığı ilə xüsusi fərqlənib. Oktyabrın 3-də Ağdərənin azad olunması uğrunda gedən şiddətli döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Quba şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## HƏBİBOV
## Seymur Feyruz oğlu
### (13.02.1986 - 01.10.2020)

Şəmkir rayonunun Əliyaqublu kəndində anadan olub. 2001-ci ildə Şəmkir şəhər C.Rüstəmov adına orta məktəbin IX sinfini bitirib. 2004-2005-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində - Tərtərdə xidmət edib. 2014-cü ildə ordu sıralarına qayıdaraq xidmətini 2017-ci ilədək MAHHXHQ kimi davam etdirib. 2020-ci ilin avqustunda yenidən ordu sıralarına qayıdıb və MAHHXHQ kimi xidmətə başlayıb. Bir aydan sonra başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu kimi əldə silah döyüş meydanlarında qarşılayıb, ilk saatlardan düşmənə qarşı amansız savaşa atılaraq misilsiz rəşadətlə döyüşüb. Qəhrəman əsgər cəbhənin Murovdağ yüksəklikləri istiqamətində gedən qanlı döyüşlərdə şücaətlə iştirak edib, bu həlledici vuruşmalarda igidliyi və cəsurluğu ilə seçilib. Oktyabrın 1-də Kəlbəcər uğrundakı ağır döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Şəmkir şəhərində dəfn olunub. Ailəli olub, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020).*



## HƏMƏŞƏYEV
## Qismət Oruc oğlu
### (03.11.1988 - 26.10.2020)

Rusiya Federasiyasının Rostov vilayətində anadan olub. Orta təhsilini 1995-2006-cı illərdə Qazax rayon Xanlıqlar kənd orta məktəbində alıb. 2007-ci ildə Gəncə Dövlət Universitetinə daxil olub. 2011-ci ildə universiteti bitirib, elə həmin il də Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2013-cü ilə qədər leytenant rütbəsində hərbi xidmət keçib. 2020-ci il





sentyabrın 21-də ehtiyatda olan zabit - Silahlı Qüvvələrin leytenantı kimi yenidən ordu sıralarına çağırılıb və hərbi təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsinin ilk günündən Füzuli cəbhəsindəki döyüş meydanlarında olub, qəhrəmancasına vuruşub. Döyüşlərdə böyük şücaət göstərən rəşadətli zabitin son savaşı oktyabrın 26-da olub. Həmin gün Füzuli cəbhəsində gedən qanlı döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Qazax rayonunun Xanlıqlar kəndində dəfn edilib. Ailəli idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## HƏMİDLİ
## Cavanşir Namik oğlu
### (20.10.1997 - 07.10.2020)

Lerik rayonunun Çayrud kəndində anadan olub. 2015-ci ildə Çayrud kənd orta məktəbini, 2019-cu ildə isə Lənkəran Dövlət Universitetini bitirib. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, müharibənin ilk günündən düşmənlə ölüm-dirim savaşına atılaraq igidliklə vuruşub. Döyüşlərə Tərtər-Ağdərə cəbhəsində başlayan cəsur əsgər Talış və Suqovuşan uğrundakı qanlı savaşlarda hünərlə iştirak edib, cəsarəti və mətinliyi ilə seçilib. Döyüş yolu daha sonra Füzuli və Cəbrayıl cəbhələri səngərlərindən keçib, Cəbrayıl, Füzuli və Hadrut uğrundakı həlledici vuruşmalarda qəhrəmanlıq nümunəsi göstərib. Oktyabrın 7-də Füzuli-Hadrut istiqamətində gedən ağır döyüşlərin birində misilsiz rəşadətlə savaşaraq şəhid olub. Doğulduğu Çayrud kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## HƏMİDOV
## Elşən Məzahir oğlu
(28.08.1979 – 08.11.2020)

Füzuli rayonunun Əhmədalılar kəndində anadan olub. Orta təhsilini 1986-1996-cı illərdə Əhmədalılar kənd orta məktəbində alıb. 1997-1999-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2002-ci ildən etibarən 18 il ərzində Azərbaycan Respublikası Minatəmizləmə Agentliyində tədqiqatçı minaaxtaran kimi xidmət edib. 2020-ci ilin avqustunda yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirib. Cəbhə xəttində - Füzulidə xidmət edirdi. Bir aydan sonra başlayan Vətən müharibəsini də bir əsgər kimi əldə silah Füzuli cəbhəsi səngərlərində qarşılayıb, savaşın ilk saatlarından etibarən qızğın döyüşlərə atılıb. Cəbrayılın, Füzulinin, Qubadlının və Xocavəndin azad olunması uğrunda gedən həlledici döyüşlərdə misilsiz rəşadətlə döyüşüb. Noyabrın 8-də Xocavənd cəbhəsindəki qızğın döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhadətə yüksəlib. Əhmədalılar kəndində dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## HƏMİDOV
## Əmrah Firavan oğlu
(12.01.1997 – 05.10.2020)

Salyan rayonunun Kürsəngi kəndində anadan olub. 2014-cü ildə Kürsəngi kənd orta məktəbini bitirib. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və XTQ sıralarında xidmətə başlayıb. 2018-ci ilin aprelində XTQ kurslarını bitirib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kiçik giziri kimi əldə silah





döyüş meydanlarında qarşılayıb, ilk saatlardan düşmənlə amansız savaşa atılaraq misilsiz rəşadətlə vuruşub. Qəhrəman xüsusi təyinatlı döyüşçü Murovdağ yüksəklikləri uğrunda gedən qanlı savaşda şəxsi igidlik və hünər göstərib. Müharibənin elə ilk günü - sentyabrın 27-də Murovdağ uğrundakı şiddətli döyüşlərdə ağır yaralanıb. Həkimlərin səylərinə baxmayaraq, oktyabrın 5-də şəhadətə qovuşub. Kürsəngi kəndində dəfn edilib. Ailəli idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Azərbaycan Bayrağı" ordeni (2021).*



## HƏMİDOV
## İzzət Rövşən oğlu
(28.02.2000 – 09.10.2020)

Sumqayıt şəhərində anadan olub. Orta təhsilini 2006-2017-ci illərdə Sumqayıt şəhər 26 saylı tam orta məktəbdə alıb. 2019-cu ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Cəbhə bölgəsində - Ağcabədidə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin əsgəri kimi əldə silah ön xətdə, səngərlərdə qarşılayıb, müharibənin ilk günündən qanlı savaş meydanlarına atılaraq hünərlə vuruşub, iştirak etdiyi həlledici döyüşlərdə böyük rəşadət göstərib, öz cəsurluğu və qorxmazlığı ilə xüsusi seçilib. Qəhrəman əsgər cəbhənin Füzuli istiqamətində vuruşub, son döyüşü də elə bu cəbhədə olub. Oktyabrın 9-da Füzuli rayonunun Qaraxanbəyli kəndi ətrafında gedən qızğın döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə ucalıb. Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Azərbaycan Bayrağı" ordeni (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## HƏMİDOV
## Mixail Hamletoviç
(18.12.1983 – 23.10.2020)

Almaniyanın Potsdam şəhərində anadan olub. Orta təhsilini 1991-2001-ci illərdə Bakı şəhəri 278 saylı orta məktəbdə və Bakı şəhəri 72 saylı məktəb-liseydə alıb. 2001-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub, 2005-ci ildə AAHM-i leytenant rütbəsində bitirib. 2005-2006-cı illərdə SQ Təlim-Tədris Mərkəzində xüsusi təyinatlı kəşfiyyat komandiri kursu keçərək zabit kimi xidmətə başlayıb. 2009-cu ildə baş leytenant rütbəsində ehtiyata buraxılıb. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan zabit kimi yenidən ordu sıralarına çağırılıb. Oktyabrın əvvəllərində döyüşlərə qatılan rəşadətli kəşfiyyatçı-zabit Füzuli uğrundakı qızğın döyüşlərdə şəxsi igidlik və şücaət göstərib. Oktyabrın 23-də Füzuli cəbhəsindəki qanlı döyüşlərin birində hünərlə vuruşaraq şəhidlik məqamına yüksəlib. II Fəxri xiyabanda dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "İgidliyə görə" medalı (2021).*



## HƏMİDOV
## Pərvin Azər oğlu
(08.03.1994 – 01.10.2020)

Yevlax rayonunun Bəydili kəndində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Yevlax rayonunun Aşağı Bucaq kənd orta və Mingəçevirdə yerləşən 25 saylı Kəlbəcər rayon orta məktəblərində alıb. 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci ilin yanvarında yenidən ordu sıralarına qayıdaraq xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Cəbhə bölgəsində – Tərtərdə xidmət edirdi. 2020-ci ilin sentyabrında





başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb, qanlı döyüşlərə atılaraq rəşadətlə vuruşub. Cəsur əsgərin döyüş yolu Murovdağ və Tərtər-Ağdərə cəbhələrindən keçib, Suqovuşanda qəhrəmanlıq göstərib. Oktyabrın 1-də Talış kəndi uğrundakı şiddətli döyüşlərdə igidliklə vuruşaraq şəhadətə qovuşub. Mingəçevir şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## HƏMİDOV
## Rəhim Ehdiram oğlu
(09.02.1997 – 12.10.2020)

Göyçay rayonunun Qaraxıdır kəndində anadan olub, ailəsi sonradan rayonun Mırtı kəndinə köçüb. 2012-ci ildə Mırtı kənd orta məktəbinin IX sinfini bitirərək İsmayıllı Dövlət Humanitar və Texnologiya Kollecinə daxil olub. Kolleci bitirməmiş 2015-ci ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, 2016-cı ildə tərxis olunub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Savaşın ilk günlərindən düşmənlə amansız mübarizəyə atılaraq qəhrəmancasına vuruşub. Cəsur əsgər Füzuli döyüşlərində böyük şücaət göstərib. Oktyabrın 12-də Füzuli cəbhəsində gedən şiddətli döyüşlərdə misilsiz rəşadətlə savaşaraq şəhid olub. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 29-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Mırtı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## HƏMİDOV
## Rəsman Mərdan oğlu
(01.07.1998 – 10.10.2020)

Şamaxı rayonunun Adnalı kəndində anadan olub. 2012-ci ildə Bakı şəhəri 320 saylı məktəbin IX sinfini bitirərək C.Naxçıvanski adına Hərbi Liseyə daxil olub. 2015-2019-cu illərdə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində ali hərbi təhsil alıb. 2019-cu ildə AAHM-i leytenant rütbəsində başa vuraraq zabit kimi xidmətə başlayıb. Cəbhə zonasında - Beyləqanda xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin leytenantı kimi zabit mundirində qarşılayıb, ilk gündən döyüş meydanlarında olub, hünərlə vuruşub. İgid zabit Cəbrayıl, Füzuli və Xocavənd uğrunda qızğın döyüşlərdə misilsiz rəşadət göstərib, Hadrut uğrundakı döyüşlərdə şücaəti ilə seçilib. Oktyabrın 10-da Hadrut ətrafındakı həlledici döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhadətə yüksəlib. Nəşi noyabrın 17-də müəyyən edilərək ailəsinə təhvil verilib. Şamaxı rayonunun Adnalı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## HƏMİDOV
## Rəşid Pərviz oğlu
(19.09.1999 – 07.10.2020)

Siyəzən şəhərində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Bakı şəhəri Pirşağı qəsəbəsində sanatoriya tipli 10 saylı internat məktəbində alıb. 2017-2019-cu illərdə Bakı Dövlət Peşə Təhsil Mərkəzində təhsilini davam etdirib. 2019-cu ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə bölgəsində - Tərtərdə xidmət edirdi. 2020-ci il iyul Tovuz





döyüşlərində igidliklə iştirak edib. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah savaş meydanlarında qarşılayaraq hünərlə vuruşub. Murovdağ, Suqovuşan, Füzuli, Laçın istiqamətlərindəki qızğın döyüşlərdə iştirak edərək şəxsi igidlik nümunəsi göstərib. Qəhrəman əsgərin son döyüşü oktyabrın 7-də olub. Həmin gün Tərtər-Ağdərə cəbhəsində, Talış kəndi ətrafında gedən qanlı döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə ucalıb. Siyəzən şəhərində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## HƏMİDOV
## Şükür Nəriman oğlu
(01.04.1975 – 22.10.2020)

Qubadlı rayonunun Armudlu kəndində anadan olub. Orta təhsilini 1982-1990-cı illərdə Qubadlı rayonu Başarat kənd orta məktəbində alıb. 1990-1993-cü illərdə C.Naxçıvanski adına Hərbi Liseydə, 1993-1995-ci illərdə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində oxuyub. 2006-2008-ci illərdə SQ Hərbi Akademiyasının müdavimi olub. 1995-ci ildən zabit kimi xidmət edib. 2016-cı il Aprel döyüşlərində hərbi hissə komandiri kimi iştirak edib. Bu döyüşdəki şücaətinə görə həmin il Milli Qəhrəman fəxri adı və vaxtından əvvəl polkovnik rütbəsi alıb. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsi zamanı 2-ci Ordu Korpusu komandirinin müavini kimi cənub istiqamətindəki döyüşləri idarə edən zabitlərdən biri olub. Rəşadətli zabit oktyabrın 22-də Qubadlı cəbhəsindəki qanlı döyüşlərin birində qəhrəmancasına şəhid olub. II Fəxri xiyabanda dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Zəfər" ordeni (2020); "Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020).*



## HƏMİDOV
## Vasif Natiq oğlu
### (04.06.1987 – 26.10.2020)

Şəki şəhərində anadan olub. 2002-ci ildə Şəki şəhər 19 saylı orta məktəbin IX sinfini bitirib. 2005-2006-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına yazılmaq üçün könüllü olaraq müraciət edib. Həmin ilin sentyabrında Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi ordu sıralarına çağırılıb. Sentyabrın 30-da cəbhəyə yollanaraq qızğın döyüşlərə atılıb, rəşadətlə vuruşub. Tərtər-Ağdərə cəbhəsindəki döyüşlərdə hünərlə iştirak edən cəsur əsgər Suqovuşan uğrunda gedən qanlı savaşda misilsiz qəhrəmanlıq və hünər göstərib. Oktyabrın 20-də Tərtər-Ağdərə cəbhəsindəki şiddətli döyüşlərin birində ağır yaralanıb. Hospitala çatdırılsa da, həkimlərin səylərinə baxmayaraq, oktyabrın 26-da şəhadətə qovuşub. Şəki şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## HƏMİDZADƏ
## Hüseyn Akif oğlu
### (15.10.1995 – 25.10.2020)

Bakıda anadan olub. 2013-cü ildə Xırdalan şəhər 1 saylı orta məktəbi bitirib. 2014-2018-ci illərdə Azərbaycan Kooperasiya Universitetində ali təhsil alıb. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə xəttində – Murovda xidmət edib. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayandan sonra – oktyabrın 1-də könüllü olaraq orduya yazılmaq üçün müraciət edib. Oktyabrın 9-da ordu sıralarına çağırılaraq öncə təlimə, sonra cəbhəyə göndərilib. İgid əsgərin döyüş yolu Füzuli cəbhəsində başlayıb. Daha sonra Cəbrayıl cəbhəsindəki qızğın döyüşlərdə misilsiz rəşadətlə vuruşub, böyük qəhrəmanlıq və şücaət göstərib. Oktyabrın 25-də Xocavənd uğrunda gedən həlledici döyüşlərin birində hünərlə savaşaraq şəhidlik məqamına yüksəlib. Nəşi noyabrın 2-də ailəsinə təhvil verilib. Şəki rayonunun Oxud kəndində dəfn edilib. Subay idi.





**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021).*



## HƏMİZƏYEV
## Şəhriyar Elman oğlu
### (01.03.2001 – 29.10.2020)

Yevlax şəhərində anadan olub, Kəlbəcər rayonundan məcburi köçkün idi. Orta təhsilini əvvəlcə Gəncədə yerləşən 7 saylı Kəlbəcər tam orta məktəbində, daha sonra Şamaxı rayonunun Meysəri kənd orta məktəbində alıb, 2016-cı ildə bu məktəbin IX sinfini bitirib. 2019-cu ilin aprelində Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə bölgəsində – Ağcabədidə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk günündən döyüş meydanlarında olub, düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq qəhrəmancasına vuruşub. Füzulinin azad olunması uğrundakı həlledici döyüşlərdə böyük şücaət göstərib, igidliyi və qorxmazlığı ilə seçilib. Cəsur əsgərin son döyüşü oktyabrın 29-da olub. Həmin gün Xocavənd uğrunda gedən qanlı döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Göygöl rayonunun Murovdağ qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## HƏMZƏYEV
## Arif Muradcan oğlu
(19.06.2001 – 19.10.2020)

Samux rayonunun Çobanabdallı kəndində anadan olub. 2018-ci ildə Samux rayon Lək kənd orta məktəbini bitirib. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən ön xətdə, savaş meydanlarında olub, ağır döyüşlərdə cəsurluq və qorxmazlıq göstərib. İgid əsgər döyüşlərə cəbhənin Füzuli və Cəbrayıl istiqamətlərində həyata keçirilən əks-hücum əməliyyatları ilə başlayıb, bu həlledici savaşlarda misilsiz rəşadətlə vuruşub. Daha sonra Qubadlı uğrunda gedən qızğın savaşlarda hünərlə iştirak edib. Son döyüşü də burada olub. Oktyabrın 19-da Qubadlı cəbhəsindəki şiddətli döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhadətə yüksəlib. Nəşi noyabrın 5-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Samuxun Lək kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## HƏMZƏYEV
## Mərhəmət Rizvan oğlu
(24.02.1997 – 27.09.2020)

Naxçıvan MR Şahbuz rayonunun Keçili kəndində anadan olub. 2012-ci ildə Keçili kənd orta məktəbinin IX sinfini bitirərək təhsilini H.Əliyev adına Hərbi Liseydə davam etdirib. 2015-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub, 2019-cu ildə AAHM-i leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. Şəmkirdə xidmət edirdi. 2020-ci il iyul Tovuz döyüşlərində





iştirak edərək böyük igidlik göstərib. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin leytenantı kimi zabit mundirində qarşılayıb. Murovdağ cəbhəsində gedən qanlı savaşlarda rəşadətlə döyüşüb. Qəhrəman zabit müharibənin elə ilk günü - sentyabrın 27-də Murovdağ yüksəklikləri uğrundakı şiddətli döyüşlərdə misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə ucalıb. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 22-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Keçili kəndində dəfn edilib. Nişanlı idi.

**Təltifləri:** *"Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Vətən uğrunda" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## HƏMZƏYEV
## Musa Xalid oğlu
(20.06.2001 – 06.10.2020)

Sabran rayonunun Rəhimli kəndində anadan olub. 2016-cı ildə Rəhimli kənd orta məktəbinin IX sinfini bitirib. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Təmas xəttində - Füzulidə xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, misilsiz igidliklə vuruşub. Döyüşlərə düşmənlə ölüm-dirim savaşının getdiyi Füzuli cəbhəsində başlayıb, Cəbrayıl və Xocavənd uğrundakı döyüşlərdə şücaət göstərib. Rəşadətli əsgərin son döyüşü oktyabrın 6-da olub. Həmin gün cəbhənin Füzuli-Xocavənd istiqamətində gedən qanlı döyüşlərin birində hünərlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 1-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Rəhimli kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2021).*



## HƏMZƏYEV
## Novruz Bəkir oğlu
**(21.03.1992 – 07.11.2020)**

İsmayıllı rayonunun İsmayıllı kəndində anadan olub. Orta təhsilini 1998-2009-cu illərdə İsmayıllı şəhər 6 saylı orta məktəbdə və İsmayıllı Peşə Məktəbində alıb. 2010-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıtmağa qərar verib və 2013-cü ildə SQ Təlim-Tədris Mərkəzində gizir hazırlığı kursunu bitirərək xidmətə başlayıb. 2016-cı il Aprel döyüşlərində cəsur bir döyüşçü kimi hünərlə iştirak edib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin giziri kimi mundirdə qarşılayıb, ilk gündən qanlı döyüşlərə atılaraq rəşadətlə vuruşub. Cəsur hərbçinin döyüş yolu Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan, Qubadlı, Şuşa cəbhələrindən keçib, bu savaşlarda qəhrəmanlıq göstərib. Noyabrın 7-də Şuşa döyüşləri zamanı misilsiz igidliklə vuruşaraq şəhadətə qovuşub. İsmayıllı şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## HƏMZƏYEV
## Turac Suliddin oğlu
**(27.08.1998 – 14.10.2020)**

Qusar rayonunun Hiloba kəndində anadan olub. 2013-cü ildə Hiloba kənd orta məktəbinin IX sinfini bitirib. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Beyləqanda xidmət edib. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılaraq hərbi təlimlərə cəlb edilib. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir





əsgər kimi əldə silah döyüş meydanlarında qarşılayıb. Döyüşlərə Cəbrayıl cəbhəsində başlayıb, bu qanlı savaşlarda şəxsi igidlik və qəhrəmanlıq nümunəsi göstərib. Daha sonra Füzuli cəbhəsində vuruşub, bu döyüşlərdə də hünərlə iştirak edib. Cəsur əsgərin son savaşı oktyabrın 14-də olub. Həmin gün Füzuli rayonunun Musabəyli kəndi uğrunda gedən şiddətli döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Doğulub boya-başa çatdığı Hiloba kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## HƏSƏNQULİYEV
## Nicat Aydın oğlu
**(09.12.1989 – 25.10.2020)**

Ağdam rayonunun İsmayılbəyli kəndində anadan olub, ailəsi 1993-cü ildə İsmayıllı rayonunda məskunlaşıb. 2007-ci ildə İsmayıllı şəhər 3 saylı orta məktəbi bitirib. 2008-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Cəbhə zonasında – Beyləqanda xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kiçik çavuşu kimi əldə silah səngərlərdə qarşılayıb, qanlı döyüşlərin getdiyi Füzuli cəbhəsində misilsiz şücaətlə vuruşub. Cəbrayıl, Zəngilan, Qubadlı, Xocavənd, Hadrut istiqamətlərindəki ağır döyüşlərdə rəşadət göstərib. İgid hərbçi oktyabrın 25-də Füzuli cəbhəsindəki qızğın döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhadətə yüksəlib. İsmayıllı şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## HƏSƏNQULİYEV
## Səbuhi Əlixan oğlu
**(11.04.2002 – 08.11.2020)**

Ucar rayonunun Boyat kəndində anadan olub. 2017-ci ildə Sumqayıt şəhərində yerləşən Cəbrayıl rayon 5 saylı orta məktəbin IX sinfini, 2020-ci ildə Sumqayıt şəhər 10 saylı Peşə Liseyini bitirib. 2020-ci ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. İki aydan sonra başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk saatlarından etibarən düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq misilsiz rəşadətlə döyüşüb. Müharibənin ilk günlərindən XTQ sıralarına keçirilən qəhrəman əsgərin döyüş yolu Füzuli, Xocavənd, Cəbrayıl və Zəngilan cəbhələrindən keçərək Şuşa savaşına qədər uzanıb, bu həlledici vuruşmalarda böyük şücaət və şəxsi igidlik göstərib. Noyabrın 8-də Şuşa uğrunda gedən qanlı döyüşlərdə şücaətlə vuruşaraq şəhidlik zirvəsinə ucalıb. Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021).*



## HƏSƏNLİ
## Alı Nofəl oğlu
**(22.06.1995 – 21.10.2020)**

Bakıda anadan olub. Orta təhsilini 2001-2012-ci illərdə Bakı şəhəri 220 saylı məktəb-liseydə alıb. 2016-cı ildə Azərbaycan Dövlət Neft və Sənaye Universitetini bitirib. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Beyləqanda xidmət edib. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılaraq təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan





Vətən müharibəsini bir əsgər kimi əldə silah savaş meydanlarında qarşılayıb, ilk gündən ön cəbhədə olub, misilsiz qəhrəmanlıqla vuruşub. Rəşadətli əsgər cəbhənin Füzuli və Cəbrayıl istiqamətlərində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında igidliklə iştirak edib, bu ağır döyüşlərdə cəsurluğu ilə xüsusi fərqlənib. Oktyabrın 21-də Füzuli rayonunun Ələsgərli kəndi uğrundakı qanlı döyüşlərdə hünərlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Bakının Nizami rayonundakı Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## HƏSƏNLİ
## Amid İsaq oğlu
**(21.01.1996 – 29.10.2020)**

Saatlı rayonunun Dədə Qorqud kəndində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Dədə Qorqud kənd orta məktəbində alıb. 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılaraq təlimlərə cəlb olunub. Bir həftədən sonra Vətən müharibəsi başlayanda savaşın ilk saatlarından şiddətli döyüşlərə atılaraq rəşadətlə vuruşub. Əvvəlcə cəbhənin Zəngilan və Qubadlı istiqamətlərində gedən qanlı döyüşlərdə iştirak edib, bu vuruşmalarda öz mətinliyi və qorxmazlığı ilə xüsusi seçilib. Sonra isə Füzuli cəbhəsində şücaətlə vuruşaraq qəhrəmanlıq nümunəsi göstərib. Cəsur əsgərin son savaşı oktyabrın 29-da olub. Həmin gün Füzuli cəbhəsində gedən qızğın döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə qovuşub. Doğulduğu Dədə Qorqud kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2021).*



## HƏSƏNLİ
## Elçin Qəşəm oğlu
## (06.06.1998 – 30.09.2020)

Göygöl rayonunun Qırıqlı kəndində anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Qırıqlı kənd orta məktəbində alıb. 2016-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Ağcabədi və Füzulidə xidmət edib. Tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2018-ci ildən MAHHXHQ kimi davam etdirməyə başlayıb. Füzulidə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən savaş meydanlarında olub, şücaətlə vuruşub. Qəhrəman əsgər döyüşlərə Kəlbəcər cəbhəsində başlayıb, Murovdağ yüksəklikləri uğrundakı qanlı döyüşlərdə böyük hünər göstərib. Sentyabrın 30-da Kəlbəcər cəbhəsində gedən döyüşlərin birində misilsiz rəşadətlə savaşaraq şəhidlik zirvəsinə ucalıb. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 6-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Qırıqlı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020).*



## HƏSƏNLİ
## Elçin Vaqif oğlu
## (16.06.1993 – 08.11.2020)

Ağstafa rayonunun Həsənsu kəndində anadan olub. Orta təhsilini 1999-2010-cu illərdə Bakı şəhəri 290 və 211 saylı orta məktəblərdə alıb. 2014-cü ildə Azərbaycan Texniki Universitetini bitirib. 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə xəttində – Füzulidə xidmət edib. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına yazılmaq üçün könüllü olaraq müraciət edib. Həmin il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Müharibənin ilk günlərindən düşmənlə ölüm-dirim savaşına atılıb, bütün cəbhəboyu əks-hücum əməliyyatlarında hünərlə iştirak edib. Cəsur əsgər Füzuli, Cəbrayıl və Qubadlı uğrundakı həlledici döyüşlərdə misilsiz rəşadətlə döyüşüb. Noyabrın 8-də Şuşa döyüşlərində qəhrəmancasına şəhid olub. Xırdalan şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020).*







## HƏSƏNLİ
## Rəşad Yaşar oğlu
## (29.03.1997 – 04.10.2020)

Saatlı rayonunun Ağarəhimli kəndində anadan olub. 2003-2012-ci illərdə Ağarəhimli kənd orta məktəbində oxuyub. 2012-ci ildə C.Naxçıvanski adına Hərbi Liseyə daxil olsa da, səhhətinə görə təhsilini yarımçıq qoyub. 2015-2016-cı illərdə Silahlı Qüvvələr sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2016-cı il Aprel döyüşlərində yaralanıb. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra orduya yazılmaq üçün müraciət edib. Həmin il sentyabrın 21-də ehtiyatda olan gizir kimi orduya çağırılaraq təlimlərə cəlb olunub. Bir həftə sonra başlayan Vətən müharibəsini səngərlərdə qarşılayıb, Xocavənd və Füzulidəki qanlı döyüşlərdə qəhrəmanlıq göstərib. Oktyabrın 4-də Füzuli uğrundakı döyüşlərdə şücaətlə savaşaraq şəhidlik məqamına yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 7-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Ağarəhimli kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021).*



## HƏSƏNLİ
## Seymur Qələndər oğlu
**(09.11.1993 – 07.11.2020)**

Yevlax rayonunun Nurallar kəndində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Yevlax rayon Malbinəsi kənd orta məktəbində alıb. 2011-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini baş çavuş rütbəsində MAHHXHQ kimi davam etdirməyə başlayıb. Təlimlərdəki yüksək göstəricilərinə görə XTQ sıralarına keçirilib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda savaşın ilk günlərindən qanlı savaşlara atılıb, iştirak etdiyi ağır döyüşlərdə böyük qəhrəmanlıq göstərib. Cəsur xüsusi təyinatlı döyüşçü Füzuli cəbhəsində rəşadətlə vuruşub, hünəri ilə seçilib. Sonra Şuşa istiqamətindəki həlledici döyüşlərdə misilsiz şücaətlə vuruşub. Noyabrın 5-də Şuşa ətrafındakı şiddətli döyüşlərin birində ağır yaralanıb, həkimlərin səylərinə baxmayaraq, noyabrın 7-də şəhadətə qovuşub. Yevlax şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## HƏSƏNLİ
## Telman Rafiq oğlu
**(03.03.1998 – 17.10.2020)**

Biləsuvar rayonunun Bağbanlar kəndində anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Biləsuvar rayon Zəhmətabad kənd orta məktəbində alıb. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Murovda xidmət edib. Tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb, 2018-ci ildə SQ-nin Təlim-Tədris Mərkəzində gizir hazırlığı kursunu bitirib. Ağstafa və Beyləqanda xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin giziri kimi əldə silah səngərlərdə qarşılayıb. Füzuli və Cəbrayıl cəbhələrindəki qanlı döyüşlərdə misilsiz rəşadətlə vuruşub. Xocavənd, Qubadlı, Zəngilan uğrundakı qızğın döyüşlərdə böyük şücaət göstərib. Oktyabrın 17-də Qubadlının Qalasoltanlı kəndi uğrundakı döyüşdə hünərlə vuruşaraq şəhidlik zirvəsinə ucalıb. Bağbanlar kəndində dəfn edilib. Subay idi.





**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Döyüşdə fərqlənməyə görə" medalı (2021).*



## HƏSƏNLİ
## Zərimxan Rafiq oğlu
**(07.12.2001 – 11.10.2020)**

Tərtər rayonunun Bəyimsarov kəndində anadan olub, əslən Kəlbəcərin Susuzluq kəndindən idi. Orta təhsilini 2008-2019-cu illərdə Bəyimsarov kənd orta məktəbində alıb. 2020-ci ilin yanvarında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə bölgəsində – Beyləqanda xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk günündən ön xətdə, döyüş meydanlarında olub, qatıldığı qızğın vuruşmalarda böyük şücaət və hünər göstərib. Vuruşmağa Cəbrayıl cəbhəsində başlayan igid əsgərin döyüş yolu daha sonra Xocavənd və Füzuli səngərlərindən keçib, bu istiqamətlərdəki həlledici döyüşlərdə qəhrəmancasına savaşıb. Oktyabrın 11-də Füzuli cəbhəsindəki qanlı döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Bəyimsarov kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021).*



## HƏSƏNOV
## Afik Namik oğlu
### (01.11.1999 - 02.10.2020)

Qusar rayonunun Böyük Muruq kəndində anadan olub. Orta təhsilini 2006-2017-ci illərdə Böyük Muruq kənd orta məktəbində alıb. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Tovuzda xidmət edib. Tərxis olunandan bir ay sonra yenidən ordu sıralarına qayıdıb və 2020-ci ilin fevralından xidmətini MAHHXHQ kimi davam etdirib. Göygöldə xidmət edirdi. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi səngərdə qarşılayıb, ilk gündən ölüm-dirim savaşına atılaraq şücaətlə döyüşüb. Rəşadətli əsgərin döyüş yolu Tərtər-Ağdərə cəbhəsindən keçib, bu qanlı savaşlarda hünərlə iştirak edib. Kəlbəcər cəbhəsindəki ağır döyüşlərdə igidlik göstərib. Oktyabrın 2-də Murovdağ istiqamətindəki şiddətli döyüşlər zamanı qəhrəmancasına vuruşaraq şəhadətə yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 14-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Böyük Muruq kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2021); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021).*



## HƏSƏNOV
## Aqil Nofəl oğlu
### (06.01.1996 - 27.09.2020)

Sabran rayonunun Pirəmsən kəndində anadan olub. Orta təhsilini 2003-2011-ci illərdə Pirəmsən kənd orta məktəbində, 2011-2014-cü illərdə isə C.Naxçıvanski adına Hərbi Liseydə alıb. 2015-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2019-cu ildə ali hərbi təhsilini leytenant rütbəsində başa vuraraq zabit kimi xidmətə başlayıb. Cəbhə bölgəsində - Beyləqanda xidmət edirdi.





2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin leytenantı kimi zabit mundirində qarşılayıb, savaşın ilk günündən düşmənə qarşı qızğın döyüşlərə atılıb, rəşadətlə vuruşub. Qəhrəman zabit Füzuli və Cəbrayıl cəbhələrindəki həlledici döyüşlərdə igidliklə iştirak edərək şücaət göstərib. Müharibənin elə ilk günü - sentyabrın 27-də Füzuli cəbhəsində gedən qanlı döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik məqamına ucalıb. Doğulduğu Pirəmsən kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "İgidliyə görə" medalı (2021).*



## HƏSƏNOV
## Aydın Elşən oğlu
### (15.12.1995 - 08.11.2020)

Gəncə şəhərində anadan olub. Orta təhsilini 2002-2010-cu illərdə Gəncə şəhər 44 saylı orta məktəbdə, 2010-2013-cü illərdə Gəncə şəhər 3 saylı Peşə Liseyində alıb. 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına yazılmaq üçün könüllü müraciət edərək qeydiyyatdan keçib. Həmin il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində yenidən ordu sıralarına çağırılıb. Müharibənin ilk günlərindən cəbhəyə yollanaraq düşmənlə qızğın döyüşlərə atılıb və rəşadətlə vuruşub. Cəsur əsgərin döyüş yolu Füzuli, Cəbrayıl, Qubadlı cəbhələrindəki ağır vuruşmalardan keçib, bu həlledici döyüşlərdə öz qorxmazlığı və şücaəti ilə seçilib. Şuşa savaşında xüsusilə böyük hünər göstərib. Noyabrın 8-də Şuşa ətrafındakı qanlı döyüşlərin birində igidliklə savaşaraq şəhadətə qovuşub. Gəncə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020).*



## HƏSƏNOV
## Azər Aydın oğlu
### (06.05.1982 – 13.10.2020)

Bərdə rayonunun Qaradəmirçi kəndində anadan olub. Orta təhsilini 1989-2000-ci illərdə Qaradəmirçi kənd orta məktəbində alıb. 2000-2002-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Naxçıvanda xidmət edib. Tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini çavuş rütbəsində MAHHXHQ kimi davam etdirib. 2016-cı il Aprel döyüşlərində şücaət göstərib. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayanda Bərdədə həmlə taborunda xidmət edirdi. Müharibənin ilk saatlarından Füzuli cəbhəsi səngərlərində olub, xidmət etdiyi taborun heyətində dərhal qanlı döyüşlərə atılaraq rəşadətlə vuruşub. İgid hərbçinin döyüş yolu Tərtər-Ağdərə cəbhəsindən keçib, Suqovuşan və Talış uğrundakı savaşlarda misilsiz qəhrəmanlıq göstərib. Oktyabrın 13-də Talış ətrafındakı qızğın döyüşlərin birində hünərlə savaşaraq şəhidlik zirvəsinə yüksəlib. Qaradəmirçi kəndində dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## HƏSƏNOV
## Babək Saleh oğlu
### (14.09.1990 – 04.11.2020)

Qazax rayonunun Birinci Şıxlı kəndində anadan olub. Orta təhsilini 1996-2007-ci illərdə Birinci Şıxlı kənd orta məktəbində alıb. 2008-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və 2013-2018-ci illərdə MAHHXHQ kimi xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən





səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb, düşmənlə ölüm-dirim savaşına atılıb, qəhrəmancasına vuruşub. İgid əsgərin döyüş yolu Füzuli, Cəbrayıl və Qubadlı səngərlərindən keçib, bu qanlı döyüşlərdə böyük hünər göstərib. Noyabrın 4-də Laçın cəbhəsindəki döyüşlər zamanı misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Birinci Şıxlı kəndində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020).*



## HƏSƏNOV
## Bəşir Xəqani oğlu
### (13.07.1995 – 25.10.2020)

Şəmkir rayonunun Təzəkənd kəndində anadan olub. 2001-2012-ci illərdə Təzəkənd kənd orta məktəbində təhsil alıb. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində – Ağdamda xidmət edib. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına qoşulmaq üçün könüllü müraciət edib. Həmin il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini əldə silah döyüş meydanlarında qarşılayıb. İlk gündən düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq hünərlə vuruşub. Rəşadətli əsgər Füzuli və Cəbrayıl cəbhələrindəki qanlı döyüşlərdə misilsiz şücaət göstərib, Hadrut və Qubadlı uğrundakı savaşlarda igidliyi ilə seçilib. Oktyabrın 25-də Füzuli cəbhəsində gedən şiddətli döyüşlərin birində qəhrəmancasına savaşaraq şəhadətə yüksəlib. Təzəkənd kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## HƏSƏNOV
## Cavid Mikail oğlu
**(06.03.1993 - 20.10.2020)**

Bakıda anadan olub. Orta təhsilini 1999-2006-cı illərdə Bakı şəhəri 214 saylı orta məktəbdə, 2006-2010-cu illərdə isə Yasamal rayonundakı fizika-riyaziyyat və informatika təmayüllü liseydə alıb. 2014-cü ildə Azərbaycan Dövlət Neft Akademiyasını bitirib. 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və qısamüddətli hərbi təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini əldə silah ön xətdə qarşılayıb, savaşın ilk saatlarından döyüş meydanlarında olub, igidliklə vuruşub. Cəsur əsgər Füzuli cəbhəsində düşmənlə qanlı vuruşmalarda böyük hünər göstərib. Xocavənd və Laçın cəbhələri boyunca şiddətli döyüşlərdə rəşadətlə döyüşüb. Oktyabrın 20-də Xocavənd uğrundakı qızğın döyüşlərdə şücaətlə savaşaraq şəhidlik məqamına ucalıb. II Fəxri xiyabanda dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## HƏSƏNOV
## Ceyhun Aydın oğlu
**(29.10.1985 - 27.09.2020)**

Tovuz rayonunun Çeşməli kəndində anadan olub. 1992-2001-ci illərdə Bakı şəhəri 257 saylı orta məktəbdə təhsil alıb. 2001-2003-cü illərdə təhsilini C.Naxçıvanski adına Hərbi Liseydə davam etdirib. 2003-cü ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub. 2007-ci ildə AAHM-i leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb, Naxçıvanda və Beyləqanda xidmət edib. 2020-ci





ilin sentyabrında başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin kapitanı kimi zabit mundirində qarşılayıb, ilk gündən Füzuli cəbhəsindəki həlledici döyüşlərə atılaraq misilsiz rəşadətlə savaşıb. Qəhrəman zabit müharibənin elə ilk günü - sentyabrın 27-də Füzuli uğrunda gedən qanlı döyüşlərin birində müstəsna igidliklə vuruşaraq şəhadətə qovuşub. II Fəxri xiyabanda dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən Müharibəsi Qəhrəmanı" adı (2020); "Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2021); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## HƏSƏNOV
## Elgün Əli oğlu
**(16.08.1999 - 10.10.2020)**

İmişli rayonunun Bəhrəmtəpə qəsəbəsində anadan olub. Orta təhsilini 2001-2012-ci illərdə Bəhrəmtəpə qəsəbə orta məktəbində alıb. 2017-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah ön xətdə qarşılayıb, ilk gündən savaş meydanlarında olub, cəsurluğu ilə seçilib. Döyüşlərə Füzuli cəbhəsində başlayan igid əsgər düşmənə qarşı qanlı vuruşmalarda misilsiz qəhrəmanlıq göstərib. Oktyabrın 10-da Füzuli uğrundakı qızğın döyüşlərin birində hünərlə savaşaraq şəhidlik zirvəsinə yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 24-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Bəhrəmtəpə qəsəbəsində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## HƏSƏNOV
## Elman Mehman oğlu
(28.02.1993 - 27.09.2020)

Goranboy rayonunun Qızılhacılı qəsəbəsində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Qızılhacılı qəsəbə 1 saylı orta məktəbdə alıb. 2011-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan az sonra yenidən orduya qayıdıb və xidmətini 2013-cü ildən MAHHXHQ kimi davam etdirib. 2016-cı il Aprel döyüşlərində igidliklə vuruşub. Elə həmin il tərxis olunub. 2020-ci ildə yenidən hərbi xidmətə qayıdıb və iyul Tovuz döyüşlərində hünərlə iştirak edib. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini əldə silah səngərlərdə qarşılayıb. İgid əsgər döyüşlərə cəbhənin Tərtər-Ağdərə istiqamətində başlayıb, Talış və Suqovuşan döyüşlərində qəhrəmancasına vuruşub, şücaət göstərib. Müharibənin elə ilk günü - sentyabrın 27-də Suqovuşan uğrundakı qanlı döyüşlərin birində misilsiz rəşadətlə savaşaraq şəhid olub. Goranboy rayonunun Balakürd kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## HƏSƏNOV
## Elməddin Elşən oğlu
(25.02.1996 - 21.10.2020)

Naxçıvan MR Kəngərli rayonunun Şahtaxtı kəndində anadan olub. 2002-2010-cu illərdə Şahtaxtı kənd orta məktəbində təhsil alıb. Təhsilini 2010-2013-cü illərdə H.Əliyev adına Hərbi Liseydə davam etdirib. 2013-cü ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2018-ci ildən XTQ-də snayper kimi davam etdirib. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayanda Naxçıvanda həmlə taborunda xidmət edirdi. İlk günlərdən döyüşlərə atılıb, həlledici savaşlarda şücaətlə iştirak edib. Rəşadətli əsgər Füzuli, Xocavənd və Qubadlı cəbhələrindəki döyüşlərdə igidlik göstərib. Oktyabrın 21-də Xocavəndin Qırmızı Bazar qəsəbəsi ətrafında gedən qanlı döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhadətə yüksəlib. Şahtaxtı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## HƏSƏNOV
## Elnur Elman oğlu
(15.09.1992 - 08.11.2020)

Ağstafa şəhərində anadan olub. Orta təhsilini 1999-2010-cu illərdə Ağstafa şəhər 2 saylı tam orta məktəbdə alıb. 2010-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Naftalanda xidmət edib. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra yenidən ordu sıralarına yazılmaq üçün könüllü olaraq müraciət edib. Həmin il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində yenidən ordu sıralarına çağırılıb. Döyüşlərə sentyabrın 29-da Füzuli cəbhəsində başlayıb, bu ağır döyüşlərdə böyük hünər göstərib. Daha sonra Xocavənd və Laçın uğrundakı qanlı savaşlarda rəşadətlə vuruşub. Şuşa uğrundakı həlledici döyüşlərdə öz igidliyi və cəsurluğu ilə xüsusi seçilib. Qəhrəman əsgər noyabrın 8-də Şuşa ətrafında gedən şiddətli döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik məqamına ucalıb. Ağstafa şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020).*



## HƏSƏNOV
## Elşad Paşa oğlu
### (13.06.1981 – 02.10.2020)

Qərbi Azərbaycanın Göyçə mahalının Babacan kəndində anadan olub. Orta təhsilini 1987-1995-ci illərdə Sumqayıt şəhər 12 saylı orta məktəbdə alıb. 1995-ci ildə C.Naxçıvanski adına Hərbi Liseyə, 1998-ci ildə isə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2002-ci ildə AAHM-i leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb, Gəncə, Gədəbəy, Tovuz, Naxçıvan və Şəmkirdə xidmət edib. 2020-ci il iyul Tovuz döyüşlərində qəhrəmancasına vuruşub. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin mayoru kimi zabit mundirində qarşılayıb. İlk saatlardan Murovdağ cəbhəsində qanlı döyüşlərə atılıb. Rəşadətli zabit oktyabrın 2-də Kəlbəcər uğrundakı qızğın döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə qovuşub. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 16-da müəyyən olunaraq ailəsinə təhvil verilib. II Fəxri xiyabanda dəfn olunub. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Kəlbəcərin azad olunmasına görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021); "Vətən uğrunda" medalı (2021).*



## HƏSƏNOV
## Elvin Əlizadə oğlu
### (07.11.1994 – 07.11.2020)

Ağdaş rayonunun Mürsəl kəndində anadan olub. Orta təhsilini 1999-2000-ci illərdə Mürsəl kənd orta məktəbində alıb. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Gədəbəydə xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb,





sentyabrın 29-da ön cəbhəyə yollanıb. Müharibənin ilk günlərindən düşmənlə ölüm-dirim savaşına atılaraq qəhrəmancasına döyüşüb. Cəsur əsgərin döyüş yolu Füzuli, Xocavənd, Laçın və Şuşa istiqamətlərindəki qanlı savaşlardan keçib, bu rayonların azad olunması uğrunda gedən həlledici döyüşlərdə misilsiz rəşadət göstərib. Noyabrın 7-də Xocavənd ətrafında gedən şiddətli döyüşlərin birində hünərlə döyüşərək şəhidlik zirvəsinə yüksəlib. Doğulduğu Mürsəl kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## HƏSƏNOV
## Elvin Hökuməli oğlu
### (08.07.1992 – 22.10.2020)

Saatlı rayonunun Əhmədbəyli kəndində anadan olub. Orta təhsilini 1999-2010-cu illərdə Əhmədbəyli kənd orta məktəbində alıb. 2010-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Murovda xidmət edib. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb, sentyabrın 29-da cəbhəyə yollanıb. İlk günlərdən düşmənlə ölüm-dirim çarpışmasının getdiyi Füzuli cəbhəsindəki qızğın döyüşlərə atılıb, bu vuruşmalarda şücaət göstərib. İgid əsgərin döyüş yolu daha sonra Cəbrayıl, Zəngilan və Qubadlı səngərlərindən keçib, bu rayonlar uğrundakı qanlı döyüşlərdə hünəri ilə seçilib. Oktyabrın 22-də Qubadlı uğrundakı qanlı savaşlarda misilsiz rəşadətlə döyüşərək şəhid olub. Əhmədbəyli kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Qubadlının azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## HƏSƏNOV
## Emil Eldəniz oğlu
**(02.03.1999 – 22.10.2020)**

Goranboy rayonunun Tatarlı kəndində anadan olub. 2005-2014-cü illərdə Tatarlı kənd orta məktəbində, 2014-2017-ci illərdə Zaqatala Dövlət İdarəetmə Kollecində təhsil alıb. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Beyləqanda xidmət edib. Tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini 2020-ci ilin iyunundan MAHHXHQ kimi davam etdirib. Həmin ilin sentyabrında Vətən müharibəsi başlayanda Tərtərdəki N saylı hərbi hissənin həmlə taborunda xidmət edirdi. Müharibəni Tərtər-Ağdərə cəbhəsi səngərlərində qarşılayıb, savaşın ilk saatlarından qanlı döyüşlərə atılaraq misilsiz igidliklə vuruşub. Rəşadətli əsgərin döyüş yolu Talış və Suqovuşan uğrundakı savaşlardan keçib, bu həlledici vuruşmalarda böyük hünər göstərib. Oktyabrın 22-də Suqovuşan ətrafındakı qızğın döyüşlərin birində qəhrəmancasına savaşaraq şəhadətə yüksəlib. Tatarlı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## HƏSƏNOV
## Etibar Ələddin oğlu
**(07.02.1991 – 08.11.2020)**

Gədəbəy rayonunun Qarıkənd kəndində anadan olub. Orta təhsilini 1997-2006-cı illərdə Qarıkənd kənd orta məktəbində alıb, təhsilini 2006-2009-cu illərdə Gədəbəy Peşə Liseyində davam etdirib. 2009-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Naxçıvanda xidmət edib. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini 2017-ci ildən MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah döyüş meydanlarında qarşılayıb, ilk gündən ön xətdə, savaş meydanlarında olub, hünərlə döyüşüb. Qəhrəman əsgər Laçın və Şuşa istiqamətindəki döyüşlərdə iştirak edərək misilsiz rəşadət göstərib. Noyabrın 8-də Şuşa cəbhəsindəki qızğın döyüşlərin birində şücaətlə savaşaraq şəhidlik məqamına ucalıb. Qarıkənd kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020).*



## HƏSƏNOV
## Ərəstun Əfşan oğlu
**(10.09.1990 – 03.11.2020)**

Beyləqan rayonunun Kəbirli kəndində anadan olub. Orta təhsilini 1996-2007-ci illərdə Kəbirli kənd orta məktəbində alıb. 2008-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Qazaxda xidmət edib. Tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini 2010-cu ildən MAHHXHQ kimi davam etdirib. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayanda Füzulidə N saylı hərbi hissədə xidmət edirdi. Qanlı döyüşlərə də elə bu cəbhədə atılaraq ilk gündən misilsiz rəşadətlə vuruşub. Cəsur əsgərin döyüş yolu daha sonra Qubadlı və Zəngilan uğrundakı şiddətli savaşlardan keçib, bu həlledici döyüşlərdə böyük hünər göstərib. Noyabrın 3-də Xocavənd cəbhəsindəki qızğın döyüşlərin birində igidliklə savaşaraq şəhadətə qovuşub. Kəbirli kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021).*



## HƏSƏNOV
## Əsəd Fərhad oğlu
**(16.04.1988 – 01.10.2020)**

İmişli rayonunun Şahverdili kəndində anadan olub. Orta təhsilini 1995-2003-cü illərdə Şahverdili kənd orta məktəbində alıb. 2003-2006-cı illərdə C.Naxçıvanski adına Hərbi Liseydə, 2006-2010-cu illərdə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində oxuyub. AAHM-i leytenant rütbəsində bitirərək SQ TTM-də kurs keçib və 2011-ci ildə zabit kimi xidmətə başlayıb. Naxçıvanda və Goranboyda xidmət edib. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayanda Ağdamda xidmət edirdi. Müharibəni də Azərbaycan Silahlı Qüvvələrinin kapitanı kimi zabit mundirində ön xətdə, Ağdam cəbhəsinin qanlı savaş meydanlarında qarşılayıb. Ağdamın azad olunması uğrundakı həlledici döyüşlərdə misilsiz rəşadət göstərib. İgid zabitin son döyüşü oktyabrın 1-də olub. Həmin gün Ağdam istiqamətindəki qanlı savaşların birində hünərlə döyüşərək şəhidlik zirvəsinə yüksəlib. Şahverdili kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Ağdamın azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## HƏSƏNOV
## Əzim Fikrət oğlu
**(13.06.1998 – 08.10.2020)**

Balakən rayonunun Kortala kəndində anadan olub, Ağdam rayonundan məcburi köçkün idi. Orta təhsilini 2004-2015-ci illərdə Mingəçevir şəhər 19 saylı orta məktəbdə alıb. 2019-cu ildə Azərbaycan Dillər Universitetini bitirib və elə həmin il də Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2020-ci ilin sentyabrında xidmətinin bitməsinə bir neçə gün qalmış





başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah savaş meydanlarında qarşılayıb, ilk gündən qanlı vuruşmalara atılıb, iştirak etdiyi ağır döyüşlərdə böyük hünər göstərib. İgid kəşfiyyatçı-əsgər Füzuli və Cəbrayılın azad olunması uğrunda mərdliklə vuruşub, Xocavənd və Hadrut istiqamətindəki həlledici döyüşlərdə şücaət göstərib. Oktyabrın 8-də Füzulinin Seyidəhmədli kəndi uğrundakı qızğın savaşda misilsiz rəşadətlə döyüşərək şəhid olub. Nəşi oktyabrın 30-da müəyyən olunaraq ailəsinə verilib. Mingəçevir şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## HƏSƏNOV
## Faiq Hüseyn oğlu
**(28.07.1990 – 05.10.2020)**

Bakıda anadan olub. Orta təhsilini 1997-2008-ci illərdə Bakı şəhəri 190 saylı orta məktəbdə alıb, daha sonra təhsilini Mingəçevir Dövlət Universitetində davam etdirib. 2012-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Mingəçevir və Şəmkirdə xidmət edib. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2014-cü ildən MAHHXHQ kimi XTQ sıralarında davam etdirməyə başlayıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin giziri kimi əldə silah döyüş meydanlarında qarşılayıb. İlk gündən qanlı savaşlara atılıb, iştirak etdiyi həlledici döyüşlərdə qorxmazlığı və hünəri ilə seçilib. Rəşadətli xüsusi təyinatlı döyüşçü Füzuli və Cəbrayıl uğrunda igidliklə vuruşub, Füzuli cəbhəsindəki qızğın döyüşlərdə misilsiz şücaət göstərib. Oktyabrın 5-də Füzuli ətrafındakı şiddətli döyüşlərin birində qəhrəmancasına savaşaraq şəhadətə yüksəlib. II Fəxri xiyabanda dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020).*



## HƏSƏNOV
## Fariz Şahin oğlu
(12.02.1987 – 13.10.2020)

Ağstafa rayonunun Dağ Kəsəmən kəndində anadan olub. Orta təhsilini 1993-2004-cü illərdə Dağ Kəsəmən kənd orta məktəbində alıb. 2005-2006-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Xüsusi Dövlət Mühafizə Xidmətində xidmət edib. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb. 2008-ci ildə müavfiq kurs keçərək çavuş rütbəsində MAHHXHQ kimi xidmətə başlayıb. 2016-cı il Aprel döyüşlərində igidliklə iştirak edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda Qazaxda xidmət edirdi. Müharibənin ilk günlərindən əldə silah savaş meydanlarında olub, iştirak etdiyi qanlı döyüşlərdə böyük hünər göstərib. Qəhrəman döyüşçü Füzuli rayonunun azad olunması uğrunda rəşadətlə vuruşub. Oktyabrın 13-də Füzuli cəbhəsində gedən şiddətli döyüşlərin birində misilsiz şücaətlə savaşaraq şəhidlik məqamına ucalıb. Doğulduğu Dağ Kəsəmən kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## HƏSƏNOV
## Hafiz Saleh oğlu
(04.10.1993 – 14.10.2020)

Beyləqan rayonunun Kəbirli kəndində anadan olub. 2009-cu ildə Kəbirli kənd orta məktəbinin IX sinfini bitirib. 2011-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2014-cü ildən MAHHXHQ kimi davam etdirib. 2016-cı il Aprel və 2020-ci il iyul Tovuz döyüşləri zamanı





bir kəşfiyyatçı kimi hünərlə savaşıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq rəşadətlə vuruşub. Cəsur xüsusi təyinatlı döyüşçü Füzuli, Xocavənd, Hadrut, Cəbrayıl uğrundakı savaşlarda misilsiz şücaət göstərib. Oktyabrın 11-də yaralansa da, tam sağalmamış cəbhəyə qayıdıb. Oktyabrın 14-də Füzuli cəbhəsindəki şiddətli döyüşlərin birində igidliklə savaşaraq şəhadətə qovuşub. Kəbirli kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## HƏSƏNOV
## Həsən Rəhim oğlu
(01.10.1990 – 02.10.2020)

Şirvan şəhərində anadan olub. Orta təhsilini 1997-2008-ci illərdə Şirvan şəhər 2 saylı orta məktəbdə alıb. 2008-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Cəbhə xəttində – Füzulidə xidmət edib. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini 2017-ci ildən MAHHXHQ kimi davam etdirib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin çavuşu kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk saatlarından Füzuli cəbhəsi səngərlərində olub, xidmət etdiyi taborun heyətində dərhal qanlı döyüşlərə atılaraq rəşadətlə vuruşub. İgid əsgərin döyüş yolu Füzuli, Cəbrayıl, Xocavənd və Hadrut uğrundakı savaşlardan keçib, bu həlledici döyüşlərdə misilsiz rəşadət göstərib. Oktyabrın 2-də Füzulinin Alxanlı kəndi ətrafındakı qızğın döyüşlərdə hünərlə savaşaraq şəhidlik zirvəsinə yüksəlib. Şirvan şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## HƏSƏNOV
## Həsən Səfər oğlu
(03.06.1996 – 21.10.2020)

Sabirabad rayonunun Quruzma kəndində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Quruzma kənd orta məktəbində alıb. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2016-cı il Aprel döyüşlərində hünərlə vuruşub. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına yazılmaq üçün könüllü müraciət edib. Həmin il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi səfərbərliyə alınaraq təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsinin ilk günü Füzuli cəbhəsinə göndərilib. İlk gündən döyüş meydanlarında olub, hünərlə vuruşub. Füzuli və Cəbrayıl uğrundakı qanlı döyüşlərdə şücaəti ilə fərqlənib. Cəsur kəşfiyyatçı-əsgər Suqovuşan, Hadrut, Xocavənd, Zəngilan və Qubadlı döyüşlərində misilsiz rəşadət göstərib. Oktyabrın 21-də Qubadlının Balasoltanlı kəndi ətrafındakı şiddətli döyüşlərdə misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Doğulduğu Quruzma kəndində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## HƏSƏNOV
## Hikmət Fikrət oğlu
(15.07.1986 – 27.09.2020)

Gəncə şəhərində anadan olub. Orta təhsilini 1992-2003-cü illərdə Gəncə şəhəri 16 saylı orta məktəbdə alıb. 2004-2006-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Cəbhə xəttində - Ağdamda xidmət edib. 2018-ci ildə yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini MAHHXHQ kimi davam etdirib. 2020-ci ilin sentyabrında Vətən





müharibəsi başlayanda Goranboydakı N saylı hərbi hissədə kiçik çavuş kimi xidmət edirdi. Müharibənin ilk saatlarından şiddətli döyüşlərə atılaraq igidliklə vuruşub, Kəlbəcər istiqamətindəki həlledici döyüşlərdə böyük hünər göstərib. Rəşadətli döyüşçü sentyabrın 27-də Murovdağ yüksəkliyi uğrundakı qanlı savaşların birində qəhrəmancasına vuruşaraq şəhadətə yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 6-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Gəncə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## HƏSƏNOV
## Hüseyn Vahib oğlu
(13.04.2001 – 27.09.2020)

Ucar rayonunun Çiyni kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Çiyni kənd orta məktəbində alıb. 2019-cu ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Gəncədə xidmət edirdi. 2020-ci il iyul Tovuz döyüşlərinin iştirakçısı olub, bu savaşda öz hünəri və qorxmazlığı ilə xüsusi fərqlənib. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından ön xətdə olub, düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi Kəlbəcər cəbhəsindəki qanlı döyüşlərə atılaraq misilsiz igidliklə vuruşub. Qəhrəman əsgər Kəlbəcərin azadlığı uğrundakı həlledici döyüşlərdə böyük rəşadət göstərib. Sentyabrın 27-də Murovdağ yüksəklikləri uğrunda gedən qızğın döyüşlərin birində şücaətlə vuruşaraq şəhidlik məqamına ucalıb. Doğulub boya-başa çatdığı Çiyni kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020).*



## HƏSƏNOV
## Xətai Xaliq oğlu
### (29.06.2001 – 31.10.2020)

Tovuz rayonunun Qovlar şəhərində anadan olub. Orta təhsilini 2006-2017-ci illərdə Qovlar şəhər tam orta məktəbində alıb. 2017-ci ildə Bakı Kooperasiya Kollecinə daxil olub. 2019-cu ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, təmas xəttində - Ağdamda xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından ön xətdə, döyüş meydanlarında olub. Cəbhənin Tərtər-Ağdərə və Ağdam istiqamətlərində həyata keçirilən əks-hücum əməliyyatlarında hünərlə iştirak edib, bu qanlı döyüşlərdə rəşadətlə vuruşub. Cəsur əsgər Suqovuşan, Talış kəndi və Ağdərə qəsəbəsi uğrundakı həlledici döyüşlərdə qəhrəmanlıq nümunələri göstərib. Son döyüşü oktyabrın 31-də olub. Həmin gün Ağdam istiqamətindəki şiddətli döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə qovuşub. Doğulub boya-başa çatdığı Qovlar şəhərində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Ağdamın azad olunmasına görə" medalı (2021).*



## HƏSƏNOV
## Xəyal Əliyulla oğlu
### (30.11.1998 – 03.10.2020)

Şabran rayonunun Surra kəndində anadan olub. Orta təhsilini 2005-2015-ci illərdə Surra kənd orta məktəbində və Şabran şəhəri 4 saylı orta məktəbdə alıb. 2015-ci ildə AzMİU kollecinə daxil olub. 2019-cu ildə kollec təhsilini tamamlayaraq Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Xidmət dövründə XTQ sıralarına qəbul olunub və orduda qalaraq xidmətini davam etdirib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsi zamanı XTQ-nin tərkibində ilk gündən ağır döyüşlərə atılıb, Kəlbəcər,





Füzuli, Xocavənd, Cəbrayıl cəbhələrindəki həlledici vuruşmalarda əsl qəhrəman kimi iştirak edib, şücaət göstərib. Rəşadətli xüsusi təyinatlı əsgər oktyabrın 3-də Cəbrayıl cəbhəsində düşmənlə açıq döyüşə girib. Bu ağır döyüşdə misilsiz hünərlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Surra kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021).*



## HƏSƏNOV
## Xəyal Zeynəddin oğlu
### (16.04.2002 – 13.10.2020)

Göyçay rayonunun Qaraman kəndində anadan olub. Orta təhsilini 2007-2016-cı illərdə Qaraman kənd orta məktəbində alıb, təhsilini daha sonra Göyçay rayon 106 saylı texniki peşə məktəbində davam etdirib. 2020-ci ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə zonasında - Goranboy və Tərtərdə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk saatlarından ön cəbhədə, döyüş meydanlarında olub, şücaətlə vuruşub. İgid əsgər döyüşlərə Tərtər-Ağdərə cəbhəsində başlayıb, Talış kəndinin və Suqovuşanın azad olunması uğrundakı qanlı döyüşlərdə böyük hünər göstərib. Laçın ətrafındakı qızğın savaşlarda cəsurluğu və qorxmazlığı ilə seçilib. Oktyabrın 13-də Suqovuşan ətrafında gedən şiddətli döyüşlərin birində misilsiz rəşadətlə savaşaraq şəhid olub. Doğulduğu Qaraman kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## HƏSƏNOV
## İlqar Nadir oğlu
(02.01.1990 – 08.11.2020)

Beyləqan rayonunun Dünyamalılar kəndində anadan olub. Orta təhsilini 1997-2008-ci illərdə Dünyamalılar kənd orta məktəbində alıb. 2008-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Gəncədə xidmət edib. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2012-ci ildən MAHHXHQ kimi davam etdirib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kiçik çavuşu kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk anlarından Qubadlı-Zəngilan cəbhəsindəki qızğın döyüşlərə atılıb, misilsiz rəşadətlə vuruşub. Hadrut döyüşlərində böyük şücaət göstərib. Rəşadətli döyüşçünün son savaşı noyabrın 8-də olub. Həmin gün Laçın-Şuşa yolundakı şiddətli döyüşlər zamanı qəhrəmancasına vuruşaraq şəhadətə yüksəlib. Dünyamalılar kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021); "Laçının azad olunmasına görə" medalı (2021).*



## HƏSƏNOV
## Kənan Elşad oğlu
(16.09.1997 – 10.10.2020)

Salyan rayonunun Qaraçala qəsəbəsində anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Salyanın Qaraçala qəsəbə və Kərimbəyli kənd orta məktəblərində alıb. 2019-cu ildə Azərbaycan Memarlıq və İnşaat Universitetini bitirib və elə həmin il də Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Cəbhə bölgəsində – Tərtərdə xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin əsgəri kimi əldə silah





səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi Tərtər-Ağdərə cəbhəsindəki qanlı döyüşlərə atılaraq igidliklə vuruşub. Qəhrəman əsgər Tapqaraqoyunlu, Suqovuşan, Talış kəndi və Hadrut qəsəbəsi uğrundakı həlledici döyüşlərdə rəşadət və hünər göstərib. Oktyabrın 10-da Suqovuşan ətrafında gedən qızğın döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik məqamına ucalıb. Qaraçala qəsəbəsində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## HƏSƏNOV
## Kənan Ziræddin oğlu
(01.01.2001 – 15.10.2020)

Göygöl rayonunun Şəhriyar kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Şəhriyar kənd orta məktəbində alıb. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. XTQ sıralarında xidmət edirdi. 2020-ci il iyul Tovuz döyüşlərində hünərlə iştirak edib. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsi zamanı XTQ-nin tərkibində ilk gündən ağır döyüşlərə atılıb, qanlı savaşların getdiyi Murovdağ, Tərtər-Ağdərə, Füzuli və Xocavənd cəbhələrindəki həlledici vuruşmalarda əsl qəhrəman kimi iştirak edib, misilsiz rəşadət göstərib. Cəsur xüsusi təyinatlı döyüşçünün son savaşı oktyabrın 15-də olub. Həmin gün Füzuli-Xocavənd istiqamətində düşmənlə açıq döyüşə girərək igidliklə vuruşub, bu savaşda ağır yaralanaraq şəhadətə qovuşub. Gəncə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Azərbaycan Bayrağı" ordeni (2021); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## HƏSƏNOV
## Qüdrət Səfər oğlu
(25.09.1995 – 30.10.2020)

Sabirabad rayonunun Qardaşkənd kəndində anadan olub. 2011-ci ildə Nəsimi kənd orta məktəbinin IX sinfini, 2014-cü ildə Bakı İdarəetmə və Texnologiya Kollecini bitirib. 2015-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən orduya çağırılıb. Sentyabrın 29-da cəbhəyə yollanıb, düşmənlə ölüm-dirim savaşına atılaraq qəhrəmancasına vuruşub. İgid əsgərin döyüş yolu Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı səngərlərindən keçib, bu qanlı döyüşlərdə şücaət göstərib, yaralansa da, savaş meydanını tərk etməyib. Oktyabrın 30-da Qubadlı uğrundakı qızğın döyüşlərdə hünərlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Naşi noyabrın 29-da müəyyən edilərək ailəsinə təhvil verilib. Sabirabad rayonunun Nəsimi kəndində dəfn edilib. Ailəli idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## HƏSƏNOV
## Maarif Rahim oğlu
(19.11.1999 – 13.10.2020)

Göyçay şəhərində anadan olub. Orta təhsilini 2006-2015-ci illərdə Göyçay şəhəri 1 saylı orta məktəbdə, 2015-2018-ci illərdə Göyçay şəhər 106 saylı Peşə Liseyində alıb. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə xəttində – Tərtərdə xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən orduya çağırılıb. Sentyabrın 29-da ön cəbhəyə yollanaraq düşmənlə ölüm-dirim savaşına atılıb, cəbhənin Tərtər-Ağdərə istiqamətində həyata keçirilən əks-hücum əməliyyatlarında hünərlə iştirak edib. Qəhrəman əsgər Suqovuşan ətrafındakı həlledici döyüşlərdə misilsiz şücaətlə döyüşüb. Oktyabrın 13-də Ağdərə cəbhəsindəki qanlı döyüşlərin birində rəşadətlə vuruşaraq şəhid olub. Naşi noyabrın 17-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Göyçay şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## HƏSƏNOV
## Məharət Ramil oğlu
(25.10.1987 – 15.10.2020)

Şirvan şəhərində anadan olub. Orta təhsilini 1994-2005-ci illərdə Şirvan şəhəri 18 saylı orta məktəbdə alıb. 2005-2007-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə xəttində – Tərtərdə xidmət edib. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra yenidən ordu sıralarına yazılmaq üçün könüllü olaraq müraciət edib. Həmin il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Döyüşlərə sentyabrın 28-də Füzuli-Cəbrayıl cəbhəsində başlayıb. Cəbrayılın azadlığı uğrundakı qanlı savaşlarda misilsiz rəşadətlə vuruşub, şəxsi igidlik nümunəsi və böyük şücaət göstərib. Cəsur əsgər oktyabrın 15-də Cəbrayıl cəbhəsində gedən şiddətli döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhadətə yüksəlib. Şirvan şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli olub, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## HƏSƏNOV
## Məqsəd Mahir oğlu
**(21.11.1991 – 05.10.2020)**

Ağdam şəhərində anadan olub. 2007-ci ildə Ağdam rayonu Baharlı kənd orta məktəbinin IX sinfini bitirib. 2009-cu ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, XTQ sıralarında xidmət edib. 2011-ci ildə ordudan tərxis olunaraq ehtiyata buraxılıb. Bir müddətdən sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2012-ci ildən MAHHXHQ kimi davam etdirib. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayanda Goranboyda xidmət edirdi. Müharibənin ilk saatlarından Füzuli cəbhəsi səngərlərində olub, xidmət etdiyi taborun heyətində dərhal qanlı döyüşlərə atılaraq rəşadətlə vuruşub. Qəhrəman əsgərin döyüş yolu Füzuli, Cəbrayıl və Tərtər-Ağdərə cəbhələri səngərlərindən keçib, bu həlledici döyüşlərdə böyük şücaət və hünər göstərib. Oktyabrın 5-də Suqovuşan ətrafında gedən qızğın döyüşlərin birində misilsiz igidliklə savaşaraq şəhadətə ucalıb. Ağdamın Quzanlı qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## HƏSƏNOV
## Musa Tapdıq oğlu
**(24.11.1995 – 21.10.2020)**

Mingəçevir şəhərində anadan olub. 2010-cu ildə Mingəçevir şəhəri 15 saylı orta məktəbin IX sinfini bitirib, təhsilini 2010-2013-cü illərdə Mingəçevir Turizm Kollecində davam etdirib. 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Murovda xidmət edib. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılaraq təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən





müharibəsinin elə ilk günü Tərtər-Ağdərə cəbhəsinə göndərilib. Savaşın ilk günündən döyüş meydanlarında olub, hünərlə vuruşub. Suqovuşanın azad olunması uğrundakı qanlı döyüşlərdə öz şücaəti və qorxmazlığı ilə xüsusi fərqlənib. İgid əsgər oktyabrın 21-də Füzuli cəbhəsində, Yuxarı Əbdürrəhmanlı kəndi ətrafında gedən şiddətli döyüşlərdə misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Mingəçevir şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## HƏSƏNOV
## Nahid Hökmüran oğlu
**(15.03.1996 – 29.09.2020)**

Saatlı rayonunun Musalı kəndində anadan olub. 2011-ci ildə Musalı kənd orta məktəbinin IX sinfini bitirib, təhsilini 2011-2015-ci illərdə Saatlı rayon texniki-peşə məktəbində davam etdirib. 2015-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan bir neçə ay sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2017-ci ildən MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin çavuşu kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın elə ilk günündən ön xətdə olub, qızğın döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Cəbhənin Füzuli, Cəbrayıl və Xocavənd istiqamətlərində gedən şiddətli döyüşlərdə böyük şücaət və şəxsi igidlik nümunəsi göstərib. Cəsur döyüşçü sentyabrın 29-da Füzuli cəbhəsindəki qanlı savaşların birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Musalı kəndində dəfn edilib. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## HƏSƏNOV
## Namiq Rasim oğlu
**(10.05.1991 – 29.10.2020)**

Cəlilabad rayonunun Göytəpə şəhərində anadan olub. Orta təhsilini 1997-2008-ci illərdə Göytəpə şəhəri 1 saylı orta məktəbdə alıb. 2009-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirib. 2016-cı il Aprel döyüşlərində igidliklə savaşıb. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən ölüm-dirim savaşına atılıb, Füzuli və Cəbrayıl istiqamətlərində həyata keçirilən əks-hücum əməliyyatlarında hünərlə vuruşub, Cəbrayılın azad edilməsində igidlik göstərib. Qəhrəman əsgər oktyabrın 29-da Füzuli cəbhəsindəki qanlı döyüşlərdə misilsiz rəşadətlə vuruşaraq şəhadətə ucalıb. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 9-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Göytəpə şəhərində dəfn edilib. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021).*



## HƏSƏNOV
## Nemət Süleyman oğlu
**(28.01.1996 – 20.10.2020)**

Saatlı rayonunun Cəfərxan kəndində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Cəfərxan kənd orta məktəbində alıb. 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə xəttində – Tərtərdə xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. İgid əsgər döyüşlərə sentyabrın 29-da Füzuli cəbhəsində başlayıb, bu qanlı savaşlarda hünərlə vuruşub. Daha sonra Zəngilan uğrundakı həlledici döyüşlərdə misilsiz şücaət göstərib. Cəbrayıl və Qubadlının azad olunması uğrunda rəşadətlə savaşıb. Oktyabrın 20-də Qubadlı cəbhəsindəki şiddətli döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Saatlı rayonunun Sabirkənd kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Qubadlının azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## HƏSƏNOV
## Neymət Emin oğlu
**(11.11.1992 – 02.11.2020)**

İmişli rayonunun Qaralar kəndində anadan olub. Orta təhsilini 1999-2010-cu illərdə Qaralar kənd orta məktəbində alıb. 2011-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayandan bir gün sonra – sentyabrın 28-də ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb. Sentyabrın 30-dan Tərtər-Ağdərə cəbhəsində savaş meydanlarında olub, cəsurluqla döyüşüb. Cəbhənin Füzuli və Xocavənd istiqamətlərində həyata keçirilən əks-hücum əməliyyatlarında hünərlə iştirak edib. Qəhrəman əsgərin döyüş yolu Qubadlı və Zəngilan cəbhələrinə qədər uzanıb. Bu rayonlar uğrundakı qanlı döyüşlərdə rəşadət göstərib. Son döyüşü noyabrın 2-də olub. Həmin gün Zəngilan cəbhəsində gedən qızğın döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Qaralar kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## HƏSƏNOV
## Novruz Cumalı oğlu
### (20.02.1996 - 13.11.2020)

Gədəbəy şəhərində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Gədəbəy şəhəri 1 saylı orta məktəbdə alıb. 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Sentyabrın 29-dan - müharibənin ilk günlərindən ön cəbhəyə yollanaraq düşmənlə ölüm-dirim savaşına atılıb, bütün cəbhəboyu həyata keçirilən əks-hücum əməliyyatlarında hünərlə iştirak edib, bu qanlı döyüşlərdə şəxsi igidlik nümunəsi göstərib. Cəsur əsgər Murovdağ yüksəkliklərinin azad olunması uğrunda, Füzuli və Şuşa cəbhələrində gedən həlledici döyüşlərdə misilsiz rəşadətlə döyüşüb. Noyabrın 13-də Laçın dəhlizi istiqamətində növbəti döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub. Gədəbəy şəhərində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020).*



## HƏSƏNOV
## Nurlan Nadir oğlu
### (19.05.1991 - 01.10.2020)

Şuşa şəhərində anadan olub. Orta təhsilini 1997-2008-ci illərdə Bakıda yerləşən Şuşa şəhər 3 saylı orta məktəbdə alıb. 2012-ci ildə Azərbaycan Texnologiya Universitetini bitirib, elə həmin il də Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Hərbi xidmət dövründə xüsusi kurs keçərək leytenant rütbəsi alıb, müddətli xidmətini başa vurandan sonra 2013-2014-cü illərdə zabit kimi xidmət edib. 2014-cü ildə ehtiyata buraxılıb. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan zabit kimi yenidən orduya





çağırılaraq təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin leytenantı kimi zabit mundirində qarşılayıb. Füzuli və Cəbrayıl uğrunda igidliklə döyüşüb. Oktyabrın 1-də Füzuli cəbhəsindəki qanlı döyüşlərdə misilsiz şücaətlə savaşaraq şəhidlik zirvəsinə yüksəlib. Bakının Biləcəri qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## HƏSƏNOV
## Orxan Bəkir oğlu
### (09.05.1991 - 16.10.2020)

Gəncə şəhərində anadan olub. Orta təhsilini 1998-2009-cu illərdə Gəncə şəhəri 30 saylı orta məktəbdə alıb. 2009-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2014-cü ildə yenidən ordu sıralarına qayıtmağa qərar verib və müvafiq hazırlıq kursu keçəndən sonra xidmətini MAHHXHQ kimi davam etdirib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda Goranboyda xidmət edirdi. Müharibəni də Silahlı Qüvvələrin çavuşu kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk saatlarından düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi Füzuli cəbhəsindəki qanlı döyüşlərə atılıb, misilsiz rəşadətlə vuruşub. Cəbrayıl cəbhəsindəki həlledici döyüşlərdə şücaət göstərib. Cəsur döyüşçünün son savaşı oktyabrın 16-da olub. Həmin gün Cəbrayılın azadlığı uğrunda gedən qızğın döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Gəncə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020).*



## HƏSƏNOV
## Pərviz Fərmayıl oğlu
**(08.12.1989 – 06.11.2020)**

Samux rayonunun Poylu kəndində anadan olub. Orta təhsilini 1997-2008-ci illərdə Poylu kənd orta məktəbində alıb. 2009-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıtmağa qərar verib və 2012-ci ildən etibarən xidmətini MAHHXHQ – baş əsgər kimi davam etdirməyə başlayıb. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayanda savaşın elə ilk günlərindən qızğın döyüşlərə atılıb. Qəhrəman xüsusi təyinatlı döyüşçünün savaş yolu Füzuli, Cəbrayıl, Xocavənd, Qubadlı və Zəngilan cəbhələrindən keçib, bu rayonların azad edilməsi uğrunda igidliklə vuruşub. Şuşa uğrunda gedən həlledici döyüşlərdə əsl qəhrəmanlıq nümunəsi və şücaət göstərib, hünəri və qorxmazlığı ilə seçilib. Noyabrın 6-da Şuşa ətrafında gedən qanlı döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Poylu kəndində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020).*



## HƏSƏNOV
## Pərviz Yolçu oğlu
**(17.09.1990 – 20.10.2020)**

Beyləqan rayonunun Kəbirli kəndində anadan olub. Orta təhsilini 1997-2008-ci illərdə Kəbirli kənd orta məktəbində alıb. 2008-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və hərbi təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk saatlarından Füzuli cəbhəsində düşmənə qarşı amansız döyüşlərə atılaraq bir əsgər kimi rəşadətlə vuruşub. Daha sonra Cəbrayıl və Xocavənd uğrundakı qanlı vuruşmalarda misilsiz igidlik nümunəsi və şücaət göstərib. Oktyabrın 20-də Qubadlının azad olunması uğrundakı şiddətli döyüşlərin birində qəhrəmancasına savaşaraq şəhidlik məqamına yüksəlib. Kəbirli kəndində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Qubadlının azad olunmasına görə" medalı (2021).*







## HƏSƏNOV
## Rəvan Rövşən oğlu
**(25.08.2001 – 23.10.2020)**

Ağdaş rayonunun İkinci Aral kəndində anadan olub. 2016-cı ildə İkinci Aral kənd tam orta məktəbinin IX sinfini bitirib. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Cəbhə xəttində – Füzuli rayonunda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından ön xətdə olub və döyüş meydanlarına atılaraq düşmənlə ölüm-dirim mübarizəsinə girib, bir əsgər kimi misilsiz igidliklə vuruşub. Rəşadətli əsgərin döyüş yolu Füzuli cəbhəsində başlayıb, daha sonra Xocavənd cəbhəsində gedən həlledici döyüşlərdə iştirak edərək böyük hünər və şücaət göstərib, cəsurluğu ilə xüsusi fərqlənib. Son döyüşü oktyabrın 23-də olub. Həmin gün Füzuli cəbhəsində gedən şiddətli döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Doğulduğu İkinci Aral kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020).*



## HƏSƏNOV
## Röyal Arzu oğlu
### (02.01.1992 – 03.10.2020)

Gədəbəy rayonunun Qızılqaya kəndində anadan olub. Orta təhsilini 1998-2007-ci illərdə Gədəbəy rayon Çobankənd kənd orta məktəbində, 2007-2009-cu illərdə isə yerli kollecdə alıb. 2010-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə xəttində - Tərtərdə xidmət edib. Tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2012-ci ildən MAHHXHQ kimi davam etdirib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk saatlarından düşmənlə ölüm-dirim çarpışmasının getdiyi Murovda qanlı savaşlara atılaraq, qəhrəmancasına vuruşub. Kəlbəcər uğrundakı qızğın döyüşlərdə böyük hünər və şəxsi igidlik göstərən cəsur hərbçinin son döyüşü oktyabrın 3-də olub. Həmin gün Murovdağ yüksəklikləri uğrundakı şiddətli döyüşlərdə misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Qızılqaya kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020).*



## HƏSƏNOV
## Sadiq Əli oğlu
### (14.09.1986 – 20.10.2020)

Naxçıvan şəhərində anadan olub. Orta təhsilini 1992-2000-ci illərdə Naxçıvan şəhəri 4 saylı orta məktəbdə alıb. Təhsilini 2000-2003-cü illərdə C.Naxçıvanski adına Hərbi Liseydə davam etdirib. 2007-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. 2016-cı ildən xidmətini XTQ sıralarında davam etdirib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini SQ-nin mayoru kimi zabit mundirində





qarşılayıb. İlk gündən Füzulidə vuruşub. Hadrut, Cəbrayıl, Xocavənd və Qubadlı cəbhələrində hücum əməliyyatlarının hazırlanıb həyata keçirilməsində peşəkar kəşfiyyatçı kimi mühüm rol oynayıb. Rəşadətli zabit oktyabrın 20-də Qubadlı cəbhəsindəki qanlı döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Naxçıvan şəhərində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## HƏSƏNOV
## Sahib Azər oğlu
### (19.10.1999 – 17.10.2020)

Gəncə şəhərində anadan olub. Orta təhsilini 2006-2017-ci illərdə Gəncə şəhəri 16 saylı və 7 saylı orta məktəblərdə alıb. 2018-ci ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2019-cu ildə tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini 2020-ci ilin sentyabrından MAHHXHQ kimi davam etdirib, Şəmkirdə xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk günündən ağır döyüşlərə atılaraq qəhrəmancasına vuruşub. Cəbhənin Füzuli, Tərtər-Ağdərə və Kəlbəcər istiqamətlərindəki qanlı döyüşlərdə hünərlə iştirak edib, bu həlledici savaşlarda böyük şücaət və şəxsi igidlik nümunəsi göstərib. Qəhrəman əsgər oktyabrın 17-də Kəlbəcər istiqamətində gedən qızğın döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Gəncə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020).*



## HƏSƏNOV
## Səddam Aydın oğlu
(15.10.1992 – 17.10.2020)

Beyləqan rayonunun Yeni Mil qəsəbəsində anadan olub. 2010-cu ildə Yeni Mil qəsəbə orta məktəbini bitirib. 2010-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2013-cü ildə yenidən orduya qayıdıb, XTQ-nin gizir hazırlığı kursunu bitirərək Naxçıvanda xidmətə başlayıb. 2018-ci il Günnüt əməliyyatında şücaətlə iştirak edib. XTQ-nin kəşfiyyatçısı kimi xidmət edirdi. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda ilk gündən ağır döyüşlərə atılıb. Murovdağ və Ağdərə istiqamətlərində gedən döyüşlərdə misilsiz igidliklə vuruşub. Cəbrayıl və Qubadlının azad olunmasında şücaət göstərib. Oktyabrın 17-də Hadrut cəbhəsindəki qanlı döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Yeni Mil qəsəbəsində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Azərbaycan Bayrağı" ordeni (2021); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## HƏSƏNOV
## Səfər Elmar oğlu
(18.09.2001 – 16.10.2020)

Neftçala rayonunun Xıllı qəsəbəsində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Bakı şəhəri 66 saylı orta məktəbdə və Binə qəsəbəsində peşə məktəbində alıb. 2019-cu ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Döyüş bölgəsində – Goranboyda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin





əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından döyüş meydanlarına atılaraq düşmənlə ölüm-dirim mübarizəsinə girib, rəşadətlə vuruşub. Cəsur əsgər döyüşlərə Tərtər-Ağdərə cəbhəsində başlayıb, buradakı həlledici döyüşlərdə böyük hünər və şücaət göstərib. Oktyabrın 16-da Suqovuşan ətrafındakı şiddətli döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 21-də müəyyən edilərək ailəsinə təhvil verilib. Bakının Buzovna qəsəbəsində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## HƏSƏNOV
## Səxavət Alim oğlu
(13.11.1994 – 02.11.2020)

Gəncə şəhərində anadan olub. Orta təhsilini 2001-2012-ci illərdə Gəncə şəhəri 39 saylı orta məktəbdə alıb. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrında Vətən müharibəsi başlayandan bir gün sonra – sentyabrın 28-də ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb. Savaşın ilk günlərindən Füzuli və Cəbrayıl cəbhələrindəki qızğın döyüşlərdə hünərlə iştirak edib. Qəhrəman əsgərin döyüş yolu Qubadlı savaşlarına qədər davam edib. Qubadlı şəhərinin azad olunmasında və Laçın döyüşlərində qəhrəmanlıq göstərib. Noyabrın 2-də Laçının Güləbird kəndi ətrafındakı qanlı döyüşlərin birində şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Gəncə şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020).*



## HƏSƏNOV
## Sərxan Habil oğlu
### (08.03.1999 – 27.09.2020)

Tovuz rayonunun Əlibəyli kəndində anadan olub. 2014-cü ildə Tovuz rayon Hacallı kənd orta məktəbinin IX sinfini bitirib. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan bir neçə gün sonra yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini 2018-ci ilin yanvarından etibarən MAHHXHQ kimi davam etdirməyə başlayıb. Xidmətə Tovuzda başlayıb. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda Beyləqanda xidmət edirdi. Müharibənin ilk saatlarından düşmənlə amansız ölüm-dirim çarpışmasının getdiyi Füzuli cəbhəsində qızğın döyüşlərə atılaraq misilsiz şücaətlə vuruşub, iştirak etdiyi bu qanlı döyüşlərdə şəxsi igidlik və böyük qəhrəmanlıq nümunəsi göstərib. Rəşadətli əsgər müharibənin elə ilk günü - sentyabrın 27-də Füzuli cəbhəsində gedən şiddətli döyüşlərin birində hünərlə savaşaraq şəhadətə qovuşub. Doğulub boya-başa çatdığı Əlibəyli kəndində dəfn edilib. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "İgidliyə görə" medalı (2021).*



## HƏSƏNOV
## Sübhan Rauf oğlu
### (26.07.2001 – 04.10.2020)

Masallı şəhərində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Masallı rayon İsgəndərli kənd orta məktəbində alıb. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Döyüş bölgəsində - Goranboyda xidmət edirdi. 2020-ci il iyul Tovuz döyüşlərində şücaətlə vuruşub. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından döyüş meydanlarında





olub, düşmənlə ölüm-dirim savaşına atılaraq qəhrəmancasına vuruşub. Döyüşlərə Tərtər-Ağdərə cəbhəsində başlayıb, Talış kəndi və Suqovuşanın azad olunması uğrundakı həlledici döyüşlərdə qorxmazlığı və cəsurluğu ilə xüsusi fərqlənib. İgid əsgər oktyabrın 4-də Suqovuşan ətrafındakı qanlı döyüşlərdə misilsiz rəşadətlə vuruşaraq şəhadətə ucalıb. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 7-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Masallı şəhərində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## HƏSƏNOV
## Tacir Elşən oğlu
### (21.04.2001 – 14.10.2020)

Bakıda anadan olub. 2016-cı ildə Bakı şəhəri Pirşağı qəsəbəsi 10 saylı internat məktəbinin IX sinfini bitirib. 2019-cu ilin aprelində Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Cəbhə bölgəsində - Murovda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk saatlarından ön xətdə, savaş meydanlarında olub, xidmət etdiyi hərbi hissənin tərkibində düşmənlə qızğın döyüşlərə atılıb, iştirak etdiyi həlledici döyüşlərdə cəsurluğu ilə seçilib. Cəsur əsgər Füzuli və Cəbrayıl cəbhələrində gedən qanlı döyüşlərdə misilsiz rəşadətlə vuruşub. Xüsusilə Kəlbəcər döyüşlərində öz qorxmazlığı ilə fərqlənib, hünər göstərib. Son döyüşü oktyabrın 14-də olub. Həmin gün Kəlbəcər istiqamətində gedən şiddətli döyüşlərin birində qəhrəmancasına savaşaraq şəhidlik məqamına yüksəlib. Bakının Pirşağı qəsəbəsində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020).*



## HƏSƏNOV
## Tarix Sucayət oğlu
**(30.01.1986 – 02.10.2020)**

Ermənistanın Amasya rayonunun Təpəkənd kəndində anadan olub. Orta təhsilini 1992-2003-cü illərdə Göygöl rayon Çaykənd kənd orta məktəbində alıb. 2004-2006-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2009-cu ildən MAHHXHQ - baş əsgər kimi davam etdirib. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayanda Murovda xidmət edirdi. Savaşın ilk saatlarından xidmət etdiyi taborun heyətində qızğın döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Qəhrəman hərbçinin döyüş yolu əsasən Kəlbəcər cəbhəsindən keçib, bu həlledici döyüşlərdə böyük hünər göstərib. Oktyabrın 2-də Murovdağdakı qanlı döyüşlərin birində igidliklə savaşaraq şəhadətə ucalıb. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi 2021-ci il yanvarın 28-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Göygöl şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2021); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021).*



## HƏSƏNOV
## Teymur Mahal oğlu
**(03.04.1989 – 25.10.2020)**

Bakıda anadan olub. Orta təhsilini 1996-2007-ci illərdə Bakı şəhəri 153 saylı orta məktəbdə alıb. 2011-ci ildə Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını bitirib və elə həmin il də Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, Goranboyda xidmət edib. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına qoşulmaq üçün könüllü müraciət edib. Həmin





il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ordu sıralarına çağırılıb. Füzuli və Cəbrayıl istiqamətlərində həyata keçirilən əks-hücum əməliyyatlarında hünərlə iştirak edib, Qubadlı uğrundakı qanlı döyüşlərdə rəşadətlə vuruşub. Oktyabrın 25-də Füzuli cəbhəsindəki şiddətli döyüşlər zamanı misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. II Fəxri xiyabanda dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021); "Qubadlının azad olunmasına görə" medalı (2021).*



## HƏSƏNOV
## Təbriz Rəşid oğlu
**(25.08.1994 – 29.09.2020)**

Bərdə rayonunun Qaradəmirçi kəndində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Bərdə rayon Xanağalı kənd orta məktəbində alıb. 2012-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2014-cü ildən MAHHXHQ kimi davam etdirib. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayanda cəbhə xəttində – Tərtərdə xidmət edirdi. Müharibənin ilk saatlarından Tərtər-Ağdərə cəbhəsi səngərlərində olub, xidmət etdiyi taborun heyətində şiddətli döyüşlərə atılaraq igidliklə vuruşub. Cəsur əsgər Ağdərə uğrunda qızğın savaşlarda misilsiz rəşadət göstərib. Sentyabrın 29-da Ağdərə cəbhəsindəki qanlı döyüşlərdə hünərlə savaşaraq şəhadətə qovuşub. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 17-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Qaradəmirçi kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## HƏSƏNOV
## Tofiq Etibar oğlu
**(21.11.1989 – 30.09.2020)**

Gədəbəy rayonunun Cəfərli kəndində anadan olub. Orta təhsilini 1996-2007-ci illərdə Cəfərli kənd orta məktəbində alıb. 2008-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2009-cu ildən etibarən MAHHXHQ kimi davam etdirib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin baş çavuşu kimi əldə silah səngərlərdə qarşılayıb, döyüşə birinci atılanlardan olub. İgid döyüşçü Kəlbəcər cəbhəsində gedən qanlı savaşlarda qəhrəmancasına vuruşub, cəsurluğu və hünəri ilə xüsusi fərqlənib. Murovdağın və bir sıra yüksəkliklərin azad olunması uğrundakı qızğın döyüşlərdə böyük şücaət göstərib. Sentyabrın 30-da Kəlbəcər cəbhəsində gedən şiddətli döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Doğulduğu Cəfərli kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *“Vətən uğrunda” medalı (2020); “Kəlbəcərin azad olunmasına görə” medalı (2020); “Hərbi xidmətlərə görə” medalı (2021).*



## HƏSƏNOV
## Tural Rauf oğlu
**(15.06.1997 – 30.12.2020)**

Qaradağ rayonunun Sahil qəsəbəsində anadan olub. Orta təhsilini 2003-2014-cü illərdə Qaradağ rayonu Ümid qəsəbəsi 294 saylı orta məktəbdə alıb. 2018-ci ildə Lənkəran Dövlət Universitetini bitirib. 2018-ci ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, döyüş bölgəsində - Ağcabədi və Füzulidə xidmət edib. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi səfərbərliyə alınaraq yenidən ordu sıralarına çağırılıb





və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsinin ilk günündən xidmət etdiyi hərbi hissənin tərkibində Füzuli cəbhəsində düşmənlə ölüm-dirim savaşına atılıb, şücaətlə vuruşub. İgid əsgərin döyüş yolu Füzuli və Cəbrayıl cəbhələrindəki qanlı savaşlardan keçib, bu döyüşlərdə hünəri ilə fərqlənib. Şuşanın azad olunmasında misilsiz rəşadət göstərib. Dekabrın 30-da Xocavənd ərazisində xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olub. Sahil qəsəbəsində dəfn edilib. Subay idi.

**Təltifləri:** *“Cəbrayılın azad olunmasına görə” medalı; “Füzulinin azad olunmasına görə” medalı (2020) - (hər ikisi sağlığında).*



## HƏSƏNOV
## Tural Tapdıq oğlu
**(16.07.1994 – 01.10.2020)**

Mingəçevir şəhərində anadan olub. 2011-ci ildə Mingəçevir şəhəri 10 saylı orta məktəbi bitirib. 2011-2014-cü illərdə Mingəçevir Turizm Kollecində təhsil alıb. 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk saatlarından döyüş meydanlarında olub, rəşadətlə savaşıb. Qəhrəman əsgər Tərtər-Ağdərə cəbhəsi boyunca həyata keçirilən əks-hücum əməliyyatlarında iştirak edib, Suqovuşan uğrundakı qanlı döyüşlərdə şücaət göstərib. Oktyabrın 1-də Suqovuşan-Ağdərə istiqamətindəki qızğın döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Mingəçevir şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *“Vətən uğrunda” medalı (2020); “Suqovuşanın azad olunmasına görə” medalı (2021); “Cəsur döyüşçü” medalı (2021).*



## HƏSƏNOV
## Ülvi Natiq oğlu
### (31.12.2001 – 08.11.2020)

Mingəçevir şəhərində anadan olub. Orta təhsilini 2008-2019-cu illərdə Mingəçevir şəhəri 17 saylı orta məktəbdə alıb. 2019-cu ildə Ağdam Dövlət Sosial-İqtisad Kollecinə qəbul olub. 2020-ci ilin yanvarında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, Beyləqanda xidmət edirdi. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. İlk gündən döyüş meydanlarında olub, xidmət etdiyi hərbi hissənin tərkibində düşmənlə ölüm-dirim savaşına atılaraq rəşadətlə vuruşub. Döyüşlərə Füzuli cəbhəsində başlayıb, Cəbrayıl, Xocavənd, Hadrut uğrundakı həlledici döyüşlərdə öz cəsurluğu ilə fərqlənib. İgid əsgərin son döyüşü Şuşada olub. Noyabrın 8-də Şuşa döyüşlərində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Mingəçevir şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021).*



## HƏSƏNOV
## Vurğun Ağası oğlu
### (06.08.1995 – 21.10.2020)

Siyəzən şəhərində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Siyəzən şəhəri 1 və 3 saylı orta məktəblərdə alıb. 2013-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, xidmətini cəbhə xəttində – Tovuzda başa vurub. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına yazılmaq üçün könüllü olaraq müraciət edib. Həmin il sentyabrın 21-də Silahlı





Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini əldə silah döyüş meydanlarında qarşılayıb. Cəsur əsgər ilk gündən Füzuli cəbhəsində düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq rəşadətlə döyüşüb. Cəbrayıl və Xocavənd uğrundakı qanlı savaşlarda misilsiz şücaət göstərib. Oktyabrın 21-də Xocavənd-Şuşa istiqamətində gedən şiddətli döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Siyəzən şəhərində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021).*



## HƏSƏNOV
## Vüsal Ariz oğlu
### (03.07.1997 – 11.10.2020)

Bakıda anadan olub. Orta təhsilini 2003-2014-cü illərdə Bakı şəhəri 49 və 239 saylı orta məktəblərdə alıb. Daha sonra təhsilini 2014-2016-cı illərdə Azərbaycan Dövlət Dəmir Yolu Liseyində davam etdirib. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə zonasında – Ağcabədidə xidmət edib. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və hərbi təlimlərə cəlb edilib. Bir həftədən sonra başlayan Vətən müharibəsini əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk günlərindən düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi Füzuli cəbhəsində qanlı döyüşlərə atılaraq qəhrəmancasına vuruşub, bu həlledici döyüşlərdə şəxsi igidlik nümunəsi göstərib. Qəhrəman əsgərin son döyüşü oktyabrın 11-də olub. Həmin gün Füzulinin Seyidbəyli kəndi ətrafında gedən qızğın döyüşlərin birində misilsiz rəşadətlə savaşaraq şəhid olub. Şabran rayonunun Zeyvə kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## HƏSƏNOV
## Vüsal Bayram oğlu
(17.03.1986 – 08.11.2020)

Göygöl şəhərində anadan olub. 2003-cü ildə Göygöl şəhəri 6 saylı orta məktəbi bitirib. 2004-2005-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb, sentyabrın 30-da cəbhəyə yollanıb. Müharibənin ilk günlərindən savaş meydanlarında olub, düşmənlə ölüm-dirim çarpışmasına atılaraq misilsiz rəşadətlə vuruşub. İgid əsgərin döyüş yolu Füzuli, Cəbrayıl, Zəngilan cəbhələrindəki səngərlərdən keçib, bu rayonlar uğrunda gedən qanlı savaşlarda hünər göstərib, cəsurluğu ilə fərqlənib. Şuşa döyüşləri zamanı yaralansa da, savaş meydanını tərk etməyib. Noyabrın 8-də Şuşa uğrundakı həlledici döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Göygöl şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltiflər:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020).*



## HƏSƏNZADƏ
## Əbülhəsən Mirzə oğlu
(20.08.1997 – 05.11.2020)

Lənkəran rayonunun Havzava kəndində anadan olub. Orta təhsilini 2003-2014-cü illərdə Havzava kənd orta məktəbində alıb. 2015-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, döyüş bölgəsində – Tərtərdə xidmət edib. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və hərbi təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini kəşfiyyatçı-əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən döyüş meydanlarında olub, rəşadətlə savaşıb. Qəhrəman əsgər Füzuli və Qubadlı cəbhələrindəki qanlı döyüşlərdə hünərlə iştirak edib, böyük şücaət göstərib. Noyabrın 5-də Şuşa uğrunda gedən həlledici döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Havzava kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021).*



## HƏSƏNZADƏ
## Famil Şiraslan oğlu
(22.03.1994 – 08.11.2020)

Beyləqan rayonunun Kəbirli kəndində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Kəbirli kənd orta məktəbində alıb. 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Təxris olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2014-cü ildən MAHHXHQ kimi davam etdirib, Füzulidə xidmət edirdi. 2016-cı il Aprel döyüşlərində igidliklə iştirak edərək hünər göstərib. 2020-ci ilin sentyabrında SQ-nin Təlim-Tədris Mərkəzində gizir hazırlığı kursunu başa vuraraq Beyləqanda xidmətə başlayıb. Bundan bir neçə gün sonra başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin giziri kimi səngərlərdə qarşılayıb, döyüşə ilk atılanlardan olub. Füzuli və Cəbrayıl döyüşlərində rəşadətlə vuruşub. Xocavənd və Şuşa istiqamətlərindəki qızğın döyüşlərdə şəxsi igidlik göstərib. Noyabrın 8-də Şuşa uğrunda gedən qanlı döyüşlərdə misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Kəbirli kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2021).*



## HƏSƏNZADƏ
## Məhəmmədəli Hörmət oğlu
### (01.05.1999 – 06.11.2020)

Sumqayıt şəhərində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Sumqayıt şəhərində yerləşən Qubadlı rayon Yuxarı Mollu kənd orta məktəbində alıb. 2020-ci ildə Azərbaycan Turizm və Menecment Universitetini bitirib. 2020-ci ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından döyüş meydanlarında olub, xidmət etdiyi hərbi hissənin tərkibində Füzuli cəbhəsindəki qanlı döyüşlərə atılıb, qəhrəmancasına vuruşub. Daha sonra Cəbrayıl, Ağdam, Xocavənd cəbhələrindəki qızğın savaşlarda igidlik göstərib. Cəsur əsgərin son döyüşü noyabrın 6-da olub. Həmin gün Xocavənd ətrafındakı həlledici döyüşlərdə hünərlə vuruşaraq şəhadətə qovuşub. Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Döyüşdə fərqlənməyə görə" medalı (2021).*



## HƏSRƏTOV
## Elməddin Sərdar oğlu
### (21.05.1997 – 27.06.2021)

Goranboy rayonunun Qarasuçu kəndində anadan olub. Orta təhsilini 2003-2014-cü illərdə Qarasuçu kənd orta məktəbində alıb. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Cəbhə bölgəsində - Beyləqanda xidmət edib. 2016-cı il Aprel döyüşlərində hünər göstərib. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2019-





cu ildən MAHHXHQ kimi davam etdirib. 2020-ci il iyul Tovuz döyüşlərində iştirak edərək özünü cəsur döyüşçü kimi göstərib. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsinin ilk günündən ön xətdə olub, Murovdağ istiqamətində qanlı döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Kəlbəcər uğrundakı həlledici döyüşlərdə şücaət göstərən igid əsgər ailəsi ilə sonuncu dəfə oktyabrın 2-də əlaqə saxlayıb. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi 2021-ci il iyunun 27-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Qarasuçu kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021).*



## HƏŞİMLİ
## Cəmil Əflatun oğlu
### (11.08.1995 – 05.10.2020)

Kürdəmir şəhərində anadan olub. Orta təhsilini 2001-2012-ci illərdə Kürdəmir şəhər 3 saylı orta məktəbdə alıb. 2013-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və 2016-cı ildə SQ-nin Təlim-Tədris Mərkəzində kurs keçərək MAHHXHQ kimi xidmətə başlayıb. Cəbhə xəttində - işğaldan təzə azad olunmuş Lələtəpədə xidmət edib. 2020-ci ilin fevralında xüsusi təyinatlılar sırasına qoşulmaq üçün kurs keçib. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin giziri kimi əldə silah səngərlərdə qarşılayıb, düşmənlə ölüm-dirim savaşının getdiyi Füzuli cəbhəsində qəhrəmancasına vuruşub. Cəbrayıl və Xocavənd istiqamətlərindəki qanlı döyüşlərdə hünər göstərib. Oktyabrın 5-də misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Kürdəmir şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## HƏŞİMOV
## Fərrux Mirzəmməd oğlu
(24.03.1988 – 31.10.2020)

Sumqayıt şəhərində anadan olub. Orta təhsilini 1994-2002-ci illərdə Sumqayıt şəhəri 1 saylı təbiət elmləri gimnaziyasında və 1 saylı məktəbdə alıb. 2005-ci ildə C.Naxçıvanski adına Hərbi Liseyi, 2009-cu ildə isə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsi ilə bitirərək zabit kimi xidmətə başlayıb. 2013-cü ildə SAH xüsusi təyinatlılar sıralarına qoşulub. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin kapitan-leytenantı kimi zabit mundirində qarşılayıb. İlk gündən düşmənlə ölüm-dirim savaşına atılaraq misilsiz igidliklə döyüşüb. Füzuli, Cəbrayıl və Qubadlının uğrunda gedən qanlı döyüşlərdə şücaət göstərib. Rəşadətli zabit oktyabrın 31-də Xocavənd cəbhəsindəki şiddətli döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Qarabağ" ordeni (2020); "Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020).*



## HƏŞİMOV
## Nağı Anar oğlu
(20.08.1998 – 29.09.2020)

Gəncə şəhərində anadan olub. İlk təhsilini 2004-2012-ci illərdə Gəncə şəhəri 1 saylı orta məktəbdə alıb. 2012-2015-ci illərdə C.Naxçıvanski adına Hərbi Liseydə oxuyub. Liseyi bitirəndən sonra təhsilini 2015-2019-cu illərdə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində davam etdirib. 2019-cu ildə AAHM-i leytenant rütbəsində





bitirərək zabit kimi xidmətə başlayıb, cəbhə bölgəsində – Ağcabədidə xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin leytenantı kimi zabit mundirində qarşılayıb, ilk gündən döyüş meydanlarında olub. Cəbhənin Füzuli və Xocavənd istiqamətlərindəki şiddətli döyüşlərdə şücaətlə savaşıb, rəşadət və hünər göstərib. Qəhrəman zabit sentyabrın 29-da Xocavənd cəbhəsində gedən qanlı döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Gəncə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021); 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2021).*



## HƏZİYEV
## Hafiz Varoğlu oğlu
(23.10.1993 – 05.10.2020)

Ağcabədi rayonunun Yeni Qaradolaq kəndində anadan olub. Orta təhsilini 1999-2010-cu illərdə Qaradolaq kənd orta məktəbində alıb. 2011-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Şəmkirdə xidmət edib. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına yazılmaq üçün könüllü olaraq müraciət edib və qeydiyyatdan keçib. Həmin il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb. Sentyabrın 29-da cəbhəyə yola düşərək düşmənə qarşı amansız döyüşlərə atılıb. Döyüşlərə Cəbrayıl cəbhəsində başlayıb, burada gedən qanlı vuruşmalarda qəhrəmanlıq göstərib. İgid əsgərin son savaşı oktyabrın 5-də olub. Həmin gün Füzulinin azad olunması uğrundakı qızğın döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Yeni Qaradolaq kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## HƏZİYEV
## Xəyal Feyruz oğlu
**(20.12.1987 - 14.10.2020)**

Ağcabədi şəhərində anadan olub. 2003-cü ildə Ağcabədi şəhəri 4 saylı orta məktəbin IX sinfini bitirib, təhsilini Bakıda texniki peşə məktəbində davam etdirib. 2006-2007-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə xəttində - Murovda xidmət edib. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra könüllü olaraq ordu sıralarına yazılmaq üçün müraciət edib. Həmin il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Sentyabrın 29-da cəbhəyə yollanaraq düşmənlə ölüm-dirim savaşına atılıb, qatıldığı döyüşlərdə igidliklə iştirak edib. Cəsur əsgər Füzuli və Xocavənd uğrundakı həlledici döyüşlərdə misilsiz rəşadətlə vuruşub. Xocavənd uğrunda gedən qanlı savaşlarda qəhrəmanlıq göstərib. Oktyabrın 14-də Füzuli cəbhəsindəki şiddətli döyüşlərdə hünərlə vuruşaraq şəhadətə qovuşub. Ağcabədi şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## HİLALOV
## Araz Elburus oğlu
**(01.04.1979 - 05.10.2020)**

Füzuli rayonunun Balabəhmənli kəndində anadan olub. Orta təhsilini 1986-1996-cı illərdə Balabəhmənli kənd orta məktəbində alıb. 1997-1999-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2014-cü ildən kiçik çavuş rütbəsində MAHHXHQ kimi davam etdirməyə başlayıb. Cəbhə xəttində - Füzulidə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan





Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb. İgid hərbçinin döyüş yolu əsasən Füzuli və Xocavənd cəbhələri səngərlərindən keçib. Xocavənd uğrundakı qızğın döyüşlərdə qəhrəmancasına savaşıb, böyük hünər göstərib. Oktyabrın 5-də Füzulinin Seyidəhmədli kəndi uğrunda gedən şiddətli döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Balabəhmənli kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## HÜMBƏTOV
## Azad Arif oğlu
**(24.01.1996 - 27.10.2020)**

Bakıda anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Bakı şəhəri 291 saylı liseydə alıb. 2013-cü ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub, 2017-ci ildə AAHM-i leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb, cəbhə xəttində - Füzulidə xidmət edirdi. SQ TTM-də zabit heyətinin təkmilləşdirilməsi kursunu keçib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin baş leytenantı kimi zabit mundirində qarşılayıb, savaşın ilk günündən ağır döyüşlərə atılaraq misilsiz şücaətlə vuruşub. Rəşadətli zabitin döyüş yolu əsasən Füzuli səngərlərində başlayıb, bu döyüşlərdə igidlik göstərib. Daha sonra Cəbrayıl, Qubadlı, Laçın və Zəngilanın azadlığı uğrundakı döyüşlərdə hünərlə savaşıb. Yaralansa da, müalicəsini yarımçıq qoyaraq döyüş meydanına qayıdıb. Oktyabrın 27-də Füzuli cəbhəsindəki qanlı savaşların birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. II Fəxri xiyabanda dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən Müharibəsi Qəhrəmanı" adı (2020); "Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020).*



## HÜMBƏTOV
## Emil Tərlan oğlu
(30.10.1992 – 11.10.2020)

Şirvan şəhərində anadan olub. 2007-ci ildə Şirvan şəhəri 9 saylı orta məktəbin IX sinfini, 2009-cu ildə Şirvan şəhərindəki peşə məktəbini bitirib. 2011-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına yazılmaq üçün könüllü olaraq müraciət edib. Həmin il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsinin elə ilk günü Füzuli cəbhəsinə göndərilib. Savaşın ilk saatlarından döyüş meydanlarında olub, hünərlə vuruşub. Füzuli rayonunun azad olunması uğrundakı qanlı döyüşlərdə şücaəti ilə fərqlənib. Rayonun Qaraxanbəyli kəndinin işğaldan azad edilməsində misilsiz rəşadət göstərib. Qəhrəman əsgər oktyabrın 11-də Füzuli cəbhəsindəki şiddətli döyüşlərdə igidliklə vuruşaraq şəhadətə ucalıb. Şirvan şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "İgidliyə görə" medalı (2021).*



## HÜMBƏTOV
## İlqar Vüqar oğlu
(13.06.1996 – 13.10.2020)

Bakıda anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Ağsu rayon Dilman kənd orta və Bakı şəhəri 116 saylı orta məktəblərində alıb. 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına yazılmaq üçün könüllü olaraq müraciət edib. Həmin il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və hərbi təlimlərə





cəlb olunub. Bir həftədən sonra Vətən müharibəsi başlayanda savaşın ilk saatlarından ağır döyüşlərə atılaraq rəşadətlə vuruşub. Cəsur əsgərin döyüş yolu Tərtər-Ağdərə cəbhəsi səngərlərindən keçib, Talış və Suqovuşan uğrundakı qanlı vuruşmalarda misilsiz qəhrəmanlıq nümunəsi göstərib. Oktyabrın 13-də Suqovuşan ətrafında gedən qızğın döyüşlərin birində şücaətlə savaşaraq şəhidlik zirvəsinə yüksəlib. Nəşi oktyabrın 25-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Ağsu rayonunun Dilman kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## HÜMBƏTOV
## İmaməddin Muxtar oğlu
(05.09.1998 – 19.10.2020)

Naxçıvan MR Babək rayonunun Payız kəndində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Payızlı kənd orta məktəbində alıb. 2016-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Naxçıvanda xidmət edib. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2019-cu ildən xüsusi təyinatlılar sırasında MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu kimi mundirdə qarşılayıb. İlk günlərdən ön cəbhədə olub. Döyüşlərə Xocavənd cəbhəsində başlayıb, rəşadətlə vuruşub. İgid kəşfiyyatçı-əsgər Hadrut qəsəbəsinin və Şuşa şəhərinin azadlığı uğrundakı qanlı savaşlarda misilsiz şücaətlə vuruşub. Oktyabrın 19-da Hadrut ətrafındakı qızğın döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Doğulduğu Payız kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## HÜMBƏTOV
## Nurəddin İlqar oğlu
### (26.12.1998 – 09.11.2020)

Samux rayonunun Nəbiağalı qəsəbəsində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Samux şəhəri 1 saylı orta məktəbdə alıb. 2017-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2020-ci ilin mayından MAHHXHQ kimi davam etdirib. Murovda xidmət edirdi. 2020-ci il iyul Tovuz döyüşlərində hünərlə iştirak edib. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah Füzuli cəbhəsi səngərlərində qarşılayıb. Savaşın ilk saatlarından düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq igidliklə vuruşub. Tərtər-Ağdərə və Kəlbəcər cəbhələrindəki döyüşlərdə şücaət göstərib. Qəhrəman əsgər daha sonra XTQ sıralarına qoşularaq Şuşa uğrunda döyüşlərə atılıb. Noyabrın 9-da Şuşa ətrafındakı qanlı döyüşlərdə misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Samux şəhərində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020);*
*"Döyüşdə fərqlənməyə görə" medalı (2020);*
*"Şuşanın azad olunmasına görə" medalı (2020);*
*"Kəlbəcərin azad olunmasına görə" medalı (2020).*



## HÜMBƏTOV
## Ruslan Səlim oğlu
### (20.05.1987 – 06.10.2020)

Samux rayonunda anadan olub. Orta təhsilini 1994-2004-cü illərdə Gəncə şəhəri 17 saylı orta məktəbdə alıb. 2006-2008-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Təxris olunandan bir müddət sonra SQ Təlim-Tədris Məktəbində gizir hazırlığı kursu keçib. Füzulidə xidmət edirdi. 2016-cı il Aprel döyüşlərində şücaət göstərib. 2018-ci ildən xidmətini XTQ





sıralarında davam etdirib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin giziri, xüsusi təyinatlıların baş kəşfiyyatçısı kimi əldə silah qarşılayıb. Rəşadətli döyüşçü Füzuli, Cəbrayıl, Suqovuşan, Murovdağ döyüşlərində misilsiz igidliklə vuruşub. Oktyabrın 6-da Cəbrayıl istiqamətindəki qanlı döyüşdə qəhrəmancasına savaşaraq şəhidlik məqamına yüksəlib. Gəncə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020);*
*"Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021);*
*"Azərbaycan Bayrağı" ordeni (2021).*



## HÜMBƏTOV
## Səfayət Ələddin oğlu
### (17.02.1987 – 29.09.2020)

Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olub. Orta təhsilini 1994-2004-cü illərdə Yeni Daşkənd kənd orta məktəbində alıb. 2005-2007-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Döyüş bölgəsində – Tərtərdə xidmət edib. 2020-ci ildə yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu kimi əldə silah Tərtər-Ağdərə cəbhəsi səngərlərində qarşılayıb. Cəsur əsgər savaşın ilk saatlarından düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq rəşadətlə vuruşub, qorxmazlığı ilə xüsusi fərqlənib. Suqovuşan döyüşlərində misilsiz şücaət göstərib. Sentyabrın 29-da Tapqaraqoyunlu kəndi istiqamətində gedən qanlı döyüşlərdə igidliklə savaşaraq şəhadətə ucalıb. Doğulub boya-başa çatdığı Yeni Daşkənd kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020);*
*"Laçının azad olunmasına görə" medalı (2020);*
*"Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## HÜMBƏTOV
## Şahin Əlicuvan oğlu
**(24.11.1986 - 26.10.2020)**

Sabirabad rayonunun Minbaşı kəndində anadan olub. Orta təhsilini 1993-2004-cü illərdə Şirvan şəhəri 3 saylı və Sabirabad rayon Qaraağac kənd orta məktəblərində alıb. 2005-2006-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və TTM-də xüsusi kurs keçərək xidmətini MAHHXHQ kimi davam etdirib. 2015-ci ildən XTQ sıralarında xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kiçik çavuşu kimi səngərlərdə qarşılayıb, ilk gündən Kəlbəcər cəbhəsindəki qızğın döyüşlərə atılıb, misilsiz rəşadətlə vuruşub. Xocavənd döyüşlərində böyük qəhrəmanlıq göstərib. Oktyabrın 26-da Xocavənd uğrundakı qanlı savaşların birində şücaətlə döyüşərək şəhidlik zirvəsinə yüksəlib. Sabirabad rayonunun Qaraağac kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Azərbaycan Bayrağı" ordeni (2021).*



## HÜMBƏTZADƏ
## Şahmuraz Əyyub oğlu
**(08.09.1998 - 22.10.2020)**

Bərdə rayonunun Cəyirli kəndində anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Cəyirli kənd orta məktəbində alıb. 2016-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu





sıralarına çağırılıb. Sentyabrın 29-da ön cəbhəyə yollanaraq düşmənlə qızğın döyüşlərə atılıb. Döyüşlərə Tərtər-Ağdərə cəbhəsində başlayan cəsur əsgər bu qanlı savaşlarda misilsiz rəşadətlə vuruşub. Talış və Suqovuşanın işğaldan azad olunması uğrunda gedən həlledici döyüşlərdə qəhrəmanlıq nümunəsi göstərib, qorxmazlığı və şəxsi igidliyi ilə xüsusi fərqlənib. Son döyüşü oktyabrın 22-də Tərtər-Ağdərə cəbhəsində olub. Həmin gün Suqovuşan ətrafında gedən şiddətli döyüşlərin birində hünərlə savaşaraq şəhadətə qovuşub. Bərdə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## HÜMMƏTOV
## İzzət Müşviq oğlu
**(09.09.1996 - 12.10.2020)**

Şabran rayonunun Uzunboyad kəndində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Uzunboyad kənd orta məktəbində alıb. 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə xəttində - Füzulidə xidmət edib. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2019-cu ildən MAHHXHQ kimi davam etdirib. Daha sonra XTQ sıralarına cəlb olunub. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayanda elə ilk gündən qanlı savaşlara atılaraq qəhrəmancasına döyüşüb. Füzuli və Cəbrayıl cəbhələrindəki həlledici döyüşlərdə şücaətlə vuruşaraq şəxsi igidlik nümunəsi göstərib. İgid əsgərin son savaşı oktyabrın 12-də olub. Həmin gün Füzuli cəbhəsindəki şiddətli döyüşlərdə misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Nəşi oktyabrın 30-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Uzunboyad kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## HÜMMƏTOV
## Tural Rövşən oğlu
## (20.05.1998 – 06.11.2020)

Lənkəran rayonunun Tatoba kəndində anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Tatoba kənd orta məktəbində alıb. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi səfərbərliyə alınaraq yenidən ordu sıralarına çağırılıb və hərbi təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən düşmənlə ölüm-dirim savaşının getdiyi Füzuli cəbhəsindəki qanlı döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Daha sonra Cəbrayıl və Xocavənd istiqamətindəki ağır döyüşlərdə iştirak edərək böyük şücaət göstərib. Döyüş yolu Şuşaya qədər davam edib. Qəhrəman əsgərin son döyüşü də bu cəbhədə olub. Noyabrın 6-da Xocavənd-Şuşa istiqamətindəki qanlı döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Doğulduğu Tatoba kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020).*



## HÜSEYİNOV
## Bəhruz Yavər oğlu
## (17.01.1994 – 19.10.2020)

Salyan rayonunun Birinci Varlı kəndində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Birinci Varlı və Yolüstü kənd orta məktəblərində alıb. 2015-ci ildə Azərbaycan Texniki Universitetini bitirib, elə həmin il də Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2016-cı il Aprel döyüşlərində qəhrəmancasına vuruşub. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb





olunub. Bir həftədən sonra Vətən müharibəsi başlayanda savaşın ilk saatlarından Füzuli cəbhəsində ağır döyüşlərə atılıb, bu qanlı vuruşmalarda misilsiz rəşadət göstərib. İgid əsgər Xocavənd və Cəbrayıl cəbhələrində gedən şiddətli döyüşlərdə hünərlə vuruşub. Oktyabrın 19-da Xocavənd uğrundakı qızğın döyüşlərin birində şücaətlə savaşaraq şəhidlik zirvəsinə yüksəlib. Birinci Varlı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021).*



## HÜSEYİNOV
## Elbrus Laçın oğlu
## (26.03.1996 – 08.10.2020)

Şəmkir rayonunun Çaparlı kəndində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Çaparlı kənd orta məktəbində alıb. 2014-cü ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, Beyləqanda xidmət edib. 2016-cı il Aprel döyüşlərində igidliklə savaşıb. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini XTQ sıralarında kəşfiyyatçı kimi davam etdirməyə başlayıb. 2020-ci il iyul Tovuz döyüşlərində iştirak edərək özünü qorxubilməz bir əsgər kimi göstərib. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsinin ilk saatlarından ön xətdə olub, misilsiz rəşadətlə vuruşub. Döyüşlərə Kəlbəcər cəbhəsində başlayıb. Sonra Füzuli və Hadrut uğrundakı qanlı savaşlarda şücaət göstərib. Cəsur əsgər oktyabrın 8-də Murovdağ cəbhəsindəki şiddətli döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 19-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Çaparlı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Vətən uğrunda" medalı (2021).*



## HÜSEYİNOV
## Elbrus Nadir oğlu
### (04.03.1991 – 17.10.2020)

Yevlax rayonunun Əkşəm kəndində anadan olub. Orta təhsilini 1997-2008-ci illərdə Göygöl rayon Çaykənd kənd orta məktəbində alıb. 2009-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. DSX Sərhəd Qoşunlarında xidmət edib. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2014-cü ildən DİN Daxili Qoşunlarında MAHHXHQ kimi davam etdirib, Qazaxda xidmət edib. Daha sonra Kəlbəcərdə Milli Ordu sıralarında baş çavuş kimi xidmət edib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb. Kəlbəcər və Cəbrayıl cəbhələrindəki qanlı döyüşlərdə igidliklə savaşıb, şücaəti və qorxmazlığı ilə seçilib. Qəhrəman döyüşçü oktyabrın 17-də Cəbrayıl istiqamətində gedən qızğın savaşların birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Göygöl şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020).*



## HÜSEYİNOV
## Eşqin Cəsarət oğlu
### (20.01.1998 – 29.09.2020)

Tərtər rayonunun Hüsənli kəndində anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Hüsənli kənd orta məktəbində alıb. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2019-cu ildən etibarən MAHHXHQ kimi davam etdirib. Sonuncu xidmət yeri cəbhə





bölgəsində – Tərtər rayonunda idi. 2020-ci il iyul Tovuz döyüşlərində hünərlə iştirak edərək özünü qorxubilməz döyüşçü kimi göstərib. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsinin ilk saatlarından ön xətdə olub, düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq igidliklə döyüşüb. Rəşadətli əsgərin döyüş yolu Tərtər-Ağdərə cəbhəsi səngərlərindən keçib, Suqovuşan və Ağdərə uğrundakı həlledici döyüşlərdə misilsiz şücaət göstərib. Sentyabrın 29-da Suqovuşan cəbhəsindəki qanlı döyüşlərin birində qəhrəmancasına savaşaraq şəhidlik məqamına yüksəlib. Doğulduğu Hüsənli kəndində dəfn edilib. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021).*



## HÜSEYİNOV
## Ələm Sərvər oğlu
### (03.01.1996 – 30.10.2020)

Saatlı rayonunun Azadkənd kəndində anadan olub. 2013-cü ildə Azadkənd kənd orta məktəbini, 2015-ci ildə Saatlı rayon Peşə Məktəbini bitirib. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Qazaxda xidmət edib. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayandan bir gün sonra – sentyabrın 28-də ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. İlk günlərdən savaş meydanlarında olub, cəsurluqla döyüşüb. Qəhrəman əsgər Füzuli, Xocavənd, Cəbrayıl, Zəngilan və Qubadlı uğrundakı qanlı savaşlarda misilsiz şücaət göstərib. Oktyabrın 30-da Qubadlı cəbhəsindəki qızğın döyüşlərin birində igidliklə vuruşaraq şəhadətə ucalıb. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi 2021-ci il yanvarın 16-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Azadkənd kəndində dəfn edilib. Nişanlı idi.

**Təltifləri:** *"Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Qubadlının azad olunmasına görə" medalı (2021); "Vətən uğrunda" medalı (2021).*



## HÜSEYİNOV
## Əsgər Vaqif oğlu
### (23.12.1998 – 25.10.2020)

Balakən rayonunun Kortala kəndində anadan olub. Orta təhsilini 2005-2014-cü illərdə Kortala kənd orta məktəbində alıb. Təhsilini 2014-2016-cı illərdə Zaqatala rayonu Əliabad İslam Kollecində davam etdirib. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb, sentyabrın 29-dan düşmənlə ölüm-dirim savaşına atılaraq qəhrəmancasına döyüşüb. İgid əsgərin döyüş yolu Füzuli, Cəbrayıl və Xocavənd cəbhələri səngərlərindən keçib, bu rayonlar uğrunda gedən qanlı döyüşlərdə böyük hünər göstərib. Oktyabrın 25-də Xocavənd istiqamətindəki şiddətli döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Doğulduğu Kortala kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## HÜSEYNLİ
## Ağa Aydın oğlu
### (07.09.2001 – 05.10.2020)

Sabirabad rayonunun Moranlı kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Moranlı kənd orta məktəbində alıb. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin elə ilk günündən ön xətdə, döyüş meydanlarında olub, xidmət etdiyi hərbi hissənin tərkibində düşmənə qarşı amansız





savaşlara atılıb, iştirak etdiyi qanlı döyüşlərdə igidliyi və mətinliyi ilə seçilib. Cəsur əsgər cəbhənin Füzuli, Cəbrayıl və Xocavənd istiqamətlərində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında hünərlə iştirak edib, bu rayonların azadlığı uğrunda gedən qanlı döyüşlərdə qəhrəmancasına vuruşub. Xüsusilə Füzuli döyüşlərində öz qorxmazlığı ilə fərqlənib. Oktyabrın 5-də Füzuli cəbhəsindəki şiddətli döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Doğulub boya-başa çatdığı Moranlı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## HÜSEYNLİ
## Anar Saday oğlu
### (13.08.1994 – 08.11.2020)

Şəmkir rayonunun Təzəkənd kəndində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Təzəkənd kənd orta məktəbində alıb. 2012-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Naxçıvanda xidmət edib. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına yazılmaq üçün könüllü olaraq müraciət edib. Həmin il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb. Sentyabrın 29-dan savaş meydanlarında olan rəşadətli əsgər döyüşlərə Füzuli cəbhəsi səngərlərində başlayıb. Döyüş yolu daha sonra Xocavənd, Cəbrayıl, Qubadlı və Zəngilan cəbhələrindən keçərək qanlı Şuşa savaşlarına qədər uzanıb, bu həlledici döyüşlərdə şəxsi igidlik göstərib, cəsurluğu ilə seçilib. Noyabrın 8-də Şuşa uğrundakı qızğın döyüşlərdə hünərlə vuruşaraq şəhadətə qovuşub. Təzəkənd kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020).*



## HÜSEYNLİ
## Elxan İsrayıl oğlu
### (04.10.1999 – 08.11.2020)

Beyləqan rayonunun Yuxarı Kəbirli kəndində anadan olub. Orta təhsilini 2006-2017-ci illərdə Kəbirli kənd orta məktəbində alıb. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və sentyabrın 28-də savaş meydanlarına göndərilib. İgid əsgər döyüşlərə Füzuli cəbhəsi səngərlərində başlayıb. Döyüş yolu daha sonra Cəbrayıl və Zəngilan cəbhələrindən keçib, bu rayonlar uğrundakı qanlı savaşlarda misilsiz rəşadət göstərib, cəsurluğu və hünəri ilə xüsusi fərqlənib. Noyabrın 8-də Şuşa ətrafında gedən şiddətli döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Yuxarı Kəbirli kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021).*



## HÜSEYNLİ
## Etiram Həsən oğlu
### (17.04.1977 – 21.10.2020)

Lənkəran şəhərində anadan olub. Orta təhsilini 1984-1995-ci illərdə Lənkəran şəhəri 6 saylı orta məktəbdə alıb. Təhsilini 1995-1999-cu illərdə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində davam etdirib. AAHM-i 1999-cu ildə leytenant rütbəsində bitirərək Lənkəran şəhəri 6 saylı məktəbdə hərbi hazırlıq müəllimi kimi işləyib. 2002-ci ildən zabit kimi xidmətə başlayıb. 2004-cü ildə yenidən





pedaqoji fəaliyyətinə qayıdıb. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini baş leytenant kimi zabit mundirində qarşılayıb, ilk gündən Füzuli cəbhəsində ölüm-dirim savaşına atılıb, rəşadətlə vuruşub. Qəhrəman zabit Cəbrayıl və Qubadlı döyüşlərində də hünər göstərib. Oktyabrın 21-də Qubadlı uğrundakı qızğın döyüşlərdə misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Lənkəran şəhərində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "İgidliyə görə" medalı (2021).*



## HÜSEYNLİ
## Ədalət Saadət oğlu
### (08.05.1992 – 21.12.2020)

Cəlilabad rayonunun Fərəcullalı kəndində anadan olub. Orta təhsilini 1998-2009-cu illərdə Fərəcullalı kənd orta məktəbində alıb. 2010-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına yazılmaq üçün könüllü olaraq müraciət edib. Həmin il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində yenidən ordu sıralarına çağırılıb. Sentyabrın 29-da cəbhəyə yollanaraq düşmənlə qızğın döyüşlərə atılıb, Füzuli uğrundakı qanlı döyüşlərdə hünər göstərib. Cəbrayıl, Qubadlı və Zəngilan cəbhələrindəki şiddətli döyüşlərdə rəşadətlə vuruşub. Noyabrın 8-də Qubadlı cəbhəsindəki döyüşlərdə ağır yaralanıb və hospitala yerləşdirilib. Həkimlərin səylərinə baxmayaraq, həyatını xilas etmək mümkün olmayıb. Dekabrın 21-də şəhadətə qovuşub. Fərəcullalı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Cəsur döyüşçü" medalı (2020) - (sağlığında); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Vətən uğrunda" medalı (2021).*



## HÜSEYNLİ
## Əkbər Azər oğlu
### (15.10.2001 – 04.10.2020)

Cəlilabad rayonunun Alar kəndində anadan olub. Orta təhsilini 2007-2016-cı illərdə Alar kənd orta məktəbində alıb, təhsilini daha sonra Bakı Sosial-İqtisad Kollecində davam etdirib. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından ön xətdə, Tərtər-Ağdərə cəbhəsinin savaş meydanlarında olub, xidmət etdiyi hərbi hissənin tərkibində qızğın döyüşlərə atılıb, bu vuruşmalarda şəxsi igidliyi ilə seçilib. Cəsur əsgər Talış və Suqovuşan uğrundakı qanlı savaşlarda misilsiz rəşadət göstərib. Oktyabrın 4-də Suqovuşan ətrafındakı şiddətli döyüşlərin birində şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 17-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Alar kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Vətən uğrunda" medalı (2021).*



## HÜSEYNLİ
## Əliheydar Səlahəddin oğlu
### (14.04.1994 – 09.11.2020)

Ağstafa rayonunun Qırılı kəndində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Qırılı kənd orta məktəbində alıb. 2015-ci ildə Azərbaycan Texniki Universitetini bitirib. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına yazılmaq üçün könüllü olaraq müraciət edib. Həmin ilin sentyabrında Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi





yenidən orduya çağırılıb. İlk gündən savaş meydanlarında olub, cəsurluqla döyüşüb. Cəbhənin Füzuli və Xocavənd istiqamətlərində həyata keçirilən əks-hücum əməliyyatlarında igidliklə iştirak edib. Qəhrəman əsgərin döyüş yolu Şuşa savaşlarına qədər uzanıb. Noyabrın 9-da Şuşa ətrafındakı qanlı döyüşlərdə misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Nəşi noyabrın 19-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Qırılı kəndində dəfn edilib. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020).*



## HÜSEYNLİ
## Əmrah Namik oğlu
### (12.10.1994 – 26.10.2020)

Cəlilabad şəhərində anadan olub. Orta təhsilini 2001-2010-cu illərdə Cəlilabad şəhəri 5 saylı orta məktəbdə alıb. 2010-2013-cü illərdə C.Naxçıvanski adına Hərbi Liseydə oxuyub. 2017-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsi ilə bitirib. Bundan sonra xüsusi kurs keçərək XTQ-də xidmətə başlayıb. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin baş leytenantı kimi zabit mundirində qarşılayıb. Rəşadətli XTQ zabiti ilk gündən savaş meydanlarında olub, həlledici döyüşlərdə misilsiz şücaət göstərib. Murovdağ, Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlı cəbhələrindəki qanlı döyüşlərdə böyük qəhrəmanlıqlar göstərib. Oktyabrın 26-da Şuşa istiqamətindəki şiddətli döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Cəlilabad şəhərində dəfn edilib. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə medalı" (2021); "Qubadlının azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## HÜSEYNLİ
## Fariz Dadaş oğlu
(10.11.1994 – 02.10.2020)

Biləsuvar rayonunun Əsgərabad kəndində anadan olub. Orta təhsilini 2001-2012-ci illərdə Əsgərabad kənd orta məktəbində alıb. Səhhəti ilə əlaqədar olaraq bir qədər gec - 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Cəbhə zonasında - Tərtərdə xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, ilk saatlardan savaş meydanlarında olub. Tərtər-Ağdərə cəbhəsində gedən qanlı savaşlarda misilsiz rəşadətlə vuruşub. Cəsur əsgər Suqovuşan uğrundakı ağır döyüşlərdə hünərlə iştirak edib, daha sonra Laçın istiqamətindəki qızğın döyüşlərdə böyük şücaət göstərib, igidliyi ilə xüsusi fərqlənib. Oktyabrın 2-də Füzuli cəbhəsində gedən şiddətli döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Doğulub boya-başa çatdığı Əsgərabad kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## HÜSEYNLİ
## İbrahim İsa oğlu
(30.05.1992 – 19.10.2020)

Yevlax rayonunun Qoyunbinəsi kəndində anadan olub. Orta təhsilini 1998-2009-cu illərdə Qoyunbinəsi kənd orta məktəbində alıb. 2010-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2014-cü ildən MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2016-cı il Aprel döyüşlərinin iştirakçısı olub. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kiçik çavuşu kimi əldə silah ön xətdə qarşılayıb. Savaşın ilk günündən Xocavənd cəbhəsində rəşadətlə vuruşub, bu rayonun azadlığı uğrunda gedən şiddətli döyüşlərdə misilsiz şücaət göstərib. Daha sonra Füzuli cəbhəsindəki həlledici döyüşlərə atılan qəhrəman hərbçi bu vuruşmalarda öz qorxmazlığı və cəsurluğu ilə xüsusi fərqlənib. Oktyabrın 19-da Füzuli cəbhəsindəki qanlı savaşların birində misilsiz igidliklə döyüşərək şəhadətə ucalıb. Yevlax şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020).*



## HÜSEYNLİ
## İlqar Şəmiyyət oğlu
(06.10.1976 – 27.09.2020)

Xaçmaz rayonunun Xudat şəhərində anadan olub. Orta təhsilini 1983-1993-cü illərdə Xudat şəhəri 2 saylı orta məktəbdə alıb. 1994-1998-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, döyüş bölgəsində - Tərtərdə xidmət edib. 1999-cu ildə yenidən ordu sıralarına qayıdıb və SQ Təlim-Tədris Mərkəzində gizir hazırlığı kursunu bitirərək xidmətini davam etdirməyə başlayıb. 2016-cı il Aprel döyüşlərinin iştirakçısı olub, hünərlə vuruşub. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin baş giziri kimi əldə silah Tərtər-Ağdərə cəbhəsi səngərlərində qarşılayıb, savaşın ilk saatlarından düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq rəşadətlə döyüşüb, qəhrəmanlıq göstərib. Sentyabrın 27-də Suqovuşan uğrundakı qanlı savaşlarda misilsiz şücaətlə döyüşərək şəhidlik zirvəsinə yüksəlib. Nəşi oktyabrın 9-da ailəsinə təhvil verilib. Xudat şəhərində dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## HÜSEYNLİ
## Səbuhi Babək oğlu
(02.05.1997 – 15.04.2021)

Türkmənistanda anadan olub. Orta təhsilini 2003-2009-cu illərdə Xaçmaz rayon Maqsudkənd kəndində, daha sonra Xudat şəhəri 4 saylı orta məktəbdə alıb. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Ağdamda xidmət edib. 2016-cı il Aprel döyüşlərində igidliklə iştirak edib. Tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2019-cu ildən MAHHXHQ kimi davam etdirib. Xidmət dövründə kurs keçərək XTQ sıralarına qəbul olunub. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini XTQ döyüşçüsü kimi səngərlərdə qarşılayıb, qanlı Xocavənd döyüşlərində misilsiz rəşadətlə vuruşub. Cəsur kəşfiyyatçı-əsgər sentyabrın 28-də elə həmin döyüşlərin birində ağır yaralanaraq hospitala yerləşdirilib. Uzun müddət müalicə alsa da, həkimlərin səylərinə baxmayaraq, həyatını xilas etmək mümkün olmayıb. 2021-ci il aprelin 15-də şəhadətə qovuşub. Xaçmaz rayonunun Maqsudkənd kəndində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Xocavəndin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021); "Vətən uğrunda" medalı (2021).*



## HÜSEYNLİ
## Şahin Vaqif oğlu
(04.05.1995 – 27.09.2020)

Beyləqan şəhərində anadan olub. Orta təhsilini 2001-2012-ci illərdə Beyləqan şəhəri 4 saylı orta məktəbdə alıb. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıtmağa qərar verib, xidmətini əvvəlcə Beyləqanda, sonra Füzulidə MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk saatlarından ön xətdə olub, düşmənə qarşı amansız döyüşlərə atılaraq igidliklə vuruşub. Qəhrəman hərbçi cəbhənin Füzuli istiqamətində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında iştirak edib, bu qızğın döyüşlərdə böyük hünər göstərib. Müharibənin elə ilk günü - sentyabrın 27-də Füzuli cəbhəsindəki şiddətli döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Beyləqan şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021), 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2022).*



## HÜSEYNLİ
## Şamil Novruz oğlu
(08.01.1993 – 03.11.2020)

İmişli rayonunun Cəfərli kəndində anadan olub. Orta təhsilini 2010-cu ildə Rusiyanın Noviy Urenqoy şəhərində başa vurub. 2014-cü ildə Tümen Neft və Qaz Universitetini bitirib. Elə həmin il də Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, 2015-ci ildə xidmətini başa vurub. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra orduya yazılmaq üçün könüllü olaraq müraciət edib. Həmin il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən orduya çağırılıb. Sentyabrın 29-da qanlı savaşlara atılan cəsur əsgərin döyüş yolu Füzuli, Cəbrayıl, Xocavənd, Qubadlı cəbhələrindən keçib, bu ağır savaşlarda qəhrəmanlıq göstərib, Hadrut və Zəngilan döyüşlərində şücaəti ilə seçilib. Noyabrın 3-də Qubadlı cəbhəsindəki şiddətli döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Cəfərli kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## HÜSEYNLİ
## Türkay Nizami oğlu
(25.11.1990 - 03.10.2020)

Bakıda anadan olub. Orta təhsilini 1997-2008-ci illərdə Bakı şəhəri 274 və 320 saylı orta məktəblərdə alıb. 2009-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan sonra ordu sıralarında qalaraq xidmətini davam etdirib. 2010-2011-ci illərdə Türkiyədə hərbi təlimlərdə iştirak edib, gizir rütbəsi ilə XTQ sıralarında xidmətə başlayıb. 2012-2014-cü illərdə DİN Daxili Qoşunlarının Orta İxtisas Hərbi Məktəbində təhsil alıb. DQ-nin Xüsusi Təyinatlı Dəstəsində xidmət edib. 2020-ci il iyul Tovuz döyüşlərində XTQ tərkibində hünərlə iştirak edib. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsini Daxili Qoşunların kapitanı kimi zabit mundirində qarşılayıb, ilk gündən ağır döyüşlərə atılıb, Cəbrayıl uğrunda qanlı döyüşlərdə misilsiz şücaət göstərib. Rəşadətli XTQ zabiti oktyabrın 3-də Cəbrayıl cəbhəsindəki döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. II Fəxri xiyabanda dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); 3-cü dərəcəli "Rəşadət" ordeni (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020).*



## HÜSEYNLİ
## Zahir Mahir oğlu
(17.04.2001 - 15.10.2020)

Beyləqan rayonunun Yuxarı Aran qəsəbəsində anadan olub. 2016-cı ildə Yuxarı Aran qəsəbə orta məktəbinin IX sinfini bitirib. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Xüsusi Təyinatlı Qüvvələrin tərkibində xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini igid XTQ əsgəri kimi əldə silah döyüş meydanlarında qarşılayıb, ilk saatlardan düşmənlə ölüm-dirim çarpışmasına atılaraq rəşadətlə





vuruşub. Qanlı döyüşlərin getdiyi Kəlbəcər və Xocavənd cəbhələrindəki vuruşmalarda qəhrəman kimi iştirak edib, şücaət göstərib. Cəsur xüsusi təyinatlı döyüşçünün son savaşı oktyabrın 15-də olub. Həmin gün Füzulinin Qarğabazarı kəndi ətrafındakı qızğın döyüşlər zamanı misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Beyləqan şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Füzulinin azad olunmasına görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## HÜSEYNOV
## Adil Namiq oğlu
(30.05.1995 - 21.10.2020)

Bərdə rayonunun Körpüsındıran kəndində anadan olub. Orta təhsilini 2001-2012-ci illərdə Bərdə rayon Muğanlı kənd orta məktəbində alıb. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi səfərbərliyə alınaraq yenidən ordu sıralarına çağırılıb və hərbi təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah döyüş meydanlarında qarşılayıb, savaşın ilk saatlarından ön xətdə olub, qəhrəmancasına vuruşub. Rəşadətli əsgərin döyüş yolu Füzuli cəbhəsində başlayıb, Cəbrayıl uğrundakı qanlı savaşlarda hünərlə iştirak edib, şəxsi igidlik nümunəsi göstərib. Tərtər-Ağdərə cəbhəsində gedən qızğın döyüşlərdə qorxmazlığı ilə seçilib. Oktyabrın 21-də Suqovuşan ətrafındakı şiddətli döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Körpüsındıran kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## HÜSEYNOV
## Aqil Habil oğlu
**(09.05.1995 – 07.10.2020)**

Beyləqan rayonunun Əhmədli kəndində anadan olub. 2010-cu ildə Əhmədli kənd orta məktəbinin IX sinfini bitirib. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini 2020-ci ilin aprelindən etibarən MAHHXHQ kimi davam etdirməyə başlayıb, cəbhə bölgəsində - Beyləqanda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda ön cəbhədə xidmətdə idi. Savaşın ilk saatlarından düşmənlə ölüm-dirim çarpışmasının getdiyi Füzuli cəbhəsi səngərlərində qanlı döyüşlərə atılıb, qəhrəmancasına vuruşub, hünəri və cəsurluğu ilə xüsusi fərqlənib. Cəbrayıl uğrundakı həlledici döyüşlərdə böyük şücaət göstərib. İgid əsgərin son savaşı Xocavənd cəbhəsində olub. Oktyabrın 7-də Hadrut istiqamətində gedən şiddətli döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Doğulduğu Əhmədli kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## HÜSEYNOV
## Amil Rasim oğlu
**(16.08.1986 – 09.10.2020)**

Füzuli rayonunun Əhmədalılar kəndində anadan olub. Orta təhsilini 1993-2003-cü illərdə Bakı şəhərində yerləşən Ağdam rayon 36 saylı orta məktəbdə alıb. 2004-cü ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, 2006-cı ilə qədər Azərbaycan Sülhməramlı Qüvvələri sıralarında Kosovoda xidmət edib. Tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2006-cı ildən MAHHXHQ kimi davam etdirib. 2020-ci ilin





sentyabrında başlayan Vətən müharibəsini səngərlərdə qarşılayıb. Cəsur çavuş Füzuli, Cəbrayıl, Zəngilan cəbhələrindəki qanlı savaşlarda qəhrəmanlıq göstərib. Oktyabrın 9-da Füzuli uğrunda qızğın döyüşlərdə hünərlə vuruşaraq şəhadətə qovuşub. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 9-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Əhmədalılar kəndində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## HÜSEYNOV
## Anar Hüseyn oğlu
**(08.10.1982 – 28.09.2020)**

Tovuz rayonunun Əlibəyli kəndində anadan olub. Orta təhsilini 1988-1999-cu illərdə Tovuz rayon Hacallı kənd orta məktəbində alıb. 2000-2002-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Dövlət Sərhəd Xidmətində xidmət edib. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2015-ci ildən MAHHXHQ kimi davam etdirib, cəbhə bölgəsində - Tovuz və Beyləqanda xidmət edib. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kiçik çavuşu kimi səngərlərdə qarşılayıb, ilk gündən döyüş meydanlarında olub, hünərlə vuruşub. İgid döyüşçü Füzuli istiqamətindəki həlledici əks-hücum əməliyyatlarında mətinliklə iştirak edib, bu qanlı savaşlarda misilsiz rəşadət göstərib. Sentyabrın 28-də Füzuli cəbhəsindəki qızğın döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Əlibəyli kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "İgidliyə görə" medalı (2021).*



# HÜSEYNOV
## Anar Rəhim oğlu
### (09.01.1997 – 29.09.2020)

Tərtər şəhərində anadan olub. Orta təhsilini 2003-2012-ci illərdə Bakı şəhəri 10 saylı orta məktəbdə, 2012-2014-cü illərdə peşə liseyində alıb. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Füzulidə xidmət edib. 2016-cı il Aprel döyüşlərində hünərlə vuruşub. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra orduya yazılmaq üçün könüllü olaraq müraciət edib. Həmin il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi səfərbərliyə alınaraq yenidən orduya çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi səngərlərdə qarşılayıb. İlk saatlardan döyüş meydanlarında olub, Tərtər-Ağdərə cəbhəsində düşmənlə ölüm-dirim savaşına atılaraq şücaətlə döyüşüb. Rəşadətli əsgər sentyabrın 29-da Ağdərə uğrundakı şiddətli döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Bərdə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



# HÜSEYNOV
## Aslan Malik oğlu
### (06.10.1988 – 30.09.2020)

Tərtər rayonunun Qaradağlı kəndində anadan olub. Orta təhsilini 1994-2005-ci illərdə Qaradağlı kənd orta məktəbində alıb. 2006-2007-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2013-cü ildən MAHHXHQ kimi davam etdirib, cəbhə xəttində – Ağdam və Tərtərdə xidmət edib. 2016-cı il Aprel döyüşlərində qəhrəmancasına vuruşub, bu savaşda





yaralanıb. 2016-cı ildə SQ TTM-də gizir hazırlığı kursunu başa vurub. 2020-ci il iyul Tovuz döyüşlərində hünərlə iştirak edərək özünü igid döyüşçü kimi göstərib. Həmin il sentyabrın 27-də Vətən müharibəsi başlayan gündən ön xətdə olub, Tərtər-Ağdərə cəbhəsində düşmənlə amansız çarpışmaya atılaraq rəşadətlə döyüşüb. Cəsur gizir sentyabrın 30-da Suqovuşan uğrunda qanlı döyüşlərdə misilsiz şücaətlə savaşaraq şəhidlik zirvəsinə yüksəlib. Qaradağlı kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Azərbaycan Bayrağı" ordeni (2020); "Cəsur döyüşçü" medalı (2021); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



# HÜSEYNOV
## Azər Mahal oğlu
### (01.08.1983 – 11.12.2020)

Gədəbəy rayonunun Yenikənd kəndində anadan olub. Orta təhsilini 1990-2000-ci illərdə Yenikənd kənd orta məktəbində alıb. 2001-2003-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Beyləqanda xidmət edib. 2016-cı ildə yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin kiçik çavuşu kimi əldə silah qarşılayıb. Döyüşlərə Füzuli cəbhəsindən başlayıb, düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq misilsiz rəşadətlə vuruşub. Füzuli, Cəbrayıl və Xocavənd cəbhələrindəki qanlı döyüşlərdə böyük şücaət göstərib. Döyüş yolu Şuşaya qədər davam edib. Şuşanın azad olunmasında şəxsi igidliyi və cəsurluğu ilə xüsusi seçilib. Dekabrın 11-də Xocavənd ərazisində növbəti döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub. Doğulduğu Yenikənd kəndində dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Şuşanın azad olunmasına görə" medalı (2020); "Vətən uğrunda" medalı (2021).*



## HÜSEYNOV
## Cavad Cavid oğlu
### (16.09.1998 – 18.10.2020)

Lerik rayonunun Çayrud kəndində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Sumqayıt şəhəri 34 saylı məktəbdə alıb. 2016-cı ildə Lənkəran Dövlət Universitetinə daxil olub, amma təhsilini başa vurmayıb. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, döyüş bölgəsində - Ağdamda xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi səngərlərdə qarşılayıb. İlk gündən qanlı savaşlara atılıb, Tərtər-Ağdərə cəbhəsi boyunca həyata keçirilən əks-hücum əməliyyatlarında hünərlə iştirak edib. Talış və Suqovuşan döyüşlərində igidlik göstərib. Cəsur əsgərin son döyüşü oktyabrın 18-də olub. Həmin gün Suqovuşan ətrafındakı qanlı döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhadətə qovuşub. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 18-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## HÜSEYNOV
## Cavid Habil oğlu
### (01.04.1994 – 30.09.2020)

Cəlilabad rayonunun Hamarqışlaq kəndində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Hamarqışlaq kənd orta məktəbində alıb. 2012-ci ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, Gəncədə xidmət edib. Tərxis olunandan bir müddət sonra - 2016-cı ildə yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb, cəbhə bölgəsində - Beyləqanda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də





başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah döyüş meydanlarında qarşılayıb. Savaşın ilk saatlarından cəbhənin Füzuli-Cəbrayıl istiqamətində düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq misilsiz rəşadətlə vuruşub. Qəhrəman əsgər Xocavənd uğrunda gedən qanlı vuruşmalarda şəxsi igidlik göstərib. Sentyabrın 30-da Füzuli cəbhəsindəki qızğın döyüşlərin birində hünərlə savaşaraq şəhid olub. Hamarqışlaq kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021).*



## HÜSEYNOV
## Cavid Hümbət oğlu
### (12.12.1993 – 27.10.2020)

Tovuz rayonunun Alakol kəndində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Alakol kənd orta məktəbində alıb. 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2014-cü ildə yenidən orduya qayıdıb və MAHHXHQ kimi xidmətə başlayıb. 2020-ci ildə SQ TTM-də kurs keçərək XTQ sıralarına qoşulub. Vətən müharibəsini Silahlı Qüvvələrin çavuşu kimi savaş meydanlarında qarşılayıb. İlk gündən düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi Kəlbəcər cəbhəsindəki qanlı döyüşlərdə misilsiz rəşadətlə vuruşub. Füzuli, Cəbrayıl, Hadrut, Qubadlı uğrunda qızğın savaşlarda hünər göstərib. Qəhrəman kəşfiyyatçı-əsgər oktyabrın 27-də Xocavənd uğrundakı şiddətli döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Alakol kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020); "Azərbaycan Bayrağı" ordeni (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## HÜSEYNOV
## Cavid Natiq oğlu
### (03.04.2001 - 31.10.2020)

Tovuz şəhərində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Tovuz şəhəri N.Tusi və M.Ələkbərov adına orta məktəblərdə alıb. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə bölgəsində - Beyləqanda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından döyüş meydanlarına atılaraq düşmənlə ölüm-dirim mübarizəsinə girib, bir əsgər kimi rəşadətlə vuruşub. Döyüşlərə cəbhənin Füzuli istiqamətində başlayıb, bu qızğın savaşlarda öz mətinliyi ilə xüsusi fərqlənib. Daha sonra Qubadlı və Zəngilanın işğaldan azad olunması uğrunda gedən həlledici döyüşlərdə iştirak edərək böyük hünər və şücaət göstərib. Cəsur əsgər oktyabrın 31-də Xocavəndin Tuğ kəndi istiqamətindəki şiddətli döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Tovuz şəhərində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "İgidliyə görə" medalı (2021).*



## HÜSEYNOV
## Ceyhun Möhübbət oğlu
### (05.10.1991 - 16.10.2020)

Ağcabədi rayonunun Arazbar kəndində anadan olub. Orta təhsilini 1998-2009-cu illərdə rayonun Arazbar və Kürdlər kənd orta məktəblərində alıb. 2009-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə zonasında - Tovuz rayonunda xidmət edib. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və 2014-cü ildən MAHHXHQ kimi xidmətə başlayıb. 2016-cı il Aprel döyüşlərində igidliklə iştirak





edib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb, döyüşlərə birinci atılanlardan olub. Xocavənd cəbhəsindəki qanlı döyüşlərdə misilsiz rəşadətlə vuruşub, bu rayonun azad olunmasında şəxsi igidlik nümunəsi göstərib. Qəhrəman əsgərin son döyüşü oktyabrın 16-da olub. Həmin gün Xocavənd cəbhəsində gedən şiddətli döyüşlərin birində şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Arazbar kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Döyüşdə fərqlənməyə görə" medalı (2021).*



## HÜSEYNOV
## Elçin Zamin oğlu
### (06.09.1992 - 02.10.2020)

Bakıda anadan olub. 1999-2008-ci illərdə Sumqayıt şəhəri 9 saylı orta məktəbdə oxuyub, təhsilini 2010-2012-ci illərdə Sumqayıt Dövlət Texniki Kollecində davam etdirib. 2012-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2014-cü ildən MAHHXHQ kimi davam etdirib, cəbhə xəttində - Ağdamda xidmət edirdi. 2016-cı il Aprel döyüşlərində igidliyi ilə fərqlənib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi səngərlərdə qarşılayıb, ilk gündən Murovdağ istiqamətindəki ağır döyüşlərə atılaraq hünərlə savaşıb. Qəhrəman kəşfiyyatçı-əsgərin döyüş yolu daha sonra Tərtər-Ağdərə cəbhəsindən keçib, Talış və Ağdərə uğrundakı həlledici döyüşlərdə şücaət göstərib. Oktyabrın 2-də Suqovuşan ətrafında gedən qanlı döyüşlərdə misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Nəşi oktyabrın 17-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## HÜSEYNOV
## Eldəniz Tahir oğlu
(17.09.1996 – 09.10.2020)

İmişli şəhərində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə İmişli şəhər 6 saylı orta məktəbdə alıb. 2014-cü ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, 2016-cı ildə orduda xidmətini başa vuraraq ehtiyata buraxılıb. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən orduya çağırılıb. İlk günlərdən savaş meydanlarında olub, cəsurluqla döyüşüb. Cəbhənin Füzuli, Cəbrayıl və Xocavənd istiqamətlərində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında hünərlə iştirak edib, bu rayonlar uğrundakı qanlı döyüşlərdə misilsiz qəhrəmanlıq nümunəsi göstərib. İgid əsgərin son döyüşü oktyabrın 9-da olub. Həmin gün Füzuli cəbhəsində gedən şiddətli döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. İmişli şəhərində dəfn olunub. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021); "Qubadlının azad olunmasına görə" medalı (2021).*



## HÜSEYNOV
## Eldost Asəf oğlu
(16.12.1996 – 07.10.2020)

Şamaxı rayonunun Talışnuru kəndində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Talışnuru kənd orta məktəbində alıb. 2017-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını bitirib. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Xidmət zamanı SQ Təlim-Tədris Mərkəzində zabit hazırlığı kursu keçərək leytenant rütbəsi alıb və xidmətini zabit kimi davam etdirib. Cəbhə bölgəsində – Tərtərdə xidmət





edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin leytenantı kimi zabit mundirində qarşılayıb. İlk gündən Tərtər-Ağdərə cəbhəsində ölüm-dirim savaşına atılaraq misilsiz şücaətlə vuruşub. Talış və Suqovuşan uğrundakı qanlı döyüşlərdə igidlik göstərib. Rəşadətli zabit oktyabrın 7-də Suqovuşan ətrafında gedən qanlı döyüşlərdə qəhrəmancasına savaşaraq şəhidlik məqamına yüksəlib. Şamaxı şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## HÜSEYNOV
## Elxan Maarif oğlu
(12.03.2000 – 13.12.2020)

Bakıda anadan olub. Orta təhsilini 2006-2017-ci illərdə Bakı şəhəri 253 saylı və Biləsuvar rayon Cəbrayıl qəsəbəsindəki orta məktəblərdə alıb. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan az sonra ordu sıralarına qayıdaraq xidmətini XTQ sıralarında MAHHXHQ kimi davam etdirib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsində Kəlbəcər, Cəbrayıl, Füzuli və Xocavənd uğrundakı qanlı savaşlarda misilsiz rəşadətlə vuruşub. Noyabrın 6-da Şuşa döyüşlərində ağır yaralanıb. Həkimlərin səylərinə baxmayaraq, qəhrəman döyüşçünün həyatını xilas etmək mümkün olmayıb, dekabrın 13-də şəhadətə qovuşub. Biləsuvarda Cəbrayıldan olan məcburi köçkünlər üçün salınmış qəsəbədəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## HÜSEYNOV
## Elnur Əhliman oğlu
**(16.04.1990 – 16.10.2020)**

Tərtər rayonunun Kəbirli kəndində anadan olub. Orta təhsilini 1996-2007-ci illərdə Kəbirli kənd orta məktəbində alıb. 2008-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına yazılmaq üçün könüllü olaraq müraciət edərək qeydiyyatdan keçib. Həmin il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Sentyabrın 29-da cəbhəyə yollanıb, elə həmin gün də Tərtər-Ağdərə cəbhəsində düşmənlə həlledici döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Cəsur əsgər Talış və Suqovuşan uğrunda gedən qanlı döyüşlərdə qəhrəmanlıq nümunəsi göstərib, hünəri və qorxmazlığı ilə fərqlənib. Oktyabrın 16-da Suqovuşan ətrafında gedən qızğın döyüşlərin birində igidliklə vuruşaraq şəhadətə ucalıb. Kəbirli kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## HÜSEYNOV
## Emin Fərmayıl oğlu
**(20.08.1990 – 09.11.2020)**

Tovuz rayonunun Yanıqlı kəndində anadan olub. 2007-ci ildə Yanıqlı kənd orta məktəbini bitirib. 2008-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına yazılmaq üçün könüllü olaraq müraciət edib. Bundan az sonra Silahlı Qüvvələr sıralarında MAHHXHQ kimi hərbi xidmətə başlayıb. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir əsgər kimi əldə





silah səngərlərdə qarşılayıb. İlk gündən savaş meydanlarında olan qəhrəman əsgər Murovdağ, Füzuli, Cəbrayıl və Xocavənd cəbhələrindəki qanlı döyüşlərdə rəşadət göstərib. Noyabrın 9-da Xocavənd ətrafındakı qızğın döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Doğulduğu Yanıqlı kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2021).*



## HÜSEYNOV
## Emin Zakir oğlu
**(22.11.1992 – 29.09.2020)**

Bərdə rayonunun Mollaisalar kəndində anadan olub. Orta təhsilini 1999-2010-cu illərdə Mollaisalar kənd orta məktəbində alıb. 2011-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2016-cı il Aprel döyüşlərindən sonra ordu sıralarına yazılmaq üçün könüllü müracət edib və elə həmin ildən xidmətini MAHHXHQ kimi davam etdirib. Goranboyda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsinin ilk günündən döyüş meydanlarında olub, Tərtər-Ağdərə istiqamətində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında iştirak edərək qəhrəmancasına vuruşub. Talış və Suqovuşan uğrundakı qanlı savaşlarda hünərlə döyüşüb, şəxsi igidlik göstərib. Cəsur kəşfiyyatçı-əsgər sentyabrın 29-da Suqovuşan ətrafında gedən şiddətli döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhidlik zirvəsinə ucalıb. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 15-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Mollaisalar kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Vətən uğrunda" medalı (2021).*



## HÜSEYNOV
## Əfsun Mətləb oğlu
**(23.06.1999 – 20.10.2020)**

Sabirabad rayonunun Yaxa-Beşdəli kəndində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Yaxa-Beşdəli kənd orta məktəbində alıb. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, XTQ sıralarında xidmət edib. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi sentyabrın 29-da yenidən ordu sıralarına çağırılıb. Müharibənin ilk günlərindən düşmənlə ölüm-dirim savaşına atılıb, həlledici döyüşlərdə qəhrəmancasına iştirak edib. Füzuli, Cəbrayıl və Zəngilan cəbhələrindəki qızğın döyüşlərdə misilsiz rəşadət göstərib. İgid əsgərin son döyüşü oktyabrın 20-də olub. Həmin gün Qubadlı uğrundakı qanlı döyüşlər zamanı hünərlə vuruşaraq şəhadətə qovuşub. Nəşi noyabrın 4-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Sabirabad rayonunun Qaraağac kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## HÜSEYNOV
## Əfşan Əbülfəz oğlu
**(16.03.1996 – 25.10.2020)**

Tovuz rayonunun Əsrik Cırdaxan kəndində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Əsrik Cırdaxan kənd orta məktəbində alıb. 2017-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb, cəbhə bölgəsində – Ağcabədi, Füzuli və Beyləqanda xidmət edib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin baş leytenantı kimi zabit mundirində qarşılayıb. İlk





gündən Füzuli cəbhəsindəki qanlı döyüşlərə atılan rəşadətli zabit daha sonra Cəbrayıl uğrunda hünərlə vuruşub. Tərtər-Ağdərə, Kəlbəcər və Xocavənd cəbhələrində iştirak etdiyi həlledici döyüşlərdə misilsiz şücaət göstərib, Suqovuşan və Hadrut döyüşlərində cəsurluğu ilə seçilib. Oktyabrın 25-də Füzuli rayonunun Alxanlı kəndi istiqamətində gedən şiddətli döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Əsrik Cırdaxan kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Azərbaycan Bayrağı" ordeni (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## HÜSEYNOV
## Əkbər Bahadur oğlu
**(11.07.2001 – 29.09.2020)**

Bakıda anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Bakı şəhəri 252 saylı orta məktəbdə alıb. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından ön xətdə olub, döyüş meydanlarına atılaraq düşmənlə ölüm-dirim mübarizəsinə girib, bir əsgər kimi misilsiz rəşadətlə vuruşub. Qəhrəman əsgər cəbhənin Tərtər-Ağdərə istiqamətində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında hünərlə iştirak edib. Talış və Suqovuşanın azad olunması uğrundakı qızğın vuruşmalarda öz qorxmazlığı və cəsurluğu ilə xüsusi seçilib, qanlı Suqovuşan döyüşlərində iştirak edərək böyük şücaət göstərib. Sentyabrın 29-da Talış kəndi uğrundakı şiddətli döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Bakının Sabunçu rayonundakı Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## HÜSEYNOV
## Əzəmi Əli oğlu
### (29.08.1992 – 08.10.2020)

Mingəçevirdə anadan olub. Orta təhsilini 1999-2010-cu illərdə Mingəçevir şəhəri 14 saylı orta məktəbdə alıb. 2014-cü ildə Mingəçevir Dövlət Universitetini bitirib və elə həmin il də Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2015-ci ildə tərxis olunandan az sonra yenidən Silahlı Qüvvələr sıralarına qayıtmağa qərar verib. 2016-cı ildə XTQ sıralarında xidmətə başlayıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin çavuşu kimi əldə silah döyüş meydanlarında qarşılayıb. Müharibənin ilk saatlarından düşmənlə ölüm-dirim savaşının getdiyi Tərtər-Ağdərə cəbhəsində ağır döyüşlərə atılaraq qəhrəmancasına vuruşub. Talış, Ağdərə və Suqovuşan uğrundakı qanlı vuruşmalarda igidlik göstərib. Cəsur döyüşçünün son savaşı oktyabrın 8-də olub. Həmin gün Suqovuşan istiqamətindəki şiddətli döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Mingəçevir şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Ailəli idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## HÜSEYNOV
## Əzizağa Nizami oğlu
### (01.02.1999 – 16.10.2020)

Ağsu rayonunun Bozavand kəndində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Ağsu rayon Ağarx kənd orta məktəbində alıb. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Şəmkirdə xidmət edib. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayandan bir gün sonra - sentyabrın 28-də ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində Azərbaycan Silahlı Qüvvələrinin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb. Müharibənin ilk günlərindən savaş meydanlarında olub, cəsurluqla döyüşüb. Cəbhənin Cəbrayıl və Füzuli istiqamətlərində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında igidliklə iştirak edib. Qəhrəman əsgərin döyüş yolu daha sonra Tərtər-Ağdərə cəbhəsindən keçib. Ağdərə döyüşlərində misilsiz şücaət göstərib, cəsurluğu ilə fərqlənib. Oktyabrın 16-da Suqovuşan ətrafında gedən qanlı döyüşlərin birində rəşadətlə vuruşaraq şəhid olub. Bozavand kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*







## HÜSEYNOV
## Fərid Ehtibar oğlu
### (11.06.1994 – 29.10.2020)

Mingəçevirdə anadan olub, ailəsi sonradan Şəki rayonunun Qayabaşı kəndinə köçüb. Orta təhsilini 2000-2011-ci illərdə Qayabaşı kənd orta məktəbində alıb. 2012-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində - Ağdamda düşmənlə üzbəüz səngərdə xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində yenidən ordu sıralarına çağırılıb və sentyabrın 30-da cəbhəyə yollanıb. Döyüşlərə Füzuli cəbhəsində başlayan igid əsgər daha sonra Cəbrayıl və Xocavənd uğrundakı şiddətli döyüşlərdə də qəhrəmancasına savaşıb, bu həlledici vuruşmalarda misilsiz şücaət göstərib. Son döyüşü oktyabrın 29-da olub. Həmin gün Xocavənd istiqamətindəki qanlı savaşlarda hünərlə vuruşaraq şəhadətə qovuşub. Qayabaşı kəndində dəfn olunub. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2021).*



## HÜSEYNOV
## Fərid Fətəli oğlu
### (23.06.1994 – 07.11.2020)

Cəlilabad rayonunun Bacirəvan kəndində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Bacirəvan kənd orta məktəbində alıb. 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Müharibənin ilk günlərindən ön cəbhəyə yollanaraq düşmənlə ölüm-dirim savaşına atılıb, bütün cəbhə boyu həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında hünərlə iştirak edib. Füzuli, Cəbrayıl və Xocavənd istiqamətindəki ağır döyüşlərdə böyük şücaət və şəxsi igidlik nümunəsi göstərib. Rəşadətli baş çavuşun döyüş yolu qanlı Şuşa savaşlarına qədər davam edib. Noyabrın 7-də Şuşa ətrafındakı şiddətli döyüşlərin birində misilsiz qəhrəmanlıqla vuruşaraq şəhidlik məqamına yüksəlib. Doğulduğu Bacirəvan kəndində dəfn olunub. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## HÜSEYNOV
## Fərid Yaşar oğlu
### (17.06.1997 – 31.10.2020)

Sabirabad rayonunun Məmişlər kəndində anadan olub. Orta təhsilini 2003-2014-cü illərdə Məmişlər kənd orta məktəbində alıb. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi səfərbərliyə alınaraq yenidən ordu sıralarına çağırılıb və hərbi təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi





əldə silah səngərlərdə qarşılayıb. İlk saatlardan düşmənlə ölüm-dirim çarpışmasının getdiyi Füzuli cəbhəsinin döyüş meydanlarında olub, bu qanlı savaşlarda rəşadətlə vuruşub, qəhrəmanlığı və mətinliyi ilə seçilib. Xocavənd uğrundakı qızğın döyüşlərdə böyük hünər və şəxsi igidlik göstərən cəsur əsgərin son savaşı oktyabrın 31-də olub. Həmin gün Xocavəndin Tuğ kəndi ətrafında gedən şiddətli döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Sabirabad rayonunun Qaralar kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "İgidliyə görə" medalı (2021).*



## HÜSEYNOV
## Fərrux Baxış oğlu
### (29.04.1995 – 09.11.2020)

Kürdəmir rayonunun Şilyan kəndində anadan olub. Orta təhsilini 2001-2012-ci illərdə Kürdəmir şəhər 5 saylı orta məktəbdə alıb. 2016-cı ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. Tovuzda xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin baş leytenantı kimi zabit mundirində qarşılayıb, ilk gündən Füzuli cəbhəsindəki ağır döyüşlərə atılaraq rəşadətlə savaşıb. Qəhrəman zabitin döyüş yolu daha sonra Cəbrayıl, Qubadlı və Zəngilan cəbhələrindən keçib, bu rayonların azad olunması uğrundakı həlledici döyüşlərdə böyük hünər göstərib. Döyüşlərin birində yaralansa da, müalicəsini yarımçıq qoyaraq savaş meydanlarına qayıdıb. Noyabrın 9-da Xocavənd uğrundakı qanlı döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Kürdəmir şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Zəngilanın azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020).*



## HÜSEYNOV
## Həci Kərim oğlu
## (12.06.1996 – 25.10.2020)

Sumqayıt şəhərində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Bakı şəhəri 103 saylı orta məktəbdə alıb. 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına yazılmaq üçün könüllü müraciət edib. Həmin il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini əldə silah döyüş meydanlarında qarşılayıb. İlk gündən Füzuli cəbhəsində düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq hünərlə vuruşub. Xocavənd və Cəbrayıl cəbhələrindəki qanlı döyüşlərdə şücaət göstərib. İgid əsgər oktyabrın 4-də yaralansa da, tam sağalmamış yenidən savaş meydanlarına qayıdaraq qəhrəmancasına savaşıb. Oktyabrın 25-də Hadrut istiqamətindəki şiddətli döyüşlərin birində rəşadətlə vuruşaraq şəhid olub. Bakının Xocahəsən qəsəbəsində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020).*



## HÜSEYNOV
## Xaliq Kamil oğlu
## (20.09.2001 – 16.10.2020)

Bakının Nardaran qəsəbəsində anadan olub. 2016-cı ildə Bakı şəhəri 295 saylı orta məktəbin IX sinfini bitirib. 2020-ci ilin yanvarında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini Azərbaycan ordusunun əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, ilk saatlardan ön xətdə olub, Tərtər-Ağdərə cəbhəsində düşmənə qarşı amansız döyüşlərə atılaraq misilsiz rəşadətlə savaşıb. Cəbhənin bu istiqamətində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında hünərlə iştirak edib. Talış kəndinin və Suqovuşan qəsəbəsinin azad olunması uğrunda gedən şiddətli döyüşlərdə şəxsi igidlik nümunəsi göstərib, qorxmazlığı ilə xüsusi fərqlənib. Qəhrəman əsgərin son döyüşü oktyabrın 16-da olub. Həmin gün Suqovuşan ətrafında gedən qanlı döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Doğulub boya-başa çatdığı Nardaran qəsəbəsində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın işğaldan azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## HÜSEYNOV
## Xəyyam Hüseyn oğlu
## (11.07.1996 – 27.09.2020)

Göyçay rayonunun Məlikkənd kəndində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Məlikkənd kənd orta məktəbində alıb. 2013-cü ildə Mingəçevir Turizm Kollecinə daxil olsa da, 2014-cü ildə təhsilini yarımçıq qoyaraq Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə yollanıb, cəbhə bölgəsində – Beyləqanda xidmət edib. 2016-cı ildə ordudan tərxis olunub. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsinin ilk günündən savaş meydanlarında olub, Tərtər-Ağdərə cəbhəsindəki ağır döyüşlərə atılaraq hünərlə vuruşub. Talış və Suqovuşan uğrundakı qanlı döyüşlərdə misilsiz şücaət göstərib. Cəsur əsgər müharibənin elə ilk günü – sentyabrın 27-də Suqovuşan ətrafındakı şiddətli döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Doğulub boya-başa çatdığı Məlikkənd kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## HÜSEYNOV
## İlham Umud oğlu
### (08.09.2000 – 05.10.2020)

Göyçay rayonunun Qarayazı kəndində anadan olub. Orta təhsilini 2006-2017-ci illərdə Qarayazı kənd orta məktəbində alıb. 2018-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və qısamüddətli hərbi təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk günündən döyüş meydanlarında olub, Tərtər-Ağdərə cəbhəsində düşmənə qarşı ağır döyüşlərə atılaraq bu qanlı vuruşmalarda misilsiz qəhrəmanlıq nümunəsi göstərib. Cəsur əsgər Talış və Suqovuşan uğrunda gedən həlledici döyüşlərdə rəşadətlə döyüşüb, qorxmazlığı ilə seçilib. Oktyabrın 5-də Suqovuşan ətrafındakı şiddətli döyüşlərin birində igidliklə savaşaraq şəhadətə ucalıb. Nəşi oktyabrın 19-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Doğulduğu Qarayazı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020);*
*"Laçının azad olunmasına görə" medalı (2020);*
*"Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## HÜSEYNOV
## İlqar Yaşar oğlu
### (17.01.2001 – 28.09.2020)

Qazax şəhərində anadan olub. 2016-cı ildə Qazax şəhər ümumi orta məktəbin IX sinfini bitirib. Təhsilini 2016-2020-ci illərdə Qazax Dövlət Sosial-İqtisad Kollecində davam etdirib. 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, təmas xəttində – Ağdam rayonunda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı





Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, xidmət etdiyi hərbi hissənin tərkibində savaşın ilk saatlarından etibarən cəbhənin Ağdam istiqamətində düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq hünərlə vuruşub, şəxsi igidlik nümunəsi göstərib, rəşadətli əsgər kimi bu qanlı döyüşlərdə öz mətinliyi və qorxmazlığı ilə xüsusi fərqlənib. Qəhrəman əsgər sentyabrın 28-də Ağdam istiqamətində gedən qeyri-bərabər döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Doğulub boya-başa çatdığı Qazax şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020);*
*"Ağdamın azad olunmasına görə" medalı (2021).*



## HÜSEYNOV
## İmamalı Cəlil oğlu
### (03.12.1992 – 08.10.2020)

Zəngilan rayonunun Tağlı kəndində anadan olub. 2008-ci ildə Abşeron şəhəri Mehdiabad qəsəbəsindəki 2 saylı orta məktəbin IX sinfini bitirib. 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2019-cu ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kiçik giziri kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk saatlarından döyüş meydanlarında olub, hünərlə vuruşub. Cəsur döyüşçü Füzuli və Cəbrayılın azad olunması uğrundakı şiddətli döyüşlərdə qəhrəmanlıq nümunələri göstərib, Xocavənd istiqamətindəki həlledici döyüşlərdə igidliyi və şücaəti ilə seçilib. Oktyabrın 8-də Füzuli cəbhəsindəki qızğın döyüşlərin birində misilsiz rəşadətlə savaşaraq şəhid olub. Nəşi oktyabrın 22-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020);*
*"Döyüşdə fərqlənməyə görə" medalı (2020);*
*"Xocavəndin azad olunmasına görə" medalı (2020).*



## HÜSEYNOV
## İsa Sahib oğlu
## (19.11.2001 - 09.11.2020)

Saatlı şəhərində anadan olub. Orta təhsilini 2008-2019-cu illərdə Saatlı şəhəri 1 saylı orta məktəbdə alıb. 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Xüsusi Təyinatlı Qüvvələr sıralarında xidmət edirdi. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk günündən ön xətdə, savaş meydanlarında olub, xidmət etdiyi hərbi hissənin tərkibində qızğın döyüşlərə atılıb, iştirak etdiyi həlledici vuruşmalarda cəsurluğu ilə seçilib. İgid əsgər Füzulinin və Cəbrayılın azadlığı uğrunda gedən qanlı döyüşlərdə misilsiz rəşadətlə vuruşub. Xüsusilə Şuşa uğrundakı qızğın döyüşlərdə öz qorxmazlığı ilə fərqlənib. Şuşanın azad olunmasında şücaəti ilə seçilib. Noyabrın 9-da Şuşa ətrafındakı şiddətli döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Saatlı şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Azərbaycan Bayrağı" ordeni (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020).*



## HÜSEYNOV
## İsabala Ceyhun oğlu
## (15.09.2001 - 04.11.2020)

Bakıda anadan olub. 2007-2018-ci illərdə Bakı şəhəri 318 saylı orta məktəbdə, 2018-2019-cu illərdə isə 16 saylı Bakı Peşə Liseyində təhsil alıb. 2019-cu ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi səngərlərdə qarşılayıb. İlk gündən düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi Cəbrayıl cəbhəsindəki qanlı döyüşlərə atılaraq





misilsiz igidliklə vuruşub. Rəşadətli əsgər Cəbrayıl və Qubadlı uğrundakı həlledici döyüşlərdə hünər göstərib. Noyabrın 4-də Laçın dəhlizində gedən qızğın döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 5-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Bakının Əmircan qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Qubadlının azad olunmasına görə" medalı (2021); "Laçının azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## HÜSEYNOV
## İsmayıl Şahvələd oğlu
## (18.06.1993 - 08.10.2020)

Bakıda anadan olub. Orta təhsilini 1999-2010-cu illərdə Bakı şəhəri 162 saylı orta məktəbdə alıb. 2011-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Ağcabədidə xidmət edib. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və qısamüddətli hərbi təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından cəbhənin Füzuli və Cəbrayıl istiqamətlərində gedən qanlı döyüşlərə atılıb, rəşadətlə vuruşub. Xocavənd uğrundakı qızğın döyüşlərdə də böyük hünər göstərib. Qəhrəman əsgər oktyabrın 8-də Füzuli uğrundakı qızğın döyüşlərin birində misilsiz igidliklə savaşaraq şəhadətə ucalıb. Bakının Badamdar qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021).*



## HÜSEYNOV
## Kamran Bəhman oğlu
(14.08.1996 – 01.10.2020)

Bakıda anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Bakı şəhəri 207 saylı "Zəkalar" liseyində alıb. 2017-ci ildə Naxçıvan Müəllimlər İnstitutunu bitirib. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına qoşulmaq üçün könüllü olaraq müraciət edib. Həmin il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini əldə silah döyüş meydanlarında qarşılayıb. İlk gündən düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq rəşadətlə vuruşub. Cəsur əsgər Füzuli cəbhəsindəki qanlı döyüşlərdə qəhrəmancasına döyüşüb, bu həlledici vuruşmalarda böyük hünər göstərib. Oktyabrın 1-də Füzulinin azad edilməsi uğrunda gedən şiddətli döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. II Fəxri xiyabanda dəfn olunub. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## HÜSEYNOV
## Kərim Tərlan oğlu
(30.12.1989 – 10.10.2020)

Qusar rayonunun Piral kəndində anadan olub. Orta təhsilini 1996-2007-ci illərdə Piral kənd orta məktəbində alıb. 2008-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini 2016-cı ildən etibarən MAHHXHQ kimi davam etdirib, daha sonra SQ TTM-də gizir hazırlığı kursunu başa vurub. 2020-ci il sentyabrın 27-də başlayan Vətən





müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin giziri kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk anlarından Füzuli və Cəbrayıl cəbhələrindəki qızğın döyüşlərə atılıb, qəhrəmancasına vuruşub. İgid hərbçi Cəbrayılın azad olunması uğrunda gedən həlledici savaşlarda böyük şücaət göstərib. Oktyabrın 10-da Füzulinin azadlığı uğrundakı şiddətli döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Piral kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2021).*



## HÜSEYNOV
## Məhəmməd Alik oğlu
(28.10.1993 – 07.10.2020)

Beyləqan rayonunun Bahar qəsəbəsində anadan olub, Cəbrayıl rayonundan məcburi köçkün idi. 2009-cu ildə Bahar qəsəbəsindəki orta məktəbin IX sinfini bitirib. 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini baş çavuş, MAHHXHQ kimi davam etdirib. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayanda savaşın ilk saatlarından Füzuli cəbhəsi səngərlərində olub, xidmət etdiyi taborun tərkibində qanlı döyüşlərə atılaraq şücaətlə vuruşub. Rəşadətli əsgərin döyüş yolu Füzuli, Cəbrayıl və Xocavənd cəbhələrindən keçib, bu həlledici savaşlarda böyük qəhrəmanlıq göstərib. Oktyabrın 7-də Füzuli cəbhəsindəki qızğın döyüşlərin birində hünərlə savaşaraq şəhadətə qovuşub. Nəşi oktyabrın 20-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Beyləqan rayonunun Bahar qəsəbəsində dəfn olunub. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020).*



## HÜSEYNOV
## Məhəmməd Qiyas oğlu
### (21.03.2001 – 15.11.2020)

Gəncə şəhərində anadan olub. Orta təhsilini 2007-2016-cı illərdə Gəncə şəhəri 17 saylı orta məktəbdə alıb, təhsilini 2016-2019-cu illərdə Gəncə şəhəri 1 saylı Peşə Liseyində davam etdirib. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından ön xətdə, döyüş meydanlarında olub, xidmət etdiyi hərbi hissənin tərkibində Füzuli cəbhəsində qanlı döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Cəbrayıl uğrundakı döyüşlərdə hünər göstərib. Cəsur əsgər daha sonra Zəngilan və Şuşanın azadlığı uğrunda gedən qızğın savaşlarda şücaətlə iştirak edib, igidliyi ilə seçilib. Noyabrın 15-də Şuşa ətrafında qəhrəmancasına şəhidlik məqamına yüksəlib. Gəncə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## HÜSEYNOV
## Mətin Ramiz oğlu
### (27.10.1997 – 09.11.2020)

Naxçıvan MR Ordubad rayonunun Düylün kəndində anadan olub. Orta təhsilini 2004-2013-cü illərdə Düylün kənd orta məktəbində alıb, təhsilini 2013-2016-cı illərdə H.Əliyev adına Hərbi Liseydə davam etdirib. 2020-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı





Qüvvələrin leytenantı kimi zabit mundirində qarşılayıb, ilk gündən savaş meydanlarında olub, qəhrəmancasına vuruşub. Döyüşlərə Füzuli cəbhəsində başlayıb, daha sonra Cəbrayıl, Zəngilan, Xocavənd və Şuşa cəbhələrindəki qanlı döyüşlərdə misilsiz şücaət göstərib. Yaralansa da, savaş meydanını tərk etməyib. Rəşadətli zabit noyabrın 9-da Xocavənddə gedən qızğın döyüşlərin birində igidliklə vuruşaraq şəhadətə ucalıb. Nəşi noyabrın 22-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Düylün kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## HÜSEYNOV
## Mirəli Arif oğlu
### (25.10.1996 – 28.10.2020)

Ağcabədi şəhərində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Ağcabədi şəhəri 12 saylı orta məktəbdə alıb. 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində yenidən ordu sıralarına çağırılıb və sentyabrın 29-da cəbhəyə yollanıb. İlk günlərdən Füzuli cəbhəsinin savaş meydanlarında olub, hünərlə vuruşub. Daha sonra Cəbrayıl istiqamətində gedən həlledici döyüşlərə atılıb, bu qanlı vuruşmalarda şəxsi igidlik nümunəsi göstərib, öz cəsurluğu və mətinliyi ilə xüsusi fərqlənib. Qəhrəman əsgərin son savaşı oktyabrın 28-də olub. Həmin gün Qubadlı cəbhəsində gedən şiddətli döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Ağcabədi şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## HÜSEYNOV
## Mirzə Xəlifə oğlu
## (03.04.1991 – 05.10.2020)

Kəlbəcər rayonunun Ağdaban kəndində anadan olub. Orta təhsilini 1998-2009-cu illərdə Göygöl rayonu Çaykənd kənd orta məktəbində alıb. 2009-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2016-cı ildən MAHHXHQ kimi davam etdirib. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayanda qanlı döyüşlərə atılıb, iştirak etdiyi vuruşmalarda böyük hünər göstərib. Cəsur döyüşçü cəbhənin əsasən Tərtər-Ağdərə və Kəlbəcər istiqamətlərində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında igidliklə iştirak edib, Murovdağ döyüşlərində şücaəti ilə seçilib. Oktyabrın 5-də Kəlbəcər uğrunda gedən qızğın döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 31-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Göygöl şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2021); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021).*



## HÜSEYNOV
## Mustafa Əladdin oğlu
## (01.10.1996 – 27.09.2020)

Tovuz rayonunun Qonaqlı kəndində anadan olub. Orta təhsilini 2003-2014-cü illərdə Qonaqlı kənd orta məktəbində alıb. 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2016-cı il Aprel döyüşlərində qəhrəmancasına vuruşub. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına qoşulmaq üçün könüllü olaraq müraciət edib. Həmin il





sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini əldə silah döyüş meydanlarında qarşılayıb. İlk gündən Kəlbəcər cəbhəsində düşmənlə ölüm-dirim savaşına atılaraq misilsiz rəşadətlə vuruşub. İgid kiçik çavuş sentyabrın 27-də Murovdağ istiqamətindəki qanlı döyüşlərdə hünərlə vuruşaraq şəhadətə qovuşub. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 15-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Doğulub boya-başa çatdığı Qonaqlı kəndində dəfn edilib. Subay idi.

**Təltiflər:** *"Kəlbəcərin azad edilməsinə görə" medalı (2021); "Vətən uğrunda" medalı (2021).*



## HÜSEYNOV
## Nazim Yaqub oğlu
## (01.10.1977 – 07.10.2020)

İmişli rayonunun Bəhrəmtəpə qəsəbəsində anadan olub. 1994-cü ildə Bəhrəmtəpə qəsəbə orta məktəbini bitirib. 1995-1997-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 1997-2000-ci illərdə Pakistanda ali hərbi təhsil alaraq leytenant rütbəsində vətənə qayıdıb və zabit kimi xidmətə başlayıb. Kəşfiyyatçı-zabit Gəncə, Murovdağ, Goranboy və Tərtərdə xidmət edib. 2016-cı il Aprel döyüşlərində qəhrəmanlıq göstərib. 2018-ci ildə mayor rütbəsində ehtiyatda buraxılıb. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Bir həftədən sonra başlayan Vətən müharibəsinin ilk günündən Füzuli, Xocavənd və Cəbrayıl uğrundakı qanlı döyüşlərdə igidliklə iştirak edib, misilsiz şücaət göstərib. Rəşadətli zabit oktyabrın 7-də Füzuli cəbhəsindəki şiddətli döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhid olub. Bəhrəmtəpə qəsəbəsində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020).*



## HÜSEYNOV
## Nəbi Hacıbala oğlu
(09.07.1992 – 09.10.2020)

Qazax rayonunun Birinci Şıxlı kəndində anadan olub. Orta təhsilini 1998-2006-cı illərdə Birinci Şıxlı kənd orta məktəbində alıb. Təhsilini 2006-2009-cu illərdə C.Naxçıvanski adına Hərbi Liseydə davam etdirib. 2013-cü ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. Cəsurluqla vuruşduğu 2016-cı il Aprel döyüşlərindən sonra XTQ sıralarına qoşulmaq üçün kurs keçib. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayanda XTQ-də qrup komandiri kimi xidmət edirdi. İlk gündən qanlı savaşlara atılaraq misilsiz rəşadətlə döyüşüb. Murovdağ döyüşlərində hünər göstərib. Qəhrəman zabit daha sonra Xocavənd döyüşlərində mətinliklə iştirak edib. Oktyabrın 9-da Hadrut ətrafındakı qızğın döyüşlərin birində igidliklə vuruşaraq şəhadətə ucalıb. Birinci Şıxlı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Qarabağ" ordeni (2020); "Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## HÜSEYNOV
## Nəcəf İlqar oğlu
(30.09.1992 – 29.09.2020)

Gədəbəy rayonunun Arıqıran kəndində anadan olub. Orta təhsilini 1999-2010-cu illərdə Arıqıran kənd 1 saylı orta məktəbdə alıb. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Cəbhə bölgəsində – Beyləqanda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb,





savaşın ilk saatlarından ön xətdə olub, düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq misilsiz rəşadətlə vuruşub. Cəsur əsgər döyüşlərə cəbhənin Tərtər-Ağdərə və Kəlbəcər istiqamətlərində başlayıb. Murovdağ istiqamətində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında igidliklə iştirak edib, bu qanlı döyüşlərdə böyük şücaət göstərib, hünəri ilə xüsusi seçilib. Son döyüşü də Kəlbəcər cəbhəsində olub. Sentyabrın 29-da Murovdağ yüksəklikləri uğrunda gedən şiddətli döyüşlərin birində misilsiz şücaətlə savaşaraq şəhidlik zirvəsinə yüksəlib. Doğulub boya-başa çatdığı Arıqıran kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020).*



## HÜSEYNOV
## Nicat Adil oğlu
(30.03.1987 – 21.10.2020)

Hacıqabul rayonunun Meyniman kəndində anadan olub. Orta təhsilini 1994-2004-cü illərdə Meyniman kənd orta məktəbində alıb. 2005-2007-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Tovuzda xidmət edib. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah Füzuli cəbhəsi səngərlərində qarşılayıb, ilk saatlardan düşmənlə ölüm-dirim çarpışmasına atılaraq misilsiz şücaətlə vuruşub. İgid əsgər Qubadlı cəbhəsindəki ağır döyüşlərdə qəhrəmanlıq göstərib. Oktyabrın 21-də Laçın uğrundakı qanlı döyüşlərdə rəşadətlə savaşaraq şəhid olub. Doğulduğu Meyniman kəndində dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## HÜSEYNOV
## Nicat Ziyafət oğlu
### (04.06.1997 – 06.10.2020)

Şirvan şəhərində anadan olub. Orta təhsilini 2003-2014-cü illərdə Şirvan şəhəri 9 və 16 saylı orta məktəblərdə alıb. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində – Ağdamda xidmət edib. 2016-cı il Aprel döyüşlərində iştirak edərək qəhrəmancasına vuruşub. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra orduya qoşulmaq üçün könüllü olaraq müraciət edib. Həmin il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən orduya çağırılıb. Sentyabrın 29-da Füzuli cəbhəsində qanlı döyüşlərə atılaraq rəşadətlə vuruşub. Cəsur əsgər Füzulinin Qaraxanbəyli kəndi uğrundakı qızğın döyüşlərdə igidlik göstərib. Oktyabrın 6-da elə həmin döyüşlərdə misilsiz hünərlə vuruşaraq şəhadətə qovuşub. Şirvan şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" (2020); "Füzulinin azad olunmasına görə" (2021); "Şuşanın azad olunmasına görə" (2021); "Cəsur döyüşçü" medalı (2021); "Döyüşdə fərqlənməyə görə" medalı (2021).*



## HÜSEYNOV
## Nurlan Madər oğlu
### (03.07.1992 – 14.10.2020)

İmişli rayonunun Göbəktala kəndində anadan olub. Orta təhsilini 1998-2009-cu illərdə Göbəktala kənd orta məktəbində alıb. 2010-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində – Ağdamda xidmət edib. Hərbi xidmət dövründə gizir hazırlığı kursunu bitirib. 2012-ci ildən etibarən xidmətini xüsusi təyinatlı dəstənin tərkibində gizir kimi davam etdirib. 2016-cı il Aprel döyüşlərində böyük şücaət göstərib. 2020-ci ilin





sentyabrında başlayan Vətən müharibəsinin ilk günündən savaş meydanlarında olub. Füzuli, Cəbrayıl və Xocavənd uğrundakı döyüşlərdə rəşadətlə savaşıb, şəxsi igidlik nümunəsi göstərib. Oktyabrın 14-də Hadrut ətrafındakı qanlı döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Göbəktala kəndində dəfn edilib. Ailəli idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## HÜSEYNOV
## Orxan Bəhmən oğlu
### (25.07.1991 – 05.10.2020)

Bakıda anadan olub. Orta təhsilini 1997-2008-ci illərdə Bakı şəhəri 146 saylı tam orta məktəbdə alıb. 2012-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirərək zabit kimi xidmət etməyə başlayıb. Qusar, Tərtər və Mingəçevirdə xidmət edib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin baş leytenantı kimi zabit mundirində qarşılayıb, savaşın ilk saatlarından etibarən düşmənə qarşı amansız mübarizəyə atılaraq şücaətlə döyüşüb. Rəşadətli zabit döyüşlərə Tərtər-Ağdərə cəbhəsində başlayıb, Talış kəndinin və Suqovuşanın azad olunması uğrunda gedən qanlı savaşlarda qəhrəmanlıq nümunəsi göstərib, hünəri və mətinliyi ilə seçilib. Son döyüşü oktyabrın 5-də olub. Həmin gün Tərtər-Ağdərə cəbhəsində gedən şiddətli döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Bakının Əmircan qəsəbəsində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## HÜSEYNOV
## Orxan Ələkbər oğlu
**(04.03.1996 – 09.10.2020)**

Balakən rayonunun Gülüzanbinə kəndində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Gülüzanbinə kənd orta məktəbində alıb. 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Ağstafada xidmət edib. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrinin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və hərbi təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsinin elə ilk günündən xidmət etdiyi hərbi hissənin tərkibində düşmənlə ölüm-dirim savaşına atılıb, qəhrəmancasına vuruşub. İgid əsgərin döyüş yolu Tərtər-Ağdərə cəbhəsindəki qanlı savaşlardan keçib, Talış və Suqovuşan uğrundakı döyüşlərdə mətanətlə savaşaraq hünər göstərib. Oktyabrın 9-da Suqovuşan ətrafındakı şiddətli döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi 2021-ci il yanvarın 15-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Gülüzanbinə kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Vətən uğrunda" medalı (2021).*



## HÜSEYNOV
## Pencalı Bəhmən oğlu
**(07.05.2001 – 28.09.2020)**

Neftçala rayonunun İkinci Qaralı kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə İkinci Qaralı kənd orta məktəbində alıb. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, müharibənin ilk günündən ön xətdə, döyüş meydanlarında olub, düşmənlə ölüm-dirim savaşına atılaraq şücaətlə





döyüşüb. Cəsur əsgər qızğın döyüşlərə xidmət etdiyi hərbi hissənin tərkibində Kəlbəcər istiqamətində başlayıb. Murovdağ yüksəklikləri uğrundakı qanlı savaşlarda hünərlə iştirak edib, bu vuruşmalarda şəxsi igidlik nümunəsi və qəhrəmanlıq göstərib. Son döyüşü də Kəlbəcər cəbhəsində olub. Sentyabrın 28-də Murovdağ uğrunda gedən şiddətli döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Doğulub boya-başa çatdığı İkinci Qaralı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## HÜSEYNOV
## Rafail Teymur oğlu
**(01.01.2000 – 06.11.2020)**

Masallı rayonunun Qarğalıq kəndində anadan olub. Orta təhsilini 2006-2017-ci illərdə Qarğalıq kənd orta məktəbində alıb. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Xidmət etdiyi dövrdə könüllü olaraq XTQ kursuna yazılıb. Yarım illik kursdan sonra XTQ-yə qəbul edilib və müddətli xidmətini başa vurandan sonra orduya qayıdaraq kiçik gizir rütbəsində xidmətə başlayıb. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsinin ilk günündən savaş meydanlarında olub. Rəşadətli xüsusi təyinatlı döyüşçü Kəlbəcər, Xocavənd, Hadrut və Cəbrayıl uğrunda misilsiz igidliklə vuruşub, əsl qəhrəmanlıq göstərib. Noyabrın 6-da Şuşa uğrundakı qanlı döyüşlərdə hünərlə savaşaraq şəhadətə qovuşub. Adı itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 30-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Qarğalıq kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021).*



## HÜSEYNOV
## Rafiz Afiq oğlu
## (12.10.2000 – 30.10.2020)

Gədəbəy rayonunun Şahdağ kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Şahdağ kənd orta məktəbində alıb. 2019-cu ilin aprelində Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk saatlarından ön cəbhədə, döyüş meydanlarında olub, misilsiz rəşadətlə vuruşub. Cəsur əsgərin döyüş yolu Kəlbəcər cəbhəsində Murovdağ uğrundakı qanlı savaşlarla başlayıb. Daha sonra Cəbrayıl və Xocavənd cəbhələrində hünərlə döyüşüb, bu qızğın savaşlarda böyük hünər göstərib. Son döyüşü oktyabrın 30-da Şuşa ətrafında olub. Həmin gün düşmənlə üzbəüz amansız döyüşlərin birində qəhrəmancasına savaşaraq şəhidlik məqamına yüksəlib. Doğulduğu Şahdağ kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Azərbaycan Bayrağı" ordeni (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021).*



## HÜSEYNOV
## Rahib İlham oğlu
## (02.04.2000 – 16.10.2020)

Beyləqan rayonunun Birinci Şahsevən kəndində anadan olub. Orta təhsilini 2006-2017-ci illərdə Bakı şəhəri 95 saylı və Birinci Şahsevən kənd orta məktəblərində alıb. 2018-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində - Beyləqanda xidmət edib. Tərxis olunandan bir neçə ay sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kiçik çavuşu kimi əldə silah səngərlərdə qarşılayıb. Cəbhənin Füzuli və Cəbrayıl istiqamətlərində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında hünərlə iştirak edib, bu şiddətli döyüşlərdə misilsiz şücaət göstərib. Qəhrəman döyüşçünün son savaşı oktyabrın 16-da olub. Həmin gün Füzuli cəbhəsində gedən qanlı döyüşlərin birində igidliklə vuruşaraq şəhadətə ucalıb. Nəşi oktyabrın 29-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Füzuli rayonunun Alxanlı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "İgidliyə görə" medalı (2021).*



## HÜSEYNOV
## Raqib Adil oğlu
## (03.06.1993 – 28.09.2020)

Naxçıvan MR Şahbuz rayonunun Mərəlik kəndində anadan olub. Orta təhsilini 2000-2008-ci illərdə Mərəlik kənd və Naxçıvan şəhəri H.Əliyev adına orta məktəblərdə alıb. Təhsilini 2008-2011-ci illərdə H.Əliyev adına Hərbi Liseydə davam etdirib. 2015-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. Gəncə, Tərtər və Naftalanda xidmət edib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin baş leytenantı kimi zabit mundirində qarşılayıb. Savaşın ilk günündən Tərtər-Ağdərə cəbhəsindəki ölüm-dirim çarpışmasına atılaraq qəhrəmancasına savaşıb. Suqovuşan uğrundakı qanlı döyüşlərdə böyük hünər göstərib. Rəşadətli zabit yaralansa da, savaş meydanını tərk etməyərək son damla qanına qədər igidliklə döyüşüb. Sentyabrın 28-də Talış kəndi uğrundakı şiddətli döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Naxçıvan şəhərində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020).*



## HÜSEYNOV
## Ramin Qüdrət oğlu
**(08.09.1993 – 08.10.2020)**

Ağsu rayonunun Çaparlı kəndində anadan olub. Orta təhsilini 1999-2010-cu illərdə Çaparlı kənd və Bakı şəhəri 284 saylı orta məktəblərdə alıb. 2011-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2014-cü ildə SQ Təlim-Tədris Mərkəzində gizir hazırlığı kursunu bitirərək xidmətə başlayıb. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin giziri kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk saatlarından ön xətdə, savaş meydanlarında olub, iştirak etdiyi həlledici vuruşmalarda öz igidliyi ilə xüsusi seçilib. Cəsur döyüşçü Füzuli, Cəbrayıl və Xocavəndin azad olunması uğrunda gedən qanlı savaşlarda misilsiz şücaət göstərib, qorxmazlığı ilə fərqlənib. Oktyabrın 8-də Füzulinin Qaraxanbəyli kəndi uğrundakı şiddətli döyüşlərin birində rəşadətlə vuruşaraq şəhid olub. Doğulduğu Çaparlı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## HÜSEYNOV
## Rəcəb Nazim oğlu
**(03.01.1994 – 09.11.2020)**

Tovuz rayonunun Aşağı Quşçu kəndində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Aşağı Quşçu kənd orta məktəbində alıb. 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Oktyabrın 6-dan etibarən ön xətdə,





qızğın döyüşlərdə olan igid əsgər cəbhənin müxtəlif istiqamətlərində həyata keçirilən əks-hücum əməliyyatlarında hünərlə iştirak edib. Xocavənd və Laçın cəbhələrindəki qızğın döyüşlərdə, Şuşanın azad olunmasında misilsiz şücaət göstərib, qorxmazlığı ilə seçilib. Son döyüşü noyabrın 9-da olub. Həmin gün Laçın rayonu istiqamətində gedən qanlı savaşların birində hünərlə döyüşərək şəhadətə qovuşub. Doğulub boya-başa çatdığı Aşağı Quşçu kəndində dəfn olunub. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020).*



## HÜSEYNOV
## Rəhim Qədir oğlu
**(01.07.1984 – 20.10.2020)**

Zərdab rayonunun Gəlmə kəndində anadan olub. Orta təhsilini 1990-1998-ci illərdə Gəlmə kənd orta məktəbində alıb. Təhsilini daha sonra 1998-2001-ci illərdə C.Naxçıvanski adına Hərbi Liseydə davam etdirib. 2005-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin mayoru kimi zabit mundirində, döyüş meydanlarında qarşılayıb. Komandiri olduğu taborla birlikdə ilk gündən Cəbrayıl cəbhəsində qanlı döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Füzuli rayonu uğrundakı həlledici döyüşlərdə böyük şücaət göstərib. Rəşadətli zabitin son savaşı oktyabrın 20-də olub. Həmin gün Qubadlının azad olunması uğrunda gedən şiddətli döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. II Fəxri xiyabanda dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Qarabağ" ordeni (2020); "Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020).*



## HÜSEYNOV
## Rövşən Kazım oğlu
**(21.08.1995 – 23.10.2020)**

Bakıda anadan olub. Orta təhsilini 2001-2012-ci illərdə Bakı şəhəri 115 və 202 saylı orta məktəblərdə alıb. 2017-ci ildə Rusiyanın Stavropol şəhərindəki Qafqaz Xalqlarının Dostluğu İnstitutunu bitirib. Həmin ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə xəttində - Murovda xidmət edib, 2018-ci ildə ordudan tərxis olunub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Cəsur əsgərin döyüş yolu Füzuli cəbhəsində başlayıb, bu qanlı savaşlarda hünərlə iştirak edib. Xocavənd və Cəbrayıl uğrundakı həlledici döyüşlərdə şəxsi igidlik və rəşadət göstərib. Oktyabrın 23-də Füzuli rayonunun Kürdlər kəndi istiqamətində gedən şiddətli döyüşlər zamanı misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Bakının Binəqədi qəsəbəsində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda"medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## HÜSEYNOV
## Röyan Sübhan oğlu
**(21.03.2001 – 09.10.2020)**

Gədəbəy rayonunun Parakənd kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Gəncə şəhəri 43 saylı orta məktəbdə alıb. 2019-cu ilin aprelində Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk günündən döyüş meydanlarında olub, düşmənlə ölüm-dirim çarpışmasının getdiyi Füzuli





cəbhəsindəki qızğın döyüşlərə atılaraq rəşadətlə vuruşub. Qəhrəman kəşfiyyatçı-əsgərin döyüş yolu daha sonra Cəbrayıl və Xocavənd cəbhələrindən keçib, bu rayonlar uğrundakı həlledici döyüşlərdə şəxsi igidlik nümunəsi göstərib. Son savaşı oktyabrın 9-da olub. Həmin gün Xocavənd rayonunun Hadrut qəsəbəsi ətrafında gedən qanlı döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Gəncə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## HÜSEYNOV
## Ruslan Vəli oğlu
**(10.05.1988 – 01.11.2020)**

Beyləqan rayonunun Bahar qəsəbəsində anadan olub. Orta təhsilini 1995-2006-cı illərdə Bahar qəsəbə orta məktəbində alıb. 2007-2008-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Gəncədə xidmət edib. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2016-cı il Aprel döyüşlərinin iştirakçısı olub. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kiçik çavuşu kimi səngərlərdə qarşılayıb. Füzuli, Cəbrayıl, Xocavənd, Qubadlı, Zəngilan və Şuşa istiqamətlərində həyata keçirilən əks-hücum əməliyyatlarında ilk gündən hünərlə iştirak edib, Hadrut döyüşlərində böyük şücaət göstərib. İgid döyüşçü noyabrın 1-də Şuşa istiqamətindəki qanlı savaşlarda misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Nəşi noyabrın 24-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Bahar qəsəbəsində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021), "Şuşanın azad olunmasına görə" medalı (2022).*



## HÜSEYNOV
## Sabir Elşən oğlu
### (14.12.1999 – 23.10.2020)

Siyəzən rayonunun Yenikənd kəndində anadan olub. Orta təhsilini 2006-2017-ci illərdə Yenikənd kənd orta məktəbində alıb. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Tərtərdə xidmət edib. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini əldə silah döyüş meydanlarında qarşılayıb, savaşın ilk günündən düşmənlə amansız döyüşlərə atılaraq şücaətlə vuruşub. Döyüş yolu Füzuli, Cəbrayıl və Xocavənd cəbhələrindən keçib, bu rayonlar uğrundakı qanlı savaşlarda cəsurluqla iştirak edərək misilsiz qəhrəmanlıq göstərib. Rəşadətli əsgər oktyabrın 23-də Füzuli rayonu uğrunda gedən qızğın döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Doğulub boya-başa çatdığı Yenikənd kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## HÜSEYNOV
## Sahil Habil oğlu
### (12.06.2001 – 13.10.2020)

Ağcabədi rayonunun Xocavənd kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Xocavənd kənd 1 saylı orta məktəbdə alıb. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə bölgəsində – Qazaxda xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən savaş meydanlarında olub, igidliklə vuruşub. Cəbhənin Füzuli və





Cəbrayıl istiqamətlərində həyata keçirilən əks-hücum əməliyyatlarında hünərlə iştirak edərək misilsiz şücaət göstərib. Füzuli uğrunda döyüşlərdə mətinliyi və qorxmazlığı ilə fərqlənib. Cəsur əsgər oktyabrın 13-də Füzulinin Aşağı Seyidəhmədli kəndi uğrundakı şiddətli döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Adı bir müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 11-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Xocavənd kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## HÜSEYNOV
## Samir Əlizadə oğlu
### (15.11.1994 – 09.11.2020)

Lerik rayonunun Vov kəndində anadan olub. Orta təhsilini 2001-2010-cu illərdə Vov kənd orta məktəbində alıb. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Gəncə və Qazaxda xidmət edib. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və 2016-cı ildən etibarən xidmətini XTQ sıralarında MAHHXHQ kimi davam etdirib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini qorxubilməz xüsusi təyinatlı döyüşçü kimi savaş meydanlarında qarşılayıb, ilk saatlardan düşmənə qarşı amansız döyüşlərə atılaraq rəşadətlə vuruşub. Qəhrəman XTQ əsgəri Füzuli, Cəbrayıl, Xocavənd, Qubadlı, Zəngilan və Şuşa uğrunda gedən savaşlarda qəhrəmanlıqla iştirak edərək böyük şücaət göstərib. Noyabrın 9-da Şuşada – Daşaltı istiqamətində gedən qanlı döyüşlərdə misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Doğulduğu Vov kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021).*



## HÜSEYNOV
## Sənan Vidadi oğlu
**(01.04.1996 – 06.11.2020)**

Qazaxıstanın Aktau şəhərində anadan olub, 2008-ci ildə ailəsi Azərbaycana köçüb. Orta təhsilini 2002-2013-cü illərdə Aktau şəhərində və Bakının Binə qəsəbəsindəki 149 saylı orta məktəbdə alıb. 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Tərtərdə xidmət edib. 2016-cı il Aprel döyüşlərində hünərlə savaşıb. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi savaş meydanlarında qarşılayıb, ilk gündən qanlı döyüşlərə atılaraq qəhrəmanlıq göstərib. Füzuli, Cəbrayıl, Qubadlı uğrunda rəşadətlə vuruşan igid əsgərin döyüş yolu Şuşa cəbhəsinədək uzanıb. Noyabrın 6-da Şuşa uğrunda gedən qızğın döyüşlərdə şücaətlə savaşaraq şəhidlik zirvəsinə yüksəlib. Bakının Binə qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## HÜSEYNOV
## Sərhəd Fərhad oğlu
**(21.04.1996 – 29.09.2020)**

Füzuli rayonunun Yağlıvənd kəndində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Yağlıvənd kənd orta məktəbində alıb. 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Naxçıvanda xidmət edib. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2017-ci ildən etibarən MAHHXHQ kimi davam etdirməyə





başlayıb, cəbhə bölgəsində – Beyləqanda həmlə taborunda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah Füzuli cəbhəsi səngərlərində qarşılayıb. Füzuli cəbhəsində gedən qanlı döyüşlərdə cəsur bir döyüşçü kimi igidliklə savaşıb, bu vuruşmalarda böyük şücaət və qəhrəmanlıq nümunəsi göstərərək mətinliyi ilə fərqlənib. Sentyabrın 29-da Füzulinin Əbdürrəhmanlı kəndi uğrundakı şiddətli döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Doğulub boya-başa çatdığı Yağlıvənd kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## HÜSEYNOV
## Şahnur Şahin oğlu
**(30.11.1991 – 27.09.2020)**

Polşa Respublikasında anadan olub. Orta təhsilini əvvəlcə 1997-2006-cı illərdə Füzuli rayonu İkinci Mahmudlu kənd orta məktəbində alıb, təhsilini 2006-2009-cu illərdə C.Naxçıvanski adına Hərbi Liseydə davam etdirib. 2013-cü ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. 2016-cı il Aprel döyüşlərində iştirak edərək qəhrəmanlıq nümunəsi göstərib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin kapitanı kimi zabit mundirində qarşılayıb, savaşın ilk saatlarından ön xətdə, döyüş meydanlarında olub, düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq misilsiz igidliklə vuruşub. Rəşadətli zabit döyüşlərə Füzuli cəbhəsində başlayıb. Müharibənin elə ilk günü – sentyabrın 27-də Füzuli uğrundakı qanlı döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Astara rayonunun Ərçivan qəsəbəsində dəfn olunub. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Azərbaycan Bayrağı" ordeni (2021).*



## HÜSEYNOV
## Şirbala Hüseynbala oğlu
## (06.05.1990 – 01.10.2020)

Sumqayıt şəhəri H.Z.Tağıyev qəsəbəsində anadan olub. Orta təhsilini 1996-2007-ci illərdə H.Z.Tağıyev qəsəbəsi 6 saylı orta məktəbdə alıb. 2008-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olunub. AAHM-i 2012-ci ildə leytenant rütbəsində bitirəndən sonra təhsilini SQ TTM-də davam etdirib. 2013-cü ildə zabit kimi xidmətə başlayıb, cəbhə bölgəsində - Beyləqan və Füzulidə xidmət edib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin kapitanı kimi zabit mundirində qarşılayıb. Müharibənin ilk saatlarından savaş meydanlarında olan rəşadətli zabit döyüşlərə Füzuli cəbhəsində başlayıb, bu qanlı vuruşmalarda misilsiz şücaət göstərib. Daha sonra Cəbrayıl uğrundakı qızğın döyüşlərdə igidliklə iştirak edib. Oktyabrın 1-də cəbhənin Füzuli və Cəbrayıl istiqamətlərindəki şiddətli döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "İgidliyə görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## HÜSEYNOV
## Ülvü Möhsün oğlu
## (16.04.1988 – 07.11.2020)

Naxçıvan MR Ordubad rayonunun Sabirkənd kəndində anadan olub. Orta təhsilini əvvəlcə 1995-2003-cü illərdə Sabirkənd kənd orta məktəbində alıb, təhsilini daha sonra 2003-2006-cı illərdə H.Əliyev adına Hərbi Liseydə davam etdirib. 2010-cu ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. 2016-cı il Aprel döyüşlərində şücaətlə





iştirak edib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin kapitanı kimi zabit mundirində qarşılayıb, ilk gündən savaş meydanlarında olub, rəşadətlə vuruşub. Qəhrəman zabitin döyüş yolu Füzuli, Xocavənd, Hadrut, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın cəbhələrindən keçərək həlledici Şuşa savaşlarına qədər uzanıb. Son döyüşü də burada olub. Noyabrın 7-də Şuşa ətrafındakı qanlı döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. II Fəxri xiyabanda dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Qarabağ" ordeni (2020); "Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021).*



## HÜSEYNOV
## Vaqif Asəf oğlu
## (01.01.2000 – 26.10.2020)

Şəmkir rayonunun Qaralar kəndində anadan olub. Orta təhsilini 2006-2017-ci illərdə Qaralar kənd orta məktəbində alıb. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsinin ilk günündən savaş meydanlarında olub, qatıldığı ağır döyüşlərdə hünərlə vuruşub. Döyüşlərə Kəlbəcər cəbhəsində başlayıb, Murovdağ yüksəklikləri uğrunda gedən qanlı savaşlarda igidlik göstərib. Daha sonra Füzuli rayonu istiqamətində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında iştirak edib, bu qızğın döyüşlərdə rəşadətlə vuruşub, qorxmazlığı və qəhrəmanlığı ilə xüsusi fərqlənib. Cəsur əsgərin son döyüşü oktyabrın 26-da olub. Həmin gün Füzuli cəbhəsindəki şiddətli döyüşlərin birində misilsiz şücaətlə savaşaraq şəhidlik zirvəsinə yüksəlib. Qaralar kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## HÜSEYNOV
## Vüsal Hüseyn oğlu
## (01.01.1999 – 03.11.2020)

Gədəbəy rayonunun Novoivanovka kəndində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Novoivanovka kənd orta məktəbində alıb. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2019-cu ildən MAHHXHQ kimi davam etdirib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini bir əsgər kimi səngərlərdə qarşılayıb, ilk gündən savaş meydanlarında olub. İgid əsgər Kəlbəcər, Füzuli, Xocavənd, Cəbrayıl və Şuşa cəbhələrində gedən həlledici döyüşlərdə şücaətlə iştirak edib, bu qızğın döyüşlərdə böyük hünər göstərib. Noyabrın 3-də Xocavənd cəbhəsindəki şiddətli döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Nəşi noyabrın 19-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Novoivanovka kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2021).*



## HÜSEYNOV
## Vüsal Nadir oğlu
## (30.01.1991 – 30.10.2020)

Beyləqan rayonunun Qəhrəmanlı qəsəbəsində anadan olub. Orta təhsilini 1997-2008-ci illərdə Qəhrəmanlı qəsəbə orta məktəbində alıb. 2009-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2011-ci ildən MAHHXHQ kimi davam etdirib. 2016-cı il Aprel döyüşlərində





igidliklə iştirak edərək hünər göstərib. 2017-ci ildən XTQ sıralarında xidmət edib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir əsgər kimi səngərlərdə qarşılayıb, ilk gündən savaş meydanlarında olub. Əvvəlcə Füzuli cəbhəsində igidliklə vuruşub, daha sonra Xocavənd və Cəbrayılın azad olunması uğrunda gedən qanlı savaşlarda misilsiz rəşadət və şəxsi igidlik nümunəsi göstərib. Qəhrəman əsgər oktyabrın 30-da Xocavənd cəbhəsindəki qanlı döyüşlərdə hünərlə vuruşaraq şəhadətə qovuşub. Beyləqan rayonunun Bahar qəsəbəsində dəfn olunub. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Döyüşdə fərqlənməyə görə" medalı (2021).*



## HÜSEYNOV
## Vüsal Yəhya oğlu
## (10.06.2001 – 08.11.2020)

Lənkəran rayonunun Velədi kəndində anadan olub. Orta təhsilini 2007-2016-cı illərdə Lənkəran şəhəri 8 saylı orta məktəbdə alıb. Təhsilini 2016-2018-ci illərdə Lənkəran Texniki Kollecində davam etdirib. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, DSX Sərhəd Qoşunlarında xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk günündən döyüş meydanlarında olub, düşmənlə ölüm-dirim savaşına atılaraq misilsiz rəşadətlə vuruşub. Cəsur əsgər cəbhənin Füzuli, Cəbrayıl və Zəngilan istiqamətlərində gedən həlledici döyüşlərdə şücaətlə iştirak edib, bu qızğın döyüşlərdə böyük hünər göstərib, igidliyi ilə seçilib. Son döyüşü noyabrın 8-də olub. Həmin gün Zəngilan cəbhəsində gedən şiddətli döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Doğulub boya-başa çatdığı Velədi kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Zəngilanın azad olunmasına görə" medalı (2020).*



## HÜSEYNOV
## Zaur Eldar oğlu
(20.03.1992 – 09.10.2020)

Beyləqan rayonunun İmamverdilər kəndində anadan olub. Orta təhsilini 1998-2009-cu illərdə İmamverdilər kənd orta məktəbində alıb. 2010-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb, sentyabrın 29-da ön cəbhəyə yollanaraq düşmənlə ölüm-dirim mübarizəsinə atılıb. Cəbhənin Füzuli istiqamətində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında hünərlə iştirak edərək şücaət göstərib. Rəşadətli əsgər daha sonra Qubadlı və Cəbrayıl uğrundakı qanlı döyüşlərdə qəhrəmancasına vuruşub, cəsurluğu ilə seçilib. Oktyabrın 9-da Qubadlı cəbhəsindəki qızğın döyüşlər zamanı misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. İmamverdilər kəndində dəfn olunub. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## HÜSEYNOV
## Zaur Vaqif oğlu
(24.06.1995 – 27.09.2020)

Masallı rayonunun Hişkədərə kəndində anadan olub. Orta təhsilini 2001-2010-cu illərdə Hişkədərə kənd orta məktəbində alıb. Təhsilini daha sonra 2010-2013-cü illərdə C.Naxçıvanski adına Hərbi Liseydə davam etdirib. 2013-cü ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2017-ci ildə AAHM-i leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. 2020-ci il iyul Tovuz döyüşlərində hünər göstərib. Həmin il sentyabrın 27-də başlayan





Vətən müharibəsini Silahlı Qüvvələrin leytenantı kimi zabit mundirində qarşılayıb. Müharibənin ilk saatlarından savaş meydanlarında olub, rəşadətlə vuruşub. Qəhrəman zabit Füzuli cəbhəsindəki qanlı döyüşlərdə hünərlə iştirak edərək şəxsi igidlik nümunəsi göstərib. Müharibənin elə ilk günü – sentyabrın 27-də Füzulinin Alxanlı kəndi istiqamətində gedən şiddətli döyüşlər zamanı misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Hişkədərə kəndində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "İgidliyə görə" medalı (2021).*



## HÜSEYNZADƏ
## Elgiz İbrahim oğlu
(28.10.2001 – 22.10.2020)

Tərtər rayonunun Bəyimsarov kəndində anadan olub. Orta təhsilini 2008-2019-cu illərdə Bəyimsarov kənd orta məktəbində alıb. 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Cəbhə bölgəsində – Ağcabədidə xidmət edirdi. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk saatlarından ön xətdə, döyüş meydanlarında olub, qəhrəmancasına vuruşub. Cəbhənin Füzuli və Cəbrayıl istiqamətlərində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında hünərlə iştirak edib, bu qızğın vuruşmalarda misilsiz şücaət və şəxsi igidlik nümunəsi göstərib, öz mətinliyi və cəsurluğu ilə xüsusi fərqlənib. İgid əsgərin son döyüşü oktyabrın 22-də olub. Həmin gün Füzuli cəbhəsində gedən qanlı döyüşlərin birində misilsiz rəşadətlə savaşaraq şəhid olub. Nəşi oktyabrın 29-da ailəsinə təhvil verilib. Doğulub boya-başa çatdığı Bəyimsarov kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## HÜSEYNZADƏ
## Elməddin Fərman oğlu
(24.03.1998 – 29.09.2020)

Bərdə rayonunun Sərkarlar kəndində anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Bərdə şəhəri 1 saylı orta məktəbdə alıb. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində - Beyləqanda xidmət edib. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və 2020-ci ildən etibarən xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından döyüş meydanlarında olub, düşmənlə ölüm-dirim çarpışmasının getdiyi Tərtər-Ağdərə cəbhəsindəki şiddətli döyüşlərdə igidliklə iştirak edib, Talış və Suqovuşan istiqamətindəki ağır döyüşlərdə misilsiz rəşadət göstərib. Cəsur əsgər sentyabrın 29-da Suqovuşan uğrunda gedən qanlı savaşların birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Bərdə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *“Vətən uğrunda” medalı (2020); “Suqovuşanın azad olunmasına görə” medalı (2020); “Cəsur döyüşçü” medalı (2021).*



## HÜSEYNZADƏ
## Fərid Eldəniz oğlu
(18.05.2002 – 14.10.2020)

Ucar rayonunun Qazyan kəndində anadan olub, sonra ailəsi Bakı şəhərinə köçüb. 2017-ci ildə Bakının Bülbülə qəsəbəsindəki 79 saylı tam orta məktəbin IX sinfini bitirib. 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Cəbhə bölgəsində - Beyləqanda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk günündən ön xətdə





olub, Füzuli və Cəbrayıl cəbhələrində gedən qızğın döyüşlərə atılaraq hünərlə vuruşub, bu vuruşmalarda misilsiz şücaət göstərib, düşmənlə ölüm-dirim savaşında öz igidliyi ilə xüsusi seçilib. Rəşadətli əsgərin son döyüşü oktyabrın 14-də olub. Həmin gün Füzulinin azad olunması uğrunda gedən şiddətli döyüşlərin birində mətinliklə vuruşub, həmin qanlı savaşda da qəhrəmancasına döyüşərək şəhidlik məqamına yüksəlib. Bakının Suraxanı rayonundakı Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *“Vətən uğrunda” medalı (2020); “Füzulinin azad olunmasına görə” medalı (2020); “İgidliyə görə” medalı (2021).*



## HÜSEYNZADƏ
## Həmidağa Bağı oğlu
(13.08.1990 – 28.09.2020)

Bakıda anadan olub. Orta təhsilini 1997-2008-ci illərdə Bakı şəhəri 54 saylı orta məktəbdə alıb. Təhsilini 2008-2012-ci illərdə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində davam etdirib. Ali hərbi təhsilini 2012-ci ildə leytenant rütbəsində tamamlayaraq zabit kimi xidmətə başlayıb, xidmətini daha sonra XTQ sıralarında davam etdirməyə başlayıb. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kapitanı kimi zabit mundirində qarşılayıb. İlk gündən ön xətdə, qanlı savaş meydanlarında olub, cəbhənin Kəlbəcər istiqamətində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında bir komandir kimi şücaətlə vuruşub. Murovdağ yüksəklikləri uğrundakı şiddətli döyüşlərdə rəşadət göstərib. Qəhrəman zabit sentyabrın 28-də Murovdağ uğrundakı qızğın döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. II Fəxri xiyabanda dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *“Qarabağ” ordeni (2020); “Vətən uğrunda” medalı (2020); “Kəlbəcərin azad olunmasına görə” medalı (2020).*



## HÜSEYNZADƏ
## Murad Mahmud oğlu
(08.01.1998 - 31.10.2020)

Lənkəran rayonunun Şağlaser kəndində anadan olub. Orta təhsilini 2004-2013-cü illərdə Şağlaser kənd orta məktəbində alıb, təhsilini daha sonra 2013-2015-ci illərdə tibbi hazırlıq kursunda davam etdirib. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2016-cı il Aprel döyüşlərinin iştirakçısı olub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Sentyabrın 29-dan Füzuli cəbhəsindəki şiddətli savaşlara atılaraq rəşadətlə vuruşub, daha sonra Cəbrayıl uğrundakı qızğın döyüşlərdə qəhrəmanlıq göstərib. İgid əsgər oktyabrın 31-də Qubadlı istiqamətində gedən qanlı döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Nəşi noyabrın 11-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Şağlaser kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*







## HÜSEYNZADƏ
## Səməd Sətdar oğlu
(18.10.1998 - 30.09.2020)

İsmayıllı rayonunun Talıstan kəndində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Talıstan kənd orta məktəbində, ali təhsilini 2016-2020-ci illərdə Azərbaycan Dövlət Aqrar Universitetində alıb. 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən Tərtər-Ağdərə cəbhəsində düşmənlə ölüm-dirim savaşına atılaraq şücaətlə döyüşüb. Talış və Suqovuşan uğrundakı qanlı döyüşlərdə qəhrəmancasına iştirak edib. Cəsur əsgər Xocavəndin azad edilməsi uğrunda gedən şiddətli döyüşlərdə şəxsi igidlik nümunəsi göstərib, bu vuruşmalarda mətinliyi və qorxmazlığı ilə xüsusi seçilib. Sentyabrın 30-da Tərtər-Ağdərə cəbhəsindəki qızğın döyüşlər zamanı misilsiz rəşadətlə vuruşaraq şəhidlik məqamına ucalıb. Talıstan kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Ağdamın azad olunmasına görə" medalı (2020).*

# X



## XAMƏMMƏDOV
## Şirxan Xaməmməd oğlu
### (09.02.1998 – 03.11.2020)

Şamaxı rayonunun Məlikçobanlı kəndində anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Məlikçobanlı kənd orta məktəbində alıb. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2016-cı il Aprel döyüşlərində igidliklə iştirak edib. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və 2018-ci ildən xidmətini XTQ sıralarında MAHHXHQ kimi davam etdirib. Naxçıvanda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən savaş meydanlarında olub, hünərlə vuruşub. Cəsur xüsusi təyinatlı döyüşçü Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan və Şuşa uğrundakı qanlı döyüşlərdə böyük qəhrəmanlıq göstərib. Noyabrın 3-də Şuşa döyüşləri zamanı misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Məlikçobanlı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021), 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2022).*



## XANALIYEV
## Ziyəddin Ariz oğlu
### (16.01.1999 – 06.11.2020)

Biləsuvar rayonunun Ağalıkənd kəndində anadan olub. 2016-cı ildə Biləsuvar rayon Təzəkənd kənd orta məktəbini bitirib. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Tovuzda xidmət edib. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına qoşulmaq üçün könüllü müraciət edib. Həmin





il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən orduya çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini əldə silah səngərlərdə qarşılayıb, ilk gündən düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi Xocavənd cəbhəsində qızğın döyüşlərə atılaraq rəşadətlə savaşıb. İgid əsgərin döyüş yolu Cəbrayıl, Qubadlı və Zəngilan cəbhələrindən keçərək Şuşa savaşlarına qədər uzanıb, bu qanlı döyüşlərdə böyük qəhrəmanlıq göstərib. Noyabrın 6-da Daşaltı ətrafındakı şiddətli döyüşlərdə hünərlə vuruşaraq şəhadətə qovuşub. Nəşi noyabrın 19-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Ağalıkənd kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020), 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2022).*



## XANCANOV
## Təbriz Məhəmmədəli oğlu
### (09.06.1995 – 16.10.2020)

Göyçay rayonunun Müskürlü kəndində anadan olub. Orta təhsilini 2001-2012-ci illərdə Müskürlü kənd orta məktəbində alıb. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Naxçıvanda xidmət edib. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb edilib. Bir həftədən sonra başlayan Vətən müharibəsini səngərlərdə qarşılayıb, ilk gündən Tərtər-Ağdərə cəbhəsində düşmənlə ölüm-dirim savaşına atılaraq misilsiz şücaətlə vuruşub. Talış və Suqovuşan uğrundakı qanlı döyüşlərdə hünərlə iştirak edib, şəxsi igidlik göstərib. Rəşadətli əsgər oktyabrın 16-da Suqovuşan cəbhəsində gedən qızğın döyüşlərin birində qəhrəmancasına savaşaraq şəhidlik məqamına yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 19-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Müskürlü kəndində dəfn olunub. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## XANƏLİYEV
## Albaba Elşən oğlu
### (22.01.2002 - 08.11.2020)

Salyan rayonunun Təzəkənd kəndində anadan olub. Orta təhsilini 2008-2019-cu illərdə Təzəkənd kənd orta məktəbində alıb. 2020-ci ilin yanvarında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Cəbhə xəttində - Füzulidə xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi səngərlərdə qarşılayıb, ilk gündən düşmənlə ölüm-dirim savaşına atılaraq şücaətlə döyüşüb. Füzuli və Xocavənd istiqamətlərində həyata keçirilən əks-hücum əməliyyatlarında hünərlə iştirak edib, Hadrutun azad edilməsində şücaət göstərib. Qubadlı və Şuşa cəbhələrindəki ağır döyüşlərdə qəhrəmanlığı ilə seçilib. Cəsur əsgər noyabrın 8-də Şuşa döyüşləri zamanı misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Nəşi noyabrın 20-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Salyan rayonunun Qarabağlı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## XANIŞOV
## Əlikram Qabil oğlu
### (08.02.2000 - 02.10.2020)

Cəlilabad rayonunun Göytəpə şəhərində anadan olub. Orta təhsilini 2006-2017-ci illərdə Göytəpə şəhəri 2 saylı orta məktəbdə alıb. 2018-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Goranboyda xidmət edib. Tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb və SQ TTM-də kurs keçəndən sonra xidmətini 2020-ci ilin mayından MAHHXHQ kimi davam





etdirməyə başlayıb. Həmin il sentyabrın 27-də Vətən müharibəsinin başladığı ilk gündən ön xətdə olub, cəbhəboyu həyata keçirilən əks-hücum əməliyyatlarında rəşadətlə döyüşüb. Döyüşlərə Tərtər-Ağdərə cəbhəsində başlayıb, Talış və Suqovuşan uğrundakı qanlı savaşlarda hünər göstərib. Qəhrəman əsgər oktyabrın 2-də Suqovuşan ətrafındakı ağır döyüşlərdə misilsiz şücaətlə savaşaraq şəhidlik zirvəsinə yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 29-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Göytəpə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## XANKİŞİYEV
## Fuad Şöhrət oğlu
### (12.04.1996 - 03.11.2020)

Mingəçevir şəhərində anadan olub. Orta təhsilini 2002-2011-ci illərdə Mingəçevir şəhəri 3 saylı orta məktəbdə və olimpiya-idman liseyində alıb. Təhsilini 2011-2014-cü illərdə Mingəçevir Turizm Kollecində davam etdirib. 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, XTQ sıralarında xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Füzuli və Xocavənd cəbhələri boyunca həyata keçirilən əks-hücum əməliyyatlarında hünərlə iştirak edib. İgid xüsusi təyinatlının döyüş yolu Şuşa savaşlarına qədər uzanıb. Şuşa döyüşlərində qəhrəmanlıq göstərib. Noyabrın 3-də Daşaltı istiqamətindəki şiddətli döyüşlərdə misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Mingəçevir şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## XANKİŞİYEV
## Mədət Vəkil oğlu
## (15.01.1998 – 18.10.2020)

Cəlilabad rayonunun Çünzəli kəndində anadan olub. 2015-ci ildə Çünzəli kənd orta məktəbini bitirib. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Murovda xidmət edib, 2016-cı il Aprel döyüşlərində cəsurluqla vuruşub. Tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2017-ci ildən MAHHXHQ kimi davam etdirib. 2019-cu ildə TTM-də kurs keçərək XTQ-də xidmətə başlayıb. 2020-ci il iyul Tovuz döyüşlərində hünərlə iştirak edib. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsinin ilk günündən igidliklə vuruşub. Döyüşlərə Kəlbəcər cəbhəsində başlayıb, sonra Füzuli, Xocavənd, Cəbrayıl, Zəngilan, Qubadlı uğrunda döyüşlərdə misilsiz şücaət göstərib. Rəşadətli əsgər oktyabrın 18-də Hadrut ətrafındakı qanlı savaşlarda hünərlə döyüşərək şəhadətə qovuşub. Çünzəli kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Azərbaycan Bayrağı" ordeni (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## XANKİŞİYEV
## Nicat Aşur oğlu
## (27.01.1999 – 07.10.2020)

Neftçala rayonunun Həsənabad qəsəbəsində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Həsənabad qəsəbə orta məktəbində alıb. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Beyləqanda xidmət edib. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən





ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini səngərlərdə qarşılayıb, savaşın ilk günündən düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi Füzuli cəbhəsində qanlı döyüşlərə atılaraq hünərlə savaşıb. Cəsur əsgər Cəbrayıl, Qubadlı, Xocavənd uğrundakı şiddətli döyüşlərdə misilsiz rəşadət göstərib. Oktyabrın 7-də Hadrut ətrafındakı qızğın döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Nəşi noyabrın 2-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Neftçala şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021);"Cəsur döyüşçü" medalı (2021).*



## XASAYEV
## Elməddin Qoçu oğlu
## (12.02.1980 – 27.09.2020)

Beyləqan rayonunun Yeni Mil qəsəbəsində anadan olub. 1997-ci ildə Yeni Mil qəsəbə orta məktəbini, 2002-ci ildə Asiya Universitetini bitirib. 2002-2003-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Tovuzda xidmət edib. 2014-cü ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirib. Beyləqanda xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin çavuşu kimi əldə silah səngərlərdə qarşılayıb. İlk gündən döyüş meydanlarında olub, rəşadətlə vuruşub. Qəhrəman hərbçi Füzuli cəbhəsindəki qanlı savaşlarda böyük şücaət göstərib. Sentyabrın 27-də Füzulinin Alxanlı kəndi uğrundakı şiddətli döyüşlərdə misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 31-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Yeni Mil qəsəbəsində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Füzulinin azad olunmasına görə" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021); "Vətən uğrunda" medalı (2021).*



## XASIYEV
## Röyal Abuzər oğlu
### (19.04.1993 – 07.10.2020)

Şəki rayonunun İkinci Biləcik kəndində anadan olub. Orta təhsilini 1999-2008-ci illərdə İkinci Biləcik kənd orta məktəbində, 2008-2010-cu illərdə C.Naxçıvanski adına Hərbi Liseydə alıb. 2014-cü ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. Beyləqan, Ağcabədi və Füzulidə xidmət edib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin baş leytenantı kimi zabit mundirində qarşılayıb, ilk gündən Murovdağ yüksəklikləri istiqamətindəki ağır döyüşlərə atılaraq misilsiz igidliklə savaşıb. Rəşadətli zabitin döyüş yolu daha sonra Füzuli cəbhəsi səngərlərindən keçib, Alxanlı kəndi uğrundakı həlledici döyüşlərdə hünər göstərib. Qızğın vuruşmaların birində yaralansa da, hospitala getməkdən imtina edərək döyüşü axıra qədər davam etdirib. Oktyabrın 7-də Alxanlı ətrafındakı qanlı döyüşlərdə şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. İkinci Biləcik kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Azərbaycan Bayrağı" ordeni (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## XEYİRBƏYOV
## Malik Samik oğlu
### (19.03.2002 – 26.10.2020)

Qusar rayonunun Cibir kəndində anadan olub. 2019-cu ildə Cibir kənd orta məktəbini bitirərək Odlar Yurdu Kollecinə daxil olub. Lakin 2020-ci ilin mayında təhsilini yarımçıq qoyaraq Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə yollanıb. Döyüş bölgəsində – Beyləqanda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah Füzuli cəbhəsi səngərlərində qarşılayıb. Cəsur





kəşfiyyatçı-əsgər savaşın ilk saatlarından düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq Füzuli və Cəbrayıl rayonlarının kəndlərinin azad olunması uğrunda misilsiz şücaətlə vuruşub. Cəbrayıl istiqamətində gedən qanlı döyüşlərdə şəxsi igidlik nümunəsi göstərib, qorxmazlığı ilə xüsusi seçilib. Oktyabrın 26-da Füzuli cəbhəsindəki qızğın döyüşlərin birində rəşadətlə savaşaraq şəhid olub. Doğulub boya-başa çatdığı Cibir kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2021).*



## XEYRULLAYEV
## Cəlil Mürvət oğlu
### (16.05.1989 – 15.10.2020)

Quba rayonunun İkinci Nügədi kəndində anadan olub. 2006-cı ildə İkinci Nügədi kənd 3 saylı orta məktəbini bitirib. 2007-2008-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2012-ci ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirib. DİN Daxili Qoşunlarının xüsusi təyinatlı dəstəsində xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin çavuşu kimi səngərlərdə qarşılayıb, savaşın ilk günündən ağır döyüşlərə atılaraq qəhrəmancasına vuruşub. Cəbhənin Kəlbəcər, Füzuli, Xocavənd və Cəbrayıl istiqamətlərindəki qanlı döyüşlərdə böyük şücaət göstərib. İgid xüsusi təyinatlı Cəbrayıl döyüşlərində yaralansa da, savaş meydanını tərk etməyib. Oktyabrın 15-də Füzuli cəbhəsindəki qızğın döyüşlərin birində misilsiz hünərlə vuruşaraq şəhadətə qovuşub. İkinci Nügədi kəndində dəfn edilib. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021).*



## XƏLƏFLİ
## Mahir Muxtar oğlu
(08.04.2001 – 27.09.2020)

Sumqayıt şəhərində anadan olub, Qubadlı rayonundan olan məcburi köçkün ailəsindən idi. Orta təhsilini 2007-2018-ci illərdə Sumqayıt şəhərində yerləşən Qubadlı rayon tam orta məktəbində alıb. 2020-ci ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Daşkəsəndə xidmət edirdi. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk saatlarından etibarən ön xətdə, döyüş meydanlarında olub, cəbhəboyu əks-hücum əməliyyatlarında hünərlə iştirak edərək misilsiz şücaətlə vuruşub. Rəşadətli əsgər Kəlbəcər cəbhəsində gedən qanlı döyüşlərdə böyük igidlik göstərib. Murovdağ yüksəklikləri uğrundakı şiddətli döyüşlərdə öz mətinliyi və qorxmazlığı ilə xüsusi seçilib. Sentyabrın 27-də qanlı Murovdağ döyüşlərində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020).*



## XƏLƏFOV
## Cəmil Fikrət oğlu
(25.02.1997 – 05.10.2020)

Quba rayonunun Nərimanabad kəndində anadan olub. Orta təhsilini 2003-2014-cü illərdə Nərimanabad kənd orta məktəbində alıb. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Goranboyda xidmət edib. 2020-ci il sentyabrın 21-də Azərbaycan Silahlı Qüvvələrinin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və qısamüddətli hərbi təlimlərə cəlb olunub. Bir həftədən sonra





başlayan Vətən müharibəsini əldə silah savaş meydanlarında qarşılayıb, müharibənin ilk saatlarından Füzuli cəbhəsində düşmənə qarşı ölüm-dirim çarpışmasına atılıb, bu qanlı vuruşmalarda böyük hünər göstərib. Cəbhənin Cəbrayıl istiqamətində gedən həlledici vuruşmalarda da rəşadətlə döyüşüb, mətinliyi ilə fərqlənib. Qəhrəman əsgərin son döyüşü oktyabrın 5-də olub. Həmin gün Füzulinin azad olunması uğrunda gedən qızğın döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Quba şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## XƏLƏFOV
## Nicat İlqar oğlu
(04.08.2001 – 08.11.2020)

Siyəzən şəhərində anadan olub. Orta təhsilini 2008-2019-cu illərdə Bakı şəhəri 71 saylı orta məktəbdə alıb. 2019-cu ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Beyləqanda xidmət edirdi. Xidmət dövründə xüsusi hazırlıq keçərək kiçik çavuş rütbəsi alıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah Füzuli cəbhəsi səngərlərində qarşılayıb. Savaşın ilk saatlarından düşmənlə ölüm-dirim savaşına atılaraq misilsiz rəşadətlə döyüşüb. İgid döyüşçünün savaş yolu Füzuli, Cəbrayıl, Xocavənd, Qubadlı, Zəngilan, Laçın və Şuşa cəbhələrindən keçib, bu qanlı döyüşlərdə qəhrəmanlıqlar göstərib. Noyabrın 8-də Şuşa ətrafındakı həlledici döyüşlərin birində şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Siyəzən şəhərində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); 3-cü dərəcəli "Rəşadət" ordeni (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## XƏLİLBƏYLİ
## Turqut Nadir oğlu
### (04.07.1993 – 07.10.2020)

Naxçıvan MR Şərur rayonunun Yengicə kəndində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Yengicə kənd orta məktəbində və Şərur şəhər Fizika-Riyaziyyat Liseyində alıb. Təhsilini 2011-2018-ci illərdə Tibb Universitetinin hərbi-tibb fakültəsində davam etdirib. 2018-ci ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Beyləqanda xidmət edib, tərxis olunandan az sonra yenidən orduya qayıdıb və xidmətini tibb xidməti leytenantı rütbəsində hərbi həkim kimi davam etdirib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir zabit kimi mundirdə qarşılayıb. Müharibənin ilk günündən düşmənlə ölüm-dirim savaşının getdiyi Füzuli cəbhəsindəki döyüş meydanlarında olub, ağır döyüşlər zamanı yaralı əsgər və zabitlərin həyatını dəfələrlə xilas edib. Rəşadətli zabit oktyabrın 7-də Cəbrayıl uğrundakı şiddətli döyüşlərin birində qəhrəmancasına şəhid olub. II Fəxri xiyabanda dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Azərbaycan Bayrağı" ordeni (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2021).*



## XƏLİLİ
## Samir Əhməd oğlu
### (06.09.1997 – 01.10.2020)

Bakıda anadan olub. Orta təhsilini 2003-2014-cü illərdə Bakı şəhəri 62 saylı məktəb-liseydə alıb. 2018-ci ildə Azərbaycan Memarlıq və İnşaat Universitetini bitirib və elə həmin il də Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Döyüş bölgəsində – Goranboyda xidmət edib, 2019-cu ildə ordudan tərxis olunub. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir





həftədən sonra başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk günündən ön xətdə, Füzuli cəbhəsinin döyüş meydanlarında olub, rəşadətlə vuruşub. Füzuli şəhərinin və kəndlərinin azad olunması uğrundakı qızğın döyüşlərdə öz igidliyi və qorxmazlığı ilə xüsusi fərqlənib, bu qanlı döyüşlərdə böyük hünər göstərib. Qəhrəman əsgər oktyabrın 1-də Füzuli cəbhəsində gedən şiddətli döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. II Fəxri xiyabanda dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## XƏLİLLİ
## Murad Vəli oğlu
### (14.07.1994 – 30.10.2020)

Naxçıvan MR Şərur rayonunun Çomaxtur kəndində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Çomaxtur kənd orta məktəbində alıb. 2012-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2019-cu ildə yenidən ordu sıralarına qayıdıb və müvafiq hazırlıq kursu keçəndən sonra xidmətini Naxçıvanda kiçik çavuş rütbəsində MAHHXHQ kimi davam etdirib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsinin ilk günlərindən XTQ sıralarına qoşulub, qanlı döyüşlərə atılaraq qəhrəmancasına vuruşub. Füzuli cəbhəsindəki həlledici savaşlarda hünərlə iştirak edib. Rəşadətli xüsusi təyinatlı döyüşçü Xocavənd, Hadrut və Şuşa uğrundakı savaşlarda böyük şücaət göstərib. Son savaşı oktyabrın 30-da olub. Həmin gün Xocavənd istiqamətində gedən qızğın döyüşlərdə igidliklə vuruşaraq şəhadətə ucalıb. Şərur şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## XƏLİLLİ
### Namiq Həsən oğlu
### (25.02.1994 – 23.10.2020)

Naxçıvan MR Ordubad rayonunun Azadkənd kəndində anadan olub. Orta təhsilini 2000-2008-ci illərdə Azadkənd kənd orta məktəbində, 2008-2011-ci illərdə H.Əliyev adına Hərbi Liseydə alıb. 2015-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. Müharibədən əvvəl cəbhə bölgəsində – Tərtərdə xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Azərbaycan Silahlı Qüvvələrinin baş leytenantı kimi zabit mundirində qarşılayıb, ilk gündən Tərtər-Ağdərə cəbhəsindəki ağır döyüşlərə atılaraq igidliklə savaşıb. Qəhrəman zabit Talış və Suqovuşan uğrundakı qanlı döyüşlərdə misilsiz rəşadət göstərib. Laçın uğrundakı həlledici döyüşlərdə hünərlə iştirak edib. Oktyabrın 23-də Tərtər cəbhəsində, Ağuçuq yüksəkliyi uğrundakı qızğın döyüşlərdə hünərlə vuruşaraq şəhadətə qovuşub. Nəşi noyabrın 2-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Doğulduğu Azadkənd kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## XƏLİLLİ
### Nicat Əli oğlu
### (10.12.1994 – 09.10.2020)

Zaqatala rayonunun Muğanlı kəndində anadan olub. Orta təhsilini 2001-2012-ci illərdə Muğanlı kənd orta məktəbində alıb. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə olub, cəbhə bölgəsində – Ağstafa və Tovuzda xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində





Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb. Sentyabrın 29-da cəbhəyə yola düşərək düşmənə qarşı amansız savaşa atılıb. Döyüşlərə Tərtər-Ağdərə cəbhəsində başlayıb, Talış və Suqovuşan uğrundakı qanlı döyüşlərdə misilsiz rəşadətlə vuruşub. Cəsur əsgər Ağdərə və Kəlbəcər istiqamətində gedən şiddətli döyüşlərdə də hünərlə iştirak edib, şəxsi igidlik nümunəsi göstərib. Oktyabrın 9-da Ağdərə uğrundakı qızğın döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Doğulub boya-başa çatdığı Muğanlı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## XƏLİLOV
### Ayaz Qnyaz oğlu
### (25.01.1998 – 08.10.2020)

Ucar rayonunun Alpout kəndində anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Alpout kənd 1 saylı orta məktəbdə və Bakı şəhəri Maştağa qəsəbəsindəki 128 saylı orta məktəbdə alıb. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində – Murovda xidmət edib. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına qoşulmaq üçün könüllü olaraq müraciət edib. Həmin il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və Tərtər-Ağdərə cəbhəsində gedən qanlı savaşlara atılıb. Həlledici Suqovuşan döyüşlərində misilsiz şücaətlə vuruşub, Ağdərə uğrundakı vuruşmalarda hünərlə iştirak edib. Cəsur əsgər oktyabrın 8-də Tərtər-Ağdərə cəbhəsindəki şiddətli döyüşlərdə rəşadətlə vuruşaraq şəhid olub. Nəşi noyabrın 1-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Alpout kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## XƏLİLOV
## Ceyhun Azər oğlu
(22.09.2001 – 28.09.2020)

Ağsu rayonunun Padarqışlaq kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Padarqışlaq kənd orta məktəbində alıb. 2019-cu ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, təmas xəttində – Goranboy, Tərtər və Naftalanda xidmət edirdi. 2020-ci il iyul Tovuz döyüşlərində hünərlə iştirak edərək özünü cəsur bir döyüşçü kimi göstərib. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk günündən ön xətdə, savaş meydanlarında olub, misilsiz rəşadətlə vuruşub. Döyüşlərə Tərtər-Ağdərə cəbhəsində başlayıb, buradakı qanlı savaşlarda böyük şücaət və şəxsi igidlik nümunəsi göstərib. Talış və Suqovuşan uğrundakı həlledici vuruşmalarda qəhrəmanlığı ilə seçilib. İgid əsgər sentyabrın 28-də Talış uğrundakı şiddətli döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Padarqışlaq kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## XƏLİLOV
## Coşqun Mikayıl oğlu
(29.10.1998 – 05.10.2020)

Neftçala rayonunun Xolqaraqaşlı kəndində anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Xolqaraqaşlı kənd orta məktəbində alıb. 2015-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olunub. 2019-cu ildə AAHM-i leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. Döyüş bölgəsində – Beyləqanda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin leytenantı kimi zabit mundirində qarşılayıb, savaşın ilk günündən ön cəbhədə, döyüş meydanlarında olub, qəhrəmancasına vuruşub. Cəbhənin Füzuli, Cəbrayıl və Xocavənd istiqamətlərində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında hünərlə iştirak edib. Hadrut uğrunda gedən qanlı döyüşlərdə misilsiz şücaət göstərib. Rəşadətli zabitin son döyüşü oktyabrın 5-də olub. Həmin gün Füzuli cəbhəsindəki şiddətli döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Xolqaraqaşlı kəndində dəfn edilib. Subay idi.





**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021); "3-cü dərəcəli Rəşadət" ordeni (2021).*



## XƏLİLOV
## Elnur Ramiz oğlu
(21.04.1990 – 27.09.2020)

Beyləqan rayonunun Bolsulu qəsəbəsində anadan olub. 2007-ci ildə Bolsulu qəsəbə orta məktəbini bitirib. 2008-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2014-cü ildə yenidən ordu sıralarına qayıdıb və müvafiq kurs keçəndən sonra xidmətini kiçik çavuş rütbəsi ilə MAHHXHQ kimi davam etdirib. 2016-cı il Aprel döyüşlərində şücaət göstərib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kiçik çavuşu kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən düşmənlə ölüm-dirim savaşının getdiyi Füzuli cəbhəsindəki həlledici savaşlara atılaraq misilsiz rəşadət göstərib. Qəhrəman hərbçi sentyabrın 27-də Füzuli uğrundakı qanlı döyüşlərin birində igidliklə vuruşaraq şəhadətə ucalıb. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 16-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Bolsulu qəsəbəsində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "İgidliyə görə" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021).*



## XƏLİLOV
## Ələddin Əlizaman oğlu
**(29.06.2001 - 01.10.2020)**

Bakının Qobustan qəsəbəsində anadan olub. Orta təhsilini 2007-2016-cı illərdə Qobustan qəsəbəsi 321 saylı orta məktəbdə alıb. Təhsilini 2016-2019-cu illərdə Bakı Dövlət Peşə Təhsil Mərkəzində davam etdirib. 2019-cu ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Cəbhə bölgəsində - Goranboyda xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. İlk saatlardan düşmənlə ölüm-dirim çarpışmasının getdiyi Tərtər-Ağdərə cəbhəsindəki qanlı döyüşlərə atılaraq igidliklə vuruşub. Cəsur əsgər Suqovuşan uğrundakı həlledici döyüşlərdə rəşadət göstərib. Oktyabrın 1-də Ağuçuq kəndi ətrafında gedən qızğın döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 13-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Qobustan qəsəbəsində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## XƏLİLOV
## Fəryad Fəxri oğlu
**(01.11.1999 - 27.10.2020)**

Ağcabədi rayonunun Hüsülü kəndində anadan olub. Orta təhsilini 2006-2017-ci illərdə Hüsülü kənd orta məktəbində alıb. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Naxçıvanda xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb, sentyabrın





29-da cəbhəyə yollanıb. Müharibənin ilk günlərindən düşmənlə ölüm-dirim savaşına atılaraq qəhrəmancasına vuruşub. İgid əsgərin döyüş yolu Füzuli, Cəbrayıl, Qubadlı səngərlərindən keçib, bu rayonlar uğrunda gedən qanlı döyüşlərdə böyük hünər göstərib. Qubadlı döyüşləri zamanı yaralansa da, savaş meydanını tərk etməyib. Oktyabrın 27-də Qubadlı cəbhəsindəki şiddətli vuruşmaların birində misilsiz rəşadətlə döyüşərək şəhid olub. Ağcabədi şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## XƏLİLOV
## Gülşad Elşad oğlu
**(27.03.2001 - 15.10.2020)**

Masallı rayonunun Kürdəbazlı kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Masallı rayon Qarğalıq kənd orta məktəbində alıb. 2019-cu ilin aprelində Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Təmas xəttində - Ağdamda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk saatlarından ön xətdə olub, düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq misilsiz igidliklə vuruşub. Döyüşlərə Ağdam cəbhəsində başlayıb, buradakı qızğın vuruşmalarda öz mətinliyi və qorxmazlığı ilə xüsusi seçilib. Daha sonra Tərtər-Ağdərə cəbhəsindəki həlledici savaşlara atılıb, Talış və Suqovuşanın azad olunması uğrunda gedən qanlı döyüşlərdə şücaətlə iştirak edib. Rəşadətli əsgərin son döyüşü oktyabrın 15-də olub. Həmin gün cəbhənin Ağdam istiqamətində gedən şiddətli döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Doğulub boya-başa çatdığı Kürdəbazlı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Ağdamın azad olunmasına görə" medalı (2021).*



## XƏLİLOV
## Hüseyn Rasim oğlu
### (27.03.2002 – 25.04.2021)

Bakının Nardaran qəsəbəsində anadan olub. Orta təhsilini 2008-2019-cu illərdə Nardaran qəsəbəsi 295 saylı orta məktəbdə alıb. 2020-ci ilin aprelində Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, döyüş bölgəsində - Beyləqanda xidmət edirdi. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi səngərlərdə qarşılayıb, ilk gündən ağır döyüşlərə atılaraq qəhrəmancasına vuruşub. Füzuli və Xocavənd cəbhələrindəki qanlı döyüşlərdə böyük qəhrəmanlıq göstərib, Qubadlı döyüşlərində şücaətlə iştirak edib. Cəsur əsgərin döyüş yolu Şuşaya qədər davam edib. Şuşa döyüşləri zamanı XTQ sıralarına qoşulub. Noyabrın 9-da Şuşa ətrafındakı şiddətli döyüşlərdə ağır yaralanıb, uzun müddət koma vəziyyətində qalıb. Həkimlərin səylərinə baxmayaraq, həyatını xilas etmək mümkün olmayıb. 2021-ci il aprelin 25-də şəhadətə yüksəlib. Nardaran qəsəbəsində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Füzulinin azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020) - (hər ikisi sağlığında); "Şuşanın azad olunmasına görə" medalı (2021); "Vətən uğrunda" medalı (2021).*



## XƏLİLOV
## Nadir Ağadadaş oğlu
### (03.11.1984 – 30.09.2020)

Astara rayonunun Artupa kəndində anadan olub. Orta təhsilini 1990-2001-ci illərdə Artupa kənd orta məktəbində alıb. 2002-2004-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Naxçıvanda xidmət edib. 2005-ci ildə yenidən ordu sıralarına qayıdıb və SQ-nin Təlim-Tədris Mərkəzində gizir hazırlığı kursunu bitirərək MAHHXHQ kimi xidmətə başlayıb. 2020-ci





il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin giziri kimi əldə silah döyüş meydanlarında qarşılayıb, ilk gündən ön xətdə olub, misilsiz rəşadətlə vuruşub. İgid hərbçi Füzuli cəbhəsi boyunca həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında hünərlə iştirak edib, qanlı döyüşlərdə mətinlik və şücaət göstərib. Sentyabrın 30-da Füzuli cəbhəsində gedən qanlı döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Doğulduğu Artupa kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021); "Azərbaycan Bayrağı" ordeni (2021).*



## XƏLİLOV
## Namiq İlyas oğlu
### (15.06.1992 – 16.10.2020)

Şirvan şəhərində anadan olub. 2009-cu ildə Şirvan şəhəri 11 saylı orta məktəbi bitirib. 2010-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Xidməti dövründə xüsusi kurs keçərək XTQ sıralarına cəlb olunub. Tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini XTQ-də davam etdirib. 2016-cı il Aprel döyüşlərində rəşadət göstərib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin giziri kimi savaş meydanlarında qarşılayıb. Qəhrəman xüsusi təyinatlı kəşfiyyatçı Murovdağ döyüşlərində, Cəbrayıl və Füzuli uğrunda gedən qanlı savaşlarda misilsiz şücaətlə vuruşub. Oktyabrın 16-da Hadrut ətrafındakı şiddətli döyüşlərin birində igidliklə savaşaraq şəhadətə ucalıb. Şirvan şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Azərbaycan Bayrağı" ordeni (2021).*



## XƏLİLOV
## Ruhin Müzəffər oğlu
(13.03.1987 – 21.10.2020)

Cəbrayıl rayonunun Yuxarı Məzrə kəndində anadan olub. Orta təhsilini 1994-2005-ci illərdə Bakı şəhəri 203 saylı və Xırdalan şəhəri 1 saylı orta məktəblərdə alıb. 2009-cu ildə Bakı Asiya Universitetini bitirib. 2009-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Cəbhə bölgəsində - Goranboyda xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində yenidən ordu sıralarına çağırılıb və oktyabrın 1-də cəbhəyə yollanıb. Döyüşlərə Füzuli cəbhəsində başlayan cəsur əsgər daha sonra Cəbrayıl uğrunda gedən şiddətli döyüşlərdə böyük qəhrəmanlıq nümunəsi göstərib. Son döyüşü oktyabrın 21-də olub. Həmin gün Qubadlı cəbhəsindəki qanlı döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. II Fəxri xiyabanda dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## XƏLİLOV
## Vidadi Vaqif oğlu
(16.07.1982 – 31.10.2020)

Göyçay şəhərində anadan olub. Orta təhsilini 1989-1999-cu illərdə Göyçay şəhəri 3 saylı orta məktəbdə alıb. 2003-cü ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. 2016-cı il Aprel döyüşlərində igidliklə iştirak edib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin polkovnik-leytenantı kimi zabit mundirində qarşılayıb, savaşın ilk günündən qanlı döyüşlərə atılaraq





qəhrəmancasına vuruşub. İgid zabitin döyüş yolu Füzuli, Cəbrayıl, Qubadlı cəbhələrindən keçərək Laçın döyüşlərinə qədər uzanıb, bu rayonların azadlığı uğrundakı həlledici döyüşlərdə şəxsi igidlik nümunəsi və şücaət göstərib. Oktyabrın 31-də Laçının azadlığı uğrunda gedən qızğın döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Göyçay şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020); "Azərbaycan Bayrağı" ordeni (2021).*



## XƏLİLZADƏ
## Əmrah İnqilab oğlu
(01.08.1997 – 26.10.2020)

Biləsuvar şəhərində anadan olub. 2014-cü ildə Biləsuvar şəhəri 6 saylı orta məktəbi bitirib. 2015-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Gəncə və Tərtərdə xidmət edib. 2019-cu ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirib. Təmas xəttində - Füzulidə xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi səngərlərdə qarşılayıb, ağır döyüşlərə atılaraq qəhrəmancasına vuruşub. Füzuli və Xocavənd uğrundakı qanlı savaşlarda böyük şücaət göstərib. Yaralanıb təxliyə olunsa da, müalicəsini yarımçıq qoyaraq savaş meydanlarına qayıdıb. Rəşadətli əsgər oktyabrın 26-da Füzuli cəbhəsindəki qızğın döyüşlərin birində hünərlə savaşaraq şəhadətə qovuşub. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 29-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Biləsuvar şəhərində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## XƏMMƏDOV
## Əmral Zaur oğlu
### (02.10.2001 - 15.10.2020)

İmişli rayonunun Çaxırlı kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Çaxırlı kənd orta məktəbində alıb. 2019-cu ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. XTQ sıralarında xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən düşmənlə ölüm-dirim savaşına atılaraq rəşadətlə döyüşüb. Cəbhənin Kəlbəcər, Füzuli, Xocavənd və Cəbrayıl istiqamətlərində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında hünərlə iştirak edib, qanlı Hadrut döyüşlərində şəxsi igidlik nümunəsi göstərib. Qəhrəman xüsusi təyinatlı döyüşçü oktyabrın 15-də Füzuli cəbhəsindəki şiddətli döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Doğulduğu Çaxırlı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Füzulinin azad olunmasına görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## XƏNCƏLOV
## Ümüd Radif oğlu
### (10.04.1994 - 06.10.2020)

Qusar rayonunun Hil kəndində anadan olub. 2011-ci ildə Hil kənd orta məktəbini bitirib. 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2014-cü ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirib. 2016-cı il Aprel döyüşlərində qəhrəmanlıqla vuruşub. 2020-ci il iyul Tovuz döyüşlərində hünərlə iştirak edərək özünü mətin





döyüşçü kimi göstərib. Həmin il sentyabrın 27-də Vətən müharibəsinin başladığı ilk gündən ön xətdə olub, bütün cəbhə boyu həyata keçirilən əks-hücum əməliyyatlarında rəşadətlə döyüşüb. Döyüşlərə Füzuli cəbhəsində başlayıb, Füzuli, Xocavənd və Cəbrayıl uğrunda gedən qanlı savaşlarda misilsiz şücaət göstərib. Cəsur əsgərin son döyüşü oktyabrın 6-da olub. Həmin gün Füzuli cəbhəsindəki ağır döyüşlərdə qəhrəmancasına savaşaraq şəhidlik məqamına yüksəlib. Hil kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021).*



## XIDIROV
## Elgün Fuad oğlu
### (23.12.1989 - 27.09.2020)

Goranboy rayonunun Xoylu kəndində anadan olub. 2007-ci ildə Xoylu kənd orta məktəbini, 2011-ci ildə isə Gəncə Dövlət Universitetini bitirib. 2011-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2014-cü ildə yenidən ordu sıralarına qayıdıb və 2015-ci ildə SQ TTM-də zabit hazırlığı kursunu leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb, Goranboyda xidmət edirdi. 2016-cı il Aprel döyüşlərində şücaətlə vuruşub. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin baş leytenantı kimi zabit mundirində qarşılayıb, ilk gündən Füzuli cəbhəsindəki ağır döyüşlərə atılaraq rəşadətlə savaşıb. Müharibənin elə ilk günü - sentyabrın 27-də Füzuli istiqamətindəki qanlı döyüşlərdə misilsiz şücaətlə savaşaraq şəhidlik zirvəsinə yüksəlib. Nəşi noyabrın 1-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Xoylu kəndində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "İgidliyə görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## XIDIROV
## Ərəstun Arif oğlu
## (18.03.1998 – 15.10.2020)

Bərdə şəhərində anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Bərdə şəhəri 6 saylı orta məktəbdə alıb. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Naxçıvanda xidmət edib. 2020-ci ildə yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Cəbhə bölgəsində – Goranboyda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi Tərtər-Ağdərə cəbhəsindəki qanlı döyüşlərə atılaraq misilsiz şücaətlə vuruşub. İgid əsgər Suqovuşan, Talış kəndi və Ağdərə qəsəbəsi uğrundakı həlledici döyüşlərdə böyük qəhrəmanlıq göstərib, cəsurluğu və hünəri ilə seçilib. Oktyabrın 15-də Suqovuşan ətrafında gedən qızğın döyüşlərin birində rəşadətlə vuruşaraq şəhid olub. Bərdə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## XOSİZADƏ
## Müşfiq Zakir oğlu
## (14.04.1993 – 29.09.2020)

Biləsuvar rayonunun Günəşli kəndində anadan olub. Orta təhsilini 1999-2010-cu illərdə Günəşli kənd orta məktəbində alıb. 2011-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb. 2013-cü ilin noyabrında SQ Təlim-Tədris Mərkəzində gizir hazırlığı kursunu başa vuraraq xidmətə başlayıb. 2016-cı il Aprel döyüşlərində qəhrəmancasına vuruşub, Lələtəpənin





azad edilməsində mətinlik göstərib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin giziri kimi əldə silah döyüş meydanlarında qarşılayıb, ilk gündən ön xətdə olub, misilsiz igidliklə vuruşub. Rəşadətli hərbçi Füzuli cəbhəsi boyunca həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında şücaətlə iştirak edib, bu qanlı savaşlarda cəsurluğu ilə fərqlənib. Sentyabrın 29-da Füzuli uğrunda gedən döyüşlərdə hünərlə vuruşaraq şəhadətə qovuşub. Doğulduğu Günəşli kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2021).*



## XOSROVZADƏ
## İlkin Azay oğlu
## (01.12.1997 – 22.10.2020)

Ağcabədi rayonunda anadan olub, Laçından məcburi köçkün idi. Orta təhsilini 2004-2015-ci illərdə Laçın rayon Minkənd kənd orta məktəbində alıb. 2015-ci ildə Bakı Biznes Universitetinə daxil olsa da, 2017-ci ildə təhsilini yarımçıq qoyaraq Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə yollanıb. Xidmət dövründə gizir hazırlığı kursu keçib. 2020-ci ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini kiçik gizir rütbəsi ilə davam etdirib, sonra kurs keçərək xüsusi təyinatlılar sırasına daxil olub. 2020-ci il iyul Tovuz döyüşlərində hünərlə iştirak edib. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kiçik giziri mundirində qarşılayıb, ilk gündən Füzuli cəbhəsində qanlı döyüşlərə atılaraq rəşadətlə vuruşub. Cəbrayıl, Qubadlı və Zəngilan döyüşlərində şücaət göstərib. Oktyabrın 22-də Zəngilan cəbhəsindəki şiddətli döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. II Fəxri xiyabanda dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2020); "Zəngilanın azad olunmasına görə" medalı (2020).*



## XUDAVERDİYEV
## Mahmud Əhməd oğlu
(19.07.2001 - 14.10.2020)

Zaqatala rayonunun Dardoqqaz kəndində anadan olub. Orta təhsilini 2007-2016-cı illərdə Zaqatala rayon Sumaylı kənd orta məktəbində alıb. 2019-cu ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə bölgəsində - Tərtər rayonunda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından ön xətdə olub, düşmənlə ölüm-dirim çarpışmasının getdiyi Tərtər-Ağdərə cəbhəsindəki qanlı döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Qəhrəman əsgər Talış kəndinin, Suqovuşanın və Ağdərənin azad olunması uğrunda gedən həlledici döyüşlərdə böyük şücaət və şəxsi igidlik nümunəsi göstərib, öz cəsurluğu və qorxmazlığı ilə xüsusi seçilib. Oktyabrın 14-də Suqovuşan ətrafındakı qızğın döyüşlərin birində igidliklə vuruşaraq şəhadətə ucalıb. Doğulub boya-başa çatdığı Dardoqqaz kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## XUDAYEV
## Yaşar Əli oğlu
(01.11.1999 - 27.09.2020)

Quba rayonunun Dağlı kəndində anadan olub. Orta təhsilini 2006-2015-ci illərdə Dağlı kənd orta məktəbində alıb. Təhsilini daha sonra 2015-2019-cu illərdə Bakı Qida Sənayesi Kollecində davam etdirib. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Xüsusi Təyinatlı Qüvvələr sıralarında xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk saatlarından ön xətdə olub, cəbhənin Kəlbəcər istiqamətində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında hünərlə iştirak edib, Murovdağ yüksəklikləri uğrundakı qanlı döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. İgid əsgər müharibənin elə ilk günü - sentyabrın 27-də Kəlbəcər cəbhəsində gedən şiddətli döyüşlərin birində şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Quba şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Azərbaycan Bayrağı" ordeni (2021).*



## XUDİYEV
## Mütalib Ələsgər oğlu
(03.03.1993 - 09.11.2020)

Göyçay rayonunun Bəydövül kəndində anadan olub. Orta təhsilini Göyçay şəhərindəki internat məktəbində alıb. 2011-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində - Ağdamda xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Oktyabrın 1-dən Füzuli cəbhəsindəki qanlı döyüşlərə atılaraq qəhrəmancasına vuruşub. Cəsur əsgərin döyüş yolu daha sonra Xocavənd cəbhəsindən keçməklə həlledici Şuşa savaşlarına qədər uzanıb, bu qızğın vuruşmalarda şəxsi igidlik nümunəsi və mətinlik göstərib. Şuşanın azad olunması uğrunda hünərlə döyüşüb. Noyabrın 9-da Şuşa ətrafında gedən şiddətli döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Bəydövül kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## XUDİYEV
## Toğrul Habil oğlu
### (29.12.1999 - 17.11.2020)

Beyləqan rayonunun Qəhrəmanlı qəsəbəsində anadan olub. 2017-ci ildə Qəhrəmanlı qəsəbə orta məktəbini bitirib. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Naxçıvanda XTQ sıralarında xidmət edib. Xidmət etdiyi dövrdə xüsusi kurs keçərək XTQ sıralarında qalmağa və xidmətini davam etdirməyə qərar verib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah savaş meydanlarında qarşılayıb. Qəhrəman xüsusi təyinatlı əsgər döyüşlərə Füzuli cəbhəsində başlayıb, Xocavənd, Cəbrayıl, Qubadlı və Zəngilan uğrundakı qanlı savaşlarda igidliklə iştirak edərək hünər göstərib. Döyüş yolu Şuşa savaşına qədər uzanıb. Noyabrın 7-də Şuşa ətrafındakı şiddətli döyüşlərdə ağır yaralanaraq hospitala çatdırılıb. Həkimlərin səylərinə baxmayaraq həyatını xilas etmək mümkün olmayıb, noyabrın 17-də şəhadətə qovuşub. Qəhrəmanlı qəsəbəsində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## XUDİYEV
## Tural Rəfayıl oğlu
### (27.11.1998 - 08.11.2020)

Bakıda anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Bakı şəhəri 138 saylı orta məktəbdə alıb. 2016-cı ildə Azərbaycan Texniki Universitetinə daxil olub, amma 2019-cu ilin aprelində təhsilini yarımçıq qoyaraq Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə yollanıb. XTQ sıralarında xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah Füzuli cəbhəsi səngərlərində qarşılayıb.





Kəlbəcər, Suqovuşan, Ağdərə, Hadrut, Cəbrayıl, Füzuli və Şuşa uğrunda gedən şiddətli döyüşlərdə igidliklə iştirak edib, bu qanlı vuruşmalarda misilsiz şücaət göstərib. Rəşadətli əsgər noyabrın 8-də Şuşa döyüşləri zamanı qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Ağdam rayonunun Quzanlı qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## XURŞUDOV
## Nazir Müxənnət oğlu
### (01.02.1985 - 21.10.2020)

Xaçmaz rayonunun Çaykənarı kəndində anadan olub. 2002-ci ildə Çaykənarı kənd orta məktəbini bitirib. 2003-2004-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində - Murovda və Gədəbəydə xidmət edib. 2010-cu ildə yenidən ordu sıralarına qayıdıb və SQ TTM-də kurs keçərək kiçik çavuş rütbəsində MAHHXHQ kimi xidmətə başlayıb. 2016-cı il Aprel və 2020-ci il iyul Tovuz döyüşlərində hünərlə vuruşub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsinin başladığı gündən ön xətdə olub, cəbhənin Ağdam, Füzuli, Xocavənd, Qubadlı və Cəbrayıl istiqamətlərində həyata keçirilən əks-hücum əməliyyatlarında igidliklə iştirak edib, bu qanlı döyüşlərdə misilsiz rəşadət göstərib. Cəbrayıl döyüşlərində yaralansa da, müalicəsini yarımçıq qoyaraq savaş meydanlarına qayıdıb. Cəsur hərbçi oktyabrın 21-də Xocavənd cəbhəsindəki şiddətli döyüşlərin birində şücaətlə vuruşaraq şəhadətə ucalıb. Çaykənarı kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## İBADLI
## Araz Babəli oğlu
## (25.10.1999 – 09.10.2020)

Lənkəran rayonunun Gəgiran kəndində anadan olub. Orta təhsilini 2006-2017-ci illərdə Gəgiran kənd orta məktəbində alıb. 2017-ci ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2019-cu ilin aprelində tərxis olunana qədər cəbhə bölgəsində - Goranboy və Ağdamda xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində yenidən ordu sıralarına çağırılıb. İlk günlərdən savaş meydanlarında olub, Füzuli və Cəbrayıl cəbhələrində gedən qanlı vuruşmalarda igidliklə iştirak edib. Füzuli uğrundakı həlledici döyüşlərdə qəhrəmanlıq göstərib, öz qorxmazlığı və hünəri ilə xüsusi seçilib. Cəsur əsgər oktyabrın 9-da Füzuli şəhəri uğrunda gedən şiddətli döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Nəşi noyabrın 13-də müəyyən edilərək ailəsinə təhvil verilib. Lənkəran rayonunun Ürgə kəndində dəfn edilib. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021).*



## İBADLI
## Ruslan Sakit oğlu
## (19.02.1995 – 28.09.2020)

Biləsuvar rayonunun Nəsimikənd kəndində anadan olub. Orta təhsilini 2001-2012-ci illərdə Nəsimikənd kənd tam orta məktəbində alıb. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Cəbhə zonasında - Ağcabədi və Beyləqanda xidmət edib. 2015-ci ilin yanvarında yenidən orduya qayıtmağa qərar verib və xidmətini MAHHXHQ kimi davam etdirməyə





başlayıb. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini əldə silah səngərlərdə qarşılayıb, ilk saatlardan Füzuli cəbhəsində düşmənlə amansız savaşa atılaraq rəşadətlə döyüşüb, bu qızğın vuruşmalarda misilsiz şücaət göstərib. İgid əsgər Cəbrayıl uğrundakı şiddətli döyüşlərdə də mətinliyi ilə seçilib. Sentyabrın 28-də Cəbrayıl rayonunun Yuxarı Mərcanlı kəndi uğrunda gedən qanlı döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Doğulduğu Nəsimikənd kəndində dəfn edilib. Ailəli idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## İBADOV
## Aqşin Nazim oğlu
## (24.08.1984 – 19.10.2020)

Lənkəran rayonunun Boladi kəndində anadan olub. 2001-ci ildə Boladi kənd 1 saylı orta məktəbi bitirib. Həmin il H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olunub. 2005-ci ildə AAHM-i leytenant rütbəsində başa vurub, SQ TTM-də təkmilləşdirmə kursu keçərək zabit kimi xidmətə başlayıb. Sonra Silahlı Qüvvələrin Hərbi Akademiyasına daxil olub, təhsilini davam etdirmək üçün Türkiyəyə göndərilib. Türkiyədə Hərbi Akademiyanı və Milli Müdafiə Universitetini bitirib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin mayoru kimi zabit mundirində qarşılayıb. Füzuli, Xocavənd, Cəbrayıl və Zəngilan uğrunda döyüşlərdə misilsiz şücaət göstərib. Rəşadətli zabit oktyabrın 19-da Xocavənd cəbhəsindəki qanlı döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Boladi kəndində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## İBADOV
## Cavad Cabir oğlu
### (10.12.1996 – 16.10.2020)

Masallı rayonunun Digah kəndində anadan olub. 2014-cü ildə Digah kənd orta məktəbini bitirib. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan sonra xidmət etdiyi hərbi hissədə qalaraq xidmətini DİN Daxili Qoşunlarının xüsusi təyinatlı dəstəsində MAHHXHQ kimi davam etdirib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin çavuşu kimi döyüş meydanlarında qarşılayıb. İlk gündən qızğın savaşlara atılaraq rəşadətlə vuruşub. Döyüşlərə Murovdağ cəbhəsində başlayıb. Füzuli, Cəbrayıl və Xocavənd cəbhələrindəki döyüşlərdə misilsiz şücaət göstərib. Qəhrəman hərbçi oktyabrın 16-da Hadrut ətrafındakı qanlı döyüşlərdə igidliklə vuruşaraq şəhadətə ucalıb. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 29-da müəyyən edilərək ailəsinə təhvil verilib. Masallı şəhərində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021).*



## İBADOV
## Faiq İsmixan oğlu
### (31.05.1993 – 01.10.2020)

Balakən rayonunun Sarıbulaq kəndində anadan olub. Orta təhsilini 1999-2010-cu illərdə Sarıbulaq kənd orta məktəbində alıb. 2011-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Daşkəsəndə xidmət edib. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu





sıralarına çağırılıb və hərbi təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, müharibənin ilk günündən Tərtər-Ağdərə cəbhəsində düşmənlə ölüm-dirim çarpışmasına atılaraq rəşadətlə vuruşub. Cəsur əsgər oktyabrın 1-də Suqovuşanın azad olunması uğrunda gedən şiddətli döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 18-də müəyyən edilərək ailəsinə təhvil verilib. Doğulduğu Sarıbulaq kəndində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## İBADOV
## Murad Yusif oğlu
### (29.12.1993 – 16.10.2020)

Qobustan rayonunun Cəyirli kəndində anadan olub. 2011-ci ildə Cəyirli kənd orta məktəbini bitirib. Elə həmin il H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olunub. 2015-ci ildə AAHM-i leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. Tərtərdə xidmət edirdi. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin baş leytenantı kimi zabit mundirində qarşılayıb, ilk saatlardan savaş meydanlarında olub, Tərtər-Ağdərə cəbhəsində düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq şücaətlə vuruşub. Suqovuşan döyüşlərində böyük qəhrəmanlıq göstərib. İgid zabit oktyabrın 16-da Suqovuşan-Ağdərə istiqamətindəki şiddətli döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhadətə ucalıb. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 22-də müəyyən edilərək ailəsinə təhvil verilib. Cəyirli kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## İBADOV
## Rafiq Baloğlan oğlu
**(14.08.1965 – 29.09.2020)**

Zəngilan şəhərində anadan olub. Orta təhsilini 1972-1982-ci illərdə Zəngilan şəhər 1 saylı orta məktəbdə alıb. 1983-cü ildə Bakı şəhər 90 saylı texniki peşə məktəbini bitirib. 1983-1985-ci illərdə Monqolustanda hərbi xidmətdə olub. 1991-ci ildə Bakıya köçüb. Birinci Qarabağ savaşı zamanı könüllü olaraq cəbhəyə gedib və Füzuli, Xocavənd, Cəbrayıl və Zəngilan rayonlarının müdafiəsi uğrunda döyüşlərdə iştirak edib. 1995-ci ildən hərbi zavodda tank mexaniki vəzifəsində çalışmağa başlayıb. 2016-cı il Aprel döyüşləri zamanı cəbhə xəttində olub, cəsurluq göstərib. 2020-ci il sentyabrın 26-da Tərtər istiqamətində cəbhə xəttinə ezam olunub. Vətən müharibəsində tank mexaniki kimi iştirak edib. Döyüş texnikasının işlək vəziyyətə gətirilməsində böyük rol oynayıb. İstefada olan qəhrəman əsgər sentyabrın 29-da Suqovuşan istiqamətindəki şiddətli döyüşlər zamanı növbəti döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub. Bakının Lökbatan qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020).*



## İBADOV
## Rauf Məhərrəm oğlu
**(04.05.1996 – 23.10.2020)**

Bakının Saray qəsəbəsində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Saray qəsəbə 2 saylı orta məktəbdə alıb. 2017-ci ildə Azərbaycan Memarlıq və İnşaat Universitetini bitirib. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Goranboyda xidmət edib. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına qoşulmaq üçün könüllü olaraq müraciət edib. Həmin il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb





olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən Füzuli cəbhəsindəki qanlı döyüşlərə atılaraq şücaətlə vuruşub. Cəbrayıl, Hadrut və Laçın döyüşlərində şəxsi igidlik göstərib. Rəşadətli əsgər oktyabrın 23-də Laçın cəbhəsində gedən qızğın döyüşlərdə hünərlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Saray qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## İBADOV
## Vüqar Sadıq oğlu
**(28.09.1988 – 19.10.2020)**

Cəlilabad rayonunun Göytəpə şəhərində anadan olub. Orta təhsilini 1994-2005-ci illərdə Göytəpə şəhər 2 saylı orta məktəbdə və Göytəpə şəhər Peşə Liseyində alıb. 2006-2008-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2013-cü ildə ordu sıralarına qayıdıb və 2016-cı ilədək MAHHXHQ kimi xidmət edib. 2020-ci ilin əvvəlində yenidən ordu sıralarına qayıdaraq xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah savaş meydanlarında qarşılayıb. İlk gündən Füzuli cəbhəsindəki qanlı döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Cəsur əsgər Cəbrayıl, Xocavənd və Qubadlı uğrundakı həlledici döyüşlərdə böyük qəhrəmanlıq göstərib. Oktyabrın 19-da Cəbrayıl cəbhəsindəki qızğın döyüşlərdə igidliklə vuruşaraq şəhadətə ucalıb. Göytəpə şəhərində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021); "Qubadlının azad olunmasına görə" medalı (2021).*



## İBADZADƏ
## Zabil Fikrət oğlu
### (24.12.1996 – 21.10.2020)

Lənkəran rayonunun Gəgiran kəndində anadan olub. Orta təhsilini 2003-2014-cü illərdə rayonun Gəgiran və Ürgə kənd tam orta məktəblərində alıb. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2016-cı il Aprel döyüşləri zamanı özünü cəsur əsgər kimi göstərib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində yenidən orduya çağırılıb və sentyabrın 29-da Füzuli cəbhəsindəki qanlı döyüşlərə atılıb. Bu həlledici döyüşlərdə böyük qəhrəmanlıq göstərən igid əsgər daha sonra Cəbrayıl və Qubadlı cəbhələrindəki vuruşmalarda da hünərlə iştirak edib, rəşadəti ilə seçilib. Oktyabrın 21-də Qubadlı uğrundakı qızğın döyüşlərdə misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Nəşi noyabrın 5-də müəyyən edilərək ailəsinə təhvil verilib. Lənkəran rayonunun Ürgə kəndində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## İBAYEV
## Elmar Hikmət oğlu
### (29.01.1978 – 12.10.2020)

Lənkəran şəhərində anadan olub. Orta təhsilini 1984-1994-cü illərdə Lənkəran şəhəri 4 saylı orta məktəbdə alıb. 1998-ci ildə Azərbaycan Dövlət Neft Akademiyasının bakalavr, 2000-ci ildə magistr pilləsini bitirib. 2002-2004-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında leytenant rütbəsində müddətli həqiqi hərbi xidmətdə olub. 2006-2008-ci illərdə Azərbaycan Milli Aviasiya Akademiyasında ikinci ali təhsil alıb. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan zabit kimi yenidən orduya çağırılıb, sentyabrın 29-da baş leytenant mundirində cəbhəyə yola düşüb. Döyüşlərə Füzuli cəbhəsində başlayıb, bu həlledici vuruşmalarda böyük şücaət və şəxsi igidlik nümunəsi göstərib. Qəhrəman zabit oktyabrın 12-də Füzuli cəbhəsində gedən şiddətli döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Lənkəran şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021).*







## İBİŞOV
## Nicat Vasif oğlu
### (27.08.2000 – 10.10.2020)

Mingəçevir şəhərində anadan olub. Orta təhsilini 2006-2017-ci illərdə Mingəçevir şəhəri 19 saylı orta məktəbdə alıb. 2018-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan dörd ay sonra – 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah savaş meydanlarında qarşılayıb, ilk gündən səngərlərdə olub, Tərtər-Ağdərə cəbhəsində düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq misilsiz igidliklə döyüşüb. Suqovuşanın azad olunmasında böyük hünər göstərib. Rəşadətli əsgərin son döyüşü oktyabrın 10-da olub. Həmin gün Suqovuşan-Ağdərə istiqamətində gedən qanlı döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Nəşi oktyabrın 25-də müəyyən edilərək ailəsinə təhvil verilib. Mingəçevir şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## İBİŞOV
## Vüsal Əli oğlu
### (19.06.1999 – 18.10.2020)

Ağsu rayonunun Gəgəli kəndində anadan olub. Orta təhsilini 2006-2017-ci illərdə Gəgəli kənd orta məktəbində alıb. 2017-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Ağcabədidə xidmət edib. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və hərbi təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, xidmət etdiyi hərbi hissənin tərkibində elə ilk saatlardan Tərtər-Ağdərə cəbhəsindəki qanlı döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Talış, Suqovuşan və Ağdərənin azadlığı uğrunda gedən həlledici vuruşmalarda böyük şücaət göstərib, öz qorxmazlığı və hünəri ilə xüsusi seçilib. Cəsur kəşfiyyatçı-əsgər oktyabrın 18-də Ağdərə istiqamətindəki qızğın döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Doğulub boya-başa çatdığı Gəgəli kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## İBRAHİMXƏLİLOV
## Söyxan Eldəniz oğlu
### (06.08.2001 – 29.09.2020)

Ağdaş rayonunun Ağzıbir kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Ağzıbir kənd orta məktəbində alıb. 2019-cu ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Təmas xəttində – Füzuli rayonunda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından ön xətdə olub, xidmət etdiyi hərbi hissənin tərkibində Füzuli cəbhəsindəki həlledici döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub, düşmənlə ölüm-dirim çarpışmasında böyük şücaət göstərib, cəsurluğu ilə xüsusi fərqlənib. Qəhrəman əsgər sentyabrın 29-da Füzuli rayonunun işğaldan azad olunması uğrunda gedən şiddətli döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Doğulub boya-başa çatdığı Ağzıbir kəndində dəfn edilib. Subay idi.





**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## İBRAHİMLİ
## Adil Asəm oğlu
### (09.09.1992 – 06.11.2020)

Sumqayıtda anadan olub. Orta təhsilini 1999-2008-ci illərdə Sumqayıt şəhəri 14 saylı orta məktəbdə, 2008-2011-ci illərdə isə C.Naxçıvanski adına Hərbi Liseydə alıb. 2015-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirib. 2016-cı ildə SQ TTM-in kursunu başa vuraraq zabit kimi xidmətə başlayıb. 2017-ci ildən XTQ sıralarında xidmət edib, Türkiyədə təlimlərdə olub. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin baş leytenantı kimi mundirdə qarşılayıb. İlk gündən Murovdağ cəbhəsindəki ağır döyüşlərdə olub, Cəbrayıl, Füzuli, Xocavənd və Şuşa uğrundakı həlledici döyüşlərdə misilsiz rəşadət göstərib. İgid xüsusi təyinatlı zabit noyabrın 6-da Şuşa ətrafındakı qanlı savaşların birində şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Nəşi noyabrın 20-də müəyyən olunaraq ailəsinə təhvil verilib. II Fəxri xiyabanda dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən Müharibəsi Qəhrəmanı" adı (2020); "Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## İBRAHİMLİ
## Cavidan Nizami oğlu
## (24.03.2000 – 24.10.2020)

Bakıda anadan olub. Orta təhsilini 2006-2017-ci illərdə Bakı şəhəri 236 saylı orta məktəbdə alıb. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində - Ağcabədidə xidmət edib. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və hərbi təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah savaş meydanlarında qarşılayıb. Müharibənin ilk günündən ön xətdə, döyüş meydanlarında olub, Füzuli cəbhəsində düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq şücaətlə vuruşub. Döyüş yolu daha sonra Cəbrayıl, Qubadlı və Xocavənd cəbhəsi səngərlərindən keçib, bu rayonlar uğrundakı həlledici vuruşmalarda mətinliklə iştirak edib, şəxsi igidlik nümunəsi və böyük qəhrəmanlıq göstərib. Cəsur əsgər oktyabrın 24-də Xocavənd uğrunda gedən qızğın döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Bakının Badamdar qəsəbəsində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020).*



## İBRAHİMLİ
## Elməddin Zeynəddin oğlu
## (19.11.1999 – 17.10.2020)

Cəlilabad rayonunun Hacıcavadlı kəndində anadan olub. Orta təhsilini 2006-2017-ci illərdə rayonun Hacıcavadlı və Privolnoye kənd orta məktəblərində alıb. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, XTQ sıralarında xidmət edib. Tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini XTQ sıralarında MAHHXHQ kimi davam etdirib. Müvafiq kurs keçəndən sonra ona kiçik gizir rütbəsi verilib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kiçik giziri kimi əldə silah savaş meydanlarında qarşılayıb. İlk gündən Murovdağ istiqamətində qanlı savaşlara atılaraq qəhrəmancasına döyüşüb. Daha sonra Füzuli, Cəbrayıl və Xocavənd uğrundakı qızğın döyüşlərdə misilsiz igidlik göstərib. Rəşadətli hərbçi oktyabrın 17-də Füzuli cəbhəsindəki şiddətli döyüşlərdə hünərlə vuruşaraq şəhadətə qovuşub. Hacıcavadlı kəndində dəfn edilib. Subay idi.





**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Azərbaycan Bayrağı" ordeni (2021).*



## İBRAHİMLİ
## Kənan Azad oğlu
## (28.05.1999 – 13.10.2020)

Cəlilabad rayonunun Şiləvəngə kəndində anadan olub. 2016-cı ildə Şiləvəngə kənd orta məktəbini bitirib, sonra Masallı Dövlət Regional Kollecində təhsil alıb. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Tərtərdə xidmət edib. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi səngərlərdə qarşılayıb. Füzuli, Cəbrayıl və Xocavənd cəbhələrindəki döyüşlərdə misilsiz rəşadət göstərib, Hadrut uğrunda qanlı savaşda şücaəti ilə fərqlənib. İgid əsgər oktyabrın 13-də Xocavənd cəbhəsində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Adı bir müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 21-də müəyyən edilərək ailəsinə təhvil verilib. Şiləvəngə kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021).*



## İBRAHİMLİ
## Qəşəm Süleyman oğlu
### (20.12.1995 – 09.10.2020)

Ağdam rayonunun Xındırıstan kəndində anadan olub, ailəsi Ağdamın Əlimədətli kəndindən məcburi köçkün idi. Orta təhsilini 2001-2012-ci illərdə Xındırıstan kənd orta məktəbində alıb. 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Qazaxda xidmət edib. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən savaş meydanlarında olub. Döyüşlərə Murovdağ istiqamətində başlayıb, daha sonra Tərtər-Ağdərə cəbhəsindəki qızğın döyüşlərdə rəşadətlə vuruşub. Talış və Suqovuşan uğrundakı qanlı döyüşlərdə böyük şücaət göstərib, cəsurluğu ilə seçilib. Qəhrəman əsgərin son savaşı oktyabrın 9-da olub. Həmin gün Ağdərə ətrafında gedən şiddətli döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Ağdamın Quzanlı qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## İBRAHİMLİ
## Məhəmmədəli Mütəllim oğlu
### (22.11.1996 – 13.10.2020)

Beyləqan şəhərində anadan olub, əslən Füzulinin Cuvarlı kəndindən idi. Orta təhsilini 2003-2014-cü illərdə Bakı şəhəri 215 saylı orta məktəbdə alıb. 2018-ci ildə Dövlət Neft və Sənaye Universitetini, 2020-ci ildə isə Azərbaycan Texniki Universitetinin magistraturasını bitirib. 2020-ci ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Tərtərdə xidmət edirdi. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsini bir əsgər kimi





səngərlərdə qarşılayıb, ilk saatlardan Tərtər-Ağdərə cəbhəsində düşmənlə amansız çarpışmaya atılaraq rəşadətlə vuruşub. Oktyabrın 4-də Suqovuşan döyüşlərində yaralansa da, cəmi üç gündən sonra müalicəsini yarımçıq qoyaraq yenidən səngərlərə qayıdıb. Cəsur əsgər oktyabrın 13-də Ağdərə ətrafındakı qanlı döyüşlərdə şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 15-də müəyyən edilərək ailəsinə təhvil verilib. Bakının Bakıxanov qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Vətən uğrunda" medalı (2021).*



## İBRAHİMLİ
## Məhərrəm Şərif oğlu
### (09.04.2001 – 07.10.2020)

Şəki rayonunun Oxud kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Oxud kənd orta məktəbində alıb. 2019-cu ilin aprelində Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə bölgəsində – Goranboyda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, xidmət etdiyi hərbi hissənin tərkibində savaşın ilk günündən ön xətdə, döyüş meydanlarında olub, şücaətlə vuruşub. İgid əsgər döyüşlərə Tərtər-Ağdərə cəbhəsində başlayıb, cəbhənin bu istiqamətində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında hünərlə iştirak edib, bu qanlı döyüşlərdə cəsurluğu ilə xüsusi seçilib. Talış və Suqovuşan uğrundakı şiddətli döyüşlərdə qəhrəmanlıq nümunəsi göstərib. Oktyabrın 7-də Suqovuşan ətrafında gedən qızğın döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Nəşi oktyabrın 25-də müəyyən edilərək ailəsinə təhvil verilib. Oxud kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



# İBRAHİMLİ
## Nail Nəriman oğlu
### (04.03.1994 – 08.11.2020)

Oğuz rayonunun Xaçmaz kəndində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Xaçmaz kənd 2 saylı orta məktəbdə alıb. 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2019-cu ildə yenidən Silahlı Qüvvələr sıralarına qayıdıb və müvafiq kurs keçəndən sonra xidmətini Dövlət Sərhəd Xidməti Sərhəd Qoşunları sıralarında xüsusi təyinatlı dəstənin tərkibində davam etdirməyə başlayıb. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini DSX Sərhəd Qoşunlarının kiçik giziri kimi əldə silah səngərlərdə qarşılayıb, ilk saatlardan düşmənlə ölüm-dirim çarpışmasına atılaraq igidliklə vuruşub. Döyüş yolu Murovdağda başlayıb, daha sonra Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Şuşa uğrundakı həlledici döyüşlərdə iştirak edərək müstəsna qəhrəmanlıq nümunələri göstərib. Rəşadətli xüsusi təyinatlı döyüşçü noyabrın 8-də Şuşa ətrafında gedən qanlı döyüşlər zamanı misilsiz hünərlə vuruşaraq şəhadətə qovuşub. Xaçmaz kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən Müharibəsi Qəhrəmanı" adı (2020); "Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020).*



# İBRAHİMOV
## Alim Səhrab oğlu
### (26.12.1993 – 27.09.2020)

Ucar rayonunun Qazıqumlaq kəndində anadan olub. Orta təhsilini 1999-2010-cu illərdə Mingəçevir şəhəri 4 saylı orta məktəbdə alıb. 2010-cu ildə Mingəçevir şəhəri 2 saylı Musiqi Məktəbini, 2014-cü ildə Azərbaycan Milli Konservatoriyası nəzdindəki Musiqi Kollecini bitirib. 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb





və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini əldə silah savaş meydanlarında qarşılayıb, ilk saatlardan Tərtər-Ağdərə cəbhəsində qanlı döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Cəsur əsgər müharibənin elə ilk günü – sentyabrın 27-də Talış-Suqovuşan istiqamətindəki ağır döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Adı bir müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 1-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Mingəçevir şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



# İBRAHİMOV
## Atiq Ariz oğlu
### (24.06.1990 – 16.10.2020)

Mingəçevir şəhərində anadan olub. Orta təhsilini 1997-2008-ci illərdə Mingəçevir şəhəri Texniki Humanitar Liseydə və Mingəçevir Özəl Türk Liseyində alıb. 2013-cü ildə Türkiyənin Ağdəniz Universitetini bitirib. 2013-2017-ci illərdə Ukraynanın Xarkov Milli Universitetində ikinci ali təhsil alıb. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, NATO sülhməramlıları tərkibində xidmət edib. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra könüllü olaraq ordu sıralarına yazılıb. Həmin il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb edilib. Bir həftədən sonra başlayan Vətən müharibəsini əldə silah səngərlərdə qarşılayıb. Murovdağ istiqamətindəki döyüşlərdə rəşadətlə vuruşub. Talış, Suqovuşan, Füzuli və Cəbrayıl döyüşlərində şücaət göstərib. Qəhrəman əsgər oktyabrın 16-da Ağdərə ətrafındakı qanlı döyüşlərdə igidliklə vuruşaraq şəhadətə ucalıb. Mingəçevir şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## İBRAHİMOV
## Ayaz Sultan oğlu
(10.06.1998 – 09.11.2020)

Naxçıvan MR Babək rayonunun Məmmədrza Dizə kəndində anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Məmmədrza Dizə kənd orta məktəbində alıb. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2018-ci ilin mayında yenidən ordu sıralarına qayıtmağa qərar verib və XTQ tərkibində MAHHXHQ kimi xidmətə başlayıb. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayandan bir müddət sonra xidmət etdiyi hərbi hissənin tərkibində ön cəbhəyə göndərilib. Füzuli cəbhəsində qanlı savaşlara atılaraq rəşadətlə vuruşan igid əsgərin döyüş yolu daha sonra Cəbrayıl və Xocavənd cəbhələri səngərlərindən keçib, bu qızğın döyüşlərdə böyük hünər göstərib. Şuşanın işğaldan azad edilməsi uğrundakı həlledici vuruşmada mətinliyi ilə seçilib. Noyabrın 9-da Şuşa ətrafındakı şiddətli döyüşlərdə misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Məmmədrza Dizə kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021), 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2022).*



## İBRAHİMOV
## Bəhram Sakit oğlu
(05.05.1999 – 07.10.2020)

Yevlax rayonunun Ərəbbəsrə kəndində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Ərəbbəsrə kənd və Yevlax şəhəri 3 saylı orta məktəblərində alıb. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Beyləqanda xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən





səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. İlk günlərdən ön xətdə olub, döyüşlərə başladığı Tərtər-Ağdərə cəbhəsindəki qanlı vuruşmalarda şəxsi igidlik nümunəsi göstərib. Suqovuşanın azadlığı uğrunda gedən həlledici döyüşlərdə qəhrəmanlığı və qorxmazlığı ilə fərqlənib. Cəsur əsgər oktyabrın 7-də Ağdərə istiqamətindəki qızğın döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhadətə qovuşub. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi 2021-ci il yanvarın 12-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Ərəbbəsrə kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Vətən uğrunda" medalı (2021).*



## İBRAHİMOV
## Bəhruz Fazil oğlu
(22.06.1983 – 28.09.2020)

Füzuli rayonunun Govşadlı kəndində anadan olub. Orta təhsilini 1990-1993-cü illərdə Govşadlı kənd orta məktəbində, 1993-2000-ci illərdə isə Beyləqanda, Sumqayıtın H.Z.Tağıyev qəsəbəsində, Füzulidəki Qayıdış-4 qəsəbəsində və Beyləqan rayon Milabad qəsəbə orta məktəbində alıb. 2002-2003-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2007-ci ildə yenidən ordu sıralarına qayıdıb və SQ TTM-də kurs keçərək kiçik çavuş rütbəsində MAHHXHQ kimi xidmətə başlayıb, cəbhə bölgəsində – Füzulidə xidmət edirdi. 2016-cı il Aprel döyüşlərində cəsurluğu ilə seçilib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini səngərlərdə qarşılayıb, Füzuli cəbhəsindəki qanlı döyüşlərdə şücaət göstərib. Cəbrayıl uğrundakı döyüşlərdə qəhrəmancasına vuruşub. Rəşadətli döyüşçü sentyabrın 28-də Füzuli cəbhəsindəki qızğın döyüşlərdə hünərlə vuruşaraq şəhid olub. Beyləqan şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021).*



# İBRAHİMOV
## Elçin Rövşən oğlu
### (23.09.1995 – 09.11.2020)

Ağstafa şəhərində anadan olub. Orta təhsilini 2001-2012-ci illərdə Ağstafa şəhəri 3 saylı orta məktəbdə alıb. 2013-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində - Tərtərdə xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub, oktyabrın 30-da Füzuli cəbhəsində düşmənlə amansız döyüşlərə atılaraq hünərlə vuruşub. Cəbhənin Qubadlı istiqamətində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında mətinliklə iştirak edib. İgid əsgər Qubadlı və Şuşanın azadlığı uğrundakı şiddətli vuruşmalarda misilsiz rəşadətlə döyüşüb, öz qorxmazlığı ilə xüsusi fərqlənib. Son döyüşü noyabrın 9-da olub. Həmin gün Şuşa ətrafında gedən qanlı döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Ağstafa şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020).*



# İBRAHİMOV
## Elmar Nəriman oğlu
### (02.09.1998 – 06.10.2020)

Mingəçevir şəhərində anadan olub. 2013-cü ildə Mingəçevir şəhəri 2 saylı orta məktəbin IX sinfini, 2015-ci ildə isə Mingəçevirdəki texniki peşə məktəbini bitirib. 2016-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına yazılmaq üçün könüllü şəkildə müraciət edib. Həmin il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini əldə silah səngərlərdə qarşılayıb, ilk gündən savaş meydanlarında olub, hünərlə vuruşub. Döyüşlərə Tərtər-Ağdərə cəbhəsində başlayıb, Talış və Suqovuşan uğrundakı qanlı döyüşlərdə rəşadət göstərib. Qəhrəman əsgər oktyabrın 6-da Suqovuşan ərtafında gedən şiddətli döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Nəşi oktyabrın 16-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Mingəçevir şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



# İBRAHİMOV
## Elnur Dönməz oğlu
### (29.08.1998 – 21.10.2020)

Bakının Ələt qəsəbəsində anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Ələt qəsəbə 302 saylı orta məktəbdə alıb. 2016-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarında xidmət edib. 2019-cu ildə yenidən hərbi xidmətə qayıtmağa qərar verib və DSX-nin gizir hazırlığı kursunu bitirərək kiçik gizir rütbəsində xidmətə başlayıb. 2020-ci ildə DSX xüsusi təyinatlıları sıralarına keçib. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsini bir döyüşçü kimi əldə silah savaş meydanlarında qarşılayıb. Müharibənin ilk günündən Kəlbəcər cəbhəsində qanlı döyüşlərə atılaraq qəhrəmancasına vuruşub. Daha sonra Cəbrayıl və Zəngilan uğrundakı döyüşlərdə iştirak edib, şəxsi igidlik göstərib. Cəsur döyüşçünün son savaşı oktyabrın 21-də olub. Həmin gün Zəngilan uğrunda gedən qızğın döyüşlərdə misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Hacıqabul rayonunun Navahı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020).*



## İBRAHİMOV
## Elsevər Etibar oğlu
### (06.11.1999 – 09.11.2020)

Şəki rayonunun Aşağı Layısqı kəndində anadan olub. 2015-ci ildə Şəki rayon Aşağı Göynük kənd orta məktəbinin IX sinfini bitirib. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Goranboyda və Ağdamda birbaşa təmas xəttində düşmənlə üzbəüz səngərdə xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və sentyabrın 29-da ön cəbhəyə göndərilib. İgid əsgərin döyüş yolu Füzuli cəbhəsindəki qızğın vuruşmalarla başlayaraq Şuşa döyüşlərinə qədər uzanıb, bu həlledici döyüşlərdə böyük qəhrəmanlıq nümunələri göstərib, qorxmazlığı və şücaəti ilə xüsusi fərqlənib. Noyabrın 9-da Şuşa ətrafında gedən qanlı döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Doğulub boya-başa çatdığı Aşağı Layısqı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020).*



## İBRAHİMOV
## Elşən Cahangir oğlu
### (27.03.2002 – 03.10.2020)

Şəki şəhərində anadan olub. Orta təhsilini 2008-2019-cu illərdə Şəki şəhəri 11 saylı orta məktəbdə alıb. 2019-cu ildə Bakı Sosial-İqtisad Kollecinə qəbul olub, sonra təhsilini Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdindəki Sosial-İqtisad Kollecində davam etdirib. 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə bölgəsində – Tərtərdə xidmət edirdi. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. İlk gündən





düşmənlə ölüm-dirim savaşının getdiyi Tərtər-Ağdərə cəbhəsindəki qanlı döyüşlərə atılaraq misilsiz igidliklə vuruşub. Suqovuşan, Talış və Ağdərənin azadlığı uğrundakı həlledici vuruşmalarda qəhrəmanlıq nümunələri göstərib, qorxmazlığı ilə seçilib. Rəşadətli əsgər oktyabrın 3-də Ağdərə istiqamətində gedən şiddətli döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Şəki şəhərində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## İBRAHİMOV
## Əli Bəxtiyar oğlu
### (11.02.2002 – 14.10.2020)

Quba rayonunun Qırmızı qəsəbəsində anadan olub. Orta təhsilini 2008-2019-cu illərdə Qırmızı qəsəbə 1 saylı orta məktəbində alıb. 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah döyüş meydanlarında qarşılayıb. Müharibənin ilk günündən ön xətdə, savaş meydanlarında olub, igidliklə vuruşub. Döyüşlərə Tərtər-Ağdərə cəbhəsində başlayan cəsur əsgər Talış və Suqovuşan uğrundakı qızğın savaşlarda hünərlə iştirak edib. Müharibənin ilk günlərində Talış uğrunda döyüşlərdə yaralansa da, savaş meydanından çəkilməyib. Hospitala çatdırılıb, amma müalicəsini yarımçıq qoyaraq yenidən səngərlərə qayıdıb və rəşadətlə döyüşüb. Oktyabrın 14-də Suqovuşan ətrafında gedən qanlı döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Nəşi oktyabrın 23-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Quba şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020).*



## İBRAHİMOV
## Hikmət Zaur oğlu
(23.06.2001 – 21.10.2020)

Ucar rayonunun Qarabörk kəndində anadan olub. 2016-cı ildə Qarabörk kənd orta məktəbinin IX sinfini bitirib. 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə bölgəsində - Beyləqanda xidmət edirdi. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk günündən savaş meydanlarında olub, iştirak etdiyi ağır döyüşlərdə mətinliklə vuruşub, hünəri və qorxmazlığı ilə xüsusi fərqlənib. Cəbhənin Füzuli, Cəbrayıl və Xocavənd istiqamətlərində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında şücaətlə iştirak edib. Hadrut uğrundakı qanlı döyüşlərdə rəşadət göstərib, cəsurluğu ilə seçilib. Qəhrəman əsgərin son döyüşü oktyabrın 21-də olub. Həmin gün Füzuli rayonu istiqamətində gedən şiddətli döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Doğulub boya-başa çatdığı Qarabörk kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2021).*



## İBRAHİMOV
## Xeyrulla Mais oğlu
(19.04.1971 – 26.10.2020)

Bakıda anadan olub. Orta təhsilini 1978-1985-ci illərdə Bakı şəhəri 116 saylı orta məktəbdə, 1985-1988-ci illərdə isə C.Naxçıvanski adına Hərbi Liseydə alıb. 1992-ci ildə Ukraynada Ali Artilleriya Komandanlıq Məktəbini leytenant rütbəsində bitirərək Azərbaycana qayıdıb və zabit kimi xidmətə başlayıb. Birinci Qarabağ savaşında Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli və Tərtərin müdafiəsində iştirak edib, Füzulidə yaralanıb. 2000-ci ildə SQ Hərbi Akademiyasını bitirib. 2011-ci ildə polkovnik-leytenant rütbəsində tərxis olunub. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayanda könüllü olaraq orduya qayıdaraq artilleriya rəisi təyin olunub. İgid zabit Füzuli və Cəbrayıl uğrundakı həlledici döyüşlərdə peşəkar artilleriyaçı kimi rəşadətlə iştirak edib. Oktyabrın 26-da Füzuli-Xocavənd istiqamətindəki döyüşlərin birində şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. II Fəxri xiyabanda dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Azərbaycan Bayrağı" ordeni (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021).*



## İBRAHİMOV
## İbrahim Abdulla oğlu
(10.10.1999 – 09.11.2020)

Bakıda anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Bakı şəhəri 205 saylı orta məktəbdə alıb. 2018-ci ildə Sumqayıt Dövlət Texniki Kollecinə qəbul olunub. 2019-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində - Füzulidə xidmət edib. Tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Cəbhə bölgəsində - Beyləqanda xidmət edirdi. Həmin ilin sentyabrında Vətən müharibəsi başlayanda xidmət etdiyi hərbi hissənin tərkibində ilk gündən ölüm-dirim savaşına atılıb. Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan və Qubadlı uğrundakı döyüşlərdə şəxsi igidlik nümunələri göstərib, qanlı Hadrut döyüşlərində şücaəti ilə seçilib. Cəsur əsgər noyabrın 9-da Şuşa ətrafındakı şiddətli döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Bakının Binəqədi kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



# İBRAHİMOV
## İbrahim Etibar oğlu
### (18.02.1992 – 30.10.2020)

Naxçıvan şəhərində anadan olub. Orta təhsilini 1998-2009-cu illərdə Naxçıvan şəhəri 15 saylı orta məktəbdə alıb. 2010-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Naxçıvanda xidmət edib. 2020-ci ildə yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu sıralarında MAHHXHQ kimi davam etdirməyə başlayıb. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı bütün cəbhə boyunca həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında qəhrəmancasına iştirak edib. Döyüş yolu Füzuli, Cəbrayıl, Zəngilan və Xocavənd cəbhələri səngərlərindən keçib, bu rayonlar uğrundakı qızğın döyüşlərdə misilsiz şücaət və şəxsi igidlik nümunələri göstərib. Rəşadətli əsgərin son savaşı oktyabrın 30-da olub. Həmin gün Xocavənd uğrunda gedən qanlı döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Naxçıvan şəhərində dəfn olunub. Ailəli idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



# İBRAHİMOV
## İlqar Elçin oğlu
### (25.06.2002 – 03.10.2020)

Astara rayonunun Taxtanəkəran kəndində anadan olub. Orta təhsilini 2008-2019-cu illərdə Astara rayon Rinə kənd orta məktəbində alıb. 2020-ci ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə bölgəsində - Goranboyda xidmət edirdi. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah savaş meydanlarında qarşılayıb. Müharibənin ilk günündən ön xətdə, səngərlərdə olub, xidmət etdiyi hərbi hissənin tərkibində düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi Tərtər-Ağdərə cəbhəsindəki qanlı döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Talış kəndi və Suqovuşan qəsəbəsi uğrundakı həlledici döyüşlərdə böyük şücaət göstərib, qorxmazlığı və cəsurluğu ilə xüsusi fərqlənib. İgid əsgərin son savaşı oktyabrın 3-də olub. Həmin gün Suqovuşan uğrundakı qızğın döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Doğulub boya-başa çatdığı Taxtanəkəran kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*







# İBRAHİMOV
## İmaməli Elman oğlu
### (17.01.1995 – 08.11.2020)

Lerik rayonunun Hovil kəndində anadan olub. Orta təhsilini 2001-2012-ci illərdə Lerik rayon Qılqılov və Siyov kənd orta məktəblərində alıb. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci ilin yanvarında yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir hərbçi kimi əldə silah döyüş meydanlarında qarşılayıb, ilk gündən qanlı savaşlara atılaraq şücaətlə vuruşub. Qəhrəman əsgərin döyüş yolu Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Laçın cəbhələri səngərlərindən keçib, bu rayonlar uğrundakı həlledici vuruşmalarda böyük hünər və rəşadət göstərib. Noyabrın 8-də Laçın rayonu istiqamətində gedən şiddətli döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Doğulduğu Hovil kəndində dəfn edilib. Ailəli idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020).*



## İBRAHİMOV
## İsrafil Zülfiqar oğlu
(16.10.1997 – 26.10.2020)

Bakıda anadan olub. Orta təhsilini 2003-2014-cü illərdə Bakı şəhəri 202 saylı orta məktəbdə alıb. 2015-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, DSX Sərhəd Qoşunlarında xidmət edib. 2019-cu ildə yenidən Silahlı Qüvvələr sıralarına qayıtmağa qərar verib və xidmətini BMT Sülhməramlıları tərkibində kiçik çavuş rütbəsində MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayanda XTQ-nin tərkibində cəbhəyə göndərilib. İlk gündən ağır döyüşlərə atılaraq rəşadətlə vuruşub. Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan və Laçın cəbhələrindəki şiddətli döyüşlərdə böyük qəhrəmanlıq göstərib. Cəsur döyüşçünün son savaşı oktyabrın 26-da olub. Həmin gün Laçın cəbhəsindəki qanlı döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Ağdamın Quzanlı qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020).*



## İBRAHİMOV
## Qurban Namiq oğlu
(05.06.1998 – 09.11.2020)

Naxçıvan MR Kəngərli rayonunun Qabıllı kəndində anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Qabıllı kənd orta məktəbində alıb. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, XTQ sıralarında xidmət edib. 2019-cu ilin dekabrında yenidən ordu sıralarına qayıdıb və xidmətini XTQ tərkibində davam etdirməyə başlayıb. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra XTQ tərkibində cəbhəyə yollanaraq həlledici döyüşlərə atılıb. Xocavənd və Cəbrayılın azad olunması uğrunda gedən qanlı döyüşlərdə şücaətlə vuruşub. Hadrut, Laçın və Şuşa uğrundakı qızğın döyüşlərdə müstəsna qəhrəmanlıq və hünər göstərib. Döyüşlərin birində yaralansa da, hospitala getməkdən boyun qaçıraraq Şuşa uğrunda həlledici döyüşə atılıb. İgid əsgər noyabrın 9-da Şuşa uğrundakı şiddətli döyüşlərdə misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Doğulduğu Qabıllı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Azərbaycan Bayrağı" ordeni (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## İBRAHİMOV
## Murad Valeh oğlu
(06.09.1993 – 03.10.2020)

Gəncə şəhərində anadan olub. 2008-ci ildə Gəncə şəhəri 12 saylı orta məktəbin IX sinfini bitirib. Təhsilini 2008-2009-cu illərdə 1 saylı Gəncə Peşə Liseyində davam etdirib. 2011-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2014-cü ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini bir hərbçi kimi savaş meydanlarında qarşılayıb, ilk gündən düşmənlə ölüm-dirim çarpışmasına atılaraq igidliklə vuruşub. Döyüşlərə Kəlbəcər cəbhəsində başlayan rəşadətli əsgər Murovdağ yüksəklikləri uğrundakı qanlı savaşlarda misilsiz şücaət göstərib. Oktyabrın 3-də Murovdan Ağdərə cəbhəsinə yollanıb, həmin istiqamətdə döyüş tapşırığını yerinə yetirərkən hünərlə vuruşaraq şəhadətə qovuşub. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi 2021-ci il yanvarın 23-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Gəncə şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2021); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021).*



## İBRAHİMOV
## Mübariz Telman oğlu
### (14.01.1990 – 09.11.2020)

Daşkəsən rayonunun Xoşbulaq kəndində anadan olub. 2007-ci ildə Xoşbulaq kənd orta məktəbini bitirib. 2008-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Beyləqanda xidmət edib. 2018-ci ildə yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini səngərlərdə qarşılayıb. Döyüşlərə Murovdağ istiqamətində başlayıb, bu qızğın döyüşlərdə igidlik göstərib. Döyüş yolu daha sonra Füzuli, Xocavənd, Cəbrayıl və Şuşa cəbhələrindən keçib, bu rayonlar uğrunda misilsiz rəşadətlə vuruşub. Cəsur əsgər noyabrın 9-da Xocavənd-Şuşa istiqamətindəki qanlı döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Daşkəsən şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## İBRAHİMOV
## Müşfiq Nəbi oğlu
### (11.01.1995 – 07.10.2020)

Bakıda anadan olub. Orta təhsilini 2001-ci ildə Bakı şəhəri 69 saylı orta məktəbdə almağa başlayıb, 2008-ci ildə həmin məktəbin VII sinfini bitirəndən sonra təhsilini davam etdirməyib. Səhhəti ilə əlaqədar bir müddət hərbi xidmətə aparılmayıb. 2020-ci ilin





yanvarında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə bölgəsində – Beyləqanda xidmət edirdi. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən savaş meydanlarında olub, cəbhənin Füzuli istiqamətində düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq rəşadətlə vuruşub. Füzuli rayonunun azadlığı uğrundakı qanlı döyüşlərdə böyük şücaət göstərib, cəsurluğu ilə xüsusi fərqlənib. Qəhrəman əsgərin son döyüşü oktyabrın 7-də olub. Həmin gün Füzuli cəbhəsində gedən şiddətli döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Bakının Bakıxanov qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2021).*



## İBRAHİMOV
## Rafael Emin oğlu
### (28.05.2002 – 21.10.2020)

Bakıda anadan olub. Orta təhsilini 2008-2019-cu illərdə Bakı şəhəri 210 saylı orta məktəbdə alıb. 2020-ci ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə bölgəsində – Beyləqanda xidmət edirdi. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah savaş meydanlarında qarşılayıb. Müharibənin ilk günündən xidmət etdiyi hərbi hissənin tərkibində ön xətdə olub, cəbhənin Füzuli istiqamətində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında hünərlə iştirak edib, bu qanlı döyüşlərdə misilsiz rəşadət və qəhrəmanlıq nümunələri göstərib. Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə öz cəsurluğu və mətinliyi ilə xüsusi seçilib. İgid əsgər oktyabrın 21-də cəbhənin Füzuli rayonu istiqamətində gedən qızğın döyüşlərin birində şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Bakının Keşlə qəsəbəsində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2021).*



## İBRAHİMOV
## Röyal Qulam oğlu
(19.02.2002 – 02.11.2020)

Lənkəran rayonunun Vel kəndində anadan olub. Orta təhsilini 2008-2017-ci illərdə Vel kənd orta məktəbində alıb, IX sinfi bitirərək təhsilini 2017-2019-cu illərdə Lənkəran şəhər Texniki Peşə Liseyində davam etdirib. 2020-ci ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, təmas xəttində - Ağdamda xidmət edirdi. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən savaş meydanlarında olub, hünərlə döyüşüb. Döyüşlərə Ağdam cəbhəsində başlayıb, sonra Tərtər-Ağdərə cəbhəsindəki qanlı döyüşlərdə iştirak edib. Talış kəndinin və Suqovuşanın azad olunması uğrunda gedən şiddətli döyüşlərdə igidlik göstərib. Döyüş yolu daha sonra Füzuli, Cəbrayıl, Xocavənd və Qubadlı cəbhələrindən keçib. Cəsur əsgər noyabrın 2-də Şuşa istiqamətində gedən həlledici döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Lənkəran rayonunun Xolmili kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Ağdamın azad olunmasına görə" medalı (2020).*



## İBRAHİMOV
## Ruzi Əliağa oğlu
(23.02.1983 – 07.11.2020)

Naxçıvan MR Şərur rayonunun Yengicə kəndində anadan olub. Orta təhsilini 1989-2000-ci illərdə Yengicə kənd 1 saylı orta məktəbdə alıb. 2001-2002-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2014-cü ildə yenidən ordu sıralarına qayıdıb və XTQ sıralarında çavuş rütbəsində MAHHXHQ kimi xidmətə başlayıb. 2018-ci il Günnüt döyüşlərində böyük şücaət göstərib. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayandan sonra - oktyabrın 11-də cəbhəyə yollanıb. Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan və Qubadlı cəbhələrində gedən qanlı döyüşlərdə misilsiz qəhrəmanlıqla vuruşub. Rəşadətli xüsusi təyinatlı Şuşa uğrunda döyüşlərdə yaralansa da, savaş meydanını tərk etməyib və vuruşmaqda davam edib. Noyabrın 7-də Şuşa uğrunda gedən həlledici döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Şərur şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.





**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Azərbaycan Bayrağı" ordeni (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## İBRAHİMOV
## Seymur Zamin oğlu
(20.10.2000 – 01.11.2020)

Naxçıvan MR Babək rayonunun Tumbul kəndində (hazırda Naxçıvan şəhərinin Tumbul kəndi) anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Tumbul kənd orta məktəbində (hazırda Naxçıvan şəhər 13 saylı orta məktəb) alıb. 2018-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Hərbi xidmət dövründə müvafiq kurs keçib, 2020-ci ilin aprelində xidmətini başa vurandan sonra ordu sıralarında qalaraq xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Həmin ilin sentyabrında Vətən müharibəsi başlayandan sonra - oktyabrın 11-də ön cəbhəyə göndərilib və ağır döyüşlərə atılıb. Füzulidən başlayan döyüş yolu Şuşaya qədər davam edib. Füzulinin və Xocavəndin azad olunması uğrunda rəşadətlə döyüşüb. İgid əsgər noyabrın 1-də Şuşa uğrundakı qanlı döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Tumbul kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021), 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2022).*



## İBRAHİMOV
## Sultan Mikayıl oğlu
### (24.04.1996 – 21.10.2020)

Salyan şəhərində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Rusiyanın Moskva vilayətində və Salyan şəhər 1 sayı humanitar liseydə alıb. 2013-cü ildən təhsilini Bakı Kooperasiya Kollecində davam etdirib. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2019-cu ildə yenidən Silahlı Qüvvələr sıralarına qayıdıb və xidmətini Dövlət Sərhəd Xidməti Sərhəd Qoşunlarında davam etdirməyə başlayıb. DSX Sahil Mühafizə Xidmətində kiçik gizir rütbəsində xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsinin ilk günlərindən döyüşlərə atılıb, İran-Azərbaycan sərhədi boyunca işğal altında olan məntəqələrin azadlığı uğrunda rəşadətlə vuruşub, döyüşlərdə cəsurluğu ilə fərqlənib. Döyüş yolu Zəngilana qədər davam edib. Qəhrəman sərhədçinin son savaşı oktyabrın 21-də olub. Həmin gün Zəngilan cəbhəsində gedən şiddətli döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Salyan şəhərində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2020); "Zəngilanın azad olunmasına görə" medalı (2020).*



## İBRAHİMOV
## Təbriz İsmayıl oğlu
### (08.10.1992 – 02.10.2020)

Salyan rayonunun Çadırlı kəndində anadan olub. Orta təhsilini 1998-2009-cu illərdə Çadırlı kənd və Şirvan şəhəri Hacıqəhrəmanlı qəsəbə 12 saylı orta məktəblərində alıb. Təhsilini daha sonra Şirvan Humanitar Kollecində davam etdirib. 2010-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2013-2016-cı illərdə DİN Daxili Qoşunları sıralarında MAHHXHQ kimi xidmət edib. 2020-ci ilin avqustunda yenidən ordu sıralarına qayıdıb





və xidmətini MAHHXHQ kimi davam etdirib. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah savaş meydanlarında qarşılayıb. İlk gündən Kəlbəcər cəbhəsindəki qanlı döyüşlərə atılaraq rəşadətlə vuruşub. Murovdağ döyüşlərində böyük qəhrəmanlıq göstərib. Cəsur əsgər oktyabrın 2-də Murovdağ uğrundakı qızğın döyüşlərdə misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi 2021-ci il mayın 19-da müəyyən olunaraq ailəsinə təhvil verilib. II Fəxri xiyabanda dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2021); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## İBRAHİMOV
## Tofik Polad oğlu
### (01.11.1997 – 11.10.2020)

Qusar rayonunun Düztahir kəndində anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Düztahir kənd orta məktəbində alıb. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Goranboyda xidmət edib. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah savaş meydanlarında qarşılayıb. Müharibənin ilk günündən düşmənlə amansız çarpışmanın getdiyi Füzuli cəbhəsindəki döyüşlərə atılaraq qəhrəmancasına vuruşub. Daha sonra Xocavənd və Cəbrayıl istiqamətlərindəki həlledici vuruşmalarda misilsiz şücaət göstərib. İgid əsgərin son savaşı oktyabrın 11-də olub. Həmin gün Füzuli uğrundakı qanlı döyüşlərin birində rəşadətlə vuruşaraq şəhid olub. Düztahir kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021).*



## İBRAHİMOV
## Zamanət Gülhəsən oğlu
### (11.05.1989 – 27.09.2020)

Salyan rayonunun Sarvan kəndində anadan olub. 2006-cı ildə Sarvan kənd orta məktəbini bitirib. 2007-2008-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, DİN Daxili Qoşunlarında xidmət edib. Tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb və 2009-cu ildə SQ TTM-də kurs keçərək MAHHXHQ kimi xidmətə başlayıb. 2012-ci ildən Murovdağda xidmət edib. 2016-cı il Aprel döyüşlərində cəsurluğu ilə seçilib. 2019-cu ildə TTM-də gizir hazırlığı kursu keçərək gizir rütbəsi ilə ön xətdə – Goranboyda xidmətə başlayıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı ilk saatlardan Tərtər-Ağdərə cəbhəsindəki qanlı döyüşlərə atılaraq misilsiz igidliklə vuruşub. Talış və Suqovuşan döyüşlərində böyük qəhrəmanlıq göstərib. Rəşadətli hərbçi müharibənin ilk günü – sentyabrın 27-də Talış uğrundakı döyüşlərdə hünərlə savaşaraq şəhadətə qovuşub. Sarvan kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020).*



## İBRAHİMZADƏ
## Nahid Şahid oğlu
### (01.11.1994 – 05.11.2020)

Ağdaş rayonunun Kotavan kəndində anadan olub. Orta təhsilini 2001-ci ildən Kotavan kənd orta məktəbində almağa başlayıb, daha sonra ailəsi Rusiyaya köçdüyündən təhsilini bu ölkənin Pskov vilayətində tamamlayıb. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində – Füzulidə xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən





müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində yenidən ordu sıralarına çağırılıb və sentyabrın 29-da cəbhəyə yola salınıb. Döyüşlərə Füzuli cəbhəsində başlayan cəsur əsgər daha sonra Xocavənd, Cəbrayıl və Şuşa uğrundakı şiddətli döyüşlərdə misilsiz rəşadət göstərib, şücaəti ilə seçilib. Noyabrın 5-də Şuşa döyüşləri zamanı qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Mingəçevir şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## İBRAHİMZADƏ
## Sehun Rafiq oğlu
### (28.01.1997 – 26.10.2020)

Şəmkir rayonunun Tatarlı kəndində anadan olub. Orta təhsilini 2003-2014-cü illərdə Tatarlı kənd orta məktəbində alıb. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına yazılmaq üçün könüllü olaraq müraciət edib. Həmin il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb. Cəbhənin Füzuli, Cəbrayıl və Qubadlı istiqamətlərində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında ilk gündən hünərlə iştirak edib, bu qızğın döyüşlərdə rəşadət göstərib, cəsurluğu ilə fərqlənib. Qəhrəman əsgərin son savaşı oktyabrın 26-da olub. Həmin gün Füzulinin Seyidəhmədli kəndi uğrunda gedən qanlı döyüşlərdə misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Doğulduğu Tatarlı kəndində dəfn edilib. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## İBRƏHİMOV
## Elmir Akif oğlu
(02.05.1996 – 08.11.2020)

Saatlı rayonunun Məzrəli kəndində anadan olub. 2011-ci ildə Saatlı şəhəri 2 saylı orta məktəbin IX sinfini bitirib, təhsilini daha sonra Sabirabad Dövlət Sosial-İqtisad Kollecində davam etdirib. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində – Füzulidə xidmət edib. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində yenidən ordu sıralarına çağırılıb və sentyabrın 29-da cəbhəyə göndərilib. İgid əsgərin Füzulidən başlayan döyüş yolu Cəbrayıl, Xocavənd, Zəngilan və Qubadlı cəbhələrindən keçərək Şuşaya qədər davam edib, bu qanlı savaşlarda qəhrəmanlıq göstərib. Bir neçə dəfə yaralansa da, savaş meydanını tərk etməyərək rəşadətlə vuruşub. Noyabrın 8-də Şuşa uğrundakı həlledici döyüşlərdə misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Məzrəli kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## İBRƏHİMOV
## Əlövsəd Seyidxan oğlu
(21.04.1995 – 02.10.2020)

Şamaxı şəhərində anadan olub. Orta təhsilini 2001-2012-ci illərdə Şamaxı şəhəri 9 saylı orta məktəbdə alıb. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunduğu il yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini 2014-cü ildən XTQ sıralarında kiçik gizir rütbəsində MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini xüsusi təyinatlı döyüşçü kimi





əldə silah savaş meydanlarında qarşılayıb, ilk saatlardan Kəlbəcər cəbhəsində gedən qanlı döyüşlərə atılaraq misilsiz igidliklə vuruşub, müstəsna qəhrəmanlıq nümunələri göstərib. Murovdağ yüksəklikləri uğrundakı ağır döyüşlərdə öz şücaəti və qorxmazlığı ilə xüsusi fərqlənib. Cəsur hərbçi oktyabrın 2-də cəbhənin Kəlbəcər istiqamətində gedən şiddətli döyüşlərin birində rəşadətlə vuruşaraq şəhid olub. Şamaxı şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## İDRİSOV
## Xəyal İbrahim oğlu
(24.02.2000 – 06.10.2020)

Ağdaş rayonunun Ərəbocağı kəndində anadan olub. 2015-ci ildə Ərəbocağı kənd orta məktəbinin IX sinfini bitirib, təhsilini daha sonra Ağdaş Texniki Peşə Liseyində davam etdirib. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, xidmətini cəbhə bölgəsində – Füzulidə başa vurub. 2020-ci ilin yanvarında yenidən ordu sıralarına qayıdıb və SQ TTM-də müvafiq kurs keçəndən sonra xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah savaş meydanlarında qarşılayıb. Müharibənin ilk günündən ön xətdə, Tərtər-Ağdərə cəbhəsi səngərlərində olub, misilsiz şücaətlə vuruşub. Talış və Suqovuşan uğrunda gedən qanlı vuruşmalarda hünərlə döyüşüb, cəsurluğu ilə seçilib. Rəşadətli əsgər oktyabrın 6-da Suqovuşan istiqamətindəki qızğın döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Ərəbocağı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## İDRİSOV
## Ruslan Qabil oğlu
## (06.06.2002 – 01.10.2020)

Qəbələ rayonunun Qəmərvan kəndində anadan olub. Orta təhsilini 2009-2020-ci illərdə Qəbələ şəhər 3 saylı və Qəbələ rayon Zarağan kənd 2 saylı orta məktəblərdə alıb. 2020-ci ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə xəttində – Goranboyda xidmət edirdi. Bundan iki ay sonra başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən ön xətdə olub, Tərtər-Ağdərə cəbhəsində düşmənlə ölüm-dirim savaşına atılaraq misilsiz rəşadətlə vuruşub. Talış və Suqovuşan uğrundakı həlledici döyüşlərdə böyük hünər göstərib, cəsurluğu ilə seçilib. Qəhrəman əsgər oktyabrın 1-də Tapqaraqoyunlu istiqamətində gedən şiddətli döyüşlərin birində mətinliklə vuruşaraq şəhadətə ucalıb. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 28-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Qəbələ rayonunun Soltannuxa kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## İXTİYAR
## İlqar oğlu
## (06.07.1994 – 06.10.2020)

Goranboy rayonunun Goranlı kəndində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Goranlı kənd orta məktəbində alıb. 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. DSX Sərhəd Qoşunlarında xidmət edib. 2014-cü ildən yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirib. 2016-cı il Aprel döyüşlərinin iştirakçısı olub. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin giziri





kimi əldə silah səngərlərdə qarşılayıb. İlk gündən savaş meydanlarında olub, Murovdağ döyüşlərində hünər göstərib. Sonra Tərtər-Ağdərə cəbhəsində rəşadətlə döyüşüb. Yaralansa da, savaş meydanını tərk etməyib. İgid hərbçi oktyabrın 6-da Ağdərə uğrundakı qanlı döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi 2021-ci il oktyabrın 13-də müəyyən edilərək ailəsinə təhvil verilib. Goranlı kəndində dəfn edilib. Ailəli idi.

**Təltifləri:** *3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2021); "Vətən uğrunda" medalı (2021); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## İLYASOV
## Bəhrəm Nizam oğlu
## (30.11.1998 – 04.10.2020)

Bərdə rayonunun Nəcəfqulubəyli kəndində anadan olub, əslən Kəlbəcərin Bozlu kəndindən idi. Orta təhsilini 2004-2015-ci illərdə Bərdə rayon Yeni Əyricə kənd orta məktəbində alıb. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Beyləqanda xidmət edib. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra yenidən ordu sıralarına yazılmaq üçün könüllü müraciət edib. Həmin ilin avqustunda MAHHXHQ kimi xidmətə başlayıb, təmas xəttində – Ağdamda xidmət edirdi. Bir aydan sonra Vətən müharibəsi başlayanda xidmət etdiyi hərbi hissənin tərkibində ağır döyüşlərə atılıb. Qəhrəman əsgərin Ağdamdan başlayan döyüş yolu Tərtər-Ağdərə cəbhəsi səngərlərindən keçib, bu qanlı döyüşlərdə misilsiz rəşadət göstərib. Talış və Suqovuşan döyüşlərində cəsurluğu və şücaəti ilə seçilib. Oktyabrın 4-də Suqovuşan uğrundakı həlledici döyüşdə igidliklə vuruşaraq şəhadətə ucalıb. Nəşi oktyabrın 13-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Nəcəfqulubəyli kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## İLYASOV
## Fərid İbad oğlu
### (20.07.1999 – 28.10.2020)

Bakıda anadan olub, əslən Laçının Hacılar kəndindən idi. Orta təhsilini 2005-ci ildə Ağcabədidə, Taxtakörpüdə yerləşən Laçın rayon Sadınlar kənd orta məktəbində almağa başlayıb, 2014-cü ildə Bakı şəhəri 306 saylı orta məktəbin IX sinfini bitirib. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində - Beyləqanda xidmət edib. 2019-cu ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini Naxçıvanda XTQ sıralarında MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayandan az sonra döyüşlərə atılaraq rəşadətlə vuruşub. Cəsur əsgərin Füzulidən başlayan döyüş yolu Cəbrayıl və Xocavənd cəbhələrindən keçərək Şuşaya qədər uzanıb, bu qanlı döyüşlərdə igidlik göstərib. Oktyabrın 28-də Şuşa istiqamətindəki qızğın döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. II Fəxri xiyabanda dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021), 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2022).*



## İLYASOV
## Şükür Qənbər oğlu
### (09.01.1991 – 29.09.2020)

Şabran şəhərində anadan olub. Orta təhsilini 1997-2008-ci illərdə Sumqayıt şəhəri 6 saylı orta məktəbdə və Respublika Olimpiya İdman Liseyində alıb. 2009-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Sülhməramlı qüvvələrin tərkibində xidmət edib. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra yenidən ordu sıralarına qayıtmağa qərar verib və sentyabrın 2-dən MAHHXHQ kimi xidmət etməyə başlayıb. Daşkəsəndə xidmət edirdi. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından etibarən cəbhənin Kəlbəcər istiqamətində gedən qanlı döyüşlərə atılaraq misilsiz şücaətlə vuruşub. Murovdağ yüksəklikləri uğrunda gedən şiddətli döyüşlərdə böyük qəhrəmanlıq nümunəsi göstərib, mətinliyi və cəsurluğu ilə seçilib. İgid əsgər sentyabrın 29-da Murovdağ döyüşlərində rəşadətlə vuruşaraq şəhid olub. Şabran şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020).*







## İMAMƏLİYEV
## Elvin Elsevər oğlu
### (09.05.1989 – 09.11.2020)

Ağstafa rayonunun Qırılı kəndində anadan olub. Orta təhsilini 1995-2006-cı illərdə Qırılı kənd orta məktəbində alıb. 2010-cu ildə Azərbaycan Dillər Universitetini bitirib. 2010-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2019-cu ildə Ağstafa şəhər 1 saylı orta məktəbin direktoru təyin olunub. Tovuz döyüşlərindən sonra orduya yazılmaq üçün könüllü müraciət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda cəbhəyə getmək üçün yenidən müraciət edib. Lakin məktəb direktoru olduğuna görə müraciətinə mənfi cavab verilib. Sentyabrın 29-da yenidən müraciət edərək cəbhəyə yola salınmasında israr edib. Qısamüddətli təlimlərdən sonra döyüşlərə atılıb. Füzuli, Cəbrayıl və Xocavənd uğrundakı qanlı vuruşmalarda hünərlə iştirak edib, misilsiz şücaət göstərib. Rəşadətli əsgər noyabrın 9-da Şuşa ətrafındakı qanlı döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Qırılı kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020).*



## İMAMƏLİYEV
## Sərraf Murtuzəli oğlu
### (10.09.1996 - 01.11.2020)

Qusar rayonunun Əniq kəndində anadan olub. Orta təhsilini 2003-2012-ci illərdə Əniq kənd orta məktəbində alıb, təhsilini daha sonra 2012-2014-cü illərdə C.Naxçıvanski adına Hərbi Liseydə davam etdirib. 2014-cü ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2018-ci ildə AAHM-i leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. Ağcabədidə və Beyləqanda xidmət edib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin leytenantı kimi zabit mundirində qarşılayıb. İlk gündən ön cəbhədə olub, düşmənlə ölüm-dirim savaşının getdiyi Füzuli cəbhəsində rəşadətlə vuruşub. Cəsur zabit döyüş yolu Cəbrayıl, Xocavənd, Zəngilan və Qubadlı cəbhələrindən keçərək Şuşa savaşına qədər uzanıb. Bu döyüşlərdə böyük şücaət göstərib. Noyabrın 1-də Xocavəndin Hadrut qəsəbəsi istiqamətindəki qanlı döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Əniq kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020).*



## İMAMOV
## Rəhim Rauf oğlu
### (09.08.1990 - 21.10.2020)

Xaçmaz rayonunun Xaspoladoba kəndində anadan olub. Orta təhsilini 1996-2007-ci illərdə Xaspoladoba kənd və Xaçmaz şəhəri 2 saylı orta məktəblərində alıb. 2008-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, DİN Daxili Qoşunlarında xidmət edib. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına yazılmaq üçün könüllü olaraq müraciət





edib. Həmin il sentyabrın 10-dan MAHHXHQ kimi xidmətə başlayıb. İki həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah savaş meydanlarında qarşılayıb. Müharibənin ilk günündən ön xətdə, döyüş meydanlarında olub, misilsiz rəşadətlə vuruşub. Füzuli, Xocavənd və Cəbrayıl cəbhələrində gedən qanlı vuruşmalarda şücaət göstərib. Qəhrəman əsgər oktyabrın 21-də Füzulinin Gecəgözlü kəndi uğrundakı şiddətli döyüşlərin birində igidliklə vuruşaraq şəhadətə ucalıb. Doğulduğu Xaspoladoba kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## İMAMVERDİYEV
## Elnur Vəfadar oğlu
### (09.01.2001 - 25.10.2020)

Kürdəmir rayonunun Carlı kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Carlı kənd orta məktəbində alıb. 2019-cu ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. XTQ sıralarında xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir xüsusi təyinatlı döyüşçü kimi əldə silah döyüş meydanlarında qarşılayıb, savaşın ilk saatlarından xidmət etdiyi hərbi hissənin tərkibində qızğın döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Füzuli, Xocavənd, Cəbrayıl, Zəngilan və Qubadlı cəbhələrində gedən qanlı döyüşlərdə qəhrəmanlıq və şücaət göstərib, cəsurluğu ilə fərqlənib. İgid əsgər oktyabrın 21-də döyüşlərin birində ağır yaralanıb. Hospitala çatdırılsa da, həkimlərin səylərinə baxmayaraq, həyatını xilas etmək mümkün olmayıb. Oktyabrın 25-də şəhidlik zirvəsinə yüksəlib. Carlı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020); "Azərbaycan Bayrağı" ordeni (2021); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## İMAMVERDİYEV
## Nicat Məhərrəm oğlu
(19.02.1995 – 16.10.2020)

Şəki şəhərində anadan olub. 2010-cu ildə Şəki şəhəri 1 saylı orta məktəbin IX sinfini, 2012-ci ildə isə Şəki Peşə Liseyini bitirib. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və oktyabrın 5-də təlimlərə cəlb olunub. Döyüşlərə düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi Tərtər-Ağdərə cəbhəsində başlayıb, Suqovuşan ətrafındakı qanlı savaşlarda misilsiz igidliklə vuruşub, böyük şücaət və qəhrəmanlıq nümunəsi göstərib. Döyüşlərdə mətinliyi ilə seçilən cəsur əsgərin son savaşı oktyabrın 16-da olub. Həmin gün Ağdərə istiqamətində gedən qızğın döyüşlərin birində rəşadətlə vuruşaraq şəhid olub. Nəşi oktyabrın 22-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Şəki şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## İMANQULİYEV
## Ruslan Natiq oğlu
(14.03.1996 – 02.10.2020)

Sumqayıt şəhərində anadan olub. 2012-ci ildə Sumqayıt şəhəri 22 saylı orta məktəbin IX sinfini bitirib və təhsilini 2012-2015-ci illərdə 1 saylı Sumqayıt Peşə Liseyində davam etdirib. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. DSX Sərhəd Qoşunlarında xidmət edib. 2019-cu ilin dekabrında yenidən Silahlı Qüvvələr sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci ilin sentyabrında





başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk günündən ön xətdə, savaş meydanlarında olub, misilsiz şücaətlə vuruşub. Döyüşlərə Füzuli cəbhəsi səngərlərində başlayıb, bu rayonun azad edilməsi uğrundakı həlledici döyüşlərdə şəxsi igidlik nümunəsi və qəhrəmanlıq göstərib, cəsurluğu ilə fərqlənib. Rəşadətli əsgər oktyabrın 2-də Füzuli cəbhəsində gedən qanlı döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## İMANOV
## Bayrı Mirzə oğlu
(05.02.1996 – 12.11.2020)

Salyan rayonunun Qaraçala kəndində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Qaraçala kənd orta məktəbində və Bakıdakı Humanitar Fənlər Təmayüllü Respublika Gimnaziyasında alıb. 2018-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasını bitirib. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində - Ağcabədi və Cəbrayılda xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində yenidən ordu sıralarına çağırılıb. Döyüşlərə sentyabrın 29-da Cəbrayıl cəbhəsində başlayan igid əsgər Xocavənd və Şuşa uğrundakı qanlı savaşlarda misilsiz rəşadətlə vuruşub, şücaət göstərib. Noyabrın 5-də qəhrəmancasına vuruşduğu Şuşa döyüşləri zamanı ağır yaralanıb. Həkimlərin səylərinə baxmayaraq, həyatını xilas etmək mümkün olmayıb. Noyabrın 12-də şəhidlik məqamına yüksəlib. Qaraçala kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## İMANOV
## Ənvər Emil oğlu
(11.01.1999 – 28.10.2020)

Sumqayıtda anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Sumqayıt şəhəri 41 saylı orta məktəbdə alıb. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, xidmətini cəbhə bölgəsində – Tovuzda başa vurub. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk saatlarından savaş meydanlarında olub, misilsiz rəşadətlə vuruşub. Cəbhənin Füzuli, Cəbrayıl və Xocavənd istiqamətlərində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında hünərlə iştirak edib, bu qanlı döyüşlərdə şücaət göstərib. Qəhrəman əsgərin son savaşı oktyabrın 28-də olub. Həmin gün Xocavənd cəbhəsindəki şiddətli döyüşlərin birində igidliklə vuruşaraq şəhadətə ucalıb. Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021).*



## İMANOV
## Məmmədağa İqab oğlu
(04.04.2001 – 04.10.2020)

Neftçala rayonunun Dalğalı kəndində anadan olub. 2018-ci ildə Neftçala rayon Mirzəqurbanlı kənd orta məktəbini bitirib. 2019-cu ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə bölgəsində – Beyləqanda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini XTQ əsgəri kimi əldə silah savaş meydanlarında qarşılayıb. İlk gündən səngərlərdə olub, qanlı döyüşlərə atılaraq qəhrəmancasına vuruşub. Cəbhənin Füzuli, Xocavənd və Cəbrayıl istiqamətlərində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında rəşadətlə döyüşüb, hünər göstərib. Cəsur əsgər oktyabrın 4-də Xocavənd cəbhəsində gedən qanlı döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi 2021-ci il mayın 31-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Neftçala şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Xocavəndin azad olunmasına görə" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021); "Vətən uğrunda" medalı (2021).*







## İMANOV
## Səməndər İsaxan oğlu
(20.03.1998 – 21.10.2020)

Salyan rayonunun Kürsəngi kəndində anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Kürsəngi kənd orta məktəbində alıb. 2019-cu ildə Gəncə Dövlət Universitetini bitirib. 2019-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Goranboyda xidmət edib. Tərxis olunandan iki ay sonra – 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah savaş meydanlarında qarşılayıb. Müharibənin ilk günündən xidmət etdiyi hərbi hissənin tərkibində Füzuli cəbhəsindəki qanlı döyüşlərə atılıb, şücaətlə vuruşub. Arazboyu məntəqələrin və Cəbrayılın azad olunmasında qəhrəmanlıq göstərib. İgid əsgər oktyabrın 21-də Cəbrayıl cəbhəsində, Xudafərin körpüsü ətrafında gedən şiddətli döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Kürsəngi kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## İMANZADƏ
## Ayaz Daşqın oğlu
### (03.12.1996 – 02.10.2020)

Neftçala şəhərində anadan olub. Orta təhsilini 2004-2013-cü illərdə Neftçala şəhəri 1 saylı orta məktəbdə, 2013-2015-ci illərdə isə C.Naxçıvanski adına Hərbi Liseydə alıb. 2015-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2019-cu ildə AAHM-i leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. Sonuncu xidmət yeri təmas xəttində – Füzulidə idi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin leytenantı kimi zabit mundirində qarşılayıb, ilk gündən Füzuli cəbhəsində düşmənlə ölüm-dirim savaşına atılaraq misilsiz igidliklə vuruşub. Həlledici döyüşlərdə müstəsna qəhrəmanlıq nümunəsi və şücaət göstərən rəşadətli zabit oktyabrın 2-də Füzulinin Əbdürrəhmanlı kəndi uğrundakı qanlı döyüşlərdə hünərlə vuruşaraq şəhadətə qovuşub. Neftçala şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "İgidliyə görə" medalı (2021).*



## İMANZADƏ
## Hilal Sabir oğlu
### (23.06.1995 – 01.10.2020)

Beyləqan rayonunun Mil qəsəbəsində anadan olub. Orta təhsilini 2001-2012-ci illərdə Beyləqan rayon Araz qəsəbə və Bakı şəhəri 215 saylı orta məktəblərdə alıb. 2013-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, DSX Sərhəd Qoşunlarının xüsusi təyinatlı dəstəsində xidmət edib. 2016-cı ildə yenidən Silahlı Qüvvələr sıralarına qayıdıb və DİN Daxili





Qoşunlarında MAHHXHQ kimi xidmətə başlayıb. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini DİN Daxili Qoşunlarının çavuşu kimi əldə silah savaş meydanlarında qarşılayıb, ilk gündən ön xətdə olub, misilsiz rəşadətlə vuruşub. Cəsur döyüşçü cəbhənin Cəbrayıl və Füzuli istiqamətlərində həyata keçirilən əks-hücum əməliyyatlarında hünərlə iştirak edib, bu qanlı vuruşmalarda şəxsi igidlik nümunəsi və şücaət göstərib. Oktyabrın 1-də Cəbrayıl ərazisindəki strateji yüksəkliklər uğrunda gedən şiddətli döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Beyləqan şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020).*



## İRAPOV
## İsmayıl Nəsrulla oğlu
### (23.02.2002 – 02.10.2020)

Zaqatala rayonunun Əliabad qəsəbəsində anadan olub. Orta təhsilini 2008-ci ildə Əliabad qəsəbəsi 1 saylı orta məktəbdə almağa başlayıb, 2017-ci ildə həmin məktəbin IX sinfini, daha sonra isə SHXÇDX-nin xətti ilə sürücülük məktəbini bitirib. 2020-ci ilin aprelində Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə bölgəsində – Füzulidə düşmənlə üzbəüz mövqedə xidmət edirdi. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk saatlarından ön xətdə, savaş meydanlarında olub, xidmət etdiyi hərbi hissənin tərkibində cəbhənin Füzuli istiqamətində düşmənlə amansız döyüşlərə atılıb, bu şiddətli savaşlarda misilsiz rəşadət göstərib, öz hünəri və cəsurluğu ilə xüsusi fərqlənib. Qəhrəman əsgər oktyabrın 2-də Füzuli cəbhəsində gedən qanlı döyüşlərin birində igidliklə vuruşaraq şəhadətə ucalıb. Doğulub boya-başa çatdığı Əliabad qəsəbəsində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## İSAXLI
## Anar Rəsul oğlu
## (30.05.1997 – 20.10.2020)

Tərtər rayonunun Cəmilli kəndində anadan olub. Orta təhsilini 2003-2014-cü illərdə Cəmilli kənd orta məktəbində alıb. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2019-cu ildən MAHHXHQ kimi davam etdirməyə başlayıb, cəbhə bölgəsində – Tərtərdə xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah savaş meydanlarında qarşılayıb. İlk gündən Kəlbəcər cəbhəsindəki qanlı döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub, daha sonra Talış və Suqovuşan istiqamətlərindəki qızğın döyüşlərdə hünərlə iştirak edərək qəhrəmanlıq göstərib. Oktyabrın 9-da Tərtər-Ağdərə cəbhəsindəki döyüşlərin birində yaralanıb. Hospitalda müalicə olunandan sonra evə qısamüddətli məzuniyyətə buraxılıb. Oktyabrın 20-də Cəmilli kəndindəki evlərinin düşmən tərəfindən ağır artilleriya atəşinə tutulması nəticəsində şəhid olub. Cəmilli kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## İSAYEV
## Alik Şakir oğlu
## (23.02.2001 – 21.10.2020)

Xızı rayonunun Giləzi qəsəbəsində anadan olub, əslən Borçalı mahalından idi. Orta təhsilini 2007-2018-ci illərdə Xızı şəhəri 1 saylı orta məktəbdə alıb. 2019-cu ilin aprelində Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Xidmət dövründə XTQ sıralarına cəlb edilib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayan gündən ön xətdə olub, XTQ-nin tərkibində həlledici döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Döyüşlərə Füzuli cəbhəsində başlayıb, daha sonra Cəbrayıl, Xocavənd və Zəngilanın azad olunması uğrundakı qanlı vuruşmalarda hünərlə iştirak edərək müstəsna qəhrəmanlıq nümunələri göstərib. İgid xüsusi təyinatlı əsgər oktyabrın 21-də Şuşa istiqamətində gedən şiddətli döyüşlərin birində şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Xızı şəhərində dəfn edilib. Subay idi.





**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Azərbaycan Bayrağı" ordeni (2021); "Füzulinin azad olunmasına görə" medalı (2021).*

## İSAYEV
## Ceyhun Rüstəm oğlu
## (26.10.2001 – 26.10.2020)



Quba rayonunun Gültəpə kəndində anadan olub. Orta təhsilini 2008-2019-cu illərdə Quba rayon Gültəpə, Tüləkəran və Alekseyevka kənd orta məktəblərində alıb. 2019-cu ildə Quba Tibb Kollecinə daxil olub. Lakin 2019-cu ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırıldığı üçün təhsilini yarımçıq qoyub. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən ön xətdə olub, Tərtər-Ağdərə cəbhəsindəki qızğın döyüşlərə atılaraq igidliklə vuruşub. Talış və Suqovuşan döyüşlərində böyük şücaət göstərib. Daha sonra cəbhənin Füzuli, Zəngilan və Şuşa istiqamətlərində gedən qanlı döyüşlərdə hünərlə iştirak edib. Cəsur əsgərin son savaşı oktyabrın 26-da olub. Həmin gün Füzuli cəbhəsindəki şiddətli döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Gültəpə kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## İSAYEV
## Rahət Rafət oğlu
**(26.12.2000 – 03.11.2020)**

Biləsuvar rayonunun Əliabad kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Əliabad kənd orta məktəbində alıb. 2018-ci ildə Sabirabad Dövlət Sosial-İqtisad Kollecinə qəbul olunub. 2019-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində – Murovdağda düşmənlə üzbəüz mövqedə xidmət edib. 2020-ci ilin iyulunda tərxis olunub. Həmin il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılaraq təlimlərə cəlb edilib. Bir həftədən sonra başlayan Vətən müharibəsini əldə silah səngərlərdə qarşılayıb, Füzuli cəbhəsində düşmənlə amansız savaşa atılaraq qəhrəmancasına vuruşub. Xocavənd uğrundakı həlledici döyüşlərdə misilsiz şücaət göstərib, cəsurluğu ilə xüsusi fərqlənib. Rəşadətli əsgər noyabrın 3-də Xocavənd cəbhəsindəki qanlı döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Nəşi noyabrın 17-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Əliabad kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021), 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2022).*



## İSAYEV
## Təbriz İsabala oğlu
**(12.03.1993 – 10.10.2020)**

Cəlilabad rayonunun Bacırəvan kəndində anadan olub. Orta təhsilini 1999-2010-cu illərdə Bacırəvan və Kövüzbulaq kənd orta məktəblərində alıb. 2011-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2014-cü ildə MAHHXHQ kimi yenidən orduya qayıdıb. XTQ sıralarında kiçik gizir rütbəsində xidmət edirdi. 2016-cı il Aprel döyüşlərində şücaət göstərib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini səngərlərdə qarşılayıb, Murovdağda igidliklə döyüşüb, burada yaralanıb, lakin hospitalda müalicəsini yarımçıq qoyaraq cəbhəyə qayıdıb. İgid döyüşçü Füzuli və Cəbrayıl uğrundakı həlledici vuruşmalarda rəşadət göstərib. Hadrut uğrunda döyüşdə hünəri ilə fərqlənib. Oktyabrın 10-da Hadrut ətrafındakı qanlı döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Bacırəvan kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.





**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021); "Azərbaycan Bayrağı" ordeni (2021); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## İSAYEV
## Toğrul Natiq oğlu
**(25.12.1996 – 01.10.2020)**

Bərdə şəhərində anadan olub, əslən Füzuli rayonunun Aybasanlı kəndindən idi. 2012-ci ildə Bakı şəhəri 10 saylı orta məktəbin IX sinfini bitirib, təhsilini Bakı Kompüter Liseyində davam etdirib. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2017-ci ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini çavuş rütbəsində MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən ön xətdə, savaş meydanlarında olub, düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq rəşadətlə vuruşub. Qəhrəman döyüşçü cəbhənin əsasən Füzuli rayonu istiqamətində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında hünərlə iştirak edib, bu qanlı vuruşmalarda rəşadət göstərib, şücaəti və cəsurluğu ilə xüsusi seçilib. Oktyabrın 1-də Füzuli cəbhəsində gedən şiddətli döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. II Fəxri xiyabanda dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## İSAYEV
## Tural Saləddin oğlu
### (11.04.1992 – 27.09.2020)

Siyəzən rayonunun Gilgilçay qəsəbəsində anadan olub. Orta təhsilini 1998-2009-cu illərdə Siyəzən rayon Yenikənd kənd orta məktəbində alıb. 2010-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2017-ci ilin yanvarında yenidən ordu sıralarına qayıdıb və xidmətini çavuş rütbəsində MAHHXHQ kimi davam etdirməyə başlayıb. Təmas xəttində - Füzulidə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir hərbçi kimi əldə silah savaş meydanlarında qarşılayıb, qəhrəmancasına vuruşub. Cəsur döyüşçü Füzuli cəbhəsində düşmənin birinci xəttinin yarılmasında misilsiz rəşadət göstərib. Müharibənin elə ilk günü - sentyabrın 27-də Füzuli cəbhəsində gedən qanlı döyüşlərdə şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi 2021-ci il yanvarın 31-də müəyyən edilərək ailəsinə təhvil verilib. Gilgilçay qəsəbəsində dəfn olunub. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Füzulinin azad olunmasına görə" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021); "Vətən uğrunda" medalı (2021).*



## İSAYEV
## Vüsal Firdovsi oğlu
### (05.04.1983 – 05.10.2020)

Yevlax rayonunun Yuxarı Salamabad kəndində anadan olub. Orta təhsilini 1989-2000-ci illərdə Yuxarı Salamabad kənd orta məktəbində alıb. 2001-2002-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Ağdam Dövlət Sosial-İqtisadi Kollecini bitirib. 2014-cü ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini kiçik çavuş rütbəsində MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən





müharibəsini əldə silah səngərlərdə qarşılayıb, ilk gündən düşmənlə amansız döyüşlərə atılaraq qəhrəmancasına vuruşub. Tərtər-Ağdərə cəbhəsində gedən qanlı döyüşlərdə rəşadət və cəsurluq göstərib. İgid hərbçi oktyabrın 5-də Talış kəndi istiqamətindəki qızğın döyüşlərin birində yaralansa da, savaş meydanından geri çəkilməyib. Elə həmin şiddətli döyüşdə misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Yevlax şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## İSAZADƏ
## Səfa Əmirxan oğlu
### (17.05.1999 – 14.10.2020)

Oğuz rayonunun Xaçmaz kəndində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Xaçmaz kənd 2 saylı orta məktəbində alıb. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və sentyabrın 29-da cəbhəyə yollanıb. Müharibənin ilk günlərindən cəbhənin Tərtər-Ağdərə istiqamətində düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq şücaətlə vuruşub. Talış kəndinin və Suqovuşanın azad olunması uğrundakı qızğın döyüşlərdə misilsiz qəhrəmanlıq nümunəsi göstərib, cəsurluğu və igidliyi ilə seçilib. Rəşadətli əsgərin son savaşı oktyabrın 14-də olub. Həmin gün Ağdərə istiqamətində gedən şiddətli döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Xaçmaz kənd məzarlığındakı Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## İSGƏNDƏRLİ
### Səbuhi Yaşar oğlu
### (25.06.2001 – 22.10.2020)

Tərtər şəhərində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Şəki şəhəri 11, 12 və 18 saylı orta məktəblərdə alıb. 2019-cu ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, DSX Sərhəd Qoşunlarının çevik hərəkət qüvvələri tərkibində xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah savaş meydanlarında qarşılayıb. İlk gündən ön xətdə, qanlı döyüşlərin getdiyi Ağdam cəbhəsi səngərlərində olub, misilsiz rəşadətlə vuruşub. Daha sonra Zəngilan cəbhəsindəki həlledici vuruşmalarda hünərlə iştirak edib, bu döyüşlərdə şücaəti və mətinliyi ilə xüsusi fərqlənib. Zəngilanın azad olunması uğrundakı şiddətli döyüşlərdə şəxsi igidlik nümunəsi göstərib. Cəsur əsgər oktyabrın 22-də Zəngilanın Vejnəli kəndinin azad olunması uğrunda gedən qızğın döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Şəkinin "Dovşan düzü" məzarlığında salınmış Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Zəngilanın azad olunmasına görə" medalı (2020).*



## İSGƏNDƏROV
### Arzu Seymur oğlu
### (27.10.1988 – 13.11.2020)

Şəmkir rayonunun Zəyəm qəsəbəsində anadan olub. 2002-ci ildə Zəyəm qəsəbə orta məktəbinin IX sinfini bitirib, təhsilini 2003-2006-cı illərdə C.Naxçıvanski adına Hərbi Liseydə davam etdirib. 2006-cı ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2010-cu ildə AAHM-i leytenant rütbəsində bitirərək SQ TTM-də kurs keçib. 2011-ci ildə zabit kimi xidmətə başlayıb. Cəbhə bölgəsində - Tərtər, Bərdə, Gəncə, Goranboy, Ağdam və Füzulidə xidmət edib.





2016-cı il Aprel döyüşlərində böyük şücaət göstərib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kapitanı kimi zabit mundirində qarşılayıb, ilk gündən ön cəbhədə olub, rəşadətlə döyüşüb. İgid zabitin döyüş yolu Füzuli cəbhəsi səngərlərindən başlayaraq Şuşa uğrundakı həlledici savaşa qədər davam edib. Şuşa döyüşlərində hünərlə iştirak edib. Noyabrın 13-də Xocavənd rayonunda növbəti döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhadətə ucalıb. Nəşi dekabrın 5-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Zəyəm qəsəbəsində dəfn olunub. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## İSGƏNDƏROV
### Bəhruz Abbas oğlu
### (29.11.1986 – 29.10.2020)

Gəncə şəhərində anadan olub. 2002-ci ildə Gəncə şəhəri 17 saylı orta məktəbin IX sinfini, daha sonra Gəncə Texniki Kollecini bitirib. 2006-2007-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2015-ci ildə Azərbaycan Sülhməramlı Qüvvələri tərkibində MAHHXHQ kimi xidmətə başlayıb. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kiçik çavuşu kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən düşmənlə amansız döyüşlərə atılaraq hünərlə vuruşub. Tərtər-Ağdərə, Füzuli, Xocavənd, Cəbrayıl, Qubadlı və Laçın cəbhələrindəki ağır döyüşlərdə misilsiz rəşadət göstərib, Suqovuşan və Hadrut döyüşlərində cəsurluğu ilə seçilib. İgid hərbçi oktyabrın 29-da Laçın cəbhəsindəki qanlı döyüşlərin birində şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Gəncə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020).*



## İSGƏNDƏROV
## Elvin Akif oğlu
### (14.08.1988 – 05.10.2020)

Şabran şəhərində anadan olub. Orta təhsilini 1994-2005-ci illərdə Şabran şəhəri 2 saylı orta məktəbdə alıb. 2006-2008-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2009-cu ildə yenidən ordu sıralarına qayıdıb və SQ TTM-də kurs keçərək çavuş rütbəsində MAHHXHQ kimi xidmətə başlayıb. 2010-cu ildə XTQ kursunu bitirib. 2011-ci ildə kiçik gizir, 2013-cü ildə gizir rütbəsi alıb. 2016-cı il Aprel döyüşlərində hünərlə vuruşub. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini XTQ döyüşçüsü kimi səngərlərdə qarşılayıb. Kəlbəcər, Tərtər-Ağdərə, Füzuli, Xocavənd və Cəbrayıl cəbhələrindəki qanlı döyüşlərdə müstəsna qəhrəmanlıq nümunələri göstərib. Cəsur xüsusi təyinatlı oktyabrın 5-də Cəbrayıl uğrundakı qızğın döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Şabran şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Azərbaycan Bayrağı" ordeni (2021).*



## İSGƏNDƏROV
## Emil Vaqif oğlu
### (05.08.1990 – 05.11.2020)

Sumqayıtda anadan olub, əslən Qubadlının Çardaqlı kəndindən idi. Orta təhsilini 1996-2007-ci illərdə Sumqayıt şəhəri 10 saylı orta məktəbdə alıb. 2008-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2012-ci ildə Silahlı Qüvvələr sıralarına qayıdıb və xidmətini DİN Daxili Qoşunlarında MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2015-ci ildə Daxili





Qoşunların Ali Hərbi Məktəbində gizir hazırlığı kursu keçərək gizir rütbəsi alıb. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini əldə silah səngərlərdə qarşılayıb, ilk gündən qızğın döyüşlərə atılaraq igidliklə vuruşub. Cəbhənin Füzuli, Xocavənd və Cəbrayıl istiqamətlərində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında şücaətlə iştirak edib. Rəşadətli döyüşçü daha sonra Şuşa istiqamətində gedən qanlı döyüşlərdə qəhrəmanlıq göstərib. Noyabrın 4-də Şuşa uğrundakı şiddətli döyüşlərin birində hünərlə vuruşaraq ağır yaralanıb, noyabrın 5-də şəhadətə qovuşub. Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020).*



## İSGƏNDƏROV
## Əlzamin Həmid oğlu
### (06.12.1977 – 04.11.2020)

Beyləqan rayonunun Milabad qəsəbəsində anadan olub. 1994-cü ildə Milabad qəsəbə orta məktəbini bitirib. 1996-cı ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, 1999-cu ilədək Müdafiə nazirinin mühafizə xidmətində qulluq edib. 2006-cı ildə çavuş rütbəsində MAHHXHQ kimi xidmətə başlayıb. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin çavuşu kimi əldə silah savaş meydanlarında qarşılayıb. İlk gündən Füzuli cəbhəsində şiddətli döyüşlərə atılaraq rəşadətlə vuruşub. Xocavənd, Qubadlı və Şuşa döyüşlərində misilsiz şücaət göstərib. İgid kəşfiyyatçı müharibə ərzində üç dəfə yaralanıb, hər dəfə də müalicədən sonra ön xəttə qayıdaraq döyüşlərə atılıb. Noyabrın 4-də Daşaltı ətrafında gedən qanlı döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Milabad qəsəbəsində dəfn edilib. Ailəli idi, dörd övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## İSGƏNDƏROV
## Əsəd Bəybala oğlu
### (27.10.1990 – 02.10.2020)

Göygöl rayonunun Topalhəsənli kəndində anadan olub. Orta təhsilini 1997-2008-ci illərdə Göygöl şəhəri 4 saylı orta məktəbdə alıb. 2008-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində - Füzulidə xidmət edib. Tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2010-cu ildən MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2013-cü ildə SQ TTM-də gizir hazırlığı kursu keçərək xidmətini Ağcabədidə davam etdirib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin giziri kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən Füzuli cəbhəsinin savaş meydanlarında olub, rəşadətlə vuruşub. Qəhrəman hərbçi bu qızğın döyüşlərdə şücaət göstərib, mətinliyi və cəsurluğu ilə fərqlənib. Oktyabrın 2-də Füzuli rayonunun Şükürbəyli kəndi ətrafında gedən şiddətli döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Göygöl şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## İSGƏNDƏROV
## İlkin Camal oğlu
### (18.03.1999 – 25.10.2020)

Sumqayıtda anadan olub, əslən Qubadlıdan idi. Orta təhsilini 2005-2016-cı illərdə Sumqayıt şəhərində yerləşən Qubadlı rayon Kavdadıq kənd orta məktəbində alıb. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb edilib. Bir həftədən sonra başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin çavuşu kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk günündən düşmənlə ölüm-dirim çarpışmasının getdiyi Füzuli cəbhəsindəki qanlı döyüşlərə atılaraq misilsiz igidliklə vuruşub. Cəbrayılın azad olunması uğrunda gedən həlledici döyüşlərdə böyük hünər göstərib. Cəsur döyüşçünün son savaşı oktyabrın 25-də olub. Həmin gün Cəbrayıl istiqamətində gedən qızğın döyüşlərin birində şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*







## İSGƏNDƏROV
## Mikayıl Vəkil oğlu
### (10.02.1997 – 02.10.2020)

Göygöl rayonunun Topalhəsənli kəndində anadan olub. Orta təhsilini 2003-2014-cü illərdə Topalhəsənli kənd orta məktəbində alıb. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci ilin martında yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Təmas xəttində - Murovdağda düşmənlə üzbəüz mövqedə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı ilk saatlardan etibarən Kəlbəcər cəbhəsində şiddətli döyüşlərə atılaraq qəhrəmancasına vuruşub. Murovdağ yüksəklikləri uğrundakı qanlı döyüşlərdə böyük şücaət göstərib, mətinliyi və cəsurluğu ilə seçilib. İgid əsgər oktyabrın 2-də Kəlbəcər-Ağdərə istiqamətində gedən qızğın döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhadətə ucalıb. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi 2021-ci il yanvarın 14-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Doğulub boya-başa çatdığı Topalhəsənli kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2021); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021).*



## İSGƏNDƏROV
## Niyaməddin Qulu oğlu
(06.12.1985 – 29.10.2020)

Naxçıvan MR Kəngərli rayonunun Xok kəndində anadan olub. Orta təhsilini 1992-2003-cü illərdə Xok kənd orta məktəbində alıb. 2004-2005-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan az sonra yenidən Silahlı Qüvvələr sıralarına qayıdıb və DİN Daxili Qoşunlarında MAHHXHQ kimi xidmət etməyə başlayıb. Bir müddətdən sonra xidmətini Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun Quru Qoşunları sıralarında davam etdirib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsi zamanı cəbhəyə göndərilib. Füzuli, Cəbrayıl, Xocavənd və Qubadlı uğrundakı qanlı döyüşlərdə şücaətlə iştirak edib. Rəşadətli əsgərin son döyüşü oktyabrın 29-da olub. Həmin gün Xocavənd cəbhəsindəki şiddətli döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 21-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Xok kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## İSGƏNDƏROV
## Niyazi Şahvələd oğlu
(13.10.1982 – 05.10.2020)

Qərbi Azərbaycanın Çaykənd kəndində anadan olub. Azərbaycanlılar 1987-1988-ci illərdə Ermənistan tərəfindən deportasiya edildiyinə görə ailəsi Mingəçevirdə məskunlaşıb. Orta təhsilini 1990-2000-ci illərdə Mingəçevir şəhər 8 saylı orta məktəbdə və Mingəçevir Peşə Məktəbində alıb. 2000-2002-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub.





2014-cü ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin çavuşu kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən ön xətdə olub, Goranboyun Tapqaraqoyunlu kəndi istiqamətində döyüşlərə atılaraq igidliklə vuruşub. Tərtər-Ağdərə cəbhəsindəki qanlı döyüşlərdə şücaət göstərib. Qəhrəman hərbçi oktyabrın 5-də Suqovuşan ətrafındakı şiddətli döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Mingəçevir şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## İSGƏNDƏROV
## Pərvin Pərviz oğlu
(25.06.1995 – 13.10.2020)

Qazax rayonunun Xanlıqlar kəndində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Xanlıqlar kənd orta məktəbində alıb. 2013-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2015-ci ildən çavuş rütbəsində MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir hərbçi kimi əldə silah savaş meydanlarında qarşılayıb, ilk gündən Cəbrayıl cəbhəsindəki şiddətli döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Xocavənd uğrundakı həlledici döyüşlərdə böyük hünər göstərib. Hadrut və Füzuli döyüşlərində öz igidliyi və qorxmazlığı ilə xüsusi fərqlənib. Cəsur hərbçi oktyabrın 13-də Füzuli cəbhəsində gedən qanlı döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Ağstafa rayonunun Qarahəsənli kəndində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## İSGƏNDƏROV
## Səməndər Vahid oğlu
(23.02.1996 – 07.11.2020)

Masallı rayonunun Sərçuvar kəndində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Sərçuvar kənd orta məktəbində alıb. 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində – Ağdamda xidmət edib. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah döyüş meydanlarında qarşılayıb, ilk gündən Füzuli cəbhəsində düşmənlə ölüm-dirim çarpışmasına atılaraq misilsiz rəşadətlə vuruşub. Hadrut uğrundakı qanlı döyüşlərdə şücaət göstərib. Cəbrayıl və Şuşa istiqamətlərindəki vuruşmalarda hünərlə iştirak edib. Qəhrəman əsgər noyabrın 7-də Şuşa uğrunda gedən şiddətli döyüşlərdə misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Doğulduğu Sərçuvar kəndində dəfn edilib. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## İSGƏNDƏROV
## Şahmurad Natiq oğlu
(17.12.1996 – 17.11.2020)

Şamaxı rayonunun Göylər kəndində anadan olub. 2012-ci ildə Göylər kənd 1 saylı orta məktəbin IX sinfini bitirib, təhsilini daha sonra Şamaxı Humanitar Kollecində davam etdirib. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində sentyabrın 29-da yenidən ordu sıralarına çağırılıb.





İgid əsgərin döyüş yolu Tərtər-Ağdərə cəbhəsindən başlayıb, Talış və Suqovuşanın azadlığı uğrundakı qanlı vuruşmalarda misilsiz rəşadət göstərib. Ağdərə istiqamətində gedən həlledici döyüşlərdə qəhrəmanlığı və cəsurluğu ilə xüsusi fərqlənib. Oktyabrın 16-da Ağdərə uğrundakı qızğın döyüşlərin birində ağır yaralanaraq hospitala çatdırılıb. Uzun müddət müalicə alsa da, həkimlərin bütün səylərinə baxmayaraq, həyatını xilas etmək mümkün olmayıb. Noyabrın 17-də şəhadətə qovuşub. Göylər kəndində dəfn edilib. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## İSGƏNDƏROV
## Vüsal Asdan oğlu
(10.09.1998 – 29.09.2020)

Bərdə rayonunun Nifçi kəndində anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Bərdə rayon Çələbilər kənd orta məktəbində alıb. 2016-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Beyləqanda xidmət edib. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına yazılmaq üçün könüllü olaraq müraciət edib. 2020-ci ilin avqustunda MAHHXHQ kimi xidmətə başlayıb. Bir aydan sonra başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Goranboy rayonunun Tapqaraqoyunlu və Gülüstan kəndləri istiqamətində düşmənlə ölüm-dirim savaşına atılaraq igidliklə vuruşub. Tərtər-Ağdərə cəbhəsindəki vuruşmalarda hünərlə iştirak edib, Talış və Suqovuşan döyüşlərində qəhrəmanlıq göstərib. Rəşadətli əsgər sentyabrın 29-da Talış istiqamətində gedən qızğın döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Doğulduğu Nifçi kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## İSİZADƏ
## Elvin Azim oğlu
## (04.09.2001 – 26.10.2020)

Ağdam rayonunun Qaradağlı kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Qaradağlı kənd orta məktəbində alıb, eyni zamanda Qaradağlı kənd Musiqi Məktəbini bitirib. 2018-ci ildə Azərbaycan Milli Konservatoriyası nəzdindəki Musiqi Kollecinə qəbul olunub. 2019-cu ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb və kollec təhsilini yarımçıq qoyaraq hərbi xidmətə gedib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah savaş meydanlarında qarşılayıb, ilk gündən ön xətdə olub, xidmət etdiyi hərbi hissənin tərkibində ağır döyüşlərə atılaraq hünərlə vuruşub. Döyüş yolu Füzuli, Cəbrayıl, Qubadlı və Xocavənd cəbhələri səngərlərindən keçib, bu rayonlar uğrundakı qızğın döyüşlərdə şəxsi igidlik nümunəsi və şücaət göstərib. Cəsur əsgər oktyabrın 26-da Füzuli cəbhəsində gedən şiddətli döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Ağdamın Quzanlı qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020).*



## İSKƏNDƏRLİ
## Kamran Yaşar oğlu
## (29.06.1997 – 21.10.2020)

Cəlilabad şəhərində anadan olub. Orta təhsilini 2003-2014-cü illərdə Cəlilabad şəhər 1 saylı orta məktəbdə alıb. 2014-cü ildə Azərbaycan Texniki Universitetinə daxil olub, 2018-ci ildə ali təhsilini başa vurub. 2019-cu ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kim əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk günündən döyüş meydanlarında olub, misilsiz rəşadətlə vuruşub. Döyüşlərə Füzuli cəbhəsində başlayıb. Daha sonra cəbhənin Xocavənd, Cəbrayıl, Zəngilan və Qubadlı istiqamətlərində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında mətinliklə iştirak edib, bu rayonların azad olunması uğrundakı qızğın döyüşlərdə böyük şücaət göstərib, cəsurluğu ilə seçilib. Qəhrəman əsgərin son döyüşü oktyabrın 21-də olub. Həmin gün Füzuli cəbhəsində gedən qanlı döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Cəlilabad şəhərində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020).*







## İSKƏNDƏROV
## Anar Vahid oğlu
## (29.08.2001 – 05.10.2020)

Rusiyanın Moskva şəhərində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Bakı şəhəri 220 saylı və Xırdalan şəhəri 5 saylı orta məktəblərdə alıb. 2018-ci ildə Bakı Avrasiya Universitetinə daxil olub. 2019-cu ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, XTQ sıralarında xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini xüsusi təyinatlı əsgər kimi əldə silah savaş meydanlarında qarşılayıb, ilk gündən ön xətdə olub, misilsiz rəşadətlə vuruşub. Döyüş yolu Kəlbəcər cəbhəsindən başlayıb, Murovdağ döyüşlərində hünər göstərib. Sonra Füzuli və Cəbrayıl cəbhələrindəki həlledici savaşlarda iştirak edib, bu rayonların azadlığı uğrunda şücaətlə döyüşüb. İgid əsgər oktyabrın 5-də Füzuli cəbhəsindəki qızğın döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Nəşi oktyabrın 21-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Xırdalan şəhərində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021); "Azərbaycan Bayrağı" ordeni (2021).*



## İSKƏNDƏROV
## Elvin Mətləb oğlu
### (06.11.1989 – 27.09.2020)

Yevlax rayonunun Tanrıqulular kəndində anadan olub. 2007-ci ildə Tanrıqulular kənd orta məktəbini bitirib. 2008-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə xəttində – Qazaxda xidmət edib. 2015-ci ildə yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. 2016 və 2020-ci illərdə xüsusi kurslarda iştirak edib, gizir rütbəsi alıb, Tərtərdə xidmət edirdi. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayanda xidmət etdiyi hərbi hissənin tərkibində Tərtər-Ağdərə cəbhəsində düşmənlə ölüm-dirim savaşına atılıb, Talış və Suqovuşan uğrunda qəhrəmancasına vuruşub. Rəşadətli hərbçi sentyabrın 27-də Talış kəndi uğrundakı qanlı döyüşlərdə misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Doğulduğu Tanrıqulular kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020).*



## İSKƏNDƏROV
## Əhmədağa Novruz oğlu
### (20.09.1989 – 07.10.2020)

Bakıda anadan olub. Orta təhsilini 1996-2007-ci illərdə Bakı şəhəri 82 saylı pilot-orta məktəbində alıb. 2011-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetini bitirib. 2011-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Mingəçevirdə xidmət edib. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini Silahlı





Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən ön xətdə, savaş meydanlarında olub, igidliklə döyüşüb. Cəbhənin Füzuli, Cəbrayıl və Xocavənd istiqamətlərində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında hünərlə iştirak edib, Hadrut uğrundakı şiddətli döyüşlərdə misilsiz rəşadət göstərib. Cəsur əsgər oktyabrın 7-də Füzuli cəbhəsində gedən qızğın döyüşlərin birində şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Bakının Kürdəxanı kəndində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020).*



## İSKƏNDƏROV
## Şahin Ziyad oğlu
### (21.08.2001 – 10.10.2020)

Zaqatala rayonunun Qandax kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Qandax kənd orta məktəbində alıb. 2019-cu ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, xüsusi təyinatlı dəstədə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb. Cəbhənin Ağdam, Tərtər-Ağdərə, Kəlbəcər, Cəbrayıl və Füzuli istiqamətlərində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında xüsusi igidliklə iştirak edib. Cəbrayıl və Füzuli cəbhələrində gedən qanlı döyüşlərdə misilsiz şücaət göstərib. Qəhrəman əsgər oktyabrın 8-də Cəbrayıl uğrundakı şiddətli döyüşlərin birində ağır yaralanıb. Hospitala çatdırılsa da, həyatını xilas etmək mümkün olmayıb. Oktyabrın 10-da şəhadətə qovuşub. Doğulduğu Qandax kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Azərbaycan Bayrağı" ordeni (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021).*



## İSLAMLI
## Ruhid Uğur oğlu
### (01.04.1999 - 06.10.2020)

Lerik rayonunun Çeşman kəndində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Bakının Xətai rayonundakı humanitar fənlər təmayüllü məktəb-liseydə və Bakı şəhəri Dədə Qorqud qəsəbəsindəki 315 saylı orta məktəbdə alıb. 2020-ci ildə Naxçıvan Müəllimlər İnstitutunu bitirib. Həmin ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə bölgəsində - Goranboyda xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən Kəlbəcər cəbhəsində düşmənlə ölüm-dirim çarpışmasına atılaraq misilsiz rəşadətlə vuruşub, Murovdağ döyüşlərində qəhrəmanlıq göstərib. Daha sonra Tərtər-Ağdərə cəbhəsindəki döyüşlərdə şücaətlə iştirak edib, Talış və Suqovuşan uğrundakı qanlı savaşlarda cəsurluğu ilə seçilib. İgid əsgər oktyabrın 6-da Gülüstan kəndi ətrafındakı qızğın döyüşlərdə hünərlə vuruşaraq şəhadətə qovuşub. Bakının Dədə Qorqud qəsəbəsi məzarlığındakı Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## İSLAMOV
## Bəxtiyar Saleh oğlu
### (11.06.1997 - 11.10.2020)

Şirvan şəhərində anadan olub. Orta təhsilini 2003-2012-ci illərdə Şirvan şəhəri 4 saylı orta məktəbdə, 2012-2015-ci illərdə isə C.Naxçıvanski adına Hərbi Liseydə alıb. 2019-cu ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirəndən sonra XTQ-nin altı aylıq kursuna göndərilib. Kursu bitirəndən sonra XTQ sıralarında xidmətə başlayıb. 2020-ci il sentyabrın 27-də





başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin leytenantı kimi zabit mundirində qarşılayıb, ilk gündən ön xətdə, döyüş meydanlarında olub. Cəbrayıl, Füzuli və Xocavənd cəbhələrində gedən həlledici savaşlarda misilsiz şücaətlə vuruşub, şəxsi igidlik nümunəsi göstərib. Rəşadətli zabit oktyabrın 11-də Hadrut ətrafında gedən qanlı döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Şirvan şəhərində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Azərbaycan Bayrağı" ordeni (2021); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## İSLAMOV
## Cəlal Ağahüseyn oğlu
### (03.07.2001 - 07.10.2020)

Xaçmaz rayonunun Çarxı kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Çarxı kənd orta məktəbində alıb. 2018-ci ildə Qərbi Kaspi Universitetinin kollecinə daxil olub. 2019-cu ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə bölgəsində - Tərtərdə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən savaş meydanlarında olub, qanlı döyüşlərin getdiyi Tərtər-Ağdərə cəbhəsində düşmənlə amansız mübarizəyə atılaraq qəhrəmancasına vuruşub, misilsiz rəşadət göstərib. Cəsur əsgər Suqovuşan və Talış istiqamətlərindəki şiddətli döyüşlərdə hünərlə iştirak edib, öz qorxmazlığı və şücaəti ilə xüsusi fərqlənib. Son döyüşü oktyabrın 7-də olub. Həmin gün Talış kəndi ətrafında gedən həlledici döyüşlərin birində igidliklə vuruşaraq şəhadətə ucalıb. Doğulub boya-başa çatdığı Çarxı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020).*



## İSLAMOV
## Daşqın Alik oğlu
## (11.06.1993 – 29.10.2020)

Sabirabad rayonunun Poladtuğay kəndində anadan olub. Orta təhsilini 1999-2010-cu illərdə Poladtuğay kənd orta məktəbində alıb. 2011-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində - Ağdamda xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Oktyabrın 9-da cəbhəyə yollanaraq düşmənlə amansız mübarizəyə atılıb. Qəhrəman əsgərin döyüş yolu Füzuli, Cəbrayıl və Xocavənd cəbhələri səngərlərindən keçib, bu həlledici vuruşmalarda igidlik göstərib, qanlı Hadrut döyüşlərində cəsurluğu ilə seçilib. Oktyabrın 29-da Xocavənd cəbhəsindəki şiddətli döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Poladtuğay kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021).*



## İSLAMOV
## Elvin Elçin oğlu
## (18.02.1995 – 09.10.2020)

Bakıda anadan olub. Orta təhsilini 2001-2012-ci illərdə Bakı şəhəri 158 saylı orta məktəbdə alıb. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, XTQ sıralarında xidmət edib. 2016-cı il Aprel döyüşləri zamanı orduya çağırılıb. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi təkrarən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah savaş meydanlarında qarşılayıb, ilk gündən ağır döyüşlərə atılaraq qəhrəmancasına vuruşub. Füzuli cəbhəsində gedən həlledici döyüşlərdə hünərlə iştirak edib, böyük şücaət göstərib. İgid əsgər oktyabrın 9-da Füzuli rayonunun Qorqan kəndinin azad olunması uğrundakı qanlı döyüşlərdə misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Nəşi oktyabrın 29-da müəyyən olunaraq ailəsinə təhvil verilib. II Fəxri xiyabanda dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## İSLAMOV
## Samir Xalıq oğlu
## (05.02.1983 – 09.10.2020)

Sumqayıtda anadan olub. Orta təhsilini 1989-2000-ci illərdə Sumqayıt şəhəri 31 saylı orta məktəbdə və C.Naxçıvanski adına Hərbi Liseydə alıb. 2000-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub, 2004-cü ildə AAHM-i leytenant rütbəsində bitirərək SQ TTM-də kurs keçib. 2005-ci ildə zabit kimi xidmətə başlayıb. 2016-cı il Aprel döyüşlərində igidlik göstərib. 2020-ci ildə kapitan rütbəsində təqaüdə çıxıb. 2020-ci il sentyabrın 7-də yenidən orduya çağırılaraq Tərtərdəki hərbi hissədə xidmətə qaytarılıb. Həmin il sentyabrın 27-də Vətən müharibəsi başlayanda ilk gündən Tərtər-Ağdərə cəbhəsindəki qanlı savaşlara atılaraq qəhrəmancasına vuruşub. Talış və Suqovuşan uğrundakı həlledici döyüşlərdə misilsiz şücaət göstərib. Rəşadətli zabit oktyabrın 9-da Suqovuşan ətrafında gedən şiddətli döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, dörd övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## İSMAYILLI
## Məhəmmədəli Elxan oğlu
### (06.05.1996 – 26.10.2020)

Füzuli rayonunun Yuxarı Kürdmahmudlu kəndində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Kürdmahmudlu kənd orta məktəbində alıb. 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Hərbi-Dəniz Qüvvələri sıralarında xidmət edib. 2018-ci ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk günündən düşmənlə ölüm-dirim çarpışmasının getdiyi Füzuli cəbhəsindəki qanlı döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Füzulinin azadlığı uğrundakı şiddətli döyüşlərdə hünər göstərib. Cəbhənin Xocavənd istiqamətində gedən həlledici döyüşlərdə də igidliyi ilə seçilib. Cəsur əsgər oktyabrın 26-da Füzulinin Qaraməmmədli kəndi ətrafındakı vuruşma zamanı növbəti döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub. Yuxarı Kürdmahmudlu kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## İSMAYILLI
## Şamil Kamil oğlu
### (04.01.1993 – 19.10.2020)

Tərtər rayonunun Dəmirçilər kəndində anadan olub. Orta təhsilini 1999-2010-cu illərdə Dəmirçilər kənd orta məktəbində alıb. 2011-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Tovuzda düşmənlə üzbəüz mövqedə xidmət edib. 2013-cü ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2016-cı il Aprel





döyüşlərində hünərlə iştirak edib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini əldə silah səngərlərdə qarşılayıb, xidmət etdiyi hərbi hissə ilə birlikdə ilk gündən Tərtər-Ağdərə cəbhəsindəki ağır döyüşlərə atılaraq rəşadətlə vuruşub. Talış və Suqovuşan uğrunda gedən qanlı savaşlarda misilsiz şücaət göstərib, cəsurluğu və mətinliyi ilə fərqlənib. Qəhrəman əsgərin son savaşı oktyabrın 19-da olub. Həmin gün Ağdərə istiqamətindəki şiddətli döyüşlərin birində igidliklə vuruşaraq şəhadətə ucalıb. Dəmirçilər kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## İSMAYILOV
## Abbasəli İmamqulu oğlu
### (20.09.1995 – 22.10.2020)

Naxçıvan MR Babək rayonunun Qahab kəndində anadan olub. Orta təhsilini 2001-2009-cu illərdə Qahab kənd orta məktəbində alıb, təhsilini 2009-2013-cü illərdə H.Əliyev adına Hərbi Liseydə davam etdirib. 2013-cü ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2017-ci ildə AAHM-i leytenant rütbəsində bitirərək zabit kimi xidmət etməyə başlayıb. Cəbhə bölgəsində – Ağcabədi və Beyləqanda xidmət edib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin baş leytenantı kimi zabit mundirində qarşılayıb, ilk gündən döyüşlərə atılıb. İgid zabitin döyüş yolu Füzuli cəbhəsindən başlayıb. Füzuli, Xocavənd, Cəbrayıl, Zəngilan və Qubadlı uğrundakı həlledici döyüşlərdə böyük qəhrəmanlıqlar və rəşadət göstərib. Oktyabrın 22-də Qubadlının azadlığı uğrunda gedən qanlı döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Qahab kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Azərbaycan Bayrağı" ordeni (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2021).*



## İSMAYILOV
## Aqil Əli oğlu
### (18.07.1996 – 28.09.2020)

Naxçıvan MR Şərur rayonunun Çomaxtur kəndində anadan olub. Orta təhsilini 2002-2010-cu illərdə Çomaxtur kənd orta məktəbində alıb, təhsilini daha sonra H.Əliyev adına Hərbi Liseydə davam etdirib. 2014-cü ildə liseyi bitirərək H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2018-ci ildə AAHM-i leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. Bir il pilotluq kursu keçib, sonra XTQ kurslarında iştirak edib. Xidmətini XTQ-də kəşfiyyatçı kimi davam etdirib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin leytenantı kimi zabit mundirində qarşılayıb. Müharibənin ilk günündən Kəlbəcər cəbhəsinin savaş meydanlarında olub, Murovdağ yüksəklikləri uğrundakı qanlı döyüşlərdə şücaətlə döyüşüb. Cəsur zabit sentyabrın 28-də Murovdağ istiqamətində gedən şiddətli döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Şərur şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## İSMAYILOV
## Amid Eldar oğlu
### (11.02.1988 – 27.09.2020)

Biləsuvar rayonunun Təzəkənd kəndində anadan olub. Orta təhsilini 1994-2005-ci illərdə Təzəkənd kənd orta məktəbində alıb. 2006-2007-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Naxçıvanda xidmət edib. 2008-ci ildə yenidən Silahlı Qüvvələr sıralarına qayıtmağa qərar verib və xidmətini DİN Daxili Qoşunlarında MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2016-cı ildə həmin hərbi hissədə müqavilə müddəti başa





çatandan sonra xidmət profilini dəyişərək ordu sıralarında kiçik çavuş rütbəsində yenə də MAHHXHQ kimi xidmətə başlayıb. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini bir hərbçi kimi əldə silah savaş meydanlarında qarşılayıb. Müharibənin ilk saatlarından Füzuli cəbhəsində düşmənlə ölüm-dirim savaşına atılaraq qəhrəmancasına vuruşub. Rəşadətli hərbçi sentyabrın 27-də Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndi uğrundakı qızğın döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Doğulduğu Təzəkənd kəndində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## İSMAYILOV
## Aslan Əvəz oğlu
### (01.06.1993 – 09.10.2020)

Salyan rayonunun Sarvan kəndində anadan olub. 2008-ci ildə Sarvan kənd orta məktəbinin IX sinfini bitirərək təhsilini C.Naxçıvanski adına Hərbi Liseydə davam etdirib. 2011-ci ildə liseyi, 2015-ci ildə isə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. Xidmət dövründə XTQ sıralarına cəlb olunub. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin baş leytenantı kimi zabit mundirində qarşılayıb, savaşın ilk günündən qızğın döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Kəlbəcər, Füzuli, Cəbrayıl və Xocavənd cəbhələrindəki döyüşlərdə böyük şücaət göstərib. İgid xüsusi təyinatlı zabit oktyabrın 9-da Hadrut ətrafındakı qanlı döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Sarvan kəndində dəfn edilib. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



# İSMAYILOV
## Bahaləddin Temraz oğlu
### (31.08.1999 – 29.10.2020)

Ağstafa rayonunun Muğanlı kəndində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Muğanlı kənd orta məktəbində alıb. 2017-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Naxçıvanda xidmət edib. 2019-cu ilin aprelində hərbi xidmətini başa vursa da, MAHHXHQ kimi ordu sıralarında qalaraq xidmətini davam etdirib. XTQ sıralarına qəbul olunub. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini xüsusi təyinatlı döyüşçü kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk günlərindən ön cəbhədə olub, misilsiz rəşadətlə vuruşub. Füzulidən başlayan döyüş yolu Xocavənd cəbhəsi səngərlərindən keçərək Şuşaya qədər uzanıb. Hadrut və Daşaltı ətrafındakı qanlı döyüşlərdə böyük şücaət göstərib. Qəhrəman əsgər oktyabrın 29-da Şuşa istiqamətində gedən şiddətli döyüşlərin birində igidliklə vuruşaraq şəhadətə ucalıb. Muğanlı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021), 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2022).*



# İSMAYILOV
## Camal Vidadi oğlu
### (07.07.1984 – 19.10.2020)

Neftçala rayonunun Həsənabad qəsəbəsində anadan olub. Orta təhsilini 1990-2001-ci illərdə Rusiyanın Krasnoyarsk diyarında və Neftçala şəhəri 1 saylı orta məktəbdə alıb. 2002-2003-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, xidmət müddəti başa çatmamış SQ TTM-ə kursa, daha sonra xidmətə göndərilib. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak





edib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini XTQ-nin baş giziri kimi səngərlərdə qarşılayıb, ilk saatlardan qızğın döyüşlərə atılıb. Füzuli, Xocavənd, Cəbrayıl, Zəngilan, Qubadlı və Laçın cəbhələrində misilsiz rəşadətlə vuruşub. XTQ-nin düşmənə sarsıdıcı zərbələr vuran əfsanəvi döyüşçülərindən biri olan cəsur xüsusi təyinatlı oktya-brın 19-da Qubadlı uğrundakı qanlı döyüşlərin birində şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Neftçala şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən Müharibəsi Qəhrəmanı" adı (2020); "Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*

# İSMAYILOV
## Cavad Asif oğlu
### (22.10.2001 – 17.12.2020)



Salyan rayonunun Sarvan kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Sarvan kənd orta məktəbində alıb. 2019-cu ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Xüsusi Təyinatlı Qüvvələr sıralarında xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini XTQ əsgəri kimi əldə silah savaş meydanlarında qarşılayıb. Müharibənin ilk saatlarından ön cəbhədə olub, düşmənlə ölüm-dirim savaşının getdiyi Füzuli cəbhəsində qanlı döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Döyüş yolu daha sonra Cəbrayıl və Xocavənd cəbhələri səngərlərindən keçərək həlledici Şuşa savaşlarına qədər uzanıb. Bu rayonların işğaldan azad olunması uğrunda gedən şiddətli döyüşlərdə şəxsi igidlik nümunəsi göstərib, öz hünəri və şücaəti ilə xüsusi seçilib. Böyük Zəfəri Şuşada qeyd edən rəşadətli xüsusi təyinatlı əsgər dekabrın 17-də Xocavənd ərazisində növbəti döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub. Doğulub boya-başa çatdığı Sarvan kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2021).*



## İSMAYILOV
## Ceyhun Abbas oğlu
## (30.12.1985 - 01.10.2020)

Gəncə şəhərində anadan olub. 2004-cü ildə Gəncə şəhəri 44 saylı orta məktəbi bitirib. 2004-2005-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, DSX Sərhəd Qoşunlarında xidmət edib. 2008-ci ildə yenidən ordu sıralarına qayıdıb və SQ TTM-də kurs keçəndən çavuş rütbəsində MAHHXHQ kimi xidmətə başlayıb. Sonra TTM-də gizir hazırlığı kursunu bitirib və xidmətini təmas xəttində - Füzuli, Beyləqan və Ağcabədidə davam etdirib. 2016-cı il Aprel döyüşlərində hünər göstərib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin giziri kimi əldə silah səngərlərdə qarşılayıb. İlk gündən Füzulinin azadlığı uğrundakı şiddətli döyüşlərə atılaraq qəhrəmancasına vuruşub. İgid hərbçinin son savaşı oktyabrın 1-də olub. Həmin gün Füzuli cəbhəsində gedən qızğın döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Gəncə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli olub, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2021).*



## İSMAYILOV
## Ceyhun İqbal oğlu
## (25.09.1996 - 14.10.2020)

Tovuz şəhərində anadan olub. Orta təhsilini 2003-2014-cü illərdə Tovuz şəhər təbiət və texniki təmayüllü məktəb-liseydə və Gəncə şəhəri 28 saylı orta məktəbdə alıb. 2014-cü ildə Ukraynanın Karpatı Universitetinə daxil olub, 2019-cu ildə həmin universiteti bitirib. 2019-cu ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə bölgəsində - Beyləqanda





xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah savaş meydanlarında qarşılayıb. İlk gündən düşmənlə ölüm-dirim çarpışmasının getdiyi Füzuli cəbhəsindəki ağır döyüşlərə atılaraq igidliklə vuruşub. Füzulinin azadlığı uğrunda döyüşlərdə misilsiz şücaət və hünər göstərib. Qəhrəman əsgərin son döyüşü oktyabrın 14-də olub. Həmin gün Füzuli cəbhəsində gedən şiddətli döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Nəşi oktyabrın 30-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Tovuz şəhərində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## İSMAYILOV
## Elçin İlqar oğlu
## (17.03.1995 - 02.10.2020)

Cəlilabad rayonunun Göytəpə şəhərində anadan olub. Orta təhsilini 2001-2012-ci illərdə Göytəpə şəhər 1 saylı orta məktəbdə alıb. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2014-cü ildən DSX Sərhəd Qoşunlarında MAHHXHQ kimi davam etdirib. 2016-cı il Aprel döyüşlərində hünər göstərib. 2017-ci ildən Quru Qoşunlarında MAHHXHQ kimi xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini bir hərbçi kimi əldə silah savaş meydanlarında qarşılayıb, ilk gündən ön xətdə olub, cəbhənin Füzuli istiqamətində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında igidliklə iştirak edib, bu qanlı savaşda misilsiz rəşadət göstərib. İki dəfə yaralansa da, döyüş meydanından çəkilməyib. Cəsur əsgər oktyabrın 2-də Füzulinin Qaraxanbəyli kəndi istiqamətindəki şiddətli döyüşdə qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Göytəpə şəhərində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## İSMAYILOV
## Elçin Mikayıl oğlu
### (07.02.1991 – 04.11.2020)

İmişli şəhərində anadan olub. 2008-ci ildə İmişli şəhər 7 saylı orta məktəbi bitirib. 2009-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2018-ci ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirib. Təmas xəttində - Füzulidə xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsində ilk gündən savaş meydanlarında olub, qəhrəmancasına vuruşub. Döyüş yolu Füzuli, Cəbrayıl, Zəngilan, Xocavənd, Laçın, Qubadlı və Şuşa cəbhələri səngərlərindən keçib, bu həlledici döyüşlərdə böyük şücaət göstərib. Rəşadətli əsgər noyabrın 4-də Şuşa istiqamətindəki qızğın döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Adı bir müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 26-da müəyyən olunaraq ailəsinə təhvil verilib. İmişli rayonunun Rəsullu kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## İSMAYILOV
## Elçin Mübariz oğlu
### (30.05.1989 – 07.10.2020)

Ucar şəhərində anadan olub. Orta təhsilini 1995-2006-cı illərdə Ucar şəhəri 1 saylı orta məktəbdə alıb. 2010-cu ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirib. 2010-2011-ci illərdə SQ TTM-də kurs keçərək zabit kimi xidmətə başlayıb. Həmin ilin noyabrından XTQ sıralarında xidmət edirdi. 2016-cı il Aprel döyüşlərində şücaət göstərib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kapitanı kimi zabit mundirində qarşılayıb, ilk gündən savaş meydanlarında olub, misilsiz rəşadətlə vuruşub. Döyüşlərə Murovdağ istiqamətində başlayıb, sonra Füzuli və Cəbrayıl uğrundakı qanlı döyüşlərdə qəhrəmanlıq nümunələri göstərib. İgid zabit oktyabrın 7-də Füzulinin azadlığı uğrunda gedən şiddətli döyüşlərin birində şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Ucar şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## İSMAYILOV
## Elnur Arif oğlu
### (24.02.2001 – 14.10.2020)

Şəki rayonunun Baş Küngüt kəndində anadan olub. Orta təhsilini 2007-2016-cı illərdə Baş Küngüt kənd tam orta məktəbində, Şəki şəhəri 19 saylı tam orta və 8 saylı beynəlmiləl orta məktəblərdə alıb, 8 saylı məktəbin IX sinfini bitirib. 2019-cu ilin aprelində Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə bölgəsində - Beyləqanda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən ön xətdə, savaş meydanlarında olub, igidliklə vuruşub. Döyüşlərə Füzuli cəbhəsində başlayıb, bu rayon uğrundakı həlledici döyüşlərdə böyük hünər göstərib. Qəhrəman əsgər Cəbrayıl uğrundakı şiddətli döyüşlərdə mətinliklə iştirak edib, cəsurluğu ilə fərqlənib. Oktyabrın 14-də cəbhənin Cəbrayıl istiqamətində gedən qanlı döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Nəşi oktyabrın 22-də ailəsinə təhvil verilib. Şəki şəhərindəki "Dovşan düzü" adlanan məzarlıqda dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## İSMAYILOV
## Elşən İsə oğlu
### (25.03.1997 - 08.11.2020)

Şəmkir rayonunun Yuxarı Seyfəli kəndində anadan olub. Orta təhsilini 2003-2014-cü illərdə Yuxarı Seyfəli kənd orta məktəbində alıb. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi sentyabrın 29-da yenidən ordu sıralarına çağırılaraq cəbhəyə göndərilib. Müharibənin ilk günlərindən ön xətdə olub, Füzuli cəbhəsində düşmənlə amansız mübarizəyə atılaraq misilsiz qəhrəmanlıqla vuruşub, bu qızğın döyüşlərdə böyük şücaət və rəşadət göstərib. Cəsur əsgərin Füzulidən başlayan döyüş yolu həlledici Şuşa savaşına qədər uzanıb. Daşaltı uğrundakı qanlı döyüşlərdə öz mətinliyi və qorxmazlığı ilə seçilib. Noyabrın 8-də Şuşa ətrafında gedən şiddətli döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Seyfəli kəndindəki Şəhidlər məzarlığında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020).*



## İSMAYILOV
## Elvin Arif oğlu
### (28.03.2002 - 30.09.2020)

Sumqayıtda anadan olub. Orta təhsilini 2008-2019-cu illərdə Sumqayıt şəhəri 24 saylı orta məktəbdə alıb. 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə bölgəsində - Beyləqanda xidmət edirdi. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah savaş meydanlarında qarşılayıb, ilk gündən ön xətdə olub, misilsiz igidliklə vuruşub. Müharibənin ilk saatlarından etibarən Füzuli cəbhəsi səngərlərində





düşmənlə ölüm-dirim çarpışmasına atılaraq böyük şücaət göstərib, bu qanlı döyüşlərdə qəhrəmanlığı və cəsurluğu ilə xüsusi fərqlənib. Rəşadətli əsgərin son savaşı da elə bu cəbhədə olub. Sentyabrın 30-da Füzulinin azad olunması uğrunda gedən həlledici döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## İSMAYILOV
## Elvin Tələt oğlu
### (09.03.1989 - 27.09.2020)

Beyləqan rayonunun Əlinəzərli kəndində anadan olub. Orta təhsilini 1995-2006-cı illərdə Əlinəzərli kənd 2 saylı orta məktəbdə alıb. 2007-2008-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2010-cu ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini kiçik çavuş rütbəsində MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2016-cı il Aprel döyüşlərində hünər göstərib. 2019-cu ildən cəbhə bölgəsində - Beyləqanda xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin çavuşu kimi əldə silah səngərlərdə qarşılayıb, ilk saatlardan Füzuli cəbhəsindəki qanlı döyüşlərə atılaraq rəşadətlə vuruşub, düşmənin müdafiə xəttinin yarılmasında şücaət göstərib. Qəhrəman hərbçi yaralansa da, savaş meydanından geri çəkilməyərək döyüşü davam etdirib. Sentyabrın 27-də Cəbrayılın Nüzgar kəndi istiqamətindəki qızğın döyüşlərdə misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Beyləqan şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021).*



## İSMAYILOV
## Emin Tahir oğlu
### (21.05.2001 – 06.10.2020)

Bakıda anadan olub, əslən Cəbrayıl rayonundan idi. 2016-cı ildə Bakı şəhəri 54 saylı orta məktəbin IX sinfini bitirib. 2019-cu ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, döyüş bölgəsində - Goranboyda xidmət edirdi. 2020-ci lin sentyabrında başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah savaş meydanlarında qarşılayıb, ilk gündən Kəlbəcər cəbhəsindəki ağır döyüşlərə atılaraq mətanətlə vuruşub, Murovdağ uğrundakı bu vuruşmalarda böyük qəhrəmanlıq nümunəsi göstərib. Rəşadətli əsgərin döyüş yolu daha sonra Tərtər-Ağdərə cəbhəsi səngərlərindən keçib, Talış, Ağdərə və Suqovuşan döyüşlərində böyük hünər göstərib. Oktyabrın 6-da Tərtər-Ağdərə cəbhəsində gedən qanlı döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 27-də müəyyən olunaraq ailəsinə təhvil verilib. II Fəxri xiyabanda dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## İSMAYILOV
## Əmrah Xudaverdi oğlu
### (10.11.1994 – 10.11.2020)

Naxçıvan MR Şərur rayonunun Cəlilkənd kəndində anadan olub. 2012-ci ildə Cəlilkənd kənd orta məktəbini bitirib. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Naxçıvanda xidmət edib, xidmət dövründə xüsusi kurs keçərək xüsusi təyinatlı dəstəyə daxil edilib. Tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb və 2014-cü ildə gizir hazırlığı kursunu bitirərək xidmətini davam etdirməyə başlayıb. XTD-də





xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin baş giziri kimi qarşılayıb, oktyabrın 18-dən Cəbrayıl cəbhəsində şücaətlə vuruşub. Füzuli və Xocavənd döyüşlərində qəhrəmanlıq göstərib, yaralansa da, hospitala getməkdən imtina edərək döyüşməkdə davam edib. İgid döyüşçü noyabrın 10-da Xocavənd cəbhəsindəki şiddətli döyüşlərdə misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Şərur şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021).*



## İSMAYILOV
## Fuad Murad oğlu
### (26.10.1986 – 04.10.2020)

Naxçıvan MR Kəngərli rayonunun Qıvraq qəsəbəsində anadan olub. 2002-ci ildə Qıvraq qəsəbə 1 saylı orta məktəbin VIII sinfini bitirib və təhsilini H.Əliyev adına Hərbi Liseydə davam etdirib. 2005-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2009-cu ildə AAHM-i leytenant rütbəsində bitirib, 2009-2010-cu illərdə SQ TTM-də kurs keçərək zabit kimi xidmətə başlayıb. 2018-ci ildən təmas xəttində - Ağdamda xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin mayoru kimi zabit mundirində qarşılayıb, ilk gündən ön xətdə olub, qanlı döyüşlərin getdiyi Tərtər-Ağdərə cəbhəsində misilsiz rəşadətlə vuruşub. Talış və Suqovuşanın azadlığı uğrundakı həlledici vuruşmalarda şəxsi igidlik və qəhrəmanlıq göstərib. Cəsur zabit oktyabrın 4-də Suqovuşan uğrundakı qanlı döyüşlərdə hünərlə vuruşaraq şəhadətə qovuşub. II Fəxri xiyabanda dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## İSMAYILOV
## Hüseyn Fərman oğlu
## (29.06.1991 – 09.11.2020)

Şəki rayonunun Qayabaşı kəndində anadan olub. 2008-ci ildə Qayabaşı kənd orta məktəbini bitirib. 2009-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2012-ci ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirib. 2016-cı il Aprel döyüşlərində şücaət göstərib. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayanda Füzulidə xidmət edirdi. İlk gündən elə Füzuli cəbhəsində hünərlə vuruşub. Döyüş yolu sonra Xocavənd, Cəbrayıl və Qubadlı cəbhələrindən keçib, bu qanlı döyüşlərdə igidliyi ilə fərqlənib. Oktyabrın 20-də yaralansa da, müalicəsini yarımçıq qoyaraq cəbhəyə qayıdıb. Rəşadətli əsgər noyabrın 9-da Şuşa ətrafındakı qızğın döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Nəşi noyabrın 30-da müəyyən edilərək ailəsinə təhvil verilib. Qayabaşı kəndində dəfn olunub. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021).*



## İSMAYILOV
## İlqar Mehdi oğlu
## (23.08.1988 – 28.09.2020)

Beyləqan şəhərində anadan olub. Orta təhsilini 1994-2005-ci illərdə Beyləqan şəhəri 2 saylı orta məktəbdə alıb. 2006-2008-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2009-cu ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini kiçik çavuş rütbəsində MAHHXHQ kimi davam etdirib. 2016-cı il Aprel





döyüşlərində cəsurluqla iştirak edib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin çavuşu kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən ön xətdə olub, Füzuli uğrundakı şiddətli döyüşlərdə misilsiz rəşadətlə vuruşub, böyük hünər göstərib. Qəhrəman əsgər sentyabrın 28-də Cəbrayılın Nüzgar kəndi istiqamətindəki qanlı döyüşlərdə igidliklə vuruşaraq şəhadətə ucalıb. Nəşi oktyabrın 23-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Beyləqan şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021).*



## İSMAYILOV
## İmamverdi Yoloğlu oğlu
## (01.05.1989 – 29.09.2020)

Qazax rayonunun Aşağı Əskipara kəndində anadan olub. Orta təhsilini 1995-2003-cü illərdə Qazax şəhərində fəaliyyət göstərən Aşağı Əskipara kənd orta məktəbində, 2003-2006-cı illərdə isə C.Naxçıvanski adına Hərbi Liseydə alıb. 2006-cı ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2010-cu ildə AAHM-i leytenant rütbəsində bitirib, SQ TTM-də kurs keçərək 2011-ci ildən zabit kimi xidmətə başlayıb. 2018-ci ildən döyüş bölgəsində xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kapitanı kimi zabit mundirində qarşılayıb, ilk gündən Kəlbəcər cəbhəsində vuruşmağa başlayıb, qanlı Murovdağ döyüşlərində misilsiz rəşadət göstərib. Sonra Tərtər-Ağdərə cəbhəsində qəhrəmancasına vuruşub, Talış və Suqovuşan döyüşlərində cəsurluğu ilə fərqlənib. İgid zabit sentyabrın 29-da Suqovuşan uğrundakı şiddətli döyüşlərdə misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Qazax rayonunun Ağköynək kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); 3-cü dərəcəli "Rəşadət" ordeni (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## İSMAYILOV
## İntiqam İlqar oğlu
### (24.12.1996 – 08.11.2020)

Yevlax rayonunun Xanabad kəndində anadan olub. 2014-cü ildə Xanabad kənd orta məktəbini bitirib. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2016-cı il Aprel döyüşlərində ehtiyat qüvvələrə daxil edilib. 2016-cı ilin iyulunda tərxis olunandan bir neçə gün sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci il iyul Tovuz döyüşlərində igidliklə iştirak edib. Həmin il sentyabrın 27-də Vətən müharibəsi başlayanda bir əsgər kimi əldə silah dərhal döyüşlərə atılıb. Əvvəlcə Kəlbəcər cəbhəsində qəhrəmancasına vuruşub, Murovdağ döyüşlərində hünər göstərib. Sonra Xocavənd cəbhəsinə göndərilib, buradan başlayan döyüş yolu Şuşa savaşlarına qədər davam edib. Daşaltı əməliyyatında şücaəti ilə fərqlənib. Cəsur əsgər noyabrın 8-də Şuşa uğrundakı həlledici döyüşlərdə misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Xanabad kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## İSMAYILOV
## Kamran Vaqif oğlu
### (09.02.1991 – 09.10.2020)

Yevlax şəhərində anadan olub. Orta təhsilini 1997-2008-ci illərdə Yevlax şəhəri 3 saylı orta məktəbdə alıb. 2012-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirib, SQ TTM-də bir illik kurs keçəndən sonra Tovuzda, düşmənlə üzbəüz mövqedə zabit kimi xidmətə başlayıb. 2020-ci il sentyabrın 27-də





başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kapitanı kimi zabit mundirində qarşılayıb, ilk gündən savaş meydanlarında olub, misilsiz igidliklə vuruşub. Rəşadətli zabit döyüşlərə Tərtər-Ağdərə cəbhəsində başlayıb. Talış, Suqovuşan və Ağdərə uğrunda gedən həlledici vuruşmalarda qəhrəmanlıq nümunələri göstərib. Oktyabrın 9-da Suqovuşan ətrafındakı qızğın döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Nəşi noyabrın 11-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Yevlax şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## İSMAYILOV
## Kənan Mənsur oğlu
### (28.10.1994 – 08.10.2020)

Yevlax rayonunun Xanabad kəndində anadan olub. 2011-ci ildə Xanabad kənd orta məktəbini bitirib. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci ildə yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini həmin ilin avqustundan MAHHXHQ kimi davam etdirməyə başlayıb. Hərbi xidmətə qayıdandan bir ay sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən ön xətdə olub, misilsiz rəşadətlə vuruşub. Cəbhənin Tərtər-Ağdərə istiqamətində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında hünərlə iştirak edib. Talış və Suqovuşan uğrundakı qanlı vuruşmalarda şücaət göstərib. Oktyabrın 5-də bu döyüşlərdə yaralansa da, hospitala getməkdən imtina edərək yenidən savaşa atılıb. İgid əsgər oktyabrın 8-də Suqovuşan ətrafında gedən şiddətli döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Doğulduğu Xanabad kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## İSMAYILOV
## Mirrəhim Mirmehdi oğlu
(02.09.1996 - 03.10.2020)

Ağdam rayonunun Çəmənli kəndində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Çəmənli kənd orta məktəbində alıb. 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, DSX Sərhəd Qoşunlarında xidmət edib. 2020-ci ilin avqustunda yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirib. Cəbhə bölgəsində - Goranboyda xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah savaş meydanlarında qarşılayıb, ilk gündən həlledici döyüşlərə atılaraq hünərlə vuruşub. Döyüşlərə Tərtər-Ağdərə cəbhəsində başlayıb, Talış və Suqovuşan uğrundakı qanlı savaşlarda rəşadət göstərib. Qəhrəman əsgər oktyabrın 3-də Suqovuşan ətrafındakı qızğın döyüşlərdə misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 27-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Ağdam rayonunun Quzanlı qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## İSMAYILOV
## Natiq Əjdər oğlu
(05.03.1980 - 17.10.2020)

Qəbələ rayonunun Bunud kəndində anadan olub. Orta təhsilini 1987-1995-ci illərdə Bunud kənd orta məktəbində, 1995-1997-ci illərdə isə C.Naxçıvanski adına Hərbi Liseydə alıb. 2001-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. 2020-ci ilin yayında mayor rütbəsində ehtiyata buraxılıb. Həmin ilin sentyabrında Vətən müharibəsi başlayandan sonra yenidən ordu sıralarına qayıdıb və oktyabrın 3-də cəbhəyə yollanıb. Cəbhənin Tərtər-Ağdərə, Füzuli və Xocavənd istiqamətlərində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında igidliklə iştirak edib. Cəsur zabit Füzuli istiqamətindəki qızğın döyüşlərdə bir komandir kimi rəşadətlə vuruşub. Oktyabrın 17-də Xocavənd istiqamətindəki qanlı savaşlarda şücaətlə döyüşərək şəhidlik zirvəsinə yüksəlib. Bunud kəndində dəfn olunub. Ailəli idi, dörd övladı vətənə əmanət qalıb.





**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); 3-cü dərəcəli "Rəşadət" ordeni (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## İSMAYILOV
## Nizaməddin İsmayıl oğlu
(10.01.1981 - 27.09.2020)

Füzuli rayonunun Bala Bəhmənli kəndində anadan olub. 1998-ci ildə Bala Bəhmənli kənd orta məktəbini bitirib. 1999-2001-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Naxçıvanda xidmət edib. 2002-ci ildə yenidən ordu sıralarına qayıdıb və SQ TTM-də gizir hazırlığı kursunu bitirərək xidmətə başlayıb. Sülhməramlı qüvvələrin tərkibində xidmət edib, bir müddət İraqda hərbi xidmətdə olub. 2009-cu ildən etibarən cəbhə bölgəsində - Füzuli və Ağcabədidə xidmət edib, baş gizir rütbəsinə qədər yüksəlib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsinin ilk günündən savaş meydanlarında olub, qəhrəmancasına vuruşub. İgid hərbçi müharibənin elə ilk günü - sentyabrın 27-də Füzuli cəbhəsində gedən qanlı savaşların birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Doğulub boya-başa çatdığı Bala Bəhmənli kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## İSMAYILOV
## Novruz Nurəddin oğlu
(13.10.1987 – 30.10.2020)

Daşkəsən rayonunun Zinzahal kəndində anadan olub. Orta təhsilini 1994-2004-cü illərdə Zinzahal kənd və Gəncə şəhəri 21 saylı orta məktəblərdə alıb. 2005-2007-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində - Tərtərdə xidmət edib. Xidmət zamanı düşmən atəşi nəticəsində ağır yaralanıb. Tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb və 2008-ci ildə SQ TTM-də gizir hazırlığı kursu keçərək xidmətə başlayıb. 2013-cü ildə ehtiyata buraxılıb. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayanda yenidən ordu sıralarına qayıtmaq üçün dəfələrlə müraciət edib. İsrarlı müraciətlərindən sonra oktyabrın 9-da cəbhəyə yollanıb. Rəşadətli gizir Cəbrayıl, Füzuli və Xocavənd uğrunda qanlı döyüşlərdə qəhrəmancasına vuruşub, şücaət göstərib. Oktyabrın 30-da Füzuli cəbhəsindəki şiddətli döyüşlərdə hünərlə vuruşaraq şəhadətə qovuşub. Daşkəsən şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## İSMAYILOV
## Orxan Qədim oğlu
(24.09.1990 – 05.10.2020)

Qusar rayonunun Həsənqala kəndində anadan olub. Orta təhsilini 1997-2008-ci illərdə Həsənqala kənd orta məktəbində alıb. 2008-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2014-cü ilin iyununda yenidən ordu sıralarına qayıdıb və SQ TTM-də kurs keçəndən sonra xidmətini kiçik çavuş rütbəsində MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən ön xətdə olub, şücaətlə döyüşüb. Cəbhənin Füzuli və Cəbrayıl istiqamətlərində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında rəşadətlə vuruşub, igidlik göstərib. Cəsur döyüşçü oktyabrın 5-də Füzulinin azad olunması uğrunda gedən qanlı döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Həsənqala kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Döyüşdə fərlənməyə görə" medalı (2021).*



## İSMAYILOV
## Orxan Zöhrab oğlu
(23.01.1990 – 01.10.2020)

Ucar rayonunun Məlikballı kəndində anadan olub. Orta təhsilini 1996-2007-ci illərdə Bakı şəhəri 59 saylı və Məlikballı kənd orta məktəblərində alıb. 2008-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən ön xətdə olub, düşmənlə ölüm-dirim savaşının getdiyi Füzuli cəbhəsində qanlı döyüşlərə atılaraq rəşadətlə vuruşub. Cəbrayılın azad olunması uğrundakı həlledici döyüşlərdə böyük hünər göstərib, cəsurluğu və qorxmazlığı ilə xüsusi seçilib. Qəhrəman əsgər oktyabrın 1-də Cəbrayıl cəbhəsində gedən qızğın döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Doğulduğu Məlikballı kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## İSMAYILOV
## Rabil Elbrus oğlu
**(12.02.1980 – 02.11.2020)**

Gəncədə anadan olub. 1997-ci ildə Gəncə şəhəri 14 saylı orta məktəbi bitirərək Bakı Dövlət Universitetinə daxil olub. 2001-ci ildə BDU-nu, 2003-cü ildə isə Gəncə Dövlət Universitetinin magistratura pilləsini bitirib. 2003-2004-cü illərdə leytenant rütbəsindəki zabit kimi Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində Silahlı Qüvvələrin ehtiyatda olan zabiti kimi yenidən ordu sıralarına çağırılıb, oktyabrın 16-da cəbhəyə göndərilib. Döyüşlərə Füzuli cəbhəsində başlayan igid zabit Cəbrayıl və Xocavənd uğrundakı qanlı döyüşlərdə rəşadətlə vuruşub. Noyabrın 2-də Xocavənd cəbhəsində gedən şiddətli döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Gəncə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## İSMAYILOV
## Raqil Rafiq oğlu
**(16.08.1994 – 07.11.2020)**

Salyan rayonunun Dayıkənd kəndində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Dayıkənd kənd orta məktəbində alıb. 2012-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində – Ağdamda xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda





olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb, sentyabrın 29-da cəbhəyə yollanıb. Döyüşlərə Tərtər-Ağdərə cəbhəsində başlayıb, Talış və Suqovuşan uğrundakı şiddətli döyüşlərdə böyük şücaət göstərib. Sonra Füzuli cəbhəsindəki döyüşlərə atılaraq qəhrəmancasına vuruşub. Cəsur əsgərin döyüş yolu Xocavənd və Cəbrayıl cəbhələrindən də keçərək Şuşa savaşlarına qədər uzanıb, bu həlledici vuruşmalarda igidliyi ilə xüsusi seçilib. Noyabrın 7-də Şuşa uğrunda gedən qanlı döyüşlərdə misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Doğulduğu Dayıkənd kəndində dəfn edilib. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## İSMAYILOV
## Rəcəb Nəcəf oğlu
**(17.09.2000 – 30.10.2020)**

İmişli rayonunun Əliqulular kəndində anadan olub. 2015-ci ildə Beyləqan rayon Yeni Mil kənd orta məktəbinin IX sinfini bitirib. 2018-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və sentyabrın 29-da ön cəbhəyə yola salınıb. İlk gündən Füzuli cəbhəsində düşmənlə ölüm-dirim savaşına atılaraq igidliklə vuruşub. Cəbrayıl, Qubadlı və Laçının azadlığı uğrundakı gedən döyüşlərdə misilsiz qəhrəmanlıq göstərib. Rəşadətli əsgər oktyabrın 30-da Laçının Güləbird kəndi istiqamətində gedən qızğın döyüşlərdə hünərlə vuruşaraq şəhadətə qovuşub. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi 2021-ci il fevralın 3-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Əliqulular kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Cəsur döyüşçü" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Qubadlının azad olunmasına görə" medalı (2021); "Vətən uğrunda" medalı (2021).*



# İSMAYILOV
## Rəhman Mehti oğlu
### (18.08.1995 – 19.10.2020)

Ağstafa rayonunun Muğanlı kəndində anadan olub. Orta təhsilini 2001-2012-ci illərdə Muğanlı kənd orta məktəbində alıb. 2013-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Beyləqanda xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və sentyabrın 29-da cəbhəyə yollanıb. İlk gündən Füzuli cəbhəsindəki həlledici döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. İgid əsgərin döyüş yolu daha sonra Cəbrayıl və Qubadlı cəbhələri səngərlərindən keçib, bu qızğın döyüşlərdə böyük şücaət göstərib. Oktyabrın 19-da Cəbrayılın azad olunması uğrunda gedən qanlı döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Doğulduğu Muğanlı kəndində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020).*



# İSMAYILOV
## Rövşən Məmmədağa oğlu
### (30.10.1999 – 13.10.2020)

Bakıda anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Bakı şəhəri 83 saylı məktəb-liseydə alıb. 2020-ci ildə Azərbaycan Kooperasiya Universitetini bitirib. 2020-ci ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, təmas xəttində – Tərtərdə xidmət edirdi. İki aydan sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən





savaş meydanlarında olub, düşmənlə ölüm-dirim çarpışmasının getdiyi Tərtər-Ağdərə cəbhəsindəki qanlı döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Talış, Suqovuşan və Ağdərə uğrundakı həlledici döyüşlərdə şücaət göstərib. Oktyabrın 3-də yaralanaraq hospitala aparılıb, amma müalicəsini yarımçıq qoyaraq oktyabrın 7-də yenidən ön cəbhəyə qayıdıb. Qəhrəman əsgər oktyabrın 13-də Ağdərə istiqamətindəki şiddətli döyüşlərin birində igidliklə vuruşaraq şəhadətə ucalıb. Nəşi noyabrın 19-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Bakının Biləcəri qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



# İSMAYILOV
## Ruslan Eyvaz oğlu
### (01.04.1986 – 27.09.2020)

Gürcüstanın Marneuli rayonunun Təzəkənd kəndində anadan olub. 1991-ci ildə ailəsi ilə Azərbaycanın Göygöl rayonunun Çaykənd kəndinə köçüb. 2001-ci ildə Çaykənd kənd orta məktəbinin IX sinfini bitirib. 2004-2006-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2016-cı ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Təmas xəttində – Murovda düşmənlə üzbəüz mövqelərdə xidmət edirdi. 2020-ci il iyul Tovuz döyüşlərində igidliklə iştirak edib. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsinin ilk saatlarından qanlı döyüşlərə atılaraq misilsiz şücaətlə vuruşub. Rəşadətli əsgər müharibənin elə ilk günü – sentyabrın 27-də Murovdağ yüksəklikləri uğrundakı ağır döyüşlərdə mətinliklə vuruşaraq şəhadətə qovuşub. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 2-də müəyyən edilərək ailəsinə təhvil verilib. Göygöl şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## İSMAYILOV
## Rüstəm Üzeyir oğlu
**(29.08.1995 – 02.10.2020)**

Daşkəsən şəhərində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Daşkəsən şəhəri 1 saylı orta məktəbdə alıb. 2013-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Beyləqanda xidmət edib. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra yenidən ordu sıralarına qayıtmağa qərar verib və həmin ilin sentyabrında MAHHXHQ kimi xidmətə başlayıb. Vətən müharibəsinin başladığı ilk saatlardan etibarən düşmənlə ölüm-dirim çarpışmasının getdiyi Kəlbəcər cəbhəsindəki şiddətli döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub, Murovdağ döyüşlərində böyük hünər göstərib, şücaəti ilə fərqlənib. İgid əsgər oktyabrın 2-də Murovdağ yüksəkliklərinin azad olunması uğrunda gedən qanlı döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına ucalıb. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 17-də müəyyən edilərək ailəsinə təhvil verilib. Daşkəsən şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Vətən uğrunda" medalı (2021).*



## İSMAYILOV
## Sabir Ədalət oğlu
**(16.06.1998 – 09.10.2020)**

Sabirabad şəhərində anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Sabirabad şəhəri 1 saylı orta məktəbdə alıb. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Cəbhə bölgəsində – Tərtərdə xidmət edib. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına qoşulmaq üçün könüllü olaraq müraciət edib. Həmin il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb.





Sentyabrın 29-da cəbhəyə yollanıb, Füzuli cəbhəsində düşmənlə amansız mübarizəyə atılaraq rəşadətlə vuruşub. Cəbrayıl və Qubadlı uğrundakı qızğın döyüşlərdə igidlik göstərib. Cəsur əsgərin son savaşı oktyabrın 9-da olub. Həmin gün Qubadlı cəbhəsindəki qanlı döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Sabirabad şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021); "Qubadlının azad olunmasına görə" medalı (2021).*



## İSMAYILOV
## Sakit İsmayıl oğlu
**(07.01.1985 – 13.10.2020)**

Şəki rayonunun Aran kəndində anadan olub. Orta təhsilini 1991-2000-ci illərdə Aran kənd orta məktəbində alıb, təhsilini daha sonra Şəki şəhər 1 saylı Peşə Məktəbində davam etdirib. 2003-2004-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, DSX Sərhəd Qoşunlarında xidmət edib. 2010-cu ildə yenidən ordu sıralarına qayıdıb və SQ TTM-də kurs keçərək kiçik çavuş rütbəsində MAHHXHQ kimi xidmətə başlayıb. Sonuncu xidmət yeri cəbhə bölgəsində – Tərtərdə idi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini bir hərbçi kimi səngərlərdə qarşılayıb. İlk gündən Tərtər-Ağdərə cəbhəsindəki qanlı döyüşlərə atılaraq hünərlə vuruşub, Suqovuşan döyüşlərində qəhrəmanlıq göstərib. İgid hərbçi oktyabrın 13-də Ağdərə istiqamətindəki qızğın döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Nəşi oktyabrın 23-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Şəki şəhərindəki "Dovşan düzü" məzarlığında salınmış Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021).*



## İSMAYILOV
## Səxavət Sabir oğlu
(19.08.1997 – 07.10.2020)

Beyləqan rayonunun Dünyamalılar kəndində anadan olub. Orta təhsilini 2003-2014-cü illərdə Dünyamalılar kənd 2 saylı orta məktəbdə alıb. 2015-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına yazılmaq üçün könüllü olaraq müraciət edib. Həmin il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Sentyabrın 29-da cəbhəyə yollanaraq Füzuli cəbhəsində düşmənlə ölüm-dirim savaşına atılıb, bu rayon uğrundakı ağır döyüşlərdə şücaətlə vuruşub. Daha sonra Cəbrayıl cəbhəsində gedən həlledici döyüşlərdə hünərlə iştirak edib, misilsiz qəhrəmanlıq nümunəsi göstərib. Rəşadətli əsgər oktyabrın 7-də Cəbrayıl istiqamətindəki qanlı döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Doğulduğu Dünyamalılar kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## İSMAYILOV
## Sərdar Sərvər oğlu
(31.07.1995 – 03.10.2020)

Bakıda anadan olub. 2011-ci ildə Bakı şəhəri 101 saylı orta məktəbin IX sinfini, 2016-cı ildə Bakı İdarəetmə və Texnologiya Kollecini bitirib. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Goranboyda xidmət edib. 2020-ci ilin yayında yenidən ordu sıralarına qayıdıb və xidmətini kiçik çavuş rütbəsində MAHHXHQ kimi davam etdirməyə başlayıb. Həmin ilin sentyabrında Vətən müharibəsi başlayanda məzuniyyətdən yarımçıq çağırılaraq cəbhəyə göndərilib. Müharibənin ilk günündən Füzuli cəbhəsində düşmənlə amansız döyüşlərə atılıb, bu rayonun azad olunması uğrunda misilsiz rəşadətlə vuruşub, qanlı savaşlarda şəxsi igidlik nümunəsi göstərib. Oktyabrın 3-də Füzuli cəbhəsində qəhrəmancasına vuruşduğu döyüşlərin birində ağır yaralanıb, hospitala çatdırılsa da, həyatını xilas etmək mümkün olmayıb, cəsur döyüşçü həmin gün şəhidlik məqamına yüksəlib. Bakının Yeni Suraxanı qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## İSMAYILOV
## Tahir Niyazi oğlu
(30.01.1988 – 25.10.2020)

Qazax rayonunun Sofulu kəndində anadan olub. 2003-cü ildə Qazax şəhər humanitar və təbiət fənləri üzrə məktəb-liseyin IX sinfini, 2006-cı ildə Qazax Dövlət Sosial-İqtisadi Kollecini bitirib. 2006-2007-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Beyləqanda xidmət edib. 2009-cu ildə SQ TTM-də MAHHXHQ kursunu bitirərək xidmətə başlayıb. 2012-ci ildə ehtiyata buraxılıb. 2014-cü ildə yenidən orduya qayıdıb. 2018-ci ildə SQ TTM-də gizir hazırlığı kursu keçərək Beyləqanda xidmətini davam etdirib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini səngərlərdə qarşılayıb. İlk gündən Füzuli cəbhəsində döyüşlərə atılaraq rəşadətlə vuruşub. Cəbrayıl, Xocavənd və Qubadlı uğrundakı qanlı döyüşlərdə şücaət göstərib. Qəhrəman gizir oktyabrın 25-də Füzuli cəbhəsindəki şiddətli döyüşlərdə misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Qazax rayonunun Xanlıqlar kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## İSMAYILOV
## Taleh Səndəl oğlu
### (26.11.1986 – 04.11.2020)

Lənkəran rayonunun Boladi kəndində anadan olub. 2004-cü ildə Boladi kənd 1 saylı orta məktəbi bitirib. 2005-2006-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Goranboyda xidmət edib. 2015-ci ildə yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb, Ağcabədidə xidmət edirdi. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən savaş meydanlarında olub, misilsiz rəşadətlə vuruşub. İgid əsgərin döyüş yolu Ağdam, Füzuli, Xocavənd, Cəbrayıl, Zəngilan və Qubadlı cəbhələrindən keçib, bu həlledici döyüşlərdə qəhrəmanlıq göstərib. Noyabrın 4-də Şuşa uğrundakı qızğın döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Doğulduğu Boladi kəndində dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## İSMAYILOV
## Tural Nurəddin oğlu
### (10.03.1999 – 08.11.2020)

Daşkəsən rayonunun Zivlan kəndində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Gəncə şəhəri 13 saylı və Gəncədə yerləşən 109 saylı Kəlbəcər rayon orta məktəblərində alıb. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik





çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Savaşın ilk günlərindən Füzuli cəbhəsində düşmənlə amansız savaşa atılaraq igidliklə vuruşub. Füzulidən başlayan döyüş yolu Cəbrayıl və Xocavənd cəbhələri səngərlərindən keçərək Şuşa savaşlarına qədər davam edib, bu qanlı döyüşlərdə qəhrəmanlıq göstərib. Cəsur əsgərin son savaşı Şuşada olub. Noyabrın 8-də Şuşa ətrafındakı həlledici döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Nəşi noyabrın 16-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Gəncə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021).*



## İSMAYILOV
## Veyis Əflətun oğlu
### (23.02.1996 – 14.10.2020)

Yevlax şəhərində anadan olub. Orta təhsilini 2002-2011-ci illərdə Yevlax şəhəri 9 saylı və Bakı şəhəri 307 saylı orta məktəblərdə alıb. 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Qazaxda xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və sentyabrın 28-də cəbhəyə göndərilib. İlk günlərdən Tərtər-Ağdərə cəbhəsində düşmənlə ölüm-dirim çarpışmasına atılan qəhrəman əsgər Talış və Suqovuşan uğrundakı həlledici döyüşlərdə misilsiz şücaət göstərib, cəsurluğu ilə seçilib. Oktyabrın 14-də Suqovuşan ətrafında gedən qanlı döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 17-də müəyyən edilərək ailəsinə təhvil verilib. Bakının Bakıxanov qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## İSMAYILOV
## Vüqar Eldar oğlu
### (15.09.1993 – 06.10.2020)

Mingəçevir şəhərində anadan olub. Orta təhsilini Mingəçevir şəhəri 1 saylı orta məktəbdə alıb, 2009-cu ildə həmin məktəbin IX sinfini bitirib. 2011-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi səngərlərdə qarşılayıb, ilk gündən savaş meydanlarında olub, misilsiz rəşadətlə vuruşub. Döyüşlərə Kəlbəcər cəbhəsində başlayıb, Murovdağ döyüşlərində hünər göstərib. Sonra Tərtər-Ağdərə cəbhəsindəki qanlı savaşa atılıb, Talış və Suqovuşan döyüşlərində şücaəti və igidliyi ilə seçilib. Rəşadətli əsgər oktyabrın 6-da Suqovuşan ərtafında gedən qızğın döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Mingəçevir şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## İSMAYILOV
## Vüqar Məhəmməd oğlu
### (23.11.1998 – 04.10.2020)

Sumqayıt şəhərində anadan olub. 2015-ci ildə Sumqayıt şəhəri 28 saylı orta məktəbini bitirib. 2016-2020-ci illərdə Bakı Avrasiya Universitetində ali təhsil alıb. 2020-ci ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Xidmətə cəbhə bölgəsində – Goranboyda başlayıb, xidmətini daha sonra təmas xəttində, Ağdamda düşmənlə üzbəüz mövqelərdə davam etdirib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini





Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, ilk saatlardan ön xətdə, savaş meydanlarında olub, Tərtər-Ağdərə cəbhəsində düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq rəşadətlə vuruşub. Talış və Suqovuşan döyüşlərində böyük qəhrəmanlıq və şücaət göstərib. Cəsur əsgərin son savaşı oktyabrın 4-də olub. Həmin gün Suqovuşan uğrunda gedən qanlı döyüşlərdə misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Nəşi oktyabrın 16-da müəyyən edilərək ailəsinə təhvil veriib. Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## İSMAYILOV
## Vüsal Nəbi oğlu
### (09.04.1980 – 02.10.2020)

Oğuz rayonunun Xalxal kəndində anadan olub. Orta təhsilini 1986-1997-ci illərdə Xalxal kənd orta məktəbində alıb. 1998-2000-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə zonasında – Gədəbəyin Şınıx bölgəsində xidmət edib. 2002-ci ildə yenidən ordu sıralarına qayıdıb, gizir hazırlığı kursunu bitirəndən sonra xidmətini gizir rütbəsində davam etdirib, cəbhə bölgəsində – Beyləqanda xidmət edirdi. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin baş giziri kimi əldə silah savaş meydanlarında qarşılayıb, ilk gündən Füzuli cəbhəsində düşmənlə ölüm-dirim çarpışmasına atılaraq rəşadətlə vuruşub. Cəbrayıl döyüşlərində qəhrəmanlıq göstərib. İgid hərbçi oktyabrın 2-də Cəbrayılın Nüzgar kəndi istiqamətindəki şiddətli döyüşlərdə şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Xalxal kəndində dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2021).*



## İSMAYILZADƏ
## Əsgər Bəxtiyar oğlu
**(22.01.2000 – 03.10.2020)**

Yevlax rayonunun Gülövşə kəndində anadan olub. 2015-ci ildə Gülövşə kənd orta məktəbinin IX sinfini bitirərək Mingəçevir Turizm Kollecinə daxil olub. 2019-cu ildə kolleci bitirib, həmin ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. XTQ sıralarında xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah savaş meydanlarında qarşılayıb, ilk gündən XTQ sıralarında ön cəbhəyə yollanaraq Kəlbəcər cəbhəsində ağır döyüşlərə atılıb, Murovdağ yüksəklikləri uğrundakı şiddətli döyüşlərdə şücaətlə vuruşub. Sonra cəbhənin Füzuli istiqamətindəki həlledici döyüşlərdə hünərlə iştirak edib, şəxsi igidlik göstərib. Qəhrəman xüsusi təyinatlı əsgər oktyabrın 3-də Cəbrayıl cəbhəsində gedən qanlı döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Doğulduğu Gülövşə kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## İSMAYILZADƏ
## Məhəmməd Fizuli oğlu
**(12.06.1996 – 25.10.2020)**

Naxçıvan MR Şərur rayonunun Yengicə kəndində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Bakı şəhəri 65 və 317 saylı orta məktəblərdə alıb. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Naxçıvanda xüsusi təyinatlı dəstədə xidmət edib. 2020-ci ildə Türkiyənin Kütahya Dumlupınar Universitetinə qəbul olunub. Lakin pandemiyaya görə





təhsilini davam etdirə bilməyib. Həmin il sentyabrın 27-də Vətən müharibəsi başlayanda adını könüllülər sırasına yazdırıb. Sentyabrın 29-da ordu sıralarına çağırılaraq cəbhəyə göndərilib. Döyüşlərə Füzuli cəbhəsində başlayıb, ilk gündən şücaətlə vuruşub. Cəbrayıl və Xocavənd uğrundakı qanlı döyüşlərdə şəxsi igidlik göstərib. İki dəfə yaralansa da, döyüş meydanlarından geri çəkilməyib. Rəşadətli əsgər oktyabrın 25-də Füzuli cəbhəsində gedən şiddətli döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Bakının Dədə Qorqud qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## İSMAYILZADƏ
## Müşfiq Xanlar oğlu
**(16.10.1994 – 01.10.2020)**

Tovuz rayonunun Alakol kəndində anadan olub. 2009-cu ildə Gəncə şəhəri 44 saylı orta məktəbin IX sinfini bitirib. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2016-cı il Aprel döyüşləri ərəfəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılaraq təlimlərə cəlb edilib, lakin tezliklə atəşkəs elan edildiyi üçün tərxis olunub. 2020-ci ilin sentyabrında yenidən ordu sıralarına qayıdıb və MAHHXHQ kimi xidmətə başlayıb. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən Kəlbəcər cəbhəsindəki qanlı döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Sentyabrın 28-də yaralansa da, savaş meydanını tərk etməyib. Cəsur əsgər oktyabrın 1-də Murovdağdakı şiddətli döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 19-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Alakol kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Vətən uğrunda" medalı (2021).*



## İSMAYILZADƏ
## Sevindik Ramil oğlu
### (30.11.1998 – 19.10.2020)

Saatlı rayonunun Qara Nuru kəndində salınmış 2 nömrəli çadır şəhərciyində anadan olub, əslən Cəbrayılın Soltanlı kəndindən idi. Orta təhsilini 2005-2016-cı illərdə Bakının Sahil qəsəbəsindəki 228 saylı orta, Lökbatan qəsəbəsindəki 49 saylı Füzuli rayon orta və Biləsuvar rayonunda salınmış 11 saylı Cəbrayıl qəsəbəsindəki Çərəkən kənd orta məktəblərində alıb. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, DİN Daxili Qoşunlarında xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində yenidən orduya çağırılıb. Oktyabrın 9-da cəbhəyə yollanaraq Füzuli və Cəbrayıl istiqamətlərində döyüşlərə atılıb, şücaətlə döyüşüb. Qəhrəman əsgər oktyabrın 19-da Füzuli cəbhəsindəki qızğın döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Biləsuvardakı 3 saylı Cəbrayıl qəsəbəsində salınmış məzarlıqda dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## İSMAYILZADƏ
## Səməndər Vahid oğlu
### (25.08.1990 – 28.10.2020)

Yevlax şəhərində anadan olub. Orta təhsilini 1996-2007-ci illərdə Yevlax şəhəri 5 saylı orta məktəbdə alıb. 2008-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Daşkəsəndə xidmət edib. 2016-cı ildə yenidən ordu sıralarına qayıdıb və SQ TTM-də gizir hazırlığı kursunu bitirərək xidmətə başlayıb. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin giziri kimi əldə silah savaş meydanlarında qarşılayıb. İlk gündən qanlı döyüşlərə atılaraq rəşadətlə vuruşub. Cəbrayıl, Füzuli və Xocavənd uğrundakı həlledici döyüşlərdə qəhrəmanlıq nümunələri göstərib. İgid hərbçi oktyabrın 28-də Füzuli cəbhəsində gedən şiddətli döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Bakının Lökbatan qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.





**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## İSMAYILZADƏ
## Şəhriyar Əkbər oğlu
### (07.07.1994 – 08.11.2020)

Şirvan şəhərinin Hacıqəhrəmanlı qəsəbəsində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Hacıqəhrəmanlı qəsəbə 12 saylı orta məktəbdə alıb. 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çəçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və cəbhəyə göndərilib. İlk günlərdən savaş meydanlarında olub, qəhrəmancasına vuruşub. Cəsur əsgərin Füzulidən başlayan döyüş yolu Xocavənd, Cəbrayıl, Zəngilan və Qubadlı cəbhələri səngərlərindən keçərək Şuşa savaşlarına qədər uzanıb, bu rayonların azadlığı uğrundakı həlledici döyüşlərdə böyük şücaət göstərib, igidliyi ilə xüsusi fərqlənib. Noyabrın 8-də Şuşa uğrundakı qanlı döyüşlərdə misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Şirvan şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## İSMAYILZADƏ
## Şövqi Raqub oğlu
(23.02.1996 – 07.10.2020)

Bərdə rayonunun Bacıravan kəndində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Bacıravan kənd orta məktəbində alıb. 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Naxçıvanda DSX Sərhəd Qoşunlarında xidmət edib. 2020-ci ildə yenidən ordu sıralarına qayıdıb və kurs keçəndən sonra MAHHXHQ kimi xidmətə başlayıb. Cəbhə bölgəsində - Tərtərdə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk saatlarından düşmənlə ölüm-dirim savaşının getdiyi Tərtər-Ağdərə cəbhəsindəki qanlı döyüşlərə atılaraq misilsiz igidliklə vuruşub. Talış və Suqovuşan uğrundakı həlledici döyüşlərdə qəhrəmanlıq göstərib, cəsurluğu ilə seçilib. Rəşadətli əsgər oktyabrın 7-də Ağdərə istiqamətində gedən şiddətli döyüşlərin birində hünərlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Doğulduğu Bacıravan kəndində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## İSMAYILZADƏ
## Tacəddin Vüqar oğlu
(17.03.1996 – 12.02.2021)

Sumqayıtda anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Sumqayıt təbiət elmləri təmayüllü gimnaziyada və şəhər 1 saylı orta məktəbində alıb. 2013-cü ildə Sumqayıt Dövlət Universitetinə daxil olub, lakin II kursdan sonra təhsilini yarımçıq qoyub. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Cəbhə





bölgəsində - Beyləqan və Füzulidə xidmət edib. 2016-cı il Aprel döyüşlərində hünər göstərib. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra adını könüllülər siyahısına yazdırıb. Həmin ilin sentyabrında Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində sentyabrın 29-da orduya çağırılıb. Ağdam, Xocavənd və Füzuli döyüşlərində hünərlə iştirak edib, misilsiz şücaət göstərib. İgid əsgər oktyabrın 9-da Füzuli cəbhəsindəki şiddətli döyüşlərin birində ağır yaralanıb. 128 gün koma vəziyyətində qalıb. Həkimlərin səylərinə baxmayaraq, 2021-ci il fevralın 12-də şəhadətə qovuşub. Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Cəsur döyüşçü" medalı (2020) - (sağlığında); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Vətən uğrunda" medalı (2021).*



## İSMAYILZADƏ
## Uğur Hidayət oğlu
(18.07.1995 – 16.10.2020)

Yevlax rayonunun Qaramanlı kəndində anadan olub. Orta təhsilini 2001-ci ildə Rusiyanın Tümen vilayətində almağa başlayıb, 2010-cu ildə Qaramanlı kənd orta məktəbinin IX sinfini bitirib. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, xidmətinin yarısını Sülhməramlı qüvvələrin tərkibində Əfqanıstanda keçirib. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb edilib. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən cəbhənin Goranboy istiqamətində gedən qanlı döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Tərtər-Ağdərə cəbhəsindəki şiddətli döyüşlərdə hünərlə iştirak edib, Suqovuşan döyüşlərində böyük şücaət göstərib. Qəhrəman əsgər oktyabrın 16-da Ağdərə ətrafındakı qızğın döyüşlərin birində igidliklə vuruşaraq şəhadətə ucalıb. Yevlax şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



# İSMAYILZADƏ
## Vaqif Vüqar oğlu
### (06.11.1996 – 21.10.2020)

Beyləqan rayonunun Mil qəsəbəsində anadan olub, əslən Cəbrayılın Horovlu kəndindən idi. Orta təhsilini 2003-2014-cü illərdə Beyləqan rayon Araz qəsəbə orta məktəbində alıb. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2017-ci ilin noyabrında yenidən ordu sıralarında xidmətə qayıdıb, Beyləqan rayonunda hərbi polis sistemində xidmət edirdi. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayandan sonra könüllü olaraq döyüş zonasına gedib, israrlı müraciətlərindən sonra xidmətini ön cəbhədə davam etdirməyə başlayıb, yaralıların döyüş meydanlarından çıxarılmasında fədakarlıqla iştirak edib. Rəşadətli əsgər oktyabrın 21-də Xocavənd rayonunun Axullu kəndi istiqamətində gedən şiddətli vuruşmaların biri zamanı növbəti döyüş tapşırığını yerinə yetirərkən şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Beyləqan rayonunun Qəhrəmanlı qəsəbəsində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



# İSMAYILZADƏ
## Vüsal Əlibəndə oğlu
### (17.10.2001 – 21.10.2020)

Bakıda anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Bakı şəhəri 322 saylı orta məktəbdə alıb. 2019-cu ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb. İlk gündən düşmənlə ölümdirim savaşının getdiyi Füzuli cəbhəsindəki qanlı döyüşlərə atılaraq





şücaətlə vuruşub. Döyüş yolu daha sonra Cəbrayıl və Xocavənd cəbhələrindən keçib. Bu rayonların azad olunması uğrundakı həlledici döyüşlərdə böyük qəhrəmanlıq və şəxsi igidlik nümunəsi göstərib. Yaralansa da, savaş meydanından geri çəkilməyərək döyüşməkdə davam edib. Cəsur əsgərin son savaşı oktyabrın 21-də olub. Həmin gün Xocavənd rayonunun Düdükçü kəndi istiqamətində gedən şiddətli döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Bakının Buzovna qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021).*



# İSMAYILZADƏ
## Zaur Nizami oğlu
### (29.07.1995 – 07.10.2020)

Lənkəran rayonunun İstisu qəsəbəsində anadan olub. Orta təhsilini 2001-2012-ci illərdə Cəlilabad rayonu Göytəpə şəhəri 1 saylı orta məktəbdə alıb. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, DSX Sərhəd Qoşunlarında xidmət edib. 2015-ci ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirib. 2017-ci ildə səhhəti ilə bağlı tərxis olunub. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayanda yenidən ordu sıralarına qayıtmaq üçün könüllü olaraq müraciət edib. Bundan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində orduya çağırılaraq ön cəbhəyə göndərilib. Füzuli cəbhəsində düşmənlə amansız savaşlara atılaraq misilsiz rəşadətlə döyüşüb, cəsurluğu və şücaəti ilə fərqlənib. Qəhrəman əsgər oktyabrın 7-də Füzuli cəbhəsində gedən qanlı döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Doğulduğu İstisu qəsəbəsində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021).*



## İSMƏT
## Qismət oğlu
### (02.04.1998 – 08.11.2020)

Ağsu rayonunun Ərəbmehdibəy kəndində anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Ərəbmehdibəy kənd orta məktəbində alıb. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Qazaxda xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra təkidlə cəbhəyə göndərilməsini xahiş edib. Ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində sentyabrın 29-da ordu sıralarına çağırılaraq ön cəbhəyə göndərilib. Döyüşlərə cəbhənin Füzuli istiqamətində başlayıb, bu rayon uğrundakı qanlı savaşlarda misilsiz rəşadətlə vuruşub, cəsurluğu ilə fərqlənib. İgid əsgərin döyüş yolu daha sonra Xocavənd və Daşaltıdan keçərək Şuşa savaşlarına qədər uzanıb, bu şiddətli döyüşlərdə şücaət və mətinlik göstərib. Noyabrın 8-də Şuşa uğrundakı həlledici döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Doğulub boya-başa çatdığı Ərəbmehdibəy kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Azərbaycan Bayrağı" ordeni (2021).*



## İSMİYEV
## Emil Elman oğlu
### (07.08.2001 – 07.10.2020)

Ağdaş şəhərində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Ağdaş şəhəri 7 saylı orta məktəbdə alıb. 2019-cu ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından ön xətdə olub, düşmənlə ölüm-dirim





mübarizəsinin getdiyi Füzuli cəbhəsindəki qızğın döyüşlərə atılaraq şücaətlə vuruşub. Cəbhənin Füzuli, Xocavənd və Cəbrayıl istiqamətlərində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında hünərlə iştirak edib, bu rayonların azadlığı uğrundakı qızğın döyüşlərdə əsl qəhrəmanlıq nümunəsi və böyük şücaət göstərib, cəsurluğu və qorxmazlığı ilə xüsusi fərqlənib. Rəşadətli əsgərin son döyüşü oktyabrın 7-də olub. Həmin gün Füzuli rayonunun Musabəyli kəndinin işğaldan azad olunması uğrunda gedən qanlı döyüşlərdə misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Ağdaş şəhərində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020), "Füzulinin azad olunmasına görə" medalı (2022).*



## İSRAFİLOV
## Abdulla Yadigaroviç
### (27.01.1997 – 27.09.2020)

Rusiya Federasiyasının Vladimir vilayətində anadan olub. Orta təhsilini 2003-2012-ci illərdə Qax şəhərində və Vladimir vilayətində alıb, 2013-cü ildə Qax şəhəri 3 saylı orta məktəbin IX sinfini bitirib. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Daşkəsəndə xidmət edib. 2017-ci ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci ilin mayında kiçik çavuş rütbəsində XTQ sıralarına keçirilib. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir döyüşçü kimi əldə silah savaş meydanlarında qarşılayıb, ilk saatlardan düşmənlə ölüm-dirim çarpışmasının getdiyi Tərtər-Ağdərə cəbhəsindəki qanlı döyüşlərə atılaraq rəşadətlə vuruşub. Talış və Suqovuşanın azadlığı uğrunda gedən şiddətli döyüşlərdə igidlik göstərib. Cəsur döyüşçü sentyabrın 27-də Suqovuşan uğrundakı qızğın döyüşlərdə misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Qax şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## İSRAFİLOV
## Abdurahman İsrafil oğlu
### (11.06.1991 – 21.10.2020)

Zaqatala rayonunun Qımır kəndində anadan olub. Orta təhsilini 1997-2008-ci illərdə Qımır kənd orta məktəbində alıb. 2009-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində - Füzulidə xidmət edib. 2011-ci ildə ordu sıralarına qayıdıb və 2016-cı ilədək MAHHXHQ kimi xidmət edib. 2019-cu ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini baş çavuş rütbəsində MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir hərbçi kimi əldə silah savaş meydanlarında qarşılayıb, ilk gündən düşmənlə qızğın döyüşlərə atılaraq igidliklə vuruşub. Qəhrəman hərbçinin Füzulidən başlayan döyüş yolu daha sonra Cəbrayıl və Qubadlı cəbhələrindən keçib, bu qanlı savaşlarda şücaət göstərib. Son savaşı oktyabrın 21-də olub. Həmin gün Qubadlının azadlığı uğrundakı şiddətli döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Qımır kəndində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2021).*



## İSRAFİLOV
## Kənan Faiq oğlu
### (08.11.1990 – 05.10.2020)

Şəki rayonunun Şirinbulaq kəndində anadan olub. Orta təhsilini 1997-2004-cü illərdə Şirinbulaq kənd orta məktəbində, 2004-2008-ci illərdə C.Naxçıvanski adına Hərbi Liseydə alıb. 2008-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2012-ci ildə AAHM-i leytenant rütbəsində bitirib, SQ TTM-də kurs keçərək zabit kimi xidmətə başlayıb. 2013-2018-ci illərdə Murovda xidmət edib. 2018-ci ildə Silahlı Qüvvələrin Hərbi Akademiyasına qəbul olunub. Akademiyanı





2020-ci ildə bitirərək tabor komandiri təyin edilib. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kapitanı kimi zabit mundirində qarşılayıb, komandiri olduğu taborla birgə ilk gündən Tərtər-Ağdərə cəbhəsindəki şiddətli döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Talış və Suqovuşan döyüşlərində qəhrəmanlıq göstərib. İgid zabit oktyabrın 5-də Suqovuşan ətrafındakı qanlı döyüşlərdə hünərlə vuruşaraq şəhadətə qovuşub. Şirinbulaq kəndində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## İSRAFİLZADƏ
## Elçin Bəxtiyar oğlu
### (11.07.1990 – 11.10.2020)

Şəmkir rayonunun Qədimqala kəndində anadan olub. 2005-ci ildə Qədimqala kənd orta məktəbinin IX sinfini bitirib. 2008-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində - Ağcabədi və Füzulidə xidmət edib. 2015-ci ildən yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Sonuncu xidmət yeri Füzuli rayonunun cəbhə xəttindəki Şükürbəyli kəndində idi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb. İlk gündən Füzuli cəbhəsində düşmənlə amansız savaşa atılaraq misilsiz şücaətlə vuruşub. Xocavənd uğrundakı qanlı döyüşlərdə şəxsi igidlik və hünər göstərib. Rəşadətli əsgər oktyabrın 11-də Füzuli cəbhəsində gedən həlledici döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Qədimqala kəndində dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## İSRƏFİLOV
## Anar İsrəfil oğlu
**(04.01.1990 – 25.10.2020)**

Ağdaş rayonunun Orta Ləki kəndində anadan olub. Orta təhsilini 1996-2007-ci illərdə Orta Ləki kənd orta məktəbində alıb. 2008-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və oktyabrın 5-də ön cəbhəyə göndərilib. Döyüşlərə Cəbrayıl cəbhəsində başlayıb, daha sonra Xocavənd uğrundakı qızğın döyüşlərə atılaraq rəşadətlə vuruşub. Zəngilan, Qubadlı və Füzuli cəbhələrindəki şiddətli döyüşlərdə hünərlə iştirak edib, böyük şücaət göstərib. Qəhrəman əsgərin son savaşı oktyabrın 25-də olub. Həmin gün Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı kəndinin azadlığı uğrunda gedən qanlı döyüşlərdə misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Orta Ləki kənd məzarlığındakı Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021).*



## İSRƏFİLOV
## Vidadi Vaqif oğlu
**(18.06.1987 – 08.11.2020)**

Daşkəsən şəhərində anadan olub. Orta təhsilini 1993-2004-cü illərdə Daşkəsən rayon Bayan və Gurbulaq kənd, Daşkəsən şəhəri 2 saylı orta məktəblərində alıb. 2005-2009-cu illərdə Gəncə Dövlət Universitetində ali təhsil alıb. 2009-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və sentyabrın 29-da cəbhəyə göndərilib. Döyüşlərə Füzuli cəbhəsində başlayıb, bu qanlı vuruşmalarda əsl qəhrəmanlıq göstərib. Döyüş yolu daha sonra Cəbrayıl və Xocavənd cəbhəsi səngərlərindən keçərək Şuşa savaşlarına qədər uzanıb. Cəsur əsgər noyabrın 8-də Şuşa ətrafında gedən həlledici döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Gəncə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020).*







## İŞİYEV
## Rəfail Əhmədağa oğlu
**(04.09.1979 – 03.11.2020)**

Cəlilabad şəhərində anadan olub. Orta təhsilini 1986-1996-cı illərdə Cəlilabad şəhəri 1 və 8 saylı orta məktəblərdə alıb. 1998-2000-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində – Murovda xidmət edib. 2004-cü ildə yenidən ordu sıralarına qayıdıb və SQ TTM-də kurs keçərək MAHHXHQ kimi xidmətə başlayıb. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayanda Beyləqanda xidmət edirdi. İlk gündən Füzuli cəbhəsində şiddətli döyüşlərə atılaraq qəhrəmancasına vuruşub. Cəbrayıl və Xocavənd uğrundakı həlledici döyüşlərdə şücaət göstərib. İki dəfə yaralanıb, amma savaş meydanından geri çəkilməyib. İgid əsgər noyabrın 3-də Xocavənd istiqamətində gedən qanlı döyüşlərdə misilsiz rəşadətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Cəlilabad şəhərində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021).*



# İZZƏTLİ
## Fərid Aydın oğlu
## (21.03.1994 - 21.10.2020)

Şəki şəhərində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Şəki şəhəri 17 saylı orta məktəbdə alıb. 2011-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2015-ci ildə AAHM-i leytenant rütbəsində bitirib, SQ TTM-də müvafiq ixtisasartırma kursu keçəndən sonra zabit kimi xidmətə başlayıb. 2016-cı il Aprel döyüşlərində fədakarlıqla vuruşub. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin leytenantı kimi zabit mundirində qarşılayıb. Müharibənin ilk günündən ön xətdə, savaş meydanlarında olub, qəhrəmancasına vuruşub. Füzuli, Cəbrayıl və Xocavənd cəbhələrindəki həlledici döyüşlərdə igidliklə iştirak edib, şücaət göstərib. Rəşadətli zabitin son döyüşü oktyabrın 21-də olub. Həmin gün Xocavəndin azadlığı uğrunda gedən şiddətli döyüşlərin birində misilsiz hünərlə vuruşaraq şəhadətə qovuşub. Şəki şəhərində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021).*







# İZZƏTZADƏ
## Elgün Bəhram oğlu
## (15.03.1997 - 07.10.2020)

Qax şəhərində anadan olub. Orta təhsilini 2003-2014-cü illərdə Qax şəhəri 2 saylı beynəlmiləl orta məktəbdə və Qax şəhəri idman təmayüllü məktəbdə alıb. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində - Goranboyda xidmət edib. 2016-cı il Aprel döyüşlərində hünər göstərib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb, sentyabrın 29-da cəbhəyə yollanıb. Döyüşlərə Cəbrayıl istiqamətində başlayıb, bu qanlı savaşlarda rəşadətlə iştirak edib. Daha sonra Tərtər-Ağdərə cəbhəsindəki ağır döyüşlərə atılıb, Talış və Suqovuşan uğrundakı şiddətli vuruşmalarda şəxsi igidlik göstərib. Cəsur əsgər oktyabrın 7-də Suqovuşan ətrafındakı qızğın döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhadətə ucalıb. Nəşi oktyabrın 24-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Qax şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*

K



## KAMRANLI
## Xalid Kazım oğlu
### (23.09.1999 – 14.10.2020)

İmişli rayonunun Bəhrəmtəpə qəsəbəsində anadan olub. Orta təhsilini 2005-2014-cü illərdə Bəhrəmtəpə qəsəbə orta məktəbində alıb. Təhsilini 2014-2019-cu illərdə Mingəçevir Turizm Kollecində davam etdirib. 2019-cu ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Cəbhə bölgəsində – Tərtərdə xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi səngərlərdə qarşılayıb, ilk gündən düşmənlə ölüm-dirim savaşına atılaraq şücaətlə döyüşüb. Cəbhənin Tərtər-Ağdərə istiqamətində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında hünərlə iştirak edib, Talış və Suqovuşanın işğaldan azad edilməsində şəxsi igidlik göstərib. Cəsur əsgər Laçın istiqamətindəki ağır döyüşlərdə qorxmazlığı və mətinliyi ilə xüsusi seçilib. Oktyabrın 14-də Suqovuşan istiqamətindəki şiddətli döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Bəhrəmtəpə qəsəbəsində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## KAZIMLI
## Mürsəl Kamil oğlu
### (23.07.1992 – 23.10.2020)

Bakıda anadan olub. Orta təhsilini 1999-2010-cu illərdə Bakı şəhəri 278 saylı orta məktəbdə alıb. 2014-cü ildə Dövlət İqtisad Universitetini bitirib və elə həmin il də Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb. Müharibənin ilk günlərindən savaş meydanlarında olub, cəsurluqla döyüşüb. İgid əsgərin döyüş yolu Füzuli, Cəbrayıl və Xocavənd cəbhələri səngərlərindən keçib, bu rayonların azad olunması uğrundakı qanlı döyüşlərdə misilsiz rəşadətlə vuruşub, misilsiz qəhrəmanlıq nümunəsi göstərib. Son döyüşü oktyabrın 23-də olub. Həmin gün Füzuli rayonunun Kürdlər kəndi ətrafında gedən qızğın döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Bakıda – Suraxanı rayonunun Dədə Qorqud qəsəbəsində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## KAZIMOV
## Elvin Ədalət oğlu
### (03.12.1987 – 05.10.2020)

Bakıda anadan olub. Orta təhsilini 1994-2003-cü illərdə Bakı şəhəri 221 saylı orta məktəbdə alıb. 2003-2006-cı illərdə C.Naxçıvanski adına Hərbi Liseydə oxuyub. 2010-cu ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirib. 2011-ci ildə SQ Təlim-Tədris Mərkəzində xüsusi kursu başa vuraraq zabit kimi xidmətə başlayıb. Cəbhə bölgəsində – Ağdam, Ağcabədi, Füzuli, Beyləqan və Daşkəsəndə xidmət edib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kapitanı kimi zabit mundirində qarşılayıb, ilk gündən düşmənlə ölüm-dirim çarpışmasına atılaraq misilsiz igidliklə vuruşub. Rəşadətli zabit döyüşlərə Tərtər-Ağdərə və Laçın cəbhələri istiqamətində başlayıb. Talış və Suqovuşan uğrundakı qanlı döyüşlərdə hünərlə iştirak edib, böyük şücaət göstərib. Oktyabrın 5-də Talış kəndi ətrafındakı şiddətli döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. II Fəxri xiyabanda dəfn olunub. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020).*



## KAZIMOV
## Emin Fərman oğlu
**(07.12.1987 – 27.09.2020)**

Yevlax şəhərində anadan olub. Orta təhsilini 1994-2005-ci illərdə Yevlax şəhəri 4 saylı orta məktəbdə alıb. 2007-2008-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2016-cı ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Təmas xəttində - Tərtərdə xidmət edirdi. 2016-cı il Aprel və 2020-ci il iyul Tovuz döyüşlərində hünərlə iştirak edərək özünü cəsur döyüşçü kimi göstərib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah savaş meydanlarında qarşılayıb, ilk saatlardan ön xətdə olub, rəşadətlə vuruşub. Döyüşlərə Tərtər-Ağdərə cəbhəsində başlayıb, Talış və Suqovuşan uğrundakı qanlı döyüşlərdə böyük şücaət göstərib. Qəhrəman əsgər sentyabrın 27-də Suqovuşan istiqamətindəki qızğın döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Yevlax şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## KAZIMOV
## Əmir İlham oğlu
**(29.01.1998 – 10.10.2020)**

Bakının Şağan qəsəbəsində anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Bakı şəhəri 124 və 230 saylı orta məktəblərdə alıb. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində - Goranboy və Ağdamda xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində





yenidən ordu sıralarına çağırılıb. Sentyabrın 29-da ön cəbhəyə yollanaraq düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi Tərtər-Ağdərə cəbhəsində qanlı döyüşlərə atılıb. Talış və Suqovuşanın azadlığı uğrundakı həlledici savaşlarda rəşadətlə vuruşub. Cəsur əsgər oktyabrın 10-da Suqovuşan ətrafındakı şiddətli döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 27-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Şağan qəsəbəsindəki Qərib Pir məzarlığında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## KAZIMOV
## Xuduş Həsən oğlu
**(08.09.1988 – 02.10.2020)**

Rusiyanın Moskva şəhərində anadan olub. 1995-2004-cü illərdə Gəncə şəhəri 20 saylı orta məktəbdə, 2004-2006-cı illərdə isə Gəncə Texniki Kollecində təhsil alıb. 2006-2008-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2019-cu ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirib. Təmas xəttində - Murovda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir əsgər kimi səngərlərdə qarşılayıb. İlk gündən Tərtər-Ağdərə cəbhəsindəki qanlı savaşlara atılaraq qəhrəmancasına döyüşüb. Murovdağ və Suqovuşan uğrundakı qızğın döyüşlərdə şücaət göstərib. İgid əsgər oktyabrın 2-də Murovdağ istiqamətində gedən şiddətli döyüşlərin birində rəşadətlə vuruşaraq şəhidlik məqamına ucalıb. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi 2021-ci il yanvarın 20-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Gəncə şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2021); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## KAZIMOV
## İlkin Xanməmməd oğlu
**(04.08.1995 – 27.09.2020)**

Astara rayonunun Artupa kəndində anadan olub. Orta təhsilini 2001-2012-ci illərdə Artupa kənd orta məktəbində alıb. 2013-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini 2016-cı ildən etibarən MAHHXHQ kimi davam etdirməyə başlayıb, daha sonra müvafiq kurs keçərək gizir rütbəsi alıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin giziri kimi əldə silah döyüş meydanlarında qarşılayıb, savaşın ilk günlərindən Tərtər-Ağdərə cəbhəsindəki qanlı döyüşlərə atılıb, iştirak etdiyi vuruşmalarda böyük hünər göstərib. Rəşadətli döyüşçü Suqovuşanın azad olunması uğrunda mərdliklə vuruşub, bu həlledici döyüşlərdə şücaət göstərib. Sentyabrın 27-də Suqovuşan ətrafındakı şiddətli döyüşlərin birində hünərlə savaşaraq şəhid olub. Artupa kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020).*



## KAZIMOV
## İlqar Nazim oğlu
**(28.12.1996 – 09.11.2020)**

Gədəbəy şəhərində anadan olub. Orta təhsilini 2003-2012-ci illərdə Gəncə şəhəri 17 saylı orta məktəbdə, daha sonra isə 2 saylı Gəncə Peşə Liseyində alıb. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində Silahlı Qüvvələrin ehtiyatda olan





hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb, sentyabrın 29-da cəbhəyə yollanıb. Müharibənin ilk günlərindən düşmənlə ölüm-dirim savaşına atılaraq şücaətlə vuruşub. Cəsur əsgərin döyüş yolu Xocavənd cəbhəsi səngərlərindən başlayıb, Füzuli, Laçın, Şuşa uğrundakı savaşlara qədər uzanıb, bu qanlı döyüşlərdə böyük hünər göstərib, cəsurluğu ilə seçilib, Şuşa uğrunda rəşadətlə döyüşüb. Noyabrın 9-da Laçın istiqamətində gedən şiddətli döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Gəncə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020).*



## KAZIMOV
## Kamran Qurbanəli oğlu
**(07.12.1990 – 05.10.2020)**

Rusiyanın Voloqda vilayətində anadan olub. Orta təhsilini 1997-2008-ci illərdə Bakı şəhəri 63 saylı orta məktəbdə alıb. 2010-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. DİN Daxili Qoşunlarında xidmət edib. Tərxis olunandan bir neçə ay sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirib. 2012-2014-cü illərdə Daxili Qoşunların Ali Hərbi Məktəbində təhsil alıb. Məktəbi leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. 2017-ci ildən xüsusi təyinatlıların qrup komandiri olub. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini DİN Daxili Qoşunlarının baş leytenantı kimi zabit mundirində qarşılayıb, ilk gündən rəşadətlə vuruşub. Murovdağ, Füzuli, Cəbrayıl və Xocavənd döyüşlərində şücaət göstərib. Qəhrəman zabit oktyabrın 5-də Cəbrayıl cəbhəsindəki şiddətli döyüşlərin birində igidliklə savaşaraq şəhadətə ucalıb. II Fəxri xiyabanda dəfn olunub. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Qarabağ" ordeni (2020); "Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021).*



## KAZIMOV
## Rantiq Fizuli oğlu
(08.01.1987 – 28.09.2020)

Beyləqan rayonunun Mayak qəsəbəsində anadan olub. Orta təhsilini 1993-2004-ci illərdə Mayak qəsəbə orta məktəbində alıb. 2005-2006-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Daşkəsəndə xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Müharibənin ilk günlərindən ön cəbhəyə yollanaraq düşmənlə ölüm-dirim savaşına atılıb, bütün cəbhə boyu həyata keçirlən əks-hücum əməliyyatlarında hünərlə iştirak edib. İgid əsgər döyüşlərə Füzuli cəbhəsində başlayıb, bu rayonun işğaldan azad olunması uğrunda gedən həlledici döyüşlərdə rəşadətlə döyüşüb, qorxmazlığı və cəsurluğu ilə xüsusi fərqlənib. Sentyabrın 28-də Füzuli cəbhəsindəki qanlı döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Doğulduğu Mayak qəsəbəsində dəfn edilib. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## KAZIMOV
## Rəşad Nüsrət oğlu
(21.12.1989 – 25.10.2020)

Füzuli rayonunun Bala Bəhmənli kəndində anadan olub. 2007-ci ildə Bala Bəhmənli kənd orta məktəbini bitirib. 2008-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Naxçıvanda xidmət edib. 2016-cı ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Təmas xəttində – Füzulidə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah döyüş





meydanlarında qarşılayıb, ilk gündən ön xətdə olub, qanlı döyüşlərdə igidliklə iştirak edib. Döyüşlərə Füzuli cəbhəsində başlayıb, sonra Cəbrayıl və Xocavənd cəbhələrində gedən həlledici savaşlarda misilsiz şücaətlə vuruşub. Cəsur əsgərin son döyüşü oktyabrın 25-də olub. Həmin gün Xocavənd cəbhəsindəki şiddətli döyüşlərin birində misilsiz rəşadətlə savaşaraq şəhid olub. Bala Bəhmənli kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## KAZIMOV
## Rusif Yusif oğlu
(29.03.1997 – 05.11.2020)

Cəlilabad rayonunun Uzuntəpə kəndində anadan olub. 2003-2012-ci illərdə Uzuntəpə kənd orta məktəbində, 2012-2015-ci illərdə isə C.Naxçıvanski adına Hərbi Liseydə təhsil alıb. 2019-cu ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. Ağstafada XTQ sıralarında xidmət edirdi. 2020-ci il iyul Tovuz döyüşlərində hünər göstərib. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin leytenantı kimi zabit mundirində qarşılayıb, XTQ-nin tərkibində ilk gündən ağır döyüşlərə atılıb, Kəlbəcər, Tərtər-Ağdərə, Füzuli, Xocavənd, Cəbrayıl və Şuşa cəbhələrindəki qanlı vuruşmalarda misilsiz qəhrəmanlıq göstərib, şücaəti ilə seçilib. Rəşadətli xüsusi təyinatlının son savaşı noyabrın 5-də olub. Həmin gün Şuşa ətrafında düşmənlə açıq döyüşdə hünərlə savaşaraq şəhadətə qovuşub. Uzuntəpə kəndində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## KAZIMOV
## Vüsal Kamran oğlu
### (17.12.1990 – 27.10.2020)

Lənkəran rayonunun Yuxarı Nüvədi kəndində anadan olub. 2007-ci ildə Yuxarı Nüvədi kənd orta məktəbini, 2011-ci ildə Lənkəran Dövlət Universitetini bitirib. 2011-ci ildə Silahlı Qüvvələr sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, Tərtərdə xidmət edib. Xidmət dövründə SQ TTM-də zabit hazırlığı kursu keçərək leytenant rütbəsi alıb və xidmətini Gədəbəydə zabit kimi davam etdirib. 2013-cü ildə tərxis olunub, 2014-2015-ci illərdə hərbi polisdə xidmət edib. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra orduya qayıtmaq üçün könüllü müraciət edib. Həmin il sentyabrın 21-də ehtiyatda olan baş leytenant kimi orduya çağırılaraq təlimlərə cəlb olunub. Bir həftədən sonra Vətən müharibəsi başlayanda Cəbrayıl cəbhəsində qanlı döyüşlərə atılıb, Füzuli, Xocavənd və Şuşa uğrunda rəşadətlə savaşıb. İgid zabit oktyabrın 27-də Füzuli cəbhəsində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 29-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Yuxarı Nüvədi kəndində dəfn olunub. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "İgidliyə görə" medalı (2021).*



## KEÇİLİYEV
## Turqut Aydın oğlu
### (26.11.1997 – 25.10.2020)

Balakən rayonunun Hənifə kəndində anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Balakən rayon Qazma kənd orta məktəbində alıb. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2016-cı il Aprel döyüşlərində bir əsgər kimi şücaətlə iştirak edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən orduya çağırılıb. Sentyabrın 29-dan savaş meydanlarında olub, Füzuli cəbhəsində düşmənə qarşı ölüm-dirim çarpışmasına atılaraq rəşadətlə döyüşüb. Qəhrəman əsgər Cəbrayıl və Xocavənd istiqamətlərində gedən qanlı vuruşmalarda da öz mətinliyi və cəsurluğu ilə seçilib, böyük hünər göstərib. Oktyabrın 25-də Füzuli cəbhəsində gedən şiddətli döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Doğulub boya-başa çatdığı Hənifə kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*







## KƏLBALIYEV
## Səyavuş Hümbət oğlu
### (16.10.1987 – 29.09.2020)

Cəbrayıl rayonunun Horovlu kəndində andan olub. Orta təhsilini 1994-2005-ci illərdə Bakının Pirşağı qəsəbəsində yerləşən Şuşa şəhər 6 saylı orta məktəbdə alıb. 2009-cu ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində, 2010-cu ildə isə SQ TTM-in ixtisasartırma kursunu bitirərək zabit kimi xidmətə başlayıb. 2012-ci ildə kurs keçərək XTQ sıralarına daxil olub. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin mayoru kimi zabit mundirində qarşılayıb, ilk gündən həlledici döyüşlərdə olub. Füzuli və Cəbrayılı azad etmək məqsədilə hücum əməliyyatının hazırlanmasında peşəkar kəşfiyyatçı kimi mühüm rol oynayıb. Füzuli uğrunda gedən qanlı döyüşlərdə qəhrəmanlıq göstərib. Rəşadətli zabit sentyabrın 29-də elə Füzuli cəbhəsindəki döyüşlərdə yaralansa da, savaşa davam edib, misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Bakının Bakıxanov qəsəbəsində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Azərbaycan Bayrağı" ordeni (2021).*



## KƏLBƏLİYEV
## Mirkazım Firuz oğlu
### (05.11.1992 – 27.09.2020)

Bakıda anadan olub. Orta təhsilini 1999-2010-cu illərdə Bakı şəhəri 172 saylı orta məktəbdə alıb. 2011-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Təmas xəttində – Füzulidə xidmət edib. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini 2020-ci ildən MAHHXHQ kimi davam etdirib. Cəbhə bölgəsində – Tərtərdə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından Tərtər-Ağdərə cəbhəsində düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq qəhrəmancasına vuruşub. Talış və Suqovuşan uğrundakı qanlı döyüşlərdə şəxsi igidlik nümunəsi göstərib. Cəsur əsgər müharibənin elə ilk günü – sentyabrın 27-də Suqovuşan uğrunda gedən qızğın döyüşlərdə rəşadətlə savaşaraq şəhid olub. Bakının Müşfiqabad qəsəbəsində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## KƏLBİYEV
## Murad Məməziyad oğlu
### (11.01.1996 – 06.10.2020)

Qusar rayonunun Cibir kəndində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Cibir kənd orta məktəbində alıb. 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Təmas xəttində – Füzulidə xidmət edib. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini 2020-ci ilin avqustundan etibarən MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından döyüş meydanlarında olub, düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi Füzuli və Cəbrayıl cəbhələrindəki qanlı döyüşlərə atılaraq misilsiz igidliklə vuruşub. İgid əsgər Xocavənd uğrundakı həlledici döyüşlərdə rəşadət göstərib, qorxmazlığı və hünəri ilə xüsusi seçilib. Oktyabrın 6-da Füzuli istiqamətində gedən şiddətli döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Doğulub boya-başa çatdığı Cibir kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*







## KƏLBİYEV
## Şaiq Namik oğlu
### (10.09.1994 – 16.10.2020)

Bakıda anadan olub. Orta təhsilini 2001-2012-ci illərdə Bakının Sahil qəsəbəsindəki 273 və 319 saylı orta məktəblərdə alıb. Təhsilini 2012-2014-cü illərdə Sosial-İqtisad Kollecində davam etdirib. 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. XTQ sıralarında xidmət edib. 2016-cı Aprel döyüşlərində hünərlə iştirak edərək yaralanıb. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və sentyabrın 29-da cəbhəyə göndərilib. Rəşadətli əsgər döyüşlərə Füzuli cəbhəsində başlayıb. Döyüş yolu daha sonra Cəbrayıl və Tərtər-Ağdərə cəbhələrindən keçib, qanlı Suqovuşan döyüşlərində böyük hünər göstərib, cəsurluğu ilə seçilib. Oktyabrın 16-da Ağdərə uğrunda gedən qızğın döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Bakının Lökbatan qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



# KƏLBİYEV
## Telman Yadigar oğlu
**(24.03.1988 – 02.10.2020)**

Neftçala rayonunun Bankə qəsəbəsində anadan olub. 2005-ci ildə Bankə qəsəbəsi 1 saylı orta məktəbi bitirib. 2006-2007-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Cəbhə bölgəsində – Tərtərdə xidmət edib. 2017-ci ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirib, daha sonra gizir hazırlığı kursunu bitirib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin giziri kimi savaş meydanlarında qarşılayıb. Müharibənin ilk saatlarından Murovdağ yüksəklikləri uğrundakı qızğın döyüşlərdə rəşadətlə savaşıb, böyük hünər göstərib. Qəhrəman gizir bu qanlı döyüşlərdə yaralansa da, savaş meydanını tərk etməyib. Oktyabrın 2-də Kəlbəcər cəbhəsindəki şiddətli döyüşlərdə misilsiz igidliklə savaşaraq şəhadətə ucalıb. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 26-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Neftçala şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Vətən uğrunda" medalı (2021).*



# KƏRƏMOV
## Zaməddin Bahadur oğlu
**(24.01.2001 – 03.10.2020)**

Oğuz rayonunun Bucaq kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Bucaq kənd orta məktəbində alıb. 2019-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində – Murovda xidmət edib. Tərxis olunandan bir ay sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2020-ci ilin avqustundan MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini





Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk günündən düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi döyüş meydanlarında olub, misilsiz rəşadətlə vuruşub. Cəsur əsgər döyüşlərə Kəlbəcər cəbhəsində başlayıb, Suqovuşan uğrundakı həlledici döyüşlərdə qəhrəmanlıq göstərib. Oktyabrın 3-də Murovdağ silsiləsi istiqamətindəki qanlı döyüşlərdə şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 16-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Bucaq kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Vətən uğrunda" medalı (2021).*



# KƏRİMLİ
## Azad Elşad oğlu
**(07.02.1997 – 14.10.2020)**

Göyçay rayonunun Yenikənd kəndində anadan olub. 2014-cü ildə Göyçay rayon Kürdşaban kənd orta məktəbini bitirib. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra yenidən ordu sıralarına qoşulmaq üçün könüllü olaraq müraciət edib. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsinin ilk günündən Tərtər-Ağdərə cəbhəsində düşmənlə ölüm-dirim savaşına atılıb, qəhrəmancasına vuruşub. İgid əsgər Talış və Suqovuşan uğrundakı qanlı döyüşlərdə misilsiz rəşadət göstərib. Oktyabrın 14-də Ağdərə ətrafında gedən qızğın döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 17-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Yenikənd kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## KƏRİMLİ
## İsmayıl Ceyhun oğlu
### (10.10.1997 – 03.11.2020)

Bakıda anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Bakı şəhəri 132-134 saylı təhsil kompleksində və 157 saylı orta məktəbdə alıb. 2019-cu ildə Memarlıq və İnşaat Universitetini bitirib və elə həmin il də Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2020-ci ildə tərxis olunub. Həmin il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra yenidən ordu sıralarına qoşulmaq üçün könüllü olaraq müraciət edib, israrlı müraciətlərindən sonra oktyabrın 3-də cəbhəyə yollanıb. Qəhrəman kəşfiyyatçı-əsgər döyüşlərə Kəlbəcər cəbhəsində başlayıb. Daha sonra Xocavənd cəbhəsində vuruşub, Hadrut uğrundakı qanlı savaşda şəxsi igidlik göstərib. Şuşa cəbhəsindəki həlledici vuruşmalarda mətinliklə iştirak edib, hünəri ilə seçilib. Son döyüşü noyabrın 3-də olub. Həmin gün Şuşa ətrafında, 1553 yüksəkliyi uğrunda gedən qızğın döyüşlərdə misilsiz rəşadətlə vuruşaraq şəhid olub. II Fəxri xiyabanda dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## KƏRİMLİ
## Qalası Müslüm oğlu
### (08.01.2000 – 04.11.2020)

Hacıqabul rayonunun Muğan qəsəbəsində anadan olub. Orta təhsilini 2006-2017-ci illərdə Muğan qəsəbə tam orta məktəbində alıb. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılaraq təlimlərə cəlb edilib. Bir həftədən sonra başlayan Vətən müharibəsini səngərlərdə qarşılayıb. Savaşın ilk günündən Füzuli cəbhəsinin döyüş meydanlarında olub, rəşadətlə vuruşub. Hadrut uğrundakı qanlı döyüşlərdə şücaəti ilə fərqlənib. Cəsur əsgərin döyüş yolu daha sonra Qubadlı, Xocavənd və Şuşa cəbhələrindən keçib, bu qızğın döyüşlərdə hünər göstərib. Noyabrın 4-də Daşaltı istiqamətində gedən şiddətli döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi 2021-ci il aprelin 21-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Muğan qəsəbəsində dəfn edilib. Subay idi.





**Təltifləri:** *"Cəsur döyüşçü" medalı (2020); "Vətən uğrunda" medalı (2021); "İgidliyə görə" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021).*



## KƏRİMLİ
## Məhəmməd Məzahim oğlu
### (16.12.2000 – 30.09.2020)

Neftçala şəhərində anadan olub. Orta təhsilini 2007-2016-cı illərdə Neftçala şəhəri 4 saylı orta məktəbdə alıb. Təhsilini 2016-cı ildən Bakı Qida Sənayesi Kollecində davam etdirib. 2020-ci ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, XTQ sıralarında xidmət edirdi. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi səngərlərdə qarşılayıb, ilk gündən düşmənlə ölüm-dirim savaşına atılaraq şücaətlə döyüşüb. Qəhrəman xüsusi təyinatlı cəbhənin Füzuli, Xocavənd və Kəlbəcər istiqamətlərində həyata keçirilən əks-hücum əməliyyatlarında hünərlə iştirak edib. Murovdağ döyüşlərində rəşadət göstərib, bu ağır döyüşlərdə cəsurluğu ilə seçilib. Sentyabrın 30-da Murovdağ yüksəklikləri uğrundakı qanlı döyüşlərdə misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Neftçala şəhərində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Azərbaycan Bayrağı" ordeni (2021).*



## KƏRİMLİ
## Nihat Teymur oğlu
## (08.07.1996 – 06.10.2020)

Ağdaş rayonunun Ərəbocağı kəndində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Ərəbocağı kənd orta məktəbində alıb. 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Gədəbəydə xidmət edib. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və hərbi təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah savaş meydanlarında qarşılayıb, ilk gündən ön xətdə olub, bütün cəbhəboyu həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında hünərlə iştirak edib. Cəbhənin Ağdam istiqamətindəki qanlı döyüşlərə atılan igid əsgər bu şiddətli döyüşlərdə misilsiz qəhrəmanlıq nümunəsi göstərib, öz qorxmazlığı və mətinliyi ilə xüsusi seçilib. Son döyüşü oktyabrın 6-da olub. Həmin gün Ağdam cəbhəsində gedən qızğın döyüşlərin birində şücaətlə savaşaraq şəhidlik zirvəsinə yüksəlib. Doğulub boya-başa çatdığı Ərəbocağı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Ağdamın azad olunmasına görə" medalı (2021).*



## KƏRİMLİ
## Orxan Akif oğlu
## (06.10.2001 – 09.10.2020)

Göyçay şəhərində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Göyçay şəhəri 7 saylı orta məktəbdə alıb. 2018-ci ildə Naxçıvan Dövlət Universitetinə qəbul olunub. 2019-cu ilin oktyabrında təhsilini yarımçıq qoyaraq Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə yollanıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. İlk gündən ön xətdə, döyüş meydanlarında olub, Kəlbəcər cəbhəsində düşmənlə ölüm-dirim savaşına atılaraq igidliklə vuruşub, bu döyüşlərdə şücaəti və qorxmazlığı ilə xüsusi seçilib. Cəsur əsgər Qubadlının azad olunması uğrunda gedən qanlı döyüşlərdə hünərlə savaşıb, böyük qəhrəmanlıq və şəxsi igidlik nümunəsi göstərib. Oktyabrın 9-da Murovdağ uğrundakı şiddətli döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Göyçay şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020).*



## KƏRİMLİ
## Ramin Əli oğlu
## (17.12.1999 – 28.09.2020)

İmişli rayonunun Qaragüvəndikli kəndində anadan olub. Orta təhsilini 2006-2017-ci illərdə Qaragüvəndikli kənd orta məktəbində alıb. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıtmağa qərar verib və 2020-ci ilin avqustundan etibarən xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Cəbhə bölgəsində – Beyləqanda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah ön xətdə, döyüş meydanlarında qarşılayıb, savaşın ilk saatlarından Füzuli cəbhəsi səngərlərində düşmənlə ölüm-dirim çarpışmasına atılaraq misilsiz igidliklə vuruşub, bu həlledici döyüşlərdə böyük qəhrəmanlıq və mətinlik göstərib. Rəşadətli əsgər sentyabrın 28-də Füzuli uğrunda gedən qanlı döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Doğulub boya-başa çatdığı Qaragüvəndikli kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## KƏRİMLİ
## Səməd İkram oğlu
(16.12.2000 – 08.11.2020)

Biləsuvar rayonunun Əliabad kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Əliabad kənd orta məktəbində alıb. 2019-cu ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə bölgəsində – Beyləqanda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk saatlarından ön cəbhədə, döyüş meydanlarında olub, misilsiz rəşadətlə vuruşub. Füzuli, Xocavənd, Cəbrayıl, Qubadlı və Zəngilan istiqamətlərindəki ağır döyüşlərdə böyük şücaət göstərib, bu rayonların azadlığı uğrunda gedən həlledici savaşlarda cəsurluğu ilə fərqlənib. İgid əsgərin savaş yolu Şuşa döyüşlərinə qədər davam edib. Noyabrın 8-də Şuşa ətrafındakı qızğın döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Əliabad kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## KƏRİMOV
## Ağamoğlan Yusif oğlu
(18.04.2002 – 21.10.2020)

Salyan rayonunun Xocalı kəndində anadan olub. Orta təhsilini 2008-2019-cu illərdə Xocalı kənd və Salyan şəhəri 4 saylı orta məktəblərdə alıb. 2019-cu ildə Masallı Dövlət Regional Kollecinə daxil olub, 2020-ci ilin aprelində təhsilini yarımçıq qoyaraq Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə yollanıb. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi səngərlərdə qarşılayıb, savaşın ilk günündən ön xətdə olub,





qatıldığı qızğın döyüşlərdə böyük şücaət və hünər göstərib. Vuruşmağa Füzuli cəbhəsində başlayan qəhrəman əsgərin döyüş yolu daha sonra Cəbrayıl və Qubadlı səngərlərindən keçib, bu rayonların azad olunması uğrundakı həlledici döyüşlərdə misilsiz rəşadətlə vuruşub. Son döyüşü oktyabrın 21-də olub. Həmin gün Qubadlı uğrundakı qanlı döyüşlərin birində igidliklə vuruşaraq şəhadətə ucalıb. Doğulduğu Xocalı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020).*



## KƏRİMOV
## Asif Məmməd oğlu
(25.03.1989 – 02.11.2020)

Cəlilabad rayonunun Ləzran kəndində anadan olub. 2006-cı ildə Ləzran kənd orta məktəbini, 2010-cu ildə Azərbaycan Dövlət Neft Akademiyasını bitirib. 2011-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, xidmət dövründə kurs keçərək leytenant rütbəsi alıb. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb, oktyabrın 15-dən leytenant kimi zabit mundirində düşmənlə ölüm-dirim mübarizəsinə atılıb, qanlı savaşlarda hünərlə iştirak edib, Füzuli, Qubadlı və Şuşa cəbhələrindəki qızğın döyüşlərdə misilsiz igidlik göstərib. Rəşadətli zabit noyabrın 2-də Şuşa uğrunda gedən şiddətli döyüşlərdə şücaətlə savaşaraq şəhidlik zirvəsinə yüksəlib. Ləzran kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021).*



## KƏRİMOV
## Ayaz Azər oğlu
(12.02.2002 – 14.10.2020)

Salyan rayonu Qaraçala qəsəbəsinin Çadırlı kəndində anadan olub. Orta təhsilini 2008-2019-cu illərdə Salyan rayon Kolanı kənd orta məktəbində alıb. 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Təmas xəttində - Tərtərdə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah ön xətdə, döyüş meydanlarında qarşılayıb. Müharibənin ilk saatlarından düşmənlə ölüm-dirim savaşının getdiyi Tərtər-Ağdərə cəbhəsindəki qızğın vuruşmalara atılaraq qəhrəmancasına döyüşüb. Suqovuşanın, Ağdərənin və Talış kəndinin işğaldan azad olunması uğrunda gedən qanlı döyüşlərdə şəxsi igidlik nümunəsi və şücaət göstərib. Cəsur əsgərin son döyüşü oktyabrın 14-də olub. Həmin gün Tərtərin Talış kəndi istiqamətində növbəti döyüş tapşırığını yerinə yetirən zaman misilsiz rəşadətlə savaşaraq şəhid olub. Doğulub boya-başa çatdığı Çadırlı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## KƏRİMOV
## Cavid Mərdan oğlu
(23.02.1999 – 29.09.2020)

Yevlax rayonunun Aşağı Bucaq kəndində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Yevlax rayon Xaldan kənd orta məktəbində alıb. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2020-ci ilin yanvarından etibarən MAHHXHQ kimi davam etdirib. Təmas xəttində - Tərtərdə xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan





Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi Tərtər-Ağdərə cəbhəsindəki qanlı döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. İgid əsgər Suqovuşan, Talış kəndi və Ağdərə qəsəbəsi uğrundakı həlledici döyüşlərdə qəhrəmanlıq nümunəsi göstərib. Sentyabrın 29-da Suqovuşan ətrafında gedən qızğın döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Yevlax şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## KƏRİMOV
## Elgün Rauf oğlu
(17.09.1999 – 16.10.2020)

Yevlax rayonunun Aran qəsəbəsində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Aran qəsəbə 1 saylı orta məktəbində alıb. 2017-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2020-ci ilin avqustundan etibarən MAHHXHQ kimi davam etdirib. Xidmətə başlayandan bir ay sonra - sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb. İlk gündən savaş meydanlarına atılan rəşadətli əsgərin döyüş yolu Kəlbəcər və Tərtər-Ağdərə cəbhələri səngərlərindən keçib. Murovdağ, Talış və Suqovuşan döyüşlərində igidliklə vuruşub, bu ərazilərin azad edilməsi uğrunda döyüşlərdə misilsiz rəşadət göstərib, hünəri və cəsurluğu ilə fərqlənib. Oktyabrın 16-da Suqovuşan ətrafındakı şiddətli döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Aran qəsəbəsində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## KƏRİMOV
## Elmir Rəhim oğlu
**(26.05.1998 – 01.10.2020)**

Balakən rayonunun Hənifə kəndində anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Hənifə kənd orta məktəbində, humanitar və texniki təmayüllü liseydə və Balakən şəhəri 3 saylı orta məktəbdə alıb. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2018-ci ildə yenidən ordu sıralarına qayıdaraq xidmətini MAHHXHQ kimi davam etdirib. Son xidmət yeri Goranboyda idi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi səngərlərdə qarşılayıb, ilk saatlardan misilsiz rəşadətlə vuruşub. Murovdağ döyüşlərində qəhrəmanlıqla iştirak edib. Talış və Suqovuşan uğrundakı qanlı savaşlarda böyük şücaət göstərib. Qəhrəman əsgər oktyabrın 1-də Talış kəndi ətrafındakı qızğın döyüşlərin birində igidliklə vuruşaraq şəhadətə ucalıb. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 27-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Hənifə kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## KƏRİMOV
## Elşən Rövşən oğlu
**(26.06.2001 – 15.10.2020)**

Goranboy rayonunun Qızılhacılı qəsəbəsində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Qızılhacılı qəsəbə orta məktəbində alıb. 2019-cu ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Cəbhə bölgəsində – Beyləqanda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından ön xətdə, döyüş meydanlarında





olub, xidmət etdiyi hərbi hissənin tərkibində qızğın döyüşlərə atılıb, iştirak etdiyi həlledici vuruşmalarda qəhrəmanlığı ilə seçilib. Cəsur əsgər Füzuli, Xocavənd və Cəbrayıl uğrunda gedən qanlı döyüşlərdə misilsiz rəşadətlə vuruşub. Xüsusilə Füzuli döyüşlərində öz qorxmazlığı ilə fərqlənib. Oktyabrın 15-də Füzulinin azad olunması uğrundakı şiddətli döyüşlərin birində şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Qızılhacılı qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2021).*



## KƏRİMOV
## Eltun Zaur oğlu
**(01.02.2001 – 28.09.2020)**

Rusiya Federasiyası Sverdlovsk vilayətinin Karpinsk şəhərində anadan olub. Orta təhsilini 2007-2015-ci illərdə Karpinsk şəhərində, 2015-2018-ci illərdə Şəki şəhəri 9 saylı orta məktəbdə alıb. 2019-cu ilin aprelində Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Təmas xəttində – Tərtərdə xidmət edirdi. 2020-ci il iyul Tovuz döyüşlərində hünərlə iştirak edərək özünü cəsur döyüşçü kimi göstərib. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi səngərlərdə qarşılayıb, döyüşlərə Tərtər-Ağdərə cəbhəsində, Talış yüksəklikləri istiqamətində başlayıb. Sonra isə Laçın cəbhəsində gedən qanlı savaşlarda iştirak edərək şücaətlə vuruşub, böyük hünər göstərib. İgid əsgər sentyabrın 28-də Suqovuşan ətrafındakı qızğın döyüşlərin birində misilsiz rəşadətlə savaşaraq şəhid olub. Nəşi oktyabrın 26-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Şəki şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## KƏRİMOV
## Elvin Mürşüd oğlu
### (13.09.1985 – 10.10.2020)

Biləsuvar rayonunun Çaylı kəndində anadan olub. Orta təhsilini 1992-2002-ci illərdə Çaylı kənd orta məktəbində alıb. 2003-2005-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, XTQ-də xidmət edib. 2014-cü ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini DSX Sərhəd Qoşunları sıralarında xüsusi təyinatlı döyüşçü kimi davam etdirib. 2016-cı il Aprel və 2020-ci il iyul Tovuz döyüşlərində hünərlə iştirak edib. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsi zamanı XTQ-nin tərkibində ilk gündən Tərtər-Ağdərə cəbhəsindəki ağır döyüşlərə atılıb, Talış, Suqovuşan və Hadrut uğrundakı qanlı döyüşlərdə misilsiz qəhrəmanlıq göstərib. Rəşadətli kiçik çavuşun son savaşı oktyabrın 10-da olub. Həmin gün Suqovuşan istiqamətində kəşfiyyat zamanı düşmənlə açıq döyüşə girərək igidliklə döyüşüb, bu savaşda hünərlə vuruşaraq şəhadətə qovuşub. Doğulduğu Çaylı kəndində dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020).*



## KƏRİMOV
## Emil İlqar oğlu
### (07.09.1993 – 26.10.2020)

Qazax rayonunun İkinci Şıxlı kəndində anadan olub. Orta təhsilini 1999-2010-cu illərdə İkinci Şıxlı kənd orta məktəbində alıb. 2011-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini səngərlərdə qarşılayıb, ilk gündən ön xətdə olub, düşmənlə ölüm-dirim çarpışmasının getdiyi Füzuli cəbhəsindəki qanlı döyüşlərə atılaraq hünərlə vuruşub. Füzuli və Cəbrayılın azad olunması uğrundakı həlledici döyüşlərdə misilsiz rəşadət göstərib, öz mətinliyi və şücaəti ilə xüsusi fərqlənib. Cəsur əsgərin son döyüşü oktyabrın 26-da olub. Həmin gün Füzuli cəbhəsində gedən şiddətli döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Doğulub boya-başa çatdığı İkinci Şıxlı kəndində dəfn olunub. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.





**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## KƏRİMOV
## Əhməd Vaqif oğlu
### (04.08.1989 – 07.11.2020)

Göyçay şəhərində anadan olub. Orta təhsilini 1995-2006-cı illərdə Göyçay şəhəri 5 saylı orta məktəbdə alıb. 2010-cu ildə Azərbaycan Kooperasiya Universitetini bitirib və elə həmin il də Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, 2011-ci ildə tərxis olunaraq ehtiyata buraxılıb. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və oktyabrın 4-də cəbhəyə göndərilib. Qəhrəman əsgər döyüşlərə Füzuli cəbhəsində başlayıb, bu rayon uğrundakı həlledici döyüşlərdə böyük şücaət göstərib. Döyüş yolu Daşaltı da daxil olmaqla Şuşa savaşlarına qədər uzanıb, bu qanlı döyüşlərdə cəsurluğu ilə seçilib. Noyabrın 7-də Şuşa uğrundakı qanlı döyüşlərdə misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Bakının Suraxanı rayonundakı Dədə Qorqud məzarlığında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021).*



## KƏRİMOV
## Haxverdi Sadıq oğlu
### (01.12.2000 – 21.10.2020)

Şamaxı rayonunun Ovçulu kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Ovçulu kənd orta məktəbində alıb. 2019-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini 2020-ci ilin avqustundan etibarən MAHHXHQ kimi davam etdirməyə başlayıb. Bir aydan sonra başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah ön xətdə, döyüş meydanlarında qarşılayıb, savaşın ilk saatlarından etibarən Kəlbəcər cəbhəsi səngərlərində düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq Murovdağ yüksəklikləri uğrunda rəşadətlə vuruşub. İgid əsgərin döyüş yolu daha sonra Xocavənd və Füzuli səngərlərindən keçib, bu rayonlar uğrunda gedən həlledici vuruşmalarda qəhrəmanlıq nümunəsi göstərib. Oktyabrın 21-də Füzuli cəbhəsində gedən qanlı döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Doğulduğu Ovçulu kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020).*



## KƏRİMOV
## İsmayıl Abbas oğlu
### (03.11.1990 – 05.10.2020)

Qəbələ rayonunun Tüntül kəndində anadan olub. Orta təhsilini 1997-2008-ci illərdə Nohurqışlaq kənd orta məktəbində alıb. 2009-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına qoşulmaq üçün könüllü olaraq müraciət edib. Həmin il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi





qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən döyüş meydanlarında olub, igidliklə savaşıb. Cəsur döyüşçü Tərtər-Ağdərə cəbhəsi boyunca həyata keçirilən əks-hücum əməliyyatlarında hünərlə iştirak edib, Suqovuşan uğrundakı qanlı döyüşlərdə böyük şücaət və mətinlik göstərib. Oktyabrın 5-də Tərtər-Ağdərə cəbhəsində gedən həlledici döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Tüntül kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## KƏRİMOV
## Kamil Ələddin oğlu
### (02.07.1995 – 01.10.2020)

Qazax rayonunun Ürkməzli kəndində anadan olub. Orta təhsilini 2001-2012-ci illərdə Ürkməzli kənd orta məktəbində alıb. 2017-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasını bitirib. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan bir müddət sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2019-cu ildən MAHHXHQ kimi davam etdirib. Şəmkirdə xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin çavuşu kimi səngərlərdə qarşılayıb, ilk gündən ağır döyüşlərə atılaraq qəhrəmancasına vuruşub. Kəlbəcər cəbhəsindəki qızğın döyüşlərdə böyük şücaət və şəxsi igidlik nümunəsi göstərib. Rəşadətli döyüşçü oktyabrın 1-də Murovdağ cəbhəsində gedən qanlı savaşların birində hünərlə vuruşaraq şəhadətə qovuşub. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 17-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Doğulduğu Ürkməzli kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Vətən uğrunda" medalı (2021).*



## KƏRİMOV
## Mustafa Mayis oğlu
(27.11.1995 – 06.10.2020)

Bakıda anadan olub. 2013-cü ildə Bakı şəhəri 181 saylı orta məktəbi bitirib. 2013-2017-ci illərdə Türkiyənin Ərdəhan Universitetində ali təhsil alıb. 2019-cu ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən ön xətdə, savaş meydanlarında olub, qatıldığı qızğın döyüşlərdə böyük şücaət və hünər göstərib. Vuruşmağa Füzuli cəbhəsində başlayan igid əsgərin döyüş yolu daha sonra Xocavənd və Cəbrayıl cəbhələri səngərlərindən keçib, bu rayonların azad olunması uğrunda gedən həlledici döyüşlərdə misilsiz rəşadətlə vuruşub. Oktyabrın 6-da Cəbrayıl cəbhəsində gedən qanlı döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Bakının Buzovna qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021).*



## KƏRİMOV
## Sənan Rəhman oğlu
(29.03.1991 – 07.10.2020)

Ağdam şəhərində anadan olub. Orta təhsilini 1998-2006-cı illərdə Bakı şəhəri 204 saylı orta məktəbdə, 2006-2009-cu illərdə C.Naxçıvanski adına Hərbi Liseydə alıb. 2013-cü ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. 2016-cı il Aprel və 2020-ci il iyul Tovuz döyüşlərində hünərlə iştirak edərək özünü cəsur hərbçi kimi göstərib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin baş leytenantı kimi zabit mundirində qarşılayıb, ilk gündən ön xətdə, savaş meydanlarında olub, bütün cəbhəboyu həyata keçirilən əks-hücum əməliyyatlarında mətinliklə döyüşüb. Döyüşlərə Füzuli cəbhəsində başlayıb, daha sonra Cəbrayıl uğrunda gedən qanlı savaşlarda misilsiz şücaət göstərib. Rəşadətli zabitin son döyüşü oktyabrın 7-də olub. Həmin gün Cəbrayıl cəbhəsindəki şiddətli döyüşlərin birində igidliklə savaşaraq şəhadətə ucalıb. II Fəxri xiyabanda dəfn edilib. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); 3-cü dərəcəli "Rəşadət" ordeni (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## KƏRİMOV
## Sübhan Murtuz oğlu
(29.01.1996 – 09.11.2020)

Ağstafa rayonunun Qıraq Kəsəmən kəndində anadan olub. 2013-cü ildə Qıraq Kəsəmən kənd orta məktəbini bitirib. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində – Füzulidə xidmət edib. 2016-cı il Aprel döyüşlərində igidliklə vuruşub. 2017-ci ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirib. 2020-ci il iyul Tovuz döyüşlərində cəsurluqla vuruşub. 2020-ci ilin avqustunda ordudan tərxis olunub. Həmin il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində yenidən orduya çağırılıb. Oktyabrın 25-də Füzuli cəbhəsində döyüşlərə atılıb, bu qızğın vuruşmalarda misilsiz qəhrəmanlıq göstərib. Füzuli, Xocavənd və Şuşa uğrunda gedən həlledici döyüşlərdə rəşadətlə savaşıb. Noyabrın 9-da Şuşa ətrafındakı qanlı savaşlarda şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Qıraq Kəsəmən kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## KƏRİMOV
## Şamo Elman oğlu
(17.12.1987 – 08.10.2020)

Cəlilabad rayonunun Maşlıq kəndində anadan olub. Orta təhsilini 1994-2005-ci illərdə Maşlıq kənd orta məktəbində və ailəsi ilə birlikdə yaşadığı Rusiya Federasiyasının Lipetsk şəhərində alıb. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra yenidən ordu sıralarına qoşulmaq üçün könüllü olaraq müraciət edib. Həmin il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Sentyabrın 28-də cəbhəyə yollanaraq düşmənlə qanlı savaşa atılıb. Füzuli, Cəbrayıl və Qubadlı cəbhələrində gedən həlledici döyüşlərdə şücaətlə vuruşub. Qəhrəman əsgər oktyabrın 8-də Cəbrayıl istiqamətindəki qızğın döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Maşlıq kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021); "Qubadlının azad olunmasına görə" medalı (2021).*



## KƏRİMOV
## Taleh Adil oğlu
(06.03.1985 – 30.10.2020)

Sumqayıtın Corat qəsəbəsində anadan olub. Orta təhsilini 1992-2003-cü illərdə Corat qəsəbə 7 saylı orta məktəbdə və "İstedad" liseyində alıb. 2007-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirib, 2007-2008-ci illərdə SQ TTM-də kurs keçərək zabit kimi xidmətə başlayıb. Murov, Daşkəsən, Naftalan və Tərtərdə xidmət edib. 2016-cı il Aprel döyüşlərində igidliklə vuruşub.





2020-ci ildən Baş Kəşfiyyat İdarəsinin baş zabiti idi. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin mayoru kimi zabit mundirində qarşılayıb. İlk gündən Füzuli cəbhəsində döyüşüb, Cəbrayıl, Qubadlı və Hadrut əməliyyatlarında peşəkar kəşfiyyatçı kimi mühüm rol oynayıb. Rəşadətli zabit oktyabrın 30-da Qubadlı uğrundakı qanlı döyüşlərdə hünərlə vuruşaraq şəhadətə qovuşub. Nəşi noyabrın 12-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi.

**Təltifləri:** *"Qarabağ" ordeni (2020); "Vətən uğrunda" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021).*



## KƏRİMOV
## Tərlan Daşqın oğlu
(08.08.1992 – 01.10.2020)

Şabran şəhərində anadan olub. Orta təhsilini 1999-2007-ci illərdə Şabran şəhəri 2 saylı orta məktəbdə, 2007-2010-cu illərdə C.Naxçıvanski adına Hərbi Liseydə alıb. 2014-cü ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirib. 2014-2015-ci illərdə SQ TTM-də ixtisasartırma kursu keçərək zabit kimi xidmətə başlayıb. 2016-cı il Aprel döyüşlərində hünərlə vuruşub. 2020-ci ildən cəbhə xəttində – Beyləqanda xidmət edirdi. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin baş leytenantı kimi zabit mundirində qarşılayıb, ilk gündən Murovdağ yüksəklikləri uğrunda gedən qanlı döyüşlərə atılaraq misilsiz rəşadətlə savaşıb. Daha sonra Füzuli və Cəbrayıl cəbhələrindəki həlledici döyüşlərdə şücaət göstərib. İgid zabit oktyabrın 1-də Füzuli uğrundakı şiddətli döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Şabran şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "İgidliyə görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## KƏRİMOV
## Tofiq Dadaş oğlu
**(07.07.1973 – 09.11.2020)**

Bakının Sahil qəsəbəsində anadan olub. Orta təhsilini 1980-1990-cı illərdə 253 saylı orta məktəbdə və C.Naxçıvanski adına Hərbi Liseydə alıb. Təhsilini 1990-cı ildən S.S.Biryuzov adına Riqa Ali Hərbi-Siyasi Məktəbində davam etdirib. Birinci Qarabağ savaşı başlayanda təhsilini yarımçıq qoyaraq vətənə dönüb və müharibəyə yollanıb. Sonra təhsilini vətəndə davam etdirib, Bakı Ali Ümumqoşun Komandirlər Məktəbinin müdavimi olub. 2010-cu ildə kapitan rütbəsində ehtiyata buraxılıb. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan zabit kimi yenidən orduya çağırılıb. Oktyabrın 15-dən savaş meydanlarında olan rəşadətli zabit döyüşlərə Laçın cəbhəsində başlayıb, sonra Şuşa uğrundakı qanlı savaşlarda şücaət göstərib. Noyabrın 9-da Şuşa ətrafındakı qızğın döyüşlərdə misilsiz igidliklə vuruşaraq şəhadətə ucalıb. Lökbatan qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "İgidliyə görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## KƏRİMOV
## Ülvi Rövşən oğlu
**(11.09.1988 – 16.10.2020)**

Yevlax rayonunun Salahlı kəndində anadan olub. 2005-ci ildə Salahlı kənd orta məktəbini bitirib. 2006-2008-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2016-cı ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Təmas xəttində – Tərtərdə xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kiçik çavuşu kimi səngərlərdə qarşılayıb. Müharibənin ilk saatlarından





düşmənlə ölüm-dirim savaşının getdiyi Tərtər-Ağdərə cəbhəsindəki qızğın döyüşlərə atılaraq qəhrəmancasına döyüşüb. Suqovuşanın azad olunması uğrunda gedən qanlı döyüşlərdə şəxsi igidlik göstərib. Cəsur kəşfiyyatçı oktyabrın 16-da Suqovuşan ətrafındakı yüksəkliklərdən birinin azad olunması uğrunda gedən qanlı döyüşdə misilsiz şücaətlə savaşaraq şəhidlik zirvəsinə yüksəlib. Salahlı kəndində dəfn edilib. Ailəli idi, dörd övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## KƏRİMOV
## Zaur Saleh oğlu
**(02.02.1996 – 27.10.2020)**

Kürdəmir rayonunun Atakişili kəndində anadan olub. 2013-cü ildə Atakişili kənd orta məktəbini bitirib. 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, DSX Sərhəd Qoşunlarında xidmət edib. 2018-ci ildə yenidən ordu sıralarına qayıdıb və SQ TTM-də müvafiq kurs keçərək XTQ sıralarında MAHHXHQ kimi xidmətə başlayıb. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsinin ilk günündən ağır döyüşlərə atılaraq igidliklə vuruşub. Kəlbəcər, Tərtər, Füzuli, Cəbrayıl, Xocavənd, Qubadlı, Şuşa uğrundakı qanlı vuruşmalarda böyük şücaət göstərib. Qəhrəman xüsusi təyinatlı oktyabrın 27-də Şuşa istiqamətindəki şiddətli döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhadətə qovuşub. Kürdəmir şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Qubadlının azad olunmasına görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## KƏRİMZADƏ
## Mirxəyal Valeh oğlu
(10.01.1999 - 03.11.2020)

Lənkəran şəhərində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Lənkəran şəhəri 9 və 7 saylı orta məktəblərdə alıb. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra yenidən ordu sıralarına qoşulmaq üçün könüllü müraciət edib. Həmin il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb, ilk günlərdən savaş meydanlarında olub, cəsurluqla döyüşüb. Murovdağ, Füzuli, Cəbrayıl, Xocavənd və Şuşa uğrundakı qanlı döyüşlərdə hünərlə iştirak edib. İgid əsgər noyabrın 3-də Xocavənd ətrafında gedən şiddətli döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Lənkəran şəhərində Kiçik bazar məzarlığında dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021).*



## KİRXLAROV
## Nazim Nadir oğlu
(20.12.1993 - 21.10.2020)

Bakının Əmircan qəsəbəsində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Əmircan qəsəbə 226 saylı orta məktəbdə və 1 saylı liseydə alıb. 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2014-cü ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirib.





2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi Füzuli cəbhəsində qarşılayıb. İlk gündən düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq qəhrəmancasına vuruşub. Cəbrayıl, Qubadlı və Laçın uğrunda qanlı döyüşlərdə böyük şücaət göstərib. Rəşadətli əsgər oktyabrın 21-də Laçın cəbhəsindəki qızğın döyüşlərdə igidliklə savaşaraq şəhadətə ucalıb. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 23-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Əmircan qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020).*



## KÜRƏBƏYOV
## Mayıl Kamran oğlu
(02.04.2001 - 02.10.2020)

Qusar rayonunun Urva kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Urva kənd orta məktəbində alıb. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Cəbhə bölgəsində - Beyləqanda xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən ön xətdə, döyüş meydanlarında olub, düşmənlə amansız mübarizəyə atılaraq bu qızğın vuruşmalarda böyük hünər və şəxsi igidlik nümunəsi göstərib. Füzulinin azad olunması uğrunda gedən qanlı döyüşlərdə misilsiz rəşadətlə vuruşub. Rayonun Yuxarı Əbdürrəhmanlı kəndi uğrundakı şiddətli döyüşlərdə öz qəhrəmanlığı və mətinliyi ilə xüsusi fərqlənib. Cəsur əsgərin son döyüşü də bu cəbhədə olub. Oktyabrın 2-də Füzuli istiqamətində gedən həlledici döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Qusar şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2021).*

Q



## QABİLOV
## İsmayıl Əli oğlu
## (15.07.1983 - 27.09.2020)

Kəlbəcər rayonunun Mozqaraçanlı kəndində anadan olub. Orta təhsilini 1990-2001-ci illərdə Gəncə şəhəri 8 saylı orta məktəbdə alıb. 2001-2003-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində - Ağdamda xidmət edib. 2015-ci ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini çavuş rütbəsində MAHHXHQ kimi davam etdirib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin çavuşu kimi əldə silah səngərlərdə qarşılayıb. İlk saatlardan Kəlbəcər cəbhəsində qanlı döyüşlərə atılaraq misilsiz şücaətlə vuruşub. Rəşadətli hərbçi Murovdağ yüksəklikləri uğrundakı həlledici döyüşlərdə şəxsi igidlik nümunəsi göstərib. Müharibənin elə ilk günü - sentyabrın 27-də Murovdağ döyüşlərində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 5-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Göygöl şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021).*



## QAÇAYEV
## İntizam Əkbər oğlu
## (14.12.2001 - 21.10.2020)

Göyçay rayonunun İkinci Ərəbcəbirli kəndində anadan olub. Orta təhsilini 2008-2019-cu illərdə İkinci Ərəbcəbirli kənd orta məktəbində alıb. 2020-ci ilin yanvarında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Cəbhə zonasında - Ağcabədidə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk günündən ön xətdə - düşmənlə ölüm-dirim çarpışmasının getdiyi Füzuli cəbhəsindəki döyüş meydanlarında olub, qatıldığı həlledici savaşlarda misilsiz rəşadətlə vuruşub, cəsurluğu ilə seçilib. Cəbrayıl istiqamətində gedən şiddətli döyüşlərdə qəhrəmanlıq nümunəsi göstərib. İgid əsgərin son savaşı oktyabrın 21-də olub. Həmin gün Qubadlının azad olunması uğrundakı qızğın döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə ucalıb. Doğulub boya-başa çatdığı İkinci Ərəbcəbirli kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Qubadlının azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## QAÇAYEV
## Röyal Fərman oğlu
## (05.01.2002 - 14.10.2020)

Qobustan rayonunun Sündü kəndində anadan olub. Orta təhsilini 2008-2019-cu illərdə Sündü kənd orta məktəbində alıb. 2020-ci ilin yanvarında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə bölgəsində xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk saatlarından ön cəbhədə, savaş meydanlarında olub, düşmənlə ölüm-dirim çarpışmasının getdiyi Tərtər-Ağdərə cəbhəsindəki ağır döyüşlərə atılaraq şücaətlə vuruşub. Cəsur əsgər Talış kəndinin və Suqovuşanın azad olunması uğrunda gedən qanlı döyüşlərdə böyük hünər və şəxsi igidlik nümunəsi göstərib, qorxmazlığı ilə xüsusi seçilib. Son döyüşü oktyabrın 14-də olub. Həmin gün Suqovuşan istiqamətində gedən şiddətli döyüşlərin birində misilsiz rəşadətlə savaşaraq şəhid olub. Doğulub boya-başa çatdığı Sündü kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QAFAROV
## Elnur Mirzəxan oğlu
(21.12.1981 – 16.10.2020)

Siyəzən şəhərində anadan olub. Orta təhsilini 1988-1999-cu illərdə Siyəzən şəhəri 2 saylı orta məktəbdə və Siyəzən Texniki Peşə Məktəbində alıb. 2000-2001-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2013-cü ildə yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin çavuşu kimi əldə silah Füzuli cəbhəsi səngərlərində qarşılayıb. Savaşın ilk saatlarından düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq misilsiz rəşadətlə vuruşub. Xocavənd və Cəbrayılın azad olunması uğrunda gedən qızğın savaşlarda qəhrəmancasına döyüşərək şəxsi igidlik nümunəsi göstərib. Qəhrəman hərbçi oktyabrın 16-da Hadrut istiqamətindəki qanlı döyüşlərin birində şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Doğulduğu Siyəzən şəhərində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə medalı" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## QAFAROV
## Kənan Siyaqif oğlu
(06.08.1996 – 06.10.2020)

Göyçay rayonunun Yalman kəndində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Yalman kənd orta məktəbində alıb. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, xidmət dövründə XTQ sıralarına cəlb edilib. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. Tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini





MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsi zamanı XTQ-nin tərkibində ilk gündən ağır döyüşlərə atılıb, qanlı döyüşlərin getdiyi Kəlbəcər, Tərtər-Ağdərə, Füzuli, Xocavənd və Cəbrayıl cəbhələrində gedən həlledici vuruşmalarda əsl qəhrəman kimi iştirak edib, Talış və Suqovuşan döyüşlərində misilsiz şücaət göstərib. Rəşadətli xüsusi təyinatlı əsgər oktyabrın 6-da Füzuli cəbhəsindəki qızğın döyüşlərin birində igidliklə vuruşaraq şəhadətə qovuşub. Doğulduğu Yalman kəndində dəfn edilib. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020); "Azərbaycan Bayrağı" ordeni (2021).*



## QAFAROV
## Zərbəli Vidadi oğlu
(13.06.1990 – 08.10.2020)

Gəncə şəhərində anadan olub. Orta təhsilini 1997-2008-ci illərdə Gəncə şəhəri 15 saylı orta məktəbdə alıb. 2008-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində – Füzulidə xidmət edib. 2019-cu ildə yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Cəbhə bölgəsində – Goranboyda xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi Tərtər-Ağdərə cəbhəsindəki həlledici döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. İgid əsgər Suqovuşan, Talış və Ağdərə uğrundakı şiddətli döyüşlərdə böyük şücaət göstərib. Oktyabrın 8-də Suqovuşan ətrafında gedən qanlı döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Gəncə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## QAFLANOV
## Şixamir Oruc oğlu
### (07.12.1986 – 19.10.2020)

Zaqatala rayonunun Üçüncü Tala kəndində anadan olub. Orta təhsilini 1993-2004-cü illərdə Üçüncü Tala kənd orta məktəbində alıb. 2005-2006-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, DİN Daxili Qoşunlarının xüsusi təyinatlı dəstəsində xidmət edib. 2007-ci ildə yenidən Silahlı Qüvvələr sıralarına qayıdıb və xidmətini Daxili Qoşunlarda MAHHXHQ kimi davam etdirib. 2008-2010-cu illərdə DİN Daxili Qoşunlarının Orta İxtisas Hərbi Məktəbində ali təhsil alaraq xidmətini 2010-cu ildən leytenant rütbəsində davam etdirib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Daxili Qoşunların mayoru kimi zabit mundirində qarşılayıb. Xüsusi təyinatlı dəstənin komandiri kimi ilk gündən Füzuli cəbhəsində şücaətlə vuruşub. Cəsur zabit Cəbrayıl cəbhəsində və Hadrut uğrunda gedən şiddətli döyüşlərdə müstəsna qəhrəmanlıq göstərib. Oktyabrın 19-da Xocavənd cəbhəsindəki qanlı döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə ucalıb. Üçüncü Tala kəndində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən Müharibəsi Qəhrəmanı" adı (2020); "Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020).*



## QALAYÇİYEV
## Faiq İsrafil oğlu
### (16.12.2001 – 01.11.2020)

Balakən rayonunun Kortala kəndində anadan olub. Orta təhsilini 2008-2019-cu illərdə Kortala kənd orta məktəbində alıb. 2020-ci ilin yanvarında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, DSX Sərhəd Qoşunlarında xidmət edirdi. 2020-ci il iyul Tovuz döyüşlərində hünərlə iştirak edərək özünü cəsur döyüşçü





kimi göstərib. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah savaş meydanlarında qarşılayıb, ilk gündən ön xətdə olub, bütün cəbhəboyu həyata keçirilən əks-hücum əməliyyatlarında igidliklə iştirak edib. Döyüşlərə Ağdam cəbhəsində başlayan qəhrəman əsgər Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilanın işğaldan azad edilməsi uğrundakı qanlı savaşlarda böyük şücaət göstərib, cəsurluğu və mətinliyi ilə xüsusi seçilib. Noyabrın 1-də Zəngilan istiqamətində gedən şiddətli döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Doğulub boya-başa çatdığı Kortala kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Zəngilanın azad olunmasına görə" medalı (2020).*



## QANIYEV
## İsaxan İsaman oğlu
### (11.11.1985 – 27.09.2020)

Şamaxı şəhərində anadan olub. Orta təhsilini 1991-2002-ci illərdə Şamaxı şəhəri texniki, humanitar və təbiət fənləri təmayüllü internat tipli liseydə alıb. 2004-2005-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Beyləqanda xidmət edib. 2013-cü ildə yenidən ordu sıralarına qayıdıb və SQ TTM-də gizir hazırlığı kursunu bitirərək xidmətini davam etdirməyə başlayıb. Təmas xəttində – Tərtərdə xidmət edirdi. 2016-cı il Aprel və 2020-ci il iyul Tovuz döyüşlərində hünərlə iştirak edərək özünü cəsur döyüşçü kimi göstərib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin giziri kimi əldə silah Tərtər-Ağdərə cəbhəsi səngərlərində qarşılayıb, misilsiz igidliklə vuruşub. İlk qanlı savaşlarda qəhrəmanlıq göstərən rəşadətli hərbçi müharibənin elə ilk günü – sentyabrın 27-də Suqovuşan istiqamətindəki qızğın döyüşlərdə şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Şamaxı şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## QARACAYEV
## Nurlan Ömər oğlu
## (10.05.1999 – 06.10.2020)

Balakən rayonunun Kortala kəndində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Kortala kənd orta məktəbində alıb. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində – Tərtərdə xidmət edib. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk saatlarından ön xətdə, döyüş meydanlarında olub, rəşadətlə vuruşub. Qəhrəman əsgər Tərtər-Ağdərə cəbhəsi boyunca həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında hünərlə iştirak edib, Suqovuşanın azadlığı uğrunda gedən qanlı döyüşlərdə böyük şücaət və mətinlik göstərib. Oktyabrın 6-da Suqovuşan ətrafındakı qanlı döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə qovuşub. Balakən şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## QARAXANOV
## Səfa Yenişar oğlu
## (22.02.1994 – 28.09.2020)

Salyan rayonunun Xələc kəndində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Xələc kənd orta məktəbində alıb. 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2015-ci ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk günündən ön xətdə, döyüş meydanlarında olub, misilsiz rəşadətlə vuruşub. Döyüşlərə Füzuli cəbhəsində başlayıb, buradakı qanlı savaşlarda şəxsi igidlik nümunəsi göstərib. Cəbrayıl və Xocavənd istiqamətindəki həlledici vuruşmalarda şücaəti və mətinliyi ilə seçilib. Cəsur əsgər sentyabrın 28-də Füzuli cəbhəsində gedən şiddətli döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Xələc kəndində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "İgidliyə görə" medalı (2021).*



## QARAYEV
## Amal Ədalət oğlu
## (23.01.2001 – 03.10.2020)

Yardımlı rayonunun Ərus kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Fizika-riyaziyyat və informatika təmayüllü Respublika Liseyində alıb. 2019-cu ilin aprelində Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, XTQ sıralarında xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kiçik çavuşu kimi əldə silah səngərlərdə qarşılayıb, ilk saatlardan ön xətdə, düşmənlə ölüm-dirim çarpışmasının getdiyi Murovdağ cəbhəsindəki döyüş meydanlarında olub, bu qanlı savaşlarda rəşadətlə vuruşub. Füzuli və Cəbrayıl uğrundakı qızğın döyüşlərdə hünər və şəxsi igidlik göstərən qəhrəman xüsusi təyinatlının son savaşı oktyabrın 3-də olub. Həmin gün Cəbrayıl istiqamətindəki şiddətli döyüşlərin birində misilsiz hünərlə vuruşaraq şəhadətə ucalıb. Ərus kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## QARAYEV
## Anar Çingiz oğlu
### (16.06.1998 – 04.10.2020)

Qax rayonunun Almalı kəndində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Almalı kənd orta məktəbində alıb. 2020-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetini bitirib. Həmin ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Təmas xəttində - Goranboyda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk günündən ön xətdə, savaş meydanlarında olub, düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi Tərtər-Ağdərə cəbhəsindəki qızğın döyüşlərə atılıb, bu ağır savaşlarda misilsiz şücaətlə vuruşub. Talış və Suqovuşanın işğaldan azad olunması uğrunda gedən həlledici döyüşlərdə qəhrəmanlıqla iştirak edib, bu savaşlarda öz hünəri və cəsurluğu ilə xüsusi fərqlənib. İgid əsgər oktyabrın 4-də Suqovuşan ətrafındakı qanlı döyüşlərin birində rəşadətlə vuruşaraq şəhid olub. Doğulub boya-başa çatdığı Almalı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## QARAYEV
## Cavid Əmirxan oğlu
### (05.09.1984 – 26.10.2020)

Füzuli rayonunun Kərimbəyli kəndində anadan olub. Orta təhsilini 1990-2001-ci illərdə Kərimbəyli kənd orta məktəbində alıb. 2002-2004-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2004-2008-ci illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında təhsil alıb. 2016-cı ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Təmas xəttində - Füzulidə xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin çavuşu kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən döyüşlərə atılaraq qəhrəmancasına vuruşub. Füzuli və Xocavənd cəbhələrindəki qanlı döyüşlərdə şəxsi igidlik göstərib. Rəşadətli hərbçi oktyabrın 26-da Füzuli cəbhəsindəki qızğın döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Doğulduğu Kərimbəyli kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QARAYEV
## Elnur Qalib oğlu
### (13.11.1996 – 02.11.2020)

Şirvan şəhərində anadan olub. Orta təhsilini 2003-2014-cü illərdə Şirvan şəhəri 1 saylı orta məktəbdə alıb. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Ağcabədidə xidmət edib. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına qoşulmaq üçün könüllü olaraq müraciət edib. Həmin il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini əldə silah döyüş meydanlarında qarşılayıb. İlk gündən düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq rəşadətlə vuruşub. Füzuli və Xocavənd uğrunda gedən qanlı döyüşlərdə qəhrəmanlıq göstərib. Cəsur əsgər noyabrın 2-də Xocavənd cəbhəsindəki şiddətli döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə qovuşub. Nəşi noyabrın 17-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Şirvan şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020), 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2022).*



## QARAYEV
## Elyaz Vəli oğlu
(20.10.1998 – 28.10.2020)

Bərdə rayonunun Dəymədağıldı kəndində anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Dəymədağıldı kənd orta məktəbində alıb. 2016-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Beyləqanda xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb, savaşın ilk günlərindən ön xətdə olub, qatıldığı qızğın döyüşlərdə böyük şücaət və hünər göstərib. Vuruşmağa Füzuli cəbhəsində başlayan igid əsgərin döyüş yolu daha sonra Xocavənd, Cəbrayıl, Qubadlı və Zəngilan cəbhələri səngərlərindən keçib, bu rayonlar uğrundakı həlledici döyüşlərdə misilsiz rəşadətlə vuruşub. Oktyabrın 28-də Şuşa istiqamətində gedən qanlı döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Doğulduğu Dəymədağıldı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020).*



## QARAYEV
## Namiq Qarakişi oğlu
(21.04.1979 – 01.10.2020)

Ucar rayonunun Qazıqumlaq kəndində anadan olub. Orta təhsilini 1986-1996-cı illərdə Qazıqumlaq kənd 1 saylı orta məktəbində alıb. 1997-1999-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2017-ci ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini





Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk günündən düşmənlə ölüm-dirim savaşının getdiyi Kəlbəcər cəbhəsindəki döyüş meydanlarında olub, qatıldığı həlledici savaşlarda misilsiz rəşadətlə vuruşub, şəxsi igidlik və şücaət göstərib. Qəhrəman döyüşçü oktyabrın 1-də Murovdağ yüksəklikləri uğrunda gedən həlledici döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə ucalıb. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 21-də müəyyən edilərək ailəsinə təhvil verilib. Doğulduğu Qazıqumlaq kəndində dəfn olunub. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Vətən uğrunda" medalı (2021).*



## QARAYEV
## Süleyman Əlbağış oğlu
(03.07.1995 – 07.10.2020)

Sabirabad rayonunun Qalaqayın kəndində anadan olub. Orta təhsilini 2001-2012-ci illərdə Sabirabad şəhəri 1 saylı orta məktəbdə alıb. 2016-cı ildə Azərbaycan Dövlət İqtisad Universitetini bitirib. Həmin ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarına müddətli həqiqi hərbi xidmətə çağırılıb, 2016-2017-ci illərdə Naxçıvanda xidmət edib. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, ilk saatlardan cəbhənin Ağdam istiqamətində düşmənə qarşı amansız döyüşlərə atılıb, bu qanlı vuruşmalarda qəhrəmanlıq göstərib. Cəsur əsgər Xocavəndin azadlığı uğrunda gedən qanlı döyüşlərdə şücaəti ilə fərqlənib. Oktyabrın 7-də cəbhənin Ağdam istiqamətində gedən qızğın döyüşlərin birində misilsiz rəşadətlə savaşaraq şəhid olub. Doğulub boya-başa çatdığı Qalaqayın kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## QARAYEV
## Telman Əli oğlu
### (15.12.1999 – 25.11.2020)

Şəmkir şəhərində anadan olub. Orta təhsilini 2006-2015-ci illərdə Şəmkir şəhəri N.Gəncəvi adına orta məktəbdə alıb, təhsilini 2015-2018-ci illərdə Şəmkir Texniki Peşə Məktəbində davam etdirib. 2019-cu ilin aprelində Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, Lələtəpədə xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah Füzuli cəbhəsi səngərlərində qarşılayıb, ilk saatlardan düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq igidliklə vuruşub. Füzuli və Cəbrayıl cəbhələrində iki dəfə yaralansa da, savaş meydanını tərk etməyib. Rəşadətli əsgər Xocavənd uğrundakı şiddətli döyüşlərdə misilsiz şücaətlə vuruşub, noyabrın 6-da bu döyüşlərdə ağır yaralanaraq, hospitala çatdırılıb. Həkimlərin bütün səylərinə baxmayaraq həyatını xilas etmək mümkün olmayıb. Noyabrın 25-də şəhidlik məqamına yüksəlib. Şəmkir şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## QARAYEV
## Təhmasib Hikmət oğlu
### (18.05.1996 – 23.10.2020)

Ağcabədi rayonunun Kəbirli kəndində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Kəbirli kənd orta məktəbində alıb. 2017-ci ildə Sumqayıt Dövlət Universitetini bitirib. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, XTQ sıralarında xidmət edib. Tərxis olunduğu 2018-ci ildə yenidən ordu sıralarına qayıdıb, SQ TTM-də kurs keçərək XTQ-də çavuş rütbəsində xidmətə başlayıb. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini bir hərbçi kimi səngərlərdə qarşılayıb, ilk gündən misilsiz rəşadətlə vuruşub. Qəhrəman xüsusi təyinatlı Murovdağ döyüşlərində böyük şücaət göstərib, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı cəbhələri boyunca həyata keçirilən əks-hücum əməliyyatlarında hünərlə iştirak edib. Oktyabrın 23-də Xocavənd istiqamətindəki qızğın döyüşlərdə igidliklə vuruşaraq şəhadətə qovuşub. Kəbirli kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*







## QARAYEV
## Tural Şahin oğlu
### (29.04.1991 – 02.10.2020)

Bakıda anadan olub. Orta təhsilini 1997-2008-ci illərdə Bakı şəhəri 274 saylı orta məktəbdə alıb. 2009-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Beyləqanda xidmət edib. 2016-cı ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Sülhməramlı Qüvvələr sıralarında xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kiçik çavuşu kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk günündən ön xətdə, döyüş meydanlarında olub, misilsiz rəşadətlə vuruşub. Döyüşlərə Füzuli cəbhəsində başlayıb, buradakı qanlı savaşlarda böyük hünər və mətinlik göstərib, həlledici vuruşmalarda cəsurluğu ilə seçilib. İgid hərbçinin son savaşı oktyabrın 2-də olub. Həmin gün Füzuli cəbhəsindəki şiddətli döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Qobustan rayonunun Bəklə kəndində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## QARDAŞXANOV
## Qismət Qərib oğlu
## (30.08.1994 – 04.10.2020)

Füzuli rayonunun Birinci Mahmudlu kəndində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Birinci Mahmudlu kənd orta məktəbində alıb. 2013-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci ilin avqustunda yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Cəbhə bölgəsində – Beyləqanda xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah ön xətdə, döyüş meydanlarında qarşılayıb, savaşın ilk saatlarından etibarən Füzuli cəbhəsi səngərlərində düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq qəhrəmancasına vuruşub. Xocavənd və Cəbrayıl uğrundakı qanlı döyüşlərdə rəşadət göstərib. Cəsur əsgər oktyabrın 4-də Füzuli cəbhəsindəki şiddətli döyüşlərin birində misilsiz hünərlə vuruşaraq şəhadətə ucalıb. Birinci Mahmudlu kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## QASIMLI
## Mir Həmid Nazim oğlu
## (29.09.1994 – 21.10.2020)

Bakıda anadan olub. Orta təhsilini 2001-2012-ci illərdə Bakı şəhəri 240 saylı orta məktəbdə alıb. 2016-cı ildə Gürcüstan Texniki Universitetini bitirərək Kiyev Dövlət İqtisadiyyat Universitetinə daxil olub. Lakin 2016-cı ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırıldığı üçün təhsilini yarımçıq qoyub, cəbhə bölgəsində – Goranboyda xidmət edib. 2018-ci ildə tərxis olunub. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, ilk saatlardan ön xətdə, döyüş meydanlarında olub, igidliklə savaşıb. Qəhrəman əsgər Füzuli cəbhəsi boyunca həyata keçirilən əks-hücum əməliyyatlarında hünərlə iştirak edib, Xocavənd və Cəbrayıl uğrundakı qanlı döyüşlərdə böyük şücaət göstərib. Oktyabrın 21-də Füzuli cəbhəsində gedən həlledici döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. II Fəxri xiyabanda dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020).*







## QASIMLI
## Muxtar Əli oğlu
## (23.02.1993 – 02.10.2020)

Bakıda anadan olub. 2009-cu ildə Bakı şəhəri 318 saylı orta məktəbi bitirib. 2009-2013-cü illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında ali təhsil alıb. 2013-cü ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, Gədəbəydə xidmət edib. Xidmət dövründə SQ TTM-də zabit hazırlığı kursunu bitirib. 2014-cü ildə ordu sıralarından ehtiyata buraxılıb. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bundan bir həftə sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk günündən ağır və həlledici döyüşlərə atılaraq qəhrəmancasına vuruşub. Rəşadətli əsgərin döyüş yolu əsasən Füzuli cəbhəsi səngərlərindən keçib, bu döyüşlərdə şəxsi igidlik nümunəsi göstərib. Oktyabrın 2-də Füzuli cəbhəsindəki qanlı döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Bakının Qala qəsəbəsində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## QASIMOV
## Abbas Rza oğlu
**(17.03.1986 – 27.09.2020)**

Qərbi Azərbaycanın Zəngibasar (Masis) rayonunun Rəhimabad kəndində anadan olub. Orta təhsilini 1992-2003-cü illərdə Bakı şəhəri 157 saylı orta məktəbdə alıb. Təhsilini daha sonra 2003-2007-ci illərdə DTX-nin H.Əliyev adına Akademiyasında davam etdirib. Akademiyanı 2007-ci ildə leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb, Dövlət Sərhəd Xidməti Sərhəd Qoşunlarında xidmət edirdi. 2010-cu ildə Mülki Aviasiya Akademiyasında kurs keçərək xidmətini hərbi pilot kimi davam etdirməyə başlayıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini DSX Sərhəd Qoşunlarının mayoru kimi zabit mundirində qarşılayıb, savaşın ilk saatlarından bütün cəbhəboyu əks-hücum əməliyyatlarında şücaətlə iştirak edib. İgid təyyarəçi-zabit müharibənin elə ilk günü - sentyabrın 27-də cəbhənin Füzuli istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub. II Fəxri xiyabanda dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020).*



## QASIMOV
## Azər Yaqub oğlu
**(02.12.1979 – 16.10.2020)**

Tərtər rayonunun Yenikənd kəndində anadan olub. 1997-ci ildə Yenikənd kənd orta məktəbini bitirib. 1998-2000-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2014-cü ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Təmas xəttində - Ağdamda xidmət edirdi. 2016-cı il Aprel döyüşlərində hünər göstərib.





2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir hərbçi kimi əldə silah səngərlərdə qarşılayıb. İlk gündən düşmənlə ölüm-dirim çarpışmasının getdiyi Tərtər-Ağdərə cəbhəsi səngərlərində olub, qatıldığı həlledici savaşlarda misilsiz rəşadət göstərib. Suqovuşan uğrundakı qanlı döyüşlərdə qəhrəmancasına vuruşub. İki dəfə yaralansa da, savaş meydanından çəkilməyib. Cəsur əsgər oktyabrın 16-da Suqovuşan ətrafındakı qızğın döyüşlərin birində igidliklə vuruşaraq şəhadətə qovuşub. Nəşi oktyabrın 29-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Yenikənd kəndində dəfn edilib. Ailəli idi, dörd övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## QASIMOV
## Baba Əhməd oğlu
**(01.11.1989 – 20.10.2020)**

Astara rayonunun Ərçivan qəsəbəsində anadan olub. Orta təhsilini 1996-2007-ci illərdə Ərçivan qəsəbə 2 saylı orta məktəbdə alıb. 2008-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində - Beyləqanda xidmət edib. 2014-cü ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirib. 2016-cı il Aprel döyüşlərində igidliklə vuruşub. 2016-cı ildə kurs keçərək gizir rütbəsi alıb. Beyləqanda xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin giziri kimi Murovdağ səngərlərində qarşılayıb. Qəhrəman kəşfiyyatçı Füzuli, Cəbrayıl və Qubadlı uğrunda gedən qanlı döyüşlərdə rəşadətlə savaşıb, şücaət göstərib. Oktyabrın 20-də Qubadlı uğrundakı şiddətli döyüşlər zamanı misilsiz hünərlə vuruşaraq şəhadətə ucalıb. Ərçivan qəsəbəsində dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



# QASIMOV
## Bayram Arzu oğlu
(21.03.2001 – 04.10.2020)

Gədəbəy rayonunun Novoivanovka kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Novoivanovka kənd orta məktəbində alıb. 2019-cu ilin aprelində Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Xüsusi Təyinatlı Qüvvələr sıralarında xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah savaş meydanlarında qarşılayıb, XTQ-nin tərkibində ilk gündən ağır döyüşlərə atılaraq şücaətlə vuruşub. Həlledici döyüşlərin getdiyi Kəlbəcər, Füzuli və Cəbrayıl cəbhələrindəki qızğın vuruşmalarda əsl qəhrəman kimi iştirak edib, bu qanlı savaşlarda böyük hünər göstərib, cəsurluğu ilə seçilib. İgid əsgər oktyabrın 4-də Füzulinin azad olunması uğrunda gedən qanlı döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Doğulduğu Novoivanovka kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Azərbaycan Bayrağı" ordeni (2021).*



# QASIMOV
## Cəbrayıl Baloğlan oğlu
(19.07.1996 – 08.10.2020)

Masallı rayonunun Ərəb kəndində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Masallı şəhəri 1 saylı orta məktəbdə alıb. 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Tərtərdə xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün





sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb, sentyabrın 29-da cəbhəyə yollanıb, ilk günlərdən düşmənlə ölüm-dirim savaşına atılaraq qəhrəmancasına vuruşub. Rəşadətli əsgərin döyüş yolu Füzuli, Cəbrayıl və Qubadlı cəbhələri səngərlərindən keçib, bu qanlı döyüşlərdə böyük hünər göstərib. Qubadlı döyüşləri zamanı yaralansa da, savaş meydanını tərk etməyib. Oktyabrın 8-də Qubadlı uğrundakı şiddətli döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Ərəb kəndində dəfn edilib. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2001); "Cəsur döyüşçü" medalı (2021); "Qubadlının azad olunmasına görə" medalı (2021).*



# QASIMOV
## Elman Yunis oğlu
(08.11.1999 – 09.10.2020)

Hacıqabul rayonunun Birinci Udullu kəndində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Birinci Udullu kənd orta məktəbində alıb. Təhsilini 2016-2019-cu illərdə Gəncə Dövlət Regional Kollecində davam etdirib. 2019-cu ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli hərbi xidmətə çağırılıb. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk saatlarından ön cəbhədə, savaş meydanlarında olub, Tərtər-Ağdərə cəbhəsində düşmənlə amansız mübarizəyə atılaraq şücaətlə vuruşub. Talış kəndinin və Suqovuşanın azad olunması uğrundakı həlledici döyüşlərdə böyük hünər göstərib. Cəsur əsgərin son savaşı oktyabrın 9-da olub. Həmin gün Suqovuşan istiqamətində gedən qanlı döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə qovuşub. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 28-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Doğulduğu Birinci Udullu kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## QASIMOV
## Elməddin Aqil oğlu
### (09.08.1999 – 29.10.2020)

Salyan rayonunun Qarabağlı kəndində anadan olub. Orta təhsilini 2006-2015-ci illərdə Qarabağlı kənd orta məktəbində alıb. Təhsilini 2015-2018-ci illərdə Şirvan Peşə Liseyində davam etdirib. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli hərbi xidmətdə olub, cəbhə bölgəsində - Tərtərdə xidmət edib. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən Füzuli cəbhəsində düşmənlə ölüm-dirim savaşına atılaraq misilsiz rəşadətlə vuruşub. Füzulinin azad olunması uğrunda gedən qanlı döyüşlərdə böyük şücaət göstərib, hünəri ilə seçilib. İgid əsgər oktyabrın 29-da Füzuli cəbhəsindəki qızğın döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Salyan rayonunun Qaraçala qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Azərbaycan Bayrağı" ordeni (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## QASIMOV
## Eltun Vüqar oğlu
### (18.10.1994 – 18.10.2020)

Bakıda anadan olub. Orta təhsilini 2001-2012-ci illərdə Bakı şəhəri 115 və 250 saylı orta məktəblərdə alıb. 2016-cı ildə Azərbaycan Texniki Universitetini bitirib. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində - Beyləqan və Füzulidə xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb, ilk günlərdən savaş meydanlarında olub, cəsurluqla döyüşüb. Cəbhənin Füzuli və Xocavənd istiqamətlərində həyata keçirilən əks-hücum əməliyyatlarında igidliklə iştirak edib. Qəhrəman çavuşun döyüş yolu daha sonra Cəbrayıl və Zəngilan cəbhələrindən keçib, bu qanlı döyüşlərdə misilsiz rəşadət göstərib. Oktyabrın 18-də Hadrut ətrafındakı şiddətli döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə ucalıb. Bakının Keşlə qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn olunub. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021).*







## QASIMOV
## Elvar Eldar oğlu
### (07.02.1995 – 05.10.2020)

Ağdam rayonunun Birinci Baharlı qəsəbəsində anadan olub. Orta təhsilini 2001-2012-ci illərdə Ağcabədidə və Ağdam rayon Qasımbəyli qəsəbə orta məktəbində alıb. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2014-cü ildən MAHHXHQ kimi davam etdirməyə başlayıb. Təmas xəttində - Ağdamda xidmət edirdi. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah Ağdam cəbhəsi səngərlərində qarşılayıb. Savaşın ilk saatlarından ön xətdə, həlledici döyüşlərdə olub, düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq qəhrəmancasına vuruşub, şəxsi igidlik nümunəsi göstərib. Cəsur əsgər oktyabrın 5-də Ağdam istiqamətindəki qızğın döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Ağdam rayonunun Quzanlı qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Ağdamın azad olunmasına görə" medalı (2021).*



## QASIMOV
## Əli İbrahim oğlu
### (20.05.2001 – 23.10.2020)

Tovuz rayonunun Hacıalılı kəndində anadan olub. Orta təhsilini 2008-2016-cı illərdə Bakı şəhəri 73 saylı orta məktəbdə alıb. Təhsilini 2016-2019-cu illərdə Bakı Peşə Liseyində davam etdirib. 2019-cu ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə bölgəsində – Tərtərdə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi Tərtər-Ağdərə cəbhəsindəki qızğın döyüşlərə atılaraq misilsiz igidliklə vuruşub. Rəşadətli əsgər Suqovuşan, Talış kəndi və Ağdərə qəsəbəsi uğrunda gedən həlledici döyüşlərdə böyük qəhrəmanlıq nümunələri göstərib, mətinliyi və cəsurluğu ilə xüsusi seçilib. Oktyabrın 23-də Ağdərə istiqamətində gedən qanlı döyüşlərin birində şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Doğulduğu Hacıalılı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## QASIMOV
## Faiq Qaçay oğlu
### (10.02.1974 – 27.09.2020)

Qubadlı rayonunun Qayalı kəndində anadan olub. Orta təhsilini 1981-1991-ci illərdə Qayalı kənd orta məktəbində alıb. 1992-ci ildə Birinci Qarabağ savaşında şücaətlə iştirak edib. 1993-1995-ci illərdə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alaraq leytenant rütbəsində zabit kimi xidmətə başlayıb. 2016-cı il Aprel döyüşlərində igidliklə iştirak edib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin polkovnik-leytenantı kimi zabit mundirində qarşılayıb, ilk gündən qanlı döyüşlərə atılaraq misilsiz şücaətlə vuruşub. Sentyabrın 27-də Füzuli cəbhəsində düşmənin iki müdafiə xəttinin yarılmasında iştirak edib. Rəşadətli zabit elə həmin gün Füzulinin Aşağı Seyidəhmədli kəndi uğrundakı şiddətli döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Nəşi oktyabrın 19-da müəyyən olunaraq ailəsinə təhvil verilib. II Fəxri xiyabanda dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən Müharibəsi Qəhrəmanı" adı (2020); "Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## QASIMOV
## Faiq Mayıl oğlu
### (27.11.1983 – 09.11.2020)

Beyləqan rayonunun Bolsulu kəndində anadan olub. 2001-ci ildə Bolsulu kənd orta məktəbini bitirib. 2002-2003-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Hərbi-Dəniz Qüvvələrində xidmət edib. 2007-ci ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirib. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. Həmin il SQ TTM-də gizir hazırlığı kursunu bitirib. Cəbhə bölgəsində – Beyləqanda xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin giziri kimi səngərlərdə qarşılayıb, ilk gündən misilsiz rəşadətlə vuruşub. Füzuli cəbhəsində yaralansa da, savaş meydanını tərk etməyib. Qəhrəman hərbçinin döyüş yolu Cəbrayıl, Qubadlı, Laçın cəbhələrindən keçərək Şuşa savaşına qədər uzanıb, bu həlledici döyüşlərdə şücaət göstərib. Noyabrın 9-da Şuşa ətrafındakı ağır döyüşlərdə igidliklə vuruşaraq şəhadətə qovuşub. Beyləqanda Peyğəmbər məzarlığındakı Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QASIMOV
## Gülverdi Abil oğlu
(15.11.1997 – 26.10.2020)

Bakının Qobu qəsəbəsində anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Qobu qəsəbəsi 2 saylı orta məktəbdə alıb. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Goranboyda xidmət edib. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına qoşulmaq üçün könüllü olaraq müraciət edib. Həmin il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb, sentyabrın 29-da cəbhəyə yollanıb, ilk günlərdən düşmənlə ölüm-dirim savaşına atılaraq rəşadətlə vuruşub. İgid əsgərin döyüş yolu Füzuli, Cəbrayıl, Qubadlı cəbhələrindən keçib, bu rayonlar uğrundakı qanlı döyüşlərdə böyük qəhrəmanlıq göstərib. Oktyabrın 26-da Qubadlı cəbhəsində gedən qızğın döyüşlərin birində misilsiz hünərlə vuruşaraq şəhadətə ucalıb. Qobu qəsəbəsində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QASIMOV
## Hafis Cavanşir oğlu
(18.07.1998 – 14.10.2020)

Naxçıvan MR Culfa rayonunun Camaldın kəndində anadan olub. Orta təhsilini 2004-2012-ci illərdə Camaldın kənd orta məktəbində, 2012-2015-ci illərdə isə H.Əliyev adına Hərbi Liseydə alıb. Təhsilini 2015-2019-cu illərdə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində davam etdirib. 2019-cu ildə AAHM-i leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. Cəbhə bölgəsində – Beyləqanda





xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin leytenantı kimi zabit mundirində qarşılayıb. Müharibənin ilk saatlarından ön xətdə, səngərlərdə olub, düşmənlə ölüm-dirim çarpışmasının getdiyi Füzuli cəbhəsindəki qanlı döyüşlərə atılaraq rəşadətlə vuruşub. Həlledici döyüşlərdə öz mətinliyi və igidliyi ilə fərqlənən qəhrəman zabitin son savaşı oktyabrın 14-də olub. Həmin gün Füzuli cəbhəsində gedən şiddətli döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhid olub. Doğulub boya-başa çatdığı Camaldın kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "İgidliyə görə" medalı (2021).*



## QASIMOV
## Həmid Oruc oğlu
(11.12.1994 – 03.10.2020)

Naxçıvan MR Şərur rayonunun Qışlaqabbas kəndində anadan olub. Orta təhsilini 2001-2009-cu illərdə Kəngərli rayon Qabıllı kənd orta məktəbində, 2009-2012-ci illərdə isə H.Əliyev adına Hərbi Liseydə alıb. 2012-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2016-cı ildə AAHM-i leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. Cəbhə bölgəsində – Tərtərdə xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin baş leytenantı kimi zabit mundirində qarşılayıb, xidmət etdiyi hərbi hissə ilə birlikdə ilk gündən Tərtər-Ağdərə cəbhəsindəki qanlı döyüşlərə atılaraq qəhrəmancasına vuruşub. Talış və Suqovuşanın azadlığı uğrunda gedən şiddətli döyüşlərdə böyük şücaət göstərib. Rəşadətli zabit oktyabrın 3-də Suqovuşan ətrafındakı qızğın döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə qovuşub. Kəngərli rayonunun Qabıllı kəndində dəfn edilib. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020).*



## QASIMOV
## Həsən Şöhrət oğlu
(27.05.1997 – 09.10.2020)

Hacıqabul rayonunun Tağılı kəndində anadan olub. Orta təhsilini 2003-2014-cü illərdə Tağılı kənd orta məktəbində alıb. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Goranboyda xidmət edib. 2016-cı il Aprel döyüşlərində hünərlə vuruşub. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən düşmənlə ölüm-dirim savaşına atılaraq misilsiz rəşadətlə vuruşub. Cəbhənin Füzuli və Cəbrayıl istiqamətlərindəki ağır döyüşlərdə böyük şücaət göstərib. İgid əsgər oktyabrın 9-da Füzuli cəbhəsində gedən qanlı döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 7-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Tağılı kəndində dəfn olunub. Ailəli idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## QASIMOV
## Hikmət Vidadi oğlu
(11.02.1990 – 24.10.2020)

Sabran rayonunun Çölquşçu kəndində anadan olub. Orta təhsilini 1996-2007-ci illərdə Çölquşçu kənd orta məktəbində alıb. 2008-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Beyləqanda xidmət edib. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra yenidən ordu sıralarına qayıtmaq üçün könüllü olaraq müraciət edib. Həmin il sentyabrın





27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində yenidən ordu sıralarına çağırılıb. Sentyabrın 28-də cəbhəyə yollanıb, döyüşlərə düşmənlə amansız savaşın getdiyi Füzuli cəbhəsində başlayıb. Xocavənd, Cəbrayıl və Qubadlı uğrundakı qanlı savaşlarda misilsiz rəşadətlə vuruşub, bu rayonların azad olunması uğrunda gedən həlledici döyüşlərdə böyük şücaət və şəxsi igidlik nümunəsi göstərib. Cəsur əsgər oktyabrın 24-də Xocavənd istiqamətindəki qızğın döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə ucalıb. Çölquşçu kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## QASIMOV
## Hüseyn Kamil oğlu
(13.05.1984 – 02.10.2020)

Füzuli rayonunun Qaraxanbəyli kəndində anadan olub. Orta təhsilini 1990-2001-ci illərdə Qaraxanbəyli kənd orta və Beyləqan rayon Qəhrəmanlı qəsəbəsi 16 saylı orta məktəblərdə alıb. 2002-2003-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2012-ci ildə yenidən ordu sıralarına qayıdıb və SQ TTM-də gizir hazırlığı kursu keçərək xidmətini davam etdirib. Cəbhə bölgəsində – Tərtər, Bərdə və Füzulidə xidmət edib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin giziri kimi əldə silah Füzuli cəbhəsi səngərlərində qarşılayıb, ilk saatlardan düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq igidliklə vuruşub. Qəhrəman hərbçi cəbhənin Füzuli və Cəbrayıl istiqamətlərində həyata keçirilən əks-hücum əməliyyatlarında hünərlə iştirak edərək şücaət göstərib. Oktyabrın 2-də Füzuli cəbhəsindəki şiddətli döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Beyləqan rayonunun Qəhrəmanlı qəsəbəsində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020).*



## QASIMOV
## Xalid Rafik oğlu
(12.07.1996 – 12.10.2020)

Cəlilabad rayonunun Moranlı kəndində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Cəlilabad rayon Moranlı və Qarakazımlı kənd orta məktəblərində alıb. 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan az sonra yenidən Silahlı Qüvvələr sıralarına qayıdıb və 2015-ci ildə SQ TTM-də gizir hazırlığı kursunu başa vuraraq Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarında xidmət etməyə başlayıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini DSX Sərhəd Qoşunlarının kiçik giziri kimi əldə silah savaş meydanlarında qarşılayıb, ilk gündən ön xətdə olub, misilsiz igidliklə vuruşub. Füzuli, Cəbrayıl və Zəngilan uğrundakı şiddətli döyüşlərdə qəhrəmanlıq göstərib. Rəşadətli hərbçi oktyabrın 12-də Cəbrayıl cəbhəsində gedən həlledici döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Doğulduğu Moranlı kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020).*



## QASIMOV
## Xaspolad Fikrət oğlu
(14.12.1993 – 06.10.2020)

Xızı rayonunun Giləzi qəsəbəsində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Giləzi qəsəbə orta məktəbində alıb. 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2016-cı ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2017-ci ildə XTQ kursunu bitirərək xidmətini XTQ sıralarında davam etdirib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kiçik giziri kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən savaş meydanlarında olub, misilsiz rəşadətlə vuruşub. Füzuli və Cəbrayıl cəbhələrində gedən həlledici savaşlarda böyük şücaət və şəxsi igidlik nümunəsi göstərib, bu vuruşmalarda qəhrəmanlığı ilə seçilib. Cəsur xüsusi təyinatlı oktyabrın 6-da Füzuli cəbhəsindəki qanlı döyüşlərin birində igidliklə vuruşaraq şəhadətə qovuşub. Giləzi qəsəbəsində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Azərbaycan Bayrağı" ordeni (2021).*



## QASIMOV
## İsmayıl Sadıq oğlu
(17.12.1989 – 09.10.2020)

Sumqayıtda anadan olub. Orta təhsilini 1996-2007-ci illərdə Sumqayıt şəhər 14 saylı orta məktəbdə alıb. 2008-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra yenidən ordu sıralarına qayıtmaq üçün könüllü olaraq müraciət edib. Həmin il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk saatlarından Füzuli cəbhəsindəki şiddətli döyüşlərə atılaraq qəhrəmancasına vuruşub. Cəbrayıl istiqamətindəki qızğın döyüşlərdə şücaət göstərib. Cəsur əsgər oktyabrın 9-da Füzuli uğrundakı qanlı döyüşlərin birində misilsiz rəşadətlə savaşaraq şəhidlik məqamına yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 10-da müəyyən olunaraq ailəsinə təhvil verilib. II Fəxri xiyabanda dəfn olunub. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## QASIMOV
## Kamil Nüsrət oğlu
**(05.02.1995 - 10.10.2020)**

Goranboy rayonunun Səfikürd kəndində anadan olub. Orta təhsilini 2001-2012-ci illərdə Səfikürd kənd orta məktəbində alıb. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Tovuzda xidmət edib. 2020-ci ildə yenidən ordu sıralarına qayıtmağa qərar verib və müvafiq kurs keçəndən sonra xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah ön xətdə, döyüş meydanlarında qarşılayıb, savaşın ilk saatlarından etibarən Tərtər-Ağdərə cəbhəsi səngərlərində düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq şücaətlə vuruşub. Laçın istiqamətindəki qanlı döyüşlərdə misilsiz rəşadət göstərib, cəsurluğu ilə seçilib. İgid əsgər oktyabrın 10-da Suqovuşan ətrafında gedən qızğın döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Doğulub boya-başa çatdığı Səfikürd kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## QASIMOV
## Kamran Fazil oğlu
**(20.02.2001 - 27.10.2020)**

Gədəbəy rayonu Şınıx mahalının Qaravəlilər kəndində anadan olub. Orta təhsilini 2007-2016-cı illərdə Bakı şəhəri 192 saylı orta məktəbdə alıb. Təhsilini 2016-2019-cu illərdə 14 saylı Bakı Peşə Liseyində davam etdirib. 2019-cu ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Təmas xəttində - Füzulidə xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan





Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, ilk saatlardan Füzuli cəbhəsində düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq igidliklə vuruşub, Füzuli və Xocavənd uğrundakı qızğın döyüşlərdə rəşadət göstərib. Qəhrəman əsgər oktyabrın 27-də Xocavənd cəbhəsində gedən şiddətli döyüşlərin birində misilsiz hünərlə vuruşaraq şəhadətə ucalıb. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 26-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Bakının Zabrat qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QASIMOV
## Qismət Yolçu oğlu
**(05.03.1993 - 25.10.2020)**

Göyçay rayonunun Şıxbəy kəndində anadan olub. Orta təhsilini 1999-2010-cu illərdə Göyçay rayon Şıxbəy və Məlikkənd kənd orta məktəblərində alıb. 2011-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb edilib. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah döyüş meydanlarında qarşılayıb, savaşın ilk saatlarından Tərtər-Ağdərə cəbhəsində düşmənə qarşı amansız döyüşlərə atılıb, bu qanlı vuruşmalarda qəhrəmanlıqla döyüşüb. Talış və Suqovuşan uğrundakı qızğın döyüşlərdə şəxsi igidlik nümunəsi göstərib, mətinliyi ilə xüsusi fərqlənib. Cəsur əsgərin son döyüşü oktyabrın 25-də olub. Həmin gün Suqovuşan ətrafında gedən həlledici döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Doğulub boya-başa çatdığı Şıxbəy kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## QASIMOV
## Qoşqar Atakişi oğlu
### (16.01.1995 – 24.10.2020)

Beyləqan rayonunun Aşağı Çəmənli kəndində anadan olub. 2012-ci ildə Aşağı Çəmənli kənd orta məktəbini bitirib. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2015-ci ildə yenidən ordu sıralarına qayıdıb və SQ TTM-də gizir hazırlığı kursunu başa vuraraq xidmətə başlayıb. Cəbhə bölgəsində - Ağcabədidə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin giziri kimi əldə silah səngərlərdə qarşılayıb, ilk saatlardan düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq misilsiz rəşadətlə vuruşub. Cəbhənin Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı istiqamətlərində həyata keçirilən əks-hücum əməliyyatlarında hünərlə iştirak edib, bu qızğın döyüşlərdə qəhrəmanlıq göstərib. İgid hərbçi oktyabrın 24-də Qubadlı cəbhəsindəki qanlı döyüşlərdə misilsiz şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Aşağı Çəmənli kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2021); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## QASIMOV
## Mirağa Hafiz oğlu
### (08.01.1995 – 06.11.2020)

Cəlilabad rayonunun Moranlı kəndində anadan olub. Orta təhsilini 2001-2012-ci illərdə Cəlilabad rayon Moranlı və Qarakazımlı kənd orta məktəblərində alıb. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində - Ağdamda xidmət edib. 2015-ci ildə yenidən Silahlı Qüvvələr sıralarına qayıdıb və SQ TTM-də gizir hazırlığı kursu keçərək Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarında xidmətə başlayıb. 2020-ci il iyul Tovuz döyüşlərində hünərlə iştirak edib. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsini DSX Sərhəd Qoşunlarının kiçik giziri kimi savaş meydanlarında qarşılayıb. Qanlı döyüşlərin getdiyi Füzuli, Cəbrayıl və Zəngilan cəbhələrindəki həlledici vuruşmalarda əsl qəhrəman kimi iştirak edib, misilsiz şücaət göstərib. Rəşadətli kəşfiyyatçı oktyabrın 21-də Zəngilan istiqamətində igidliklə vuruşduğu qızğın döyüşlərin birində ağır yaralanıb və hospitala çatdırılıb. Həkimlərin bütün səylərinə baxmayaraq, noyabrın 6-da şəhadətə qovuşub. Moranlı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Qarabağ" ordeni (2020); "Vətən uğrunda" medalı (2020); "Zəngilanın azad olunmasına görə" medalı (2020).*



## QASIMOV
## Mustafa Dadaş oğlu
### (02.10.1995 – 04.10.2020)

Tovuz rayonunun Qaralar kəndində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Qaralar kənd orta məktəbində alıb. 2013-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, DSX Sərhəd Qoşunlarında xidmət edib. 2016-cı ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirib. 2016-cı il Aprel və 2020-ci il iyul Tovuz döyüşlərində igidliklə iştirak edərək özünü cəsur döyüşçü kimi göstərib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsinin başladığı ilk gündən ön xətdə olub, rəşadətlə döyüşüb. Döyüşlərə Kəlbəcər cəbhəsində başlayıb, Murovdağ yüksəklikləri uğrundakı qanlı savaşda misilsiz şücaətlə vuruşub, şəxsi igidlik nümunəsi göstərib. Qəhrəman əsgər oktyabrın 4-də Murovdağ istiqamətindəki şiddətli döyüşlərin birində hünərlə savaşaraq şəhadətə ucalıb. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 22-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Doğulduğu Qaralar kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Vətən uğrunda" medalı (2021).*



## QASIMOV
## Mürtaza Elman oğlu
### (02.10.2001 – 08.11.2020)

Cəlilabad rayonunun Gülməmmədli kəndində anadan olub. Orta təhsilini 2008-2019-cu illərdə Gülməmmədli kənd orta məktəbində alıb. 2019-cu ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk saatlarından ön xətdə, savaş meydanlarında olub, xidmət etdiyi hərbi hissənin tərkibində cəbhənin Füzuli və Cəbrayıl istiqamətlərində gedən qanlı döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Cəsur əsgərin döyüş yolu daha sonra Qubadlı və Zəngilan cəbhələri səngərlərindən keçib, bu rayonların azad olunması uğrundakı qızğın savaşlarda şəxsi igidlik nümunəsi göstərib, hünəri ilə seçilib. Son döyüşü noyabrın 8-də olub. Həmin gün Zəngilan istiqamətində gedən həlledici döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Doğulduğu Gülməmmədli kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Zəngilanın azad olunmasına görə" medalı (2020).*



## QASIMOV
## Nayib Akif oğlu
### (12.06.1997 – 05.10.2020)

Masallı rayonunun Mahmudavar kəndində anadan olub. 2014-cü ildə Mahmudavar kənd orta məktəbini bitirib. 2015-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2016-cı il Aprel döyüşlərində mətinliklə iştirak edib. 2017-ci ildə tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini DSX Sərhəd Qoşunları sıralarında xüsusi təyinatlı kimi davam etdirib. 2020-ci il iyul Tovuz döyüşlərində özünü cəsur





döyüşçü kimi göstərib. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin çavuşu kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən savaş meydanlarında olub, Füzuli cəbhəsində qəhrəmancasına vuruşub, Cəbrayılın azad olunması uğrunda gedən qızğın döyüşlərdə böyük şücaət göstərib. İgid hərbçi oktyabrın 5-də Cəbrayıl cəbhəsindəki qanlı döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Mahmudavar kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021); "Azərbaycan Bayrağı" ordeni (2021).*



## QASIMOV
## Nicat Elşan oğlu
### (17.10.1991 – 02.10.2020)

Gəncə şəhərində anadan olub. Orta təhsilini 1998-2007-ci illərdə Gəncə şəhəri 33 saylı orta məktəbdə alıb. Təhsilini 2007-2010-cu illərdə Gəncə Dövlət Peşə Təhsil Mərkəzində davam etdirib. 2010-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində – Füzulidə xidmət edib. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk saatlarından Kəlbəcər cəbhəsində düşmənlə ölüm-dirim çarpışmasına atılaraq igidliklə vuruşub. Murovdağ yüksəklikləri uğrundakı qanlı döyüşlərdə qəhrəmanlıq nümunəsi göstərib. Rəşadətli əsgər oktyabrın 2-də Kəlbəcər uğrunda gedən qızğın döyüşlərin birində misilsiz şücaətlə savaşaraq şəhidlik məqamına yüksəlib. Gəncə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020).*



## QASIMOV
## Nurlan Vadər oğlu
### (25.06.1998 – 08.10.2020)

Salyan rayonunun Marışlı kəndində anadan olub. 2015-ci ildə Marışlı kənd orta məktəbini bitirib. Təhsilini 2016-2019-cu illərdə Bakı 2 saylı Peşə Məktəbində davam etdirib. 2019-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Goranboy və Tərtərdə xidmət edib. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra Vətən müharibəsi başlayanda ilk gündən Füzuli cəbhəsində ağır döyüşlərə atılıb, bu qanlı vuruşmalarda böyük hünər göstərib. Cəsur əsgər Füzuli və Cəbrayıl uğrunda misilsiz qəhrəmanlıqla vuruşub, yaralansa da, savaş meydanını tərk etməyib. Oktyabrın 8-də Füzuli cəbhəsindəki şiddətli döyüşlərin birində igidliklə vuruşaraq şəhadətə qovuşub. Adı bir müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi oktyabrın 30-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Marışlı kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020);*
*"Füzulinin azad olunmasına görə" medalı (2020);*
*"Döyüşdə fərqlənməyə görə" medalı (2021);*
*"Şuşanın azad olunmasına görə" medalı (2021).*



## QASIMOV
## Orxan Rizvan oğlu
### (21.01.1996 – 27.09.2020)

Bakıda anadan olub, əslən Füzulinin Qacar kəndindən idi. Orta təhsilini 2002-2013-cü illərdə Bakıda yerləşən Ağdam rayon 36 saylı və Bakı şəhəri 296 saylı orta məktəblərdə alıb. 2017-ci ildə Azərbaycan Dövlət Neft və Sənaye Universitetini bitirib. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın elə ilk günü Füzuli cəbhəsində düşmənlə amansız döyüşlərə atılaraq misilsiz şücaətlə vuruşub, bu qızğın döyüşlərdə öz igidliyi və qəhrəmanlığı ilə xüsusi fərqlənib. Rəşadətli əsgər müharibənin elə ilk günü – sentyabrın 27-də Füzuli cəbhəsində gedən qanlı döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə ucalıb. Bakının Ramana qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020);*
*"Füzulinin azad olunmasına görə" medalı (2020);*
*"Döyüşdə fərqlənməyə görə" medalı (2021).*



## QASIMOV
## Oruc Afiq oğlu
### (26.10.1996 – 13.10.2020)

Qazax rayonunun Aşağı Əskipara kəndində anadan olub. Orta təhsilini 2003-2014-cü illərdə Aşağı Əskipara kənd orta məktəbində alıb. 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, DSX Sərhəd Qoşunlarında xidmət edib. 2017-ci ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb, Qazaxda xidmət edirdi. 2020-ci il iyul Tovuz döyüşlərində özünü cəsur döyüşçü kimi göstərib. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah Füzuli cəbhəsi səngərlərində qarşılayıb. Xidmət etdiyi taborun heyətində ilk saatlardan qanlı döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. İgid əsgərin döyüş yolu daha sonra Cəbrayıl və Xocavənd cəbhələrindən keçib, bu qızğın döyüşlərdə böyük hünər göstərib, şücaəti və mətinliyi ilə fərqlənib. Oktyabrın 13-də Füzuli uğrundakı həlledici döyüşlərin birində qəhrəmancasına savaşaraq şəhidlik zirvəsinə yüksəlib. Qazax rayonunun Ağköynək kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020);*
*"Döyüşdə fərqlənməyə görə" medalı (2020);*
*"Füzulinin azad olunmasına görə" medalı (2020).*



## QASIMOV
## Ramiz Vaqif oğlu
(17.02.1975 – 22.10.2020)

Beyləqan şəhərində anadan olub. Orta təhsilini 1982-1992-ci illərdə Beyləqan şəhəri 4 saylı orta məktəbdə alıb. 1997-ci ildə Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbini bitirərək Azərbaycan Hərbi-Hava Qüvvələri sıralarında hərbi pilot kimi xidmətə başlayıb. HHQ-nin arsenalındakı bütün tip hərbi helikopterlərdə uçub, 2016-cı il Aprel və 2020-ci il iyul Tovuz döyüşlərində igidliklə iştirak edib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini HHQ-nin polkovnik-leytenantı kimi zabit mundirində qarşılayıb. Savaşın ilk saatlarından Tərtər-Ağdərə cəbhəsi istiqamətində düşmənin strateji hərbi hədəflərinin məhv edilməsində müstəsna rol oynayıb. Sentyabrın 27-də döyüş tapşırığını uğurla yerinə yetirib geri qayıdanda göyərtəsində olduğu helikopter Tərtər rayonu ərazisində düşmən tərəfindən vurulub. Qəhrəman zabit heyət üzvlərini xilas etsə də, özü ağır yaralanıb, 25 gün komada qalandan sonra oktyabrın 22-də şəhadətə qovuşub. II Fəxri xiyabanda dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən Müharibəsi Qəhrəmanı" adı (2020); "Vətən uğrunda" medalı (2020); "Ağdamın azad olunmasına görə" medalı (2021).*



## QASIMOV
## Rəmal Saleh oğlu
(15.04.1992 – 29.09.2020)

Gəncə şəhərində anadan olub. Orta təhsilini 1998-2009-cu illərdə Gəncə şəhəri 29 saylı orta məktəbdə alıb. 2010-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, DSX Sərhəd Qoşunlarında xidmət edib. 2013-cü ildə yenidən ordu sıralarına qayıdıb və gizir hazırlığı kursunu bitirərək xidmətini davam etdirməyə başlayıb. 2014-cü ildən cəbhə bölgəsində - Goranboyda xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin baş giziri kimi əldə silah səngərlərdə qarşılayıb, ilk saatlardan düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi Tərtər-Ağdərə cəbhəsindəki qanlı döyüşlərə atılaraq misilsiz rəşadətlə savaşıb. Suqovuşan, Talış və Ağdərə uğrundakı şiddətli döyüşlərdə qəhrəmanlıq göstərib. İgid hərbçi sentyabrın 29-da Talış kəndi ətrafındakı qızğın döyüşlərdə şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Gəncə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020).*



## QASIMOV
## Səbuhi Telman oğlu
(12.11.2001 – 04.11.2020)

Şəmkir şəhərində anadan olub. Orta təhsilini 2008-2019-cu illərdə Şəmkir şəhər C.Rüstəmov adına orta məktəbdə alıb. 2020-ci ilin yanvarında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, Ağcabədidə xidmət edirdi. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq misilsiz rəşadətlə vuruşub. Cəbhənin Füzuli, Cəbrayıl və Xocavənd istiqamətlərində həyata keçirilən əks-hücum əməliyyatlarında hünərlə iştirak edib, bu rayonlar uğrundakı qanlı döyüşlərdə şücaət göstərib. Xocavəndin azadlığı uğrunda gedən ağır döyüşlərdə qəhrəmancasına vuruşub. Cəsur əsgərin son döyüşü noyabrın 4-də olub. Həmin gün Xocavənd cəbhəsindəki şiddətli döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə qovuşub. Adı bir müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 19-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Şəmkir şəhərində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020), 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2022).*



## QASIMOV
## Şəhriyar Vazir oğlu
(07.11.1995 – 26.10.2020)

Bərdə rayonunun Hüseynbəyli kəndində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Bakı şəhəri 205 saylı orta məktəbdə alıb. 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına qoşulmaq üçün könüllü olaraq müraciət edib. Həmin il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və sentyabrın 29-da cəbhəyə yollanıb. İlk günlərdən savaş meydanlarında olub, misilsiz igidliklə döyüşüb. Cəbhənin Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində həyata keçirilən əks-hücum əməliyyatlarında hünərlə iştirak edərək şücaət göstərib. Rəşadətli əsgər oktyabrın 26-da Xocavənd cəbhəsindəki həlledici döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Bakının Sulutəpə qəsəbəsində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Laçının azad olunmasına görə" medalı (2021).*



## QASIMOV
## Şöhrət Şakir oğlu
(16.08.1992 – 29.09.2020)

Gədəbəy rayonunun Böyük Qaramurad kəndində anadan olub. Orta təhsilini 1998-2009-cu illərdə Sumqayıt şəhəri 18 və 5 saylı orta məktəblərdə alıb. 2015-ci ildə Azərbaycan Tibb Universitetinin hərbi tibb fakültəsini tibb xidməti leytenantı rütbəsində bitirib, həmin il də Silahlı Qüvvələr sıralarında hərbi xidmətə çağırılıb. 2016-cı il Aprel döyüşlərində rəşadətlə iştirak edib. Tərtərdə xidmət





edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini tibb xidməti baş leytenantı kimi zabit mundirində qarşılayıb. Döyüşlərə Suqovuşanda başlayıb, xidməti vəzifəsini ilk gündən igidliklə yerinə yetirib. Özü yaralansa da, şəhidlərin nəşinin və yaralıların döyüş meydanından çıxarılmasında misilsiz şücaət göstərib. Qəhrəman həkim sentyabrın 29-da qanlı Suqovuşan döyüşlərində hünərlə vuruşaraq şəhadətə ucalıb. Adı bir müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 8-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## QASIMOV
## Təbriz Ramiz oğlu
(16.02.1993 – 06.11.2020)

Qəbələ rayonunun Yemişanlı kəndində anadan olub. Orta təhsilini 1999-2008-ci illərdə Yemişanlı kənd orta məktəbində alıb, 2012-ci ildə Şəki Pedaqoji Kollecini bitirib. 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2014-cü ildə yenidən ordu sıralarına qayıdıb və SQ TTM-də kurs keçərək xidmətini MAHHXHQ kimi davam etdirib. 2018-ci ildə tərxis olunub. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra orduya yazılmaq üçün könüllü olaraq müraciət edib. Həmin il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən orduya çağırılıb. Oktyabrın 5-də cəbhəyə yola düşüb. İgid əsgərin Füzulidə başlayan döyüş yolu Cəbrayıl, Zəngilan və Xocavənd cəbhələrindən keçib, bu qanlı döyüşlərdə böyük hünər göstərib. Noyabrın 6-da Xocavənd cəbhəsindəki qızğın döyüşlərdə misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Yemişanlı kəndində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## QASIMOV
## Tural Yelmar oğlu
### (23.05.1991 – 03.10.2020)

Goranboy rayonunun Düzqışlaq kəndində anadan olub. Orta təhsilini 1997-2008-ci illərdə Düzqışlaq kənd orta məktəbində alıb. 2009-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Tovuzda xidmət edib. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən Tərtər-Ağdərə cəbhəsində düşmənlə ölüm-dirim savaşına atılaraq qəhrəmancasına vuruşub. Talış və Suqovuşan uğrundakı həlledici döyüşlərdə rəşadət göstərib, igidliyi ilə seçilib. Cəsur əsgər oktyabrın 3-də Suqovuşan uğrunda gedən şiddətli döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Nəşi oktyabrın 11-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Düzqışlaq kəndində dəfn olunub. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## QASIMZADƏ
## Hüseyn Həsənxan oğlu
### (08.07.2001 – 06.10.2020)

Cəlilabad rayonunun Sərhədabad kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Cəlilabad şəhəri 2 saylı orta məktəbdə alıb. 2019-cu ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, təmas xəttində – Tərtərdə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından ön cəbhədə, döyüş meydanlarında olub, xidmət etdiyi





hərbi hissənin tərkibində düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq misilsiz şücaətlə vuruşub. Döyüşlərə Tərtər-Ağdərə cəbhəsində başlayıb, Talış və Suqovuşan uğrundakı həlledici döyüşlərdə cəsurluğu ilə fərqlənib. Rəşadətli əsgərin son savaşı oktyabrın 6-da olub. Həmin gün Suqovuşan ətrafındakı qanlı döyüşlərin birində igidliklə vuruşaraq şəhadətə qovuşub. Adı bir müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 1-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Cəlilabad şəhərində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## QASIMZADƏ
## Nicat Höccət oğlu
### (10.11.2000 – 09.11.2020)

Biləsuvar rayonunun Zəhmədabad kəndində anadan olub. 2018-ci ildə Zəhmətabad kənd orta məktəbini bitirərək Tovuz Dövlət Sosial-İqtisad Kollecinə daxil olsa da, 2019-cu ilin yanvarında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Cəbhə bölgəsində – Goranboy və Ağdamda xidmət edib. 2020-ci ilin iyulunda tərxis olunub. Həmin il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb edilib. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən misilsiz rəşadətlə savaşıb. Füzuli, Cəbrayıl, Xocavənd və Şuşa döyüşlərində şücaət göstərib, cəsurluğu və mətinliyi ilə seçilib. İgid əsgər noyabrın 9-da Şuşa uğrunda gedən həlledici döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Zəhmədabad kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021), 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2022).*



## QASIMZADƏ
## Tahir Sərdar oğlu
(31.10.2001 – 30.09.2020)

Bakıda anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Bakı şəhəri 317 saylı orta məktəbdə alıb. 2020-ci ilin yanvarında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, Daşkəsəndə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah savaş meydanlarında qarşılayıb. Müharibənin ilk saatlarından ön xətdə olub, xidmət etdiyi hərbi hissənin tərkibində düşmənlə ölüm-dirim çarpışmasına atılaraq misilsiz rəşadətlə vuruşub. Qəhrəman əsgər döyüşlərə cəbhənin Kəlbəcər istiqamətində başlayıb, Murovdağ yüksəklikləri uğrunda gedən qanlı döyüşlərdə şəxsi igidlik nümunəsi göstərib, şücaəti ilə seçilib. Sentyabrın 30-da Kəlbəcər cəbhəsində Üçtəpə yüksəkliyi uğrunda gedən qızğın döyüşlərin birində hünərlə savaşaraq şəhadətə ucalıb. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 6-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Bakının Bakıxanov qəsəbəsində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Döyüşdə fərqlənməyə görə" medalı (2021).*



## QASIMZADƏ
## Ümüd İlqar oğlu
(13.04.2001 – 13.10.2020)

Cəlilabad rayonunun Göytəpə şəhərində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Göytəpə şəhəri 1 və 2 saylı orta məktəblərdə alıb. 2020-ci ilin aprelində Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə bölgəsində – Qazaxda xidmət edirdi. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk





saatlarından ön xətdə olub, düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi Kəlbəcər cəbhəsindəki qanlı döyüşlərə atılaraq şücaətlə vuruşub. Döyüş yolu daha sonra Füzuli cəbhəsi səngərlərindən keçib, bu rayonun azad olunması uğrunda gedən həlledici vuruşmalarda böyük qəhrəmanlıq nümunələri göstərib, igidliyi və mətinliyi ilə xüsusi fərqlənib. Cəsur əsgərin son savaşı oktyabrın 13-də olub. Həmin gün Füzuli cəbhəsində gedən şiddətli döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Göytəpə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*

## QAZIMƏTOV
## Rəsul Kamaləddin oğlu
(14.06.2001 – 14.10.2020)



Qusar rayonunun Qayakənd kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Qusar şəhəri 6 saylı orta məktəbdə alıb. 2019-cu ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə bölgəsində - Beyləqanda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən ön xətdə, savaş meydanlarında olub, qatıldığı qızğın döyüşlərdə böyük hünər göstərib. Cəbhənin Füzuli, Cəbrayıl və Xocavənd istiqamətlərində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında igidliklə iştirak edib, bu ağır döyüşlərdə mətinliyi ilə seçilib. Rəşadətli əsgər oktyabrın 14-də Hadrut ətrafında gedən qanlı savaşların birində yaralanmasına baxmayaraq, döyüş meydanını tərk etməyib, misilsiz şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Doğulduğu Qayakənd kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021).*



## QEYBİYEV
## Arif İsmayıl oğlu
### (06.06.1997 – 27.09.2020)

Astara rayonunun Səncərədi kəndində anadan olub. Orta təhsilini 2003-2012-ci illərdə Səncərədi kənd orta məktəbində alıb, təhsilini 2012-2016-cı illərdə Astara Pedaqoji Kollecində davam etdirib. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, DİN Daxili Qoşunlarının xüsusi təyinatlı dəstəsində xidmət edib. 2019-cu ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Təmas xəttində - Füzulidə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah Füzuli cəbhəsi səngərlərində qarşılayıb. Savaşın ilk saatlarından düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq misilsiz rəşadətlə vuruşub. Qəhrəman əsgər müharibənin elə ilk günü - sentyabrın 27-də Füzuli cəbhəsində gedən qızğın döyüşlərin birində igidliklə savaşaraq şəhadətə qovuşub. Astara rayonunun Ərçivan qəsəbəsində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QƏDİMOV
## Ayxan Fikrət oğlu
### (30.04.1999 – 08.11.2020)

Şəmkir rayonunun Morul kəndində anadan olub. 2016-cı ildə Şəmkir şəhər F.Salmanov adına orta məktəbi bitirib. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində - Beyləqanda xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə





elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və sentyabrın 29-da cəbhəyə yollanıb. Döyüşlərə Füzuli cəbhəsində başlayan igid əsgər daha sonra Cəbrayıl və Xocavənd uğrunda gedən şiddətli döyüşlərdə böyük şücaət göstərib. Döyüş yolu Şuşa savaşlarına kimi uzanıb, bu qanlı vuruşmalarda misilsiz rəşadətlə iştirak edib. Son döyüşü noyabrın 8-də olub. Həmin gün Şuşa uğrundakı həlledici savaşda qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 30-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Morul kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020).*



## QƏDİMOV
## Güloğlan Nurəddin oğlu
### (18.07.1997 – 27.09.2020)

Naxçıvan MR Kəngərli rayonunun Qıvraq qəsəbəsində anadan olub. 2003-2011-ci illərdə Qıvraq qəsəbə orta məktəbində, 2011-2014-cü illərdə H.Əliyev adına Hərbi Liseydə təhsil alıb. 2018-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. Cəbhə bölgəsində - Beyləqanda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin leytenantı kimi zabit mundirində qarşılayıb. İlk saatlardan ön xətdə, Füzuli cəbhəsi səngərlərində olub, düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq misilsiz rəşadətlə vuruşub, bu qanlı döyüşlərdə böyük şücaət və şəxsi igidlik göstərib. Cəsur zabit müharibənin elə ilk günü - sentyabrın 27-də Füzulinin Yuxarı Veysəlli kəndi uğrunda gedən şiddətli döyüşlərin birində hünərlə savaşaraq şəhadətə ucalıb. Adı bir müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi oktyabrın 14-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Qıvraq qəsəbəsində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## QƏDİRBƏYLİ
## İnqilab Tofiq oğlu
## (10.03.1995 – 09.11.2020)

Salyan şəhərində anadan olub. Orta təhsilini 2001-2012-ci illərdə Salyan şəhəri 20 saylı orta məktəbdə alıb. 2016-cı ildə Azərbaycan Dövlət Dənizçilik Akademiyasını bitirib. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində – Füzulidə xidmət edib. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra Vətən müharibəsi başlayanda savaşın ilk saatlarından Füzuli cəbhəsində düşmənlə amansız döyüşlərə atılıb, bu şiddətli vuruşmalarda misilsiz şücaət göstərib. Cəbrayıl, Qubadlı və Xocavənd cəbhələrində hünərlə vuruşan qəhrəman əsgərin döyüş yolu Şuşa savaşlarına kimi uzanıb. Noyabrın 9-da Şuşa uğrunda gedən qanlı döyüşlərdə rəşadətlə vuruşaraq şəhid olub. Salyan şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021).*



## QƏDİRLİ
## İsmayıl Elçin oğlu
## (16.09.1998 – 28.10.2020)

Biləsuvar şəhərində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Biləsuvar şəhəri 1 saylı orta məktəbdə alıb. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Beyləqanda xidmət edib. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına qoşulmaq üçün könüllü olaraq müraciət edib. Həmin il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və oktyabrın 9-da cəbhəyə yollanıb. Döyüşlərə düşmənlə qanlı çarpışmaların getdiyi Füzuli cəbhəsində başlayıb, bu savaşlarda qəhrəmanlıq göstərib. Cəbrayıl və Xocavənd uğrundakı şiddətli döyüşlərdə igidliyi ilə seçilib, Hadrut uğrunda hünərlə döyüşüb. Rəşadətli əsgər oktyabrın 28-də Xocavənd cəbhəsində növbəti döyüş tapşırığını yerinə yetirərkən misilsiz şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Biləsuvar şəhərində dəfn edilib. Subay idi.





**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## QƏDİROV
## Elvin Azər oğlu
## (05.05.2001 – 27.09.2020)

Zaqatala rayonunun Yeni Suvagil kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Yeni Suvagil kənd 2 saylı orta məktəbində alıb. 2019-cu ilin iyul ayında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, təmas xəttində – Ağdamda düşmənlə üzbəüz mövqelərdə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk saatlarından ön xətdə, döyüş meydanlarında olub, düşmənə qarşı ölüm-dirim çarpışmasına atılaraq misilsiz rəşadətlə vuruşub. Cəbhənin Ağdam və Xocavənd istiqamətlərindəki ağır savaşlarda hünərlə iştirak edib, böyük qəhrəmanlıq nümunəsi göstərib, bu qanlı vuruşmalarda şücaəti və mətinliyi ilə xüsusi fərqlənib. Cəsur əsgər müharibənin elə ilk günü – sentyabrın 27-də cəbhənin Ağdam istiqamətində gedən qızğın döyüşlərin birində igidliklə vuruşaraq şəhadətə qovuşub. Doğulub boya-başa çatdığı Yeni Suvagil kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## QƏDİROV
## Emin Asif oğlu
### (25.04.1995 – 21.10.2020)

Bakıda anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Bakı şəhəri 241 saylı orta məktəbdə alıb. 2017-ci ildə Azərbaycan Memarlıq və İnşaat Universitetini bitirib. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra Vətən müharibəsi başlayanda savaşın ilk saatlarından Füzuli cəbhəsində düşmənlə amansız döyüşlərə atılıb, bu qanlı vuruşmalarda misilsiz rəşadət göstərib. Cəbhənin Füzuli, Cəbrayıl və Xocavənd istiqamətlərində həyata keçirilən əks-hücum əməliyyatlarında hünərlə iştirak edib, bu şiddətli döyüşlərdə mətinliyi və cəsurluğu ilə seçilib. İgid əsgərin son döyüşü oktyabrın 21-də olub. Həmin gün Füzulinin Gecəgözlü kəndi uğrunda gedən həlledici döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Bakının Zirə qəsəbəsində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020).*



## QƏDİROV
## Müqəddəs Nail oğlu
### (14.05.1992 – 05.10.2020)

Xaçmaz rayonunun Dədəli kəndində anadan olub. 2008-ci ildə Dədəli kənd orta məktəbinin IX sinfini bitirib. 2010-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində - Ağdamda düşmənlə üzbəüz mövqedə xidmət edib. 2017-ci ildə yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah Füzuli cəbhəsi səngərlərində qarşılayıb. Savaşın ilk saatlarından düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq misilsiz rəşadətlə vuruşub. Cəbrayıl uğrundakı qanlı döyüşlərdə şəxsi igidlik nümunəsi göstərib, öz cəsurluğu və mətinliyi ilə xüsusi fərqlənib. Qəhrəman əsgər oktyabrın 5-də Füzuli cəbhəsində gedən şiddətli döyüşlərin birində hünərlə savaşaraq şəhadətə ucalıb. Doğulub boya-başa çatdığı Dədəli kəndində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.





**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QƏDİROV
## Şahin Bayram oğlu
### (03.01.1990 – 05.10.2020)

Qaradağ rayonunun Çeyildağ qəsəbəsində anadan olub. 2005-ci ildə Çeyildağ qəsəbə 224 saylı orta məktəbin IX sinfini bitirib. 2008-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində - Ağdamda xidmət edib. Xidməti dövründə XTQ sıralarına qəbul olunub. 2009-cu ildə tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini XTQ-də gizir kimi davam etdirməyə başlayıb. 2016-cı il Aprel döyüşlərində hünərlə vuruşub. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini XTQ-nin giziri kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən savaş meydanlarında olub, Füzuli və Cəbrayıl cəbhələrində qatıldığı qızğın döyüşlərdə böyük şücaət göstərib, misilsiz igidliklə vuruşub. Cəsur xüsusi təyinatlı oktyabrın 5-də Cəbrayıl cəbhəsindəki qanlı döyüşlərin birində yaralansa da, savaş meydanını tərk etməyib, rəşadətlə savaşaraq şəhid olub. Çeyildağ qəsəbəsində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Azərbaycan Bayrağı" ordeni (2021).*



## QƏDİRZADƏ
## Aqşin Elman oğlu
**(10.03.1999 – 02.10.2020)**

Qəbələ rayonunun Seyidqışlaq kəndində anadan olub. Orta təhsilini 2005-2014-cü illərdə Seyidqışlaq kənd orta məktəbində alıb, təhsilini 2014-2016-cı illərdə Qəbələ Peşə Məktəbində davam etdirib. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2019-cu ildə yenidən ordu sıralarına qayıdıb və SQ TTM-də kurs keçərək xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci il iyul Tovuz döyüşlərində hünərlə iştirak edib. Həmin il sentyabrın 27-də Vətən müharibəsinin başladığı ilk gündən ön xətdə olub, bütün cəbhəboyu həyata keçirilən əks-hücum əməliyyatlarında qəhrəmancasına iştirak edib. Döyüşlərə Kəlbəcər cəbhəsində başlayıb. Bu cəbhədə gedən qanlı savaşlarda şəxsi igidlik nümunəsi göstərib. Rəşadətli əsgər oktyabrın 2-də Murovdağ yüksəklikləri uğrundakı ağır döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 18-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Seyidqışlaq kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Vətən uğrunda" medalı (2021).*



## QƏFƏRLİ
## Samir Möhlət oğlu
**(01.11.1994 – 30.10.2020)**

Ucar rayonunun Bərgüşad kəndində anadan olub. Orta təhsilini 2001-2012-ci illərdə Bərgüşad kənd 1 saylı orta məktəbində alıb. 2019-cu ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini bitirib. Həmin ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, Bərdədə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən





müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk günündən ön xətdə olub, düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi Füzuli cəbhəsindəki qanlı döyüşlərə atılıb, bu həlledici savaşlarda misilsiz rəşadətlə döyüşüb. Cəbrayıl və Qubadlının azad olunmasında böyük hünər və şücaət göstərib. Qəhrəman əsgər oktyabrın 30-da Laçın istiqamətində gedən qızğın döyüşlərin birində igidliklə vuruşaraq şəhadətə qovuşub. Doğulub boya-başa çatdığı Bərgüşad kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020).*



## QƏFƏROV
## Rəvan Elxan oğlu
**(10.07.1991 – 29.10.2020)**

Ağstafa rayonunun Dağ Kəsəmən kəndində anadan olub. Orta təhsilini 1997-2008-ci illərdə Dağ Kəsəmən kənd orta məktəbində alıb. 2009-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Hərbi-Dəniz Qüvvələrində xidmət edib. 2012-ci ildə yenidən ordu sıralarına qayıdıb və SQ TTM-də gizir hazırlığı kursunu bitirərək xidmətini davam etdirməyə başlayıb. 2020-ci il iyul Tovuz döyüşlərində şücaətlə vuruşub. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin baş giziri kimi əldə silah döyüş meydanlarında qarşılayıb. Müharibənin ilk saatlarından Füzuli cəbhəsində düşmənlə ölüm-dirim savaşına atılaraq misilsiz rəşadətlə vuruşub. İgid hərbçi Aşağı Veysəlli kəndinin azadlığı uğrunda gedən həlledici vuruşmalarda böyük hünər göstərib. Oktyabrın 29-da Füzuli cəbhəsindəki şiddətli döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Doğulduğu Dağ Kəsəmən kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## QƏFƏROV
## Saməddin Rasim oğlu
### (23.01.1993 – 28.09.2020)

İsmayıllı rayonunun Qubaxəlilli kəndində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Qubaxəlilli kənd orta məktəbində alıb. 2016-cı ildə Azərbaycan Tibb Universitetinin hərbi tibb fakültəsini bitirərək gizir rütbəsində hərbi həkim kimi xidmətə başlayıb. 2016-cı il Aprel və 2020-ci il iyul Tovuz döyüşlərinin iştirakçısı olub, bu döyüşlərdə özünü qəhrəman bir hərbi həkim kimi göstərib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsinin başladığı ilk gündən ön xətdə olub, bütün cəbhəboyu həyata keçirilən əks-hücum əməliyyatlarında igidliklə iştirak edib. Müharibəni Tərtər-Ağdərə cəbhəsində qarşılayıb, Talış və Suqovuşan uğrundakı qanlı savaşlarda iştirak edərək şücaəti və mətinliyi ilə seçilib. Cəsur gizirin son döyüşü də bu cəbhədə olub. Sentyabrın 28-də Suqovuşan ətrafında gedən ağır döyüşlərin birində öz xidməti vəzifəsini hünərlə yerinə yetirərək şəhadətə ucalıb. Doğulub boya-başa çatdığı Qubaxəlilli kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## QƏHRƏMANOV
## Elməddin Niyaməddin oğlu
### (26.01.1997 – 06.10.2020)

Naxçıvan MR Kəngərli rayonunun Qıvraq qəsəbəsində anadan olub. 2003-2011-ci illərdə Qıvraq qəsəbəsi 2 saylı orta məktəbdə, 2011-2014-cü illərdə isə H.Əliyev adına Hərbi Liseydə təhsil alıb. 2018-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirərək zabit kimi xidmət etməyə başlayıb. Təmas xəttində – Ağdamda düşmənlə üzbəüz mövqelərdə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin leytenantı kimi zabit mundirində qarşılayıb, ilk gündən səngərlərdə olub, cəbhənin Ağdam istiqamətində gedən şiddətli döyüşlərə atılaraq igidliklə savaşıb, bu rayonun azad olunması uğrundakı həlledici döyüşlərdə böyük şücaət göstərib, cəsurluğu və mətinliyi ilə seçilib. Qəhrəman zabit oktyabrın 6-da Ağdam cəbhəsindəki qanlı döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Doğulub boya-başa çatdığı Qıvraq qəsəbəsində dəfn edilib. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Ağdamın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*







## QƏHRƏMANOV
## Gülalı Aydın oğlu
### (17.02.1986 – 28.09.2020)

Ağcabədi rayonunun Minaxorlu kəndində anadan olub. Orta təhsilini 1993-2003-cü illərdə Minaxorlu kənd orta məktəbində alıb. 2004-2005-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Qazaxda xidmət edib. 2020-ci ilin iyul ayında yenidən ordu sıralarına qayıdıb və SQ TTM-də müvafiq hazırlıq kursu keçərək xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Cəbhə bölgəsində – Beyləqanda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah döyüş meydanlarında qarşılayıb. Müharibənin ilk saatlarından etibarən Füzuli cəbhəsində düşmənlə ölüm-dirim savaşına atılaraq qəhrəmancasına vuruşub, bu qanlı vuruşmalarda hünər göstərib. Rəşadətli əsgər sentyabrın 28-də Füzuli istiqamətindəki qızğın döyüşlərin birində misilsiz şücaətlə savaşaraq şəhidlik məqamına yüksəlib. Doğulduğu Minaxorlu kəndində dəfn olunub. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QƏHRƏMANOV
## Məkan Mübariz oğlu
### (03.02.1999 – 12.10.2020)

Ağcabədi rayonunun Minaxorlu kəndində anadan olub. 2016-cı ildə Minaxorlu kənd orta məktəbini bitirib. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Naxçıvanda xidmət edib. 2018-ci il may ayında Günnüt əməliyyatında hünərlə iştirak edib. 2020-ci ilin iyul ayında yenidən ordu sıralarına qayıdıb və SQ TTM-də müvafiq hazırlıq kursu keçərək xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən ağır döyüşlərə atılaraq qəhrəmancasına vuruşub. Füzuli, Cəbrayıl və Xocavənd cəbhələrindəki qanlı döyüşlərdə böyük şücaət və qəhrəmanlıq nümunəsi göstərib. Cəsur əsgər oktyabrın 12-də Hadrut ətrafında gedən həlledici döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə qovuşub. Minaxorlu kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## QƏHRƏMANOV
## Orxan Səlvər oğlu
### (28.03.1991 – 21.10.2020)

Bakıda anadan olub. 2006-cı ildə Bakı şəhəri 104 saylı orta məktəbin IX sinfini bitirib. 2009-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Ağcabədidə xidmət edib. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və hərbi təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk saatlarından Füzuli cəbhəsində düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq misilsiz rəşadətlə vuruşub. Xocavənd və Cəbrayılın azad olunması uğrunda gedən qanlı döyüşlərdə böyük hünər göstərib, şücaəti və mətinliyi ilə seçilib. İgid əsgərin son savaşı oktyabrın 21-də olub. Həmin gün Füzuli cəbhəsindəki şiddətli döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Bakının Dədə Qorqud qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021).*







## QƏHRƏMANOV
## Ruslan Mehman oğlu
### (06.10.1988 – 05.10.2020)

Almaniyanın Maqdeburq şəhərində anadan olub. Orta təhsilini 1996-2004-cü illərdə Şəmkir rayonunun Keçili kənd orta məktəbində, 2004-2007-ci illərdə C.Naxçıvanski adına Hərbi Liseydə alıb. 2011-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirərək SQ TTM-də kurs keçib. 2012-ci ildə kursu başa vuraraq XTQ sıralarında zabit kimi xidmətə başlayıb. 2016-cı il Aprel döyüşlərində şücaətlə vuruşub. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kapitanı kimi zabit mundirində qarşılayıb, ilk gündən Kəlbəcər cəbhəsi səngərlərində düşmənlə ölüm-dirim savaşına atılaraq misilsiz rəşadətlə döyüşüb. Füzuli və Cəbrayıl uğrundakı şiddətli döyüşlərdə şəxsi igidlik göstərib. Qəhrəman xüsusi təyinatlı zabit oktyabrın 5-də Cəbrayıl cəbhəsindəki qanlı döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə ucalıb. Şəmkirin Keçili kəndində dəfn olunub. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Azərbaycan Bayrağı" ordeni (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## QƏNBƏRLİ
## Elton Baba oğlu
### (01.02.1997 - 19.10.2020)

Naxçıvan MR Şərur rayonunun Ələkli kəndində anadan olub. Orta təhsilini 2003-2011-ci illərdə Ələkli kənd orta məktəbində, 2011-2014-cü illərdə isə H.Əliyev adına Hərbi Liseydə alıb. 2018-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb, cəbhə bölgəsində - Goranboyda xidmət edirdi. Xüsusi kurs keçərək XTQ sıralarına daxil olub. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin leytenantı kimi zabit mundirində qarşılayıb. İlk gündən düşmənlə ölüm-dirim savaşının getdiyi Füzuli cəbhəsindəki döyüş meydanlarında olub, qəhrəmancasına vuruşub. Cəbrayıl, Xocavənd, Zəngilan və Qubadlı uğrundakı qanlı döyüşlərdə böyük şücaət göstərib. Cəsur xüsusi təyinatlı zabit oktyabrın 19-da Qubadlı cəbhəsindəki qızğın döyüşlərdə rəşadətlə vuruşaraq şəhid olub. Şərur şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Azərbaycan Bayrağı" ordeni (2021).*



## QƏNBƏRLİ
## Qənbər Bəhruz oğlu
### (10.09.1993 - 02.10.2020)

Tərtər rayonunun Kəngərli kəndində anadan olub. Orta təhsilini 2000-2009-cu illərdə Kəngərli kənd orta məktəbində, 2009-2012-ci illərdə C.Naxçıvanski adına Hərbi Liseydə alıb. 2016-cı ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. Gədəbəydə xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin baş leytenantı kimi zabit mundirində qarşılayıb, ilk gündən Murovdağ yüksəklikləri istiqamətindəki ağır döyüşlərə atılaraq igidliklə savaşıb. Qəhrəman zabit Kəlbəcərin azad olunması uğrundakı şiddətli döyüşlərdə hünər göstərib, cəsurluğu ilə seçilib. Rəşadətli zabit oktyabrın 2-də Murovdağ yüksəklikləri uğrunda gedən həlledici döyüşlərdə misilsiz şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi 2021-ci il mayın 22-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Kəngərli kəndində dəfn olunub. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021).*







## QƏNBƏRLİ
## Mehdi Sübhi oğlu
### (27.08.2001 - 03.11.2020)

Lənkəran rayonunun Osakücə kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Lənkəran rayon Tatoba kənd orta məktəbində alıb. 2019-cu ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk saatlarından ön cəbhədə, döyüş meydanlarında olub, şücaətlə vuruşub. Qəhrəman əsgər döyüşlərə düşmənlə ölüm-dirim çarpışmasının getdiyi Füzuli cəbhəsində başlayıb. Döyüş yolu daha sonra Cəbrayıl və Laçın cəbhələri səngərlərindən keçərək həlledici Şuşa savaşlarına qədər uzanıb. Bu qanlı döyüşlərdə rəşadətlə vuruşub, böyük hünər və mətinlik göstərib. Son döyüşü noyabrın 3-də olub. Həmin gün Şuşa uğrunda gedən şiddətli döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə qovuşub. Doğulub boya-başa çatdığı Osakücə kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## QƏNBƏRLİ
## Taleh Abil oğlu
**(17.10.1994 – 05.11.2020)**

İsmayıllı rayonunun Quşencə kəndində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Quşencə kənd orta məktəbində alıb. 2012-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Beyləqanda xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Müharibənin ilk günlərindən ön cəbhəyə yollanaraq düşmənlə ölüm-dirim savaşına atılıb, bütün cəbhəboyu həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında hünərlə iştirak edib. İgid əsgərin Füzuli cəbhəsindən başlayan döyüş yolu daha sonra Cəbrayıl və Xocavənd cəbhələrindən keçərək Şuşa savaşlarına qədər uzanıb, bu qızğın döyüşlərdə misilsiz rəşadətlə vuruşub. Noyabrın 5-də Şuşa uğrunda gedən qanlı savaşların birində qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə yüksəlib. Doğulduğu Quşencə kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## QƏNBƏRLİ
## Vüsal İlkin oğlu
**(30.03.1995 – 03.11.2020)**

Biləsuvar rayonunun Günəşli kəndində anadan olub. 2010-cu ildə Qaradağ rayon Müşfiqabad qəsəbəsindəki 274 saylı orta məktəbin IX sinfini bitirib. 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində – Füzulidə düşmənlə üzbəüz mövqedə xidmət edib. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan





Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən düşmənlə ölüm-dirim savaşına atılaraq qəhrəmancasına vuruşub. Qubadlı və Xocavənd istiqamətindəki ağır döyüşlərdə böyük şücaət göstərib. Cəsur əsgər noyabrın 3-də Xocavənd cəbhəsindəki qızğın döyüşlərin birində misilsiz hünərlə vuruşaraq şəhadətə ucalıb. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 19-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Doğulduğu Günəşli kəndində dəfn olunub. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Xocavəndin azad olunmasına görə" medalı (2020); "Vətən uğrunda" medalı (2021), 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2022).*



## QƏNBƏROV
## Bilal Xanlar oğlu
**(29.09.1993 – 04.11.2020)**

Bakıda anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Bakı şəhəri 162 saylı orta məktəbdə alıb. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Beyləqanda xidmət edib. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına yazılmaq üçün könüllü olaraq müraciət edib. Həmin il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Sentyabrın 29-da cəbhəyə yola düşərək Füzuli uğrundakı qanlı döyüşlərə atılıb, şücaətlə vuruşub. Cəbrayıl, Xocavənd və Şuşa uğrundakı döyüşlərdə cəsurluğu ilə seçilib. Qəhrəman əsgərin son savaşı noyabrın 3-də olub. Həmin gün Şuşa uğrunda misilsiz rəşadətlə vuruşduğu həlledici döyüşlərin birində ağır yaralanıb, noyabrın 4-də şəhadətə qovuşub. Bakının Badamdar qəsəbəsində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## QƏNBƏROV
## Elnur Novruz oğlu
**(08.06.1990 – 24.10.2020)**

Beyləqan rayonunun Şərq qəsəbəsində anadan olub. Orta təhsilini 1996-2007-ci illərdə Şərq qəsəbə orta məktəbində alıb. 2008-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb, sentyabrın 29-da cəbhəyə yollanıb. Müharibənin ilk günlərindən savaş meydanlarında olub, cəsurluqla döyüşüb. Cəbhənin Füzuli və Cəbrayıl istiqamətlərində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında igidliklə iştirak edib. Qubadlı cəbhəsində gedən qanlı döyüşlərdə qəhrəmanlıq göstərib. Rəşadətli əsgər oktyabrın 24-də Qubadlı uğrunda gedən şiddətli döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Beyləqan şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QƏNBƏROV
## Əli Mahir oğlu
**(04.03.2002 – 05.10.2020)**

Cəlilabad rayonunun Kövüzbulaq kəndində anadan olub. Orta təhsilini 2008-2019-cu illərdə Cəlilabad şəhəri 3 saylı orta məktəbdə alıb. 2020-ci ilin aprelində Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk saatlarından ön cəbhədə, döyüş meydanlarında olub, düşmənlə ölüm-dirim çarpışmasının getdiyi Füzuli cəbhəsindəki qızğın döyüşlərə atılaraq şücaətlə vuruşub, bu savaşlarda böyük hünər göstərib. Füzuli döyüşlərində yaralansa da, savaş meydanını tərk etməyib. Cəsur əsgərin döyüş yolu daha sonra Cəbrayıl və Xocavənd cəbhələri səngərlərindən keçib, bu rayonlar uğrundakı həlledici döyüşlərdə mətinliyi ilə seçilib. Oktyabrın 5-də Xocavənd istiqamətində gedən qanlı döyüşlərin birində misilsiz igidliklə savaşaraq şəhadətə qovuşub. Cəlilabad rayonunun Uzuntəpə kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QƏNBƏROV
## Mehman Nərman oğlu
**(27.05.1981 – 30.09.2020)**

Ağdam rayonunun Maqsudlu kəndində anadan olub. Orta təhsilini 1988-1998-ci illərdə Maqsudlu kənd orta, Bərdədə yerləşən Ağdam rayon 118 və 132 saylı orta məktəblərdə alıb. 2002-ci ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbini leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. 2015-ci ildən təmas xəttində – Füzulidə xidmət edirdi. 2016-cı il Aprel döyüşlərində şücaətlə iştirak edib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin polkovnik-leytenantı kimi zabit mundirində qarşılayıb, ilk gündən cəbhənin Füzuli istiqamətindəki ağır döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. İgid zabit düşmənin 30 illik səddinin yarılmasında, Füzulinin bir sıra kəndlərinin azad olunması uğrundakı həlledici döyüşlərdə böyük hünər göstərib. Sentyabrın 30-da Füzuli cəbhəsində gedən qızğın döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Bərdə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Qarabağ" ordeni (2020); "Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## QƏNBƏROV
## Mədət Əzim oğlu
## (26.09.1995 – 16.10.2020)

Ağdam rayonunun Mollalar kəndində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Bərdə şəhəri 2 saylı orta məktəbdə alıb. 2017-ci ildə Gəncə Dövlət Universitetini bitirib. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına yazılmaq üçün könüllü olaraq müraciət edib. Həmin il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Sentyabrın 29-dan düşmənlə ölüm-dirim savaşına atılıb, cəbhənin Kəlbəcər və Tərtər-Ağdərə istiqamətlərində həyata keçirilən əks-hücum əməliyyatlarında igidliklə iştirak edib. Murovdağ, Ağdərə və Suqovuşan uğrundakı qanlı döyüşlərdə misilsiz rəşadət göstərib. Qəhrəman əsgər oktyabrın 16-da Ağdam istiqamətindəki həlledici döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə ucalıb. Ağdamın Quzanlı qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## QƏNBƏRZADƏ
## Heydər Ağahüseyn oğlu
## (10.10.1997 – 08.11.2020)

Lənkəran rayonunun Cil kəndində anadan olub. Orta təhsilini 2004-2014-cü illərdə Cil kənd orta məktəbində alıb. Təhsilini 2014-2016-cı illərdə Lənkəran Dövlət Humanitar Kollecində davam etdirib. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci ilin mayında yenidən ordu sıralarına qayıdıb və müvafiq kurs keçərək xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk saatlarından ön cəbhədə, savaş meydanlarında olub, şücaətlə vuruşub. Cəsur əsgər döyüşlərə Füzuli cəbhəsində başlayıb, Cəbrayıl və Xocavəndin azad olunması uğrundakı qanlı döyüşlərdə böyük hünər göstərib. Hadrut və Şuşa döyüşlərində qəhrəmanlıqla iştirak edib. Noyabrın 8-də Şuşa-Laçın istiqamətində gedən şiddətli döyüşlərin birində misilsiz rəşadətlə savaşaraq şəhid olub. Doğulduğu Cil kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020), "Xocavəndin azad olunmasına görə" medalı (2022).*







## QƏNİMƏTOV
## Ətraf Oktay oğlu
## (20.03.1997 – 13.10.2020)

Şəki şəhərində anadan olub, əslən Laçın rayonunun Vəlibəyli kəndindən idi. Orta təhsilini 2003-2014-cü illərdə Şəkidə yerləşən Laçın rayon Kaha kənd orta məktəbində alıb. 2018-ci ildə Sumqayıt Dövlət Universitetini bitirib. 2019-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci ilin mart ayında yenidən ordu sıralarına qayıdıb, SQ TTM-də zabit hazırlığı kursu keçərək leytenant rütbəsi alıb və zabit kimi xidmətə başlayıb. Qazaxda xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin leytenantı kimi zabit mundirində qarşılayıb, ilk gündən Füzuli cəbhəsindəki qızğın döyüşlərə atılaraq qəhrəmancasına vuruşub, böyük hünər göstərib. Rəşadətli zabit oktyabrın 13-də Füzuli cəbhəsində gedən qanlı döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Nəşi oktyabrın 30-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Şəki şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## QƏNİYEV
## Cahid Şaiq oğlu
### (18.02.1994 – 02.10.2020)

Lerik rayonunun Sors kəndində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Biləsuvar rayon Çaylı kənd orta məktəbində alıb. 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Beyləqanda xidmət edib. 2014-cü ildə yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini MAHHXHQ kimi davam etdirib. 2016-cı il Aprel və 2020-ci il iyul Tovuz döyüşlərində hünərlə iştirak edib, özünü cəsur döyüşçü kimi göstərib. 2018-ci ildə gizir hazırlığı kursunu bitirib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin giziri kimi əldə silah Tərtər-Ağdərə cəbhəsi səngərlərində qarşılayıb, ilk saatlardan Suqovuşanda düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq misilsiz rəşadətlə vuruşub. Qəhrəman hərbçi oktyabrın 2-də Suqovuşan uğrunda gedən qızğın döyüşlərin birində igidliklə savaşaraq şəhadətə qovuşub. Nəşi oktyabrın 13-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Çaylı kəndində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## QƏRİBOV
## Asif Səxavət oğlu
### (10.09.2000 – 27.09.2020)

Şirvan şəhərində anadan olub. Orta təhsilini 2008-2019-cu illərdə Şirvan şəhəri 18 saylı orta məktəbdə alıb. 2019-cu ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, təmas xəttində – Füzulidə düşmənlə üzbəüz mövqedə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən ön xətdə, savaş meydanlarında olub, misilsiz rəşadətlə vuruşub. Cəsur əsgər döyüşlərə düşmənlə ölüm-dirim çarpışmasının getdiyi Füzuli cəbhəsi səngərlərində başlayıb, Füzuli və Xocavəndin azad olunması uğrundakı qanlı döyüşlərdə böyük şücaət və şəxsi igidlik nümunəsi göstərib, mətinliyi və qorxmazlığı ilə fərqlənib. Müharibənin elə ilk günü – sentyabrın 27-də Füzuli cəbhəsində gedən həlledici döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Şirvan şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.





**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QƏRİBOV
## Pəhli Xaləddin oğlu
### (17.09.1993 – 08.11.2020)

Kürdəmir şəhərində anadan olub. Orta təhsilini 1999-2010-cu illərdə Kürdəmir şəhəri 2 saylı orta məktəbdə alıb. 2011-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına qoşulmaq üçün könüllü olaraq müraciət edib. Həmin il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsinin elə ilk günü Füzuli cəbhəsində döyüşlərə atılıb, ilk gündən savaş meydanlarında olub, qəhrəmancasına vuruşub. Rəşadətli əsgər Xocavənd cəbhəsində, Hadrut döyüşlərində böyük şücaət göstərib, cəsurluğu ilə fərqlənib. Son döyüşü noyabrın 8-də olub. Həmin gün Şuşa-Laçın istiqamətində gedən şiddətli döyüşlərdə hünərlə vuruşaraq şəhadətə ucalıb. Kürdəmir şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QƏRİBZADƏ
## Fəxri Elmir oğlu
**(10.01.1994 – 10.10.2020)**

Bərdə rayonunun Güloğlular kəndində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Bakı şəhəri 114 saylı orta məktəbdə alıb. 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində – Murovda düşmənlə üzbəüz mövqelərdə xidmət edib. 2020-ci ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi Kəlbəcər cəbhəsindəki qızğın döyüşlərə atılaraq qəhrəmancasına vuruşub, Murovdağ döyüşlərində şücaət göstərib. İgid əsgərin döyüş yolu daha sonra Tərtər-Ağdərə cəbhəsi səngərlərindən keçib, Talış və Suqovuşan uğrundakı şiddətli vuruşmalarda cəsurluğu və mətinliyi ilə fərqlənib. Oktyabrın 10-da Suqovuşan ətrafındakı qanlı döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Bərdə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QƏRİBZADƏ
## Hüseyn Qədir oğlu
**(06.09.2001 – 16.11.2020)**

Şəmkir rayonunun Çinarlı qəsəbəsində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Çinarlı qəsəbə 1 saylı orta məktəbdə alıb. 2018-ci ildə Gəncə Dövlət Aqrar Universitetinə daxil olub. 2019-cu ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə bölgəsində – Beyləqanda xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən düşmənlə ölüm-dirim





çarpışmasının getdiyi Füzuli cəbhəsində qanlı savaşlara atılaraq misilsiz rəşadətlə vuruşub, böyük hünər göstərib. Qəhrəman əsgər müharibənin ilk günlərində Füzuli cəbhəsindəki qızğın döyüşlərin birində şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib (şəhid olduğu tarix dəqiq məlum deyil). Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 16-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Çinarlı qəsəbəsində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021); "Döyüşdə fərqlənməyə görə" medalı (2021).*



## QƏSƏBOV
## İsmayıl Nəbi oğlu
**(06.07.1991 – 07.11.2020)**

Qazax rayonunun Çaylı kəndində anadan olub. 2008-ci ildə Çaylı kənd orta məktəbini bitirib. 2009-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Goranboyda xidmət edib. 2013-cü ildə yenidən ordu sıralarına qayıdıb və hazırlıq kursu keçəndən sonra xidmətini DİN Daxili Qoşunlarının xüsusi təyinatlı dəstəsində davam etdirməyə başlayıb. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini DİN Daxili Qoşunlarının baş çavuşu kimi əldə silah savaş meydanlarında qarşılayıb, ilk saatlardan Kəlbəcər cəbhəsi səngərlərində düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq rəşadətlə vuruşub. Füzuli, Cəbrayıl, Xocavənd və Şuşa döyüşlərində şücaət göstərib. Cəsur hərbçi noyabrın 7-də Şuşa uğrundakı həlledici döyüşlərdə misilsiz igidliklə vuruşaraq şəhadətə qovuşub. Çaylı kəndindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Azərbaycan Bayrağı" ordeni (2021).*



## QƏZƏNFƏRLİ
## Qurban Qiniyaz oğlu
### (15.01.1997 – 29.09.2020)

Şəmkir rayonunun Ağlavaşlı kəndində anadan olub. Orta təhsilini 2003-2014-cü illərdə Ağlavaşlı kənd orta məktəbində alıb. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, DSX Sərhəd Qoşunlarında xidmət edib. 2020-ci ilin sentyabrında yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Daşkəsəndə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk saatlarından xidmət etdiyi taborun heyətində düşmənlə amansız savaşların getdiyi Kəlbəcər cəbhəsindəki qanlı döyüşlərə atılaraq misilsiz igidliklə vuruşub, Murovdağ istiqamətindəki qızğın döyüşlərdə böyük şücaət göstərib. Rəşadətli əsgər sentyabrın 29-da Murovdağ yüksəklikləri uğrunda gedən şiddətli döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Ağlavaşlı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020).*



## QOCAYEV
## Asif Yolçu oğlu
### (01.03.1991 – 08.11.2020)

Gəncə şəhərində anadan olub. Orta təhsilini 1997-2008-ci illərdə Gəncə şəhəri 33 saylı orta məktəbdə alıb. 2009-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. İlk günlərdən Füzuli cəbhəsinin savaş meydanlarında olub, bu qızğın





döyüşlərdə igidliklə vuruşub. Cəbrayıl və Xocavənd istiqamətlərindəki həlledici döyüşlərdə mətinliklə iştirak edərək şücaət göstərib. Şuşanın işğaldan azad olunması uğrunda misilsiz rəşadətlə döyüşüb. İgid əsgərin son savaşı noyabrın 8-də olub. Həmin gün Şuşa ətrafında gedən qanlı döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə ucalıb. Nəşi noyabrın 17-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Gəncə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020).*



## QOCAYEV
## Günəş Əfqan oğlu
### (12.11.1996 – 26.10.2020)

Xaçmaz rayonunun Palçıqoba kəndində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Palçıqoba kənd orta məktəbində alıb. 2014-cü ildə Bakı Qida Sənayesi Kollecinə daxil olub. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində – Tərtər və Ağdamda xidmət edib. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən Füzuli cəbhəsində düşmənlə ölüm-dirim savaşına atılaraq misilsiz rəşadətlə vuruşub. Cəbrayıl və Xocavənd istiqamətindəki ağır döyüşlərdə böyük şücaət göstərib. Qəhrəman əsgər oktyabrın 26-da Xocavənd cəbhəsindəki qızğın döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Palçıqoba kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021).*



## QOCAYEV
## Niftalı Zakir oğlu
## (20.11.1994 – 01.11.2020)

Qazax rayonunun Çaylı kəndində anadan olub. Orta təhsilini 2001-2012-ci illərdə Çaylı kənd 2 saylı orta məktəbdə alıb. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Tərtərdə xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb, ilk günlərdən savaş meydanlarında olub, igidliklə döyüşüb. Cəbhənin Füzuli, Xocavənd, Cəbrayıl, Qubadlı istiqamətlərində həyata keçirilən əks-hücum əməliyyatlarında hünərlə iştirak edib, bu döyüşlərdə misilsiz qəhrəmanlıq göstərib. Cəsur əsgərin son savaşı noyabrın 1-də olub. Həmin gün Xocavənd ətrafındakı şiddətli döyüşlərin birində şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Çaylı kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2021).*



## QOCAYEV
## Seymur Mahir oğlu
## (29.01.1996 – 06.11.2020)

Quba rayonunun Bağbanlı qəsəbəsində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Bağbanlı qəsəbə orta məktəbində alıb. 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Daşkəsəndə xidmət edib. 2017-ci ildə yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Gədəbəydə xidmət edirdi. 2020-ci ildə XTQ sıralarına qəbul olunub. Həmin il sentyabrın 27-də başlayan





Vətən müharibəsini bir xüsusi təyinatlı döyüşçü kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən ağır döyüşlərə atılaraq şücaətlə vuruşub. Rəşadətli əsgərin döyüş yolu Kəlbəcər və Xocavənd cəbhələrindən keçərək həlledici Şuşa savaşlarına qədər uzanıb, bu şiddətli döyüşlərdə qəhrəmanlıq göstərib. Noyabrın 6-da Şuşa uğrundakı qanlı döyüşlərin birində misilsiz igidliklə savaşaraq şəhadətə qovuşub. Quba şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021).*



## QORÇUYEV
## Anar Nadir oğlu
## (04.01.1987 – 07.10.2020)

Sumqayıt şəhərində anadan olub. Orta təhsilini 1994-2005-ci illərdə Sumqayıt şəhəri 9 saylı orta məktəbdə alıb. 2009-cu ildə Azərbaycan Universitetini bitirib. 2009-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, DSX Sərhəd Qoşunlarında xidmət edib. 2016-cı ildən hərbi polis sistemində xidmət edib. 2020-ci ildə SQ TTM-də zabit hazırlığı kursu keçərək leytenant rütbəsi alıb və zabit kimi xidmətə başlayıb. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin leytenantı kimi zabit mundirində qarşılayıb. Döyüşlərə Füzuli cəbhəsində başlayan igid hərbçi bu istiqamətdə gedən qanlı savaşlarda misilsiz rəşadətlə vuruşub. Cəbrayıl uğrunda döyüşlərdə böyük şücaət və şəxsi igidlik nümunəsi göstərib. Oktyabrın 7-də Füzuli istiqamətində gedən qızğın döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## QUBADLI
## Fuad Cahangir oğlu
(16.01.1993 – 08.11.2020)

Cəlilabad rayonunun Komanlı kəndində anadan olub. Orta təhsilini 1999-2010-cu illərdə Komanlı kənd orta məktəbində alıb. 2011-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Tərtərdə xidmət edib. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına yazılmaq üçün könüllü olaraq müraciət edib. 2020-ci ilin sentyabrında yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Ağcabədidə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk saatlarından Füzuli cəbhəsindəki qızğın döyüşlərə atılıb, misilsiz rəşadətlə vuruşub. Hadrut uğrunda gedən qanlı döyüşlərdə böyük şücaət göstərib. Qəhrəman əsgər noyabrın 8-də Şuşa uğrunda gedən həlledici döyüşlərdə hünərlə vuruşaraq şəhadətə ucalıb. Doğulduğu Komanlı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2021).*



## QUBATOV
## Tural Firəddin oğlu
(04.07.1998 – 28.09.2020)

Füzuli rayonunun Böyük Bəhmənli kəndində anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Böyük Bəhmənli kənd orta məktəbində alıb. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci ilin sentyabrında yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Təmas xəttində – Füzulidə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk saatlarından cəbhənin Füzuli və Cəbrayıl istiqamətlərində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında hünərlə iştirak edib, bu qızğın döyüşlərdə misilsiz rəşadətlə vuruşub. İgid əsgər sentyabrın 28-də Cəbrayıl istiqamətində gedən qanlı döyüşlərin birində mətinliklə vuruşaraq şəhidlik məqamına ucalıb. Doğulub boya-başa çatdığı Böyük Bəhmənli kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## QUBATOV
## Zülfüqar İsmi oğlu
(25.09.1975 – 13.10.2020)

Ağsu rayonunun Dilman kəndində anadan olub. Orta təhsilini 1982-1992-ci illərdə Dilman kənd orta məktəbində alıb. 1995-ci ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbini bitirib. 1995-1999-cu illərdə Murovda, 1999-2009-cu illərdə isə Tovuz və Şəmkirdə xidmət edib. 2009-cu ildə Silahlı Qüvvələr sıralarından kapitan rütbəsində ehtiyata buraxılıb. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində Silahlı Qüvvələrin ehtiyatda olan kapitanı kimi yenidən ordu sıralarına çağırılıb, sentyabrın 28-də cəbhəyə yollanıb. Müharibənin ilk günlərindən Tərtər-Ağdərə cəbhəsində düşmənlə ölüm-dirim savaşına atılaraq qəhrəmancasına vuruşub. Talış və Suqovuşan uğrunda gedən qanlı döyüşlərdə böyük şücaət göstərib. Cəsur zabit oktyabrın 13-də Suqovuşan ətrafındakı şiddətli döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Dilman kəndində dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## QULAMLI
## Afiq Fərhad oğlu
**(24.12.1996 – 19.10.2020)**

Abşeron rayonunun Xırdalan şəhərində anadan olub. Orta təhsilini 2003-2014-cü illərdə Xırdalan şəhəri 9 saylı orta məktəbdə alıb. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və hərbi təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk saatlarından Füzuli cəbhəsində düşmənə qarşı amansız döyüşlərə atılıb, bu ağır vuruşmalarda misilsiz qəhrəmanlıq nümunəsi göstərib. Cəbrayıl və Xocavənd cəbhələrində gedən şiddətli döyüşlərdə igidliyi ilə seçilib. Rəşadətli əsgər oktyabrın 19-da Füzulinin Gecəgözlü kəndi uğrundakı qanlı döyüşlərdə şücaətlə savaşaraq şəhidlik məqamına yüksəlib. Xırdalan şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## QULAMLI
## Ülvi Şahin oğlu
**(24.05.1994 – 20.10.2020)**

Mingəçevir şəhərində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Mingəçevir şəhəri 13 saylı orta məktəbdə alıb. 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2018-ci ildə yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Cəbhə bölgəsində - Tərtərdə xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kiçik çavuşu kimi





əldə silah səngərlərdə qarşılayıb, döyüşə birinci atılanlardan olub. Tərtər-Ağdərə cəbhəsində gedən qanlı döyüşlərdə misilsiz rəşadətlə vuruşub. Suqovuşanın azad olunmasında, Ağdərə istiqamətindəki həlledici döyüşlərdə böyük şücaət göstərib, hünəri və mətinliyi ilə seçilib. Qəhrəman hərbçinin son savaşı oktyabrın 20-də olub. Həmin gün Suqovuşan ətrafındakı qızğın döyüşlərin birində igidliklə vuruşaraq şəhadətə qovuşub. Mingəçevir şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## QULAMOV
## Rəcəb Xaydaroviç
**(31.03.1996 – 01.10.2020)**

Sumqayıt şəhərində anadan olub. 2011-ci ildə Sumqayıt şəhəri 6 saylı orta məktəbin IX sinfini bitirib. 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 8-də yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah ön xətdə, savaş meydanlarında qarşılayıb, müharibənin ilk saatlarından etibarən Kəlbəcər cəbhəsi səngərlərində düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq misilsiz şücaətlə vuruşub, Murovdağ döyüşlərində rəşadət göstərib. İgid əsgər oktyabrın 1-də Kəlbəcər uğrunda gedən həlledici döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi 2021-ci il fevralın 17-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Vətən uğrunda" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## QULAMZADƏ
## Afərin Müqəddəs oğlu
### (13.07.1999 – 03.11.2020)

Lənkəran rayonunun Mamusta kəndində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Mamusta kənd orta məktəbində alıb. 2017-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Ağcabədidə xidmət edib. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və hərbi təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk saatlarından etibarən Füzuli cəbhəsində düşmənə qarşı amansız döyüşlərə atılıb, bu qanlı vuruşmalarda şəxsi igidlik nümunəsi və qəhrəmanlıq göstərib. Xocavənd uğrundakı qızğın döyüşlərdə misilsiz rəşadətlə vuruşub, mətinliyi ilə fərqlənib. Cəsur əsgər noyabrın 3-də Xocavənd cəbhəsində gedən şiddətli döyüşlərin birində hünərlə savaşaraq şəhadətə ucalıb. Nəşi noyabrın 19-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Doğulub boya-başa çatdığı Mamusta kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020), 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2022).*



## QULİYEV
## Ağamirzə İlham oğlu
### (02.05.2001 – 06.11.2020)

Gəncə şəhərində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Gəncə şəhərindəki 44 saylı məktəb-lisey kompleksində, 27 saylı məktəb-liseydə, 21 və 41 saylı orta məktəblərdə alıb. 2019-cu ilin iyul ayında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, Ağcabədidə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə





silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından ön xətdə olub, düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi Xocavənd cəbhəsindəki şiddətli döyüşlərə atılaraq igidliklə vuruşub. Füzuli və Cəbrayılın azadlığı uğrundakı ağır döyüşlərdə hünərlə iştirak edib, böyük şücaət göstərib. Qəhrəman əsgərin son savaşı noyabrın 6-da olub. Həmin gün cəbhənin Xocavənd istiqamətində gedən qanlı döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Nəşi noyabrın 19-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Gəncə şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020), 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2022).*



## QULİYEV
## Aqil Mətləb oğlu
### (03.12.2000 – 08.11.2020)

Bərdə şəhərində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Bərdə şəhəri Z.Əliyeva adına məktəb-liseydə və Bərdədə yerləşən Ağdam rayon 1 saylı orta məktəbdə alıb. 2019-cu ilin yanvarında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2020-ci ilin iyulunda tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk anlarından Füzuli cəbhəsindəki qızğın döyüşlərə atılıb, qəhrəmancasına vuruşub. Cəbrayıl, Qubadlı, Zəngilan, Laçın və Şuşa cəbhələrində gedən qanlı döyüşlərdə böyük şücaət göstərib. Rəşadətli əsgər noyabrın 8-də Şuşa uğrundakı həlledici döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə qovuşub. Bərdə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## QULİYEV
## Aqşin Dilavər oğlu
## (12.12.1996 – 16.10.2020)

Sabirabad rayonunun Çiçəkli kəndində anadan olub. Orta təhsilini 2003-2014-cü illərdə Çiçəkli kənd orta məktəbində alıb. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Xidməti dövründə xüsusi kurs keçərək XTQ sıralarına qəbul olunub. 2016-cı il Aprel savaşlarında hünərlə iştirak edib. 2016-cı ilin iyulunda tərxis olunsa da, orduda qalaraq xidmətini XTQ sıralarında MAHHXHQ kimi davam etdirib. 2018-ci ildə kiçik gizir rütbəsi alıb. 2020-ci il iyul Tovuz döyüşlərində şücaət göstərib. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini XTQ-nin kiçik giziri kimi əldə silah döyüş meydanlarında qarşılayıb, ilk gündən ön xətdə olub, Füzuli cəbhəsindəki qanlı döyüşlərdə misilsiz igidliklə vuruşub. Cəsur xüsusi təyinatlı oktyabrın 16-da Füzuli uğrunda gedən şiddətli savaşların birində qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə yüksəlib. Çiçəkli kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Azərbaycan Bayrağı" ordeni (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021). "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## QULİYEV
## Aqşin Mehdi oğlu
## (09.06.1992 – 28.09.2020)

Goranboy rayonunun Bağçakürd kəndində anadan olub. Orta təhsilini 1998-2009-cu illərdə Bağçakürd kənd orta məktəbində alıb. 2010-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Naxçıvanda xidmət edib. 2016-cı ildə yenidən ordu sıralarına qayıtmağa qərar verib və SQ TTM-də gizir





hazırlığı kursunu bitirərək xidmətini davam etdirməyə başlayıb. Cəbhə bölgəsində – Goranboyda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin giziri kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən ön xətdə olub, Tərtər-Ağdərə cəbhəsindəki şiddətli döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Qəhrəman hərbçi Talış və Suqovuşanın azadlığı uğrundakı həlledici döyüşlərdə böyük şücaət və şəxsi igidlik nümunəsi göstərib, cəsurluğu ilə seçilib. Sentyabrın 28-də Talış kəndi ətrafında gedən qanlı döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə ucalıb. Doğulduğu Bağçakürd kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## QULİYEV
## Alim Fuad oğlu
## (15.03.1999 – 30.10.2020)

Siyəzən rayonunun Yenikənd kəndində anadan olub. 2014-cü ildə Yenikənd kənd orta məktəbinin IX sinfini bitirib. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Goranboyda xidmət edib. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, ilk saatlardan Füzuli cəbhəsinin döyüş meydanlarında olub, bu qanlı vuruşmalarda misilsiz igidliklə savaşıb. Döyüş yolu daha sonra Cəbrayıl və Xocavənd cəbhələrindən keçib, bu rayonlar uğrundakı şiddətli vuruşmalarda qəhrəmanlıq nümunəsi göstərib. İgid əsgər bu döyüşlər zamanı yaralansa da, geri çəkilməyib. Oktyabrın 30-da Şuşa istiqamətindəki qızğın döyüşlərin birində şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Yenikənd kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021).*



## QULİYEV
## Asim Bəkir oğlu
### (02.03.1996 – 12.10.2020)

Bakıda anadan olub, əslən Cəbrayılın Hovuslu kəndindən idi. Orta təhsilini 2002-2011-ci illərdə Bakı şəhəri 107 saylı orta məktəbdə alıb. Təhsilini 2011-2014-cü illərdə Sumqayıt Dövlət Texniki Kollecində davam etdirib. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Tərtərdə xidmət edib. 2016-cı il Aprel döyüşlərində cəsurluqla vuruşub. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsinin ilk günündən savaş meydanlarında olub, Füzuli cəbhəsindəki qanlı döyüşlərə atılaraq hünərlə vuruşub. Cəbrayıl uğrundakı həlledici savaşlarda şücaəti ilə fərqlənib. İgid əsgərin son döyüşü Xocavənd cəbhəsində olub. Oktyabrın 12-də Hadrut ətrafındakı qızğın döyüşlərdə misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Bakının Bakıxanov qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## QULİYEV
## Barat Nizami oğlu
### (22.12.1991 – 29.09.2020)

Bakı şəhərində anadan olub. Orta təhsilini 1999-2010-cu illərdə Beyləqan şəhəri 3 saylı orta məktəbdə alıb. 2010-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Tərtərdə xidmət edib. 2014-cü ildə yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Cəbhə bölgəsində – Beyləqanda





xidmət edirdi. 2016-cı il Aprel döyüşlərində qəhrəmancasına savaşıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah savaş meydanlarında qarşılayıb, ilk gündən ön xətdə olub, düşmənlə ölüm-dirim çarpışmasının getdiyi Füzuli cəbhəsindəki qanlı döyüşlərə atılaraq igidliklə vuruşub, iştirak etdiyi vuruşmalarda böyük hünər göstərib. Rəşadətli əsgər sentyabrın 29-da Füzulinin azadlığı uğrunda gedən həlledici döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Beyləqan şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "İgidliyə görə" medalı (2021).*



## QULİYEV
## Bəhruz Firuz oğlu
### (09.05.1990 – 04.10.2020)

Naftalan şəhərində anadan olub. Orta təhsilini 1996-2007-ci illərdə Naftalan şəhəri 2 saylı orta məktəbdə alıb. 2008-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Qazaxda xidmət edib. 2014-cü ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Cəbhə bölgəsində – Goranboyda xidmət edirdi. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayanda xidmət etdiyi hərbi hissənin tərkibində ilk gündən Tərtər-Ağdərə cəbhəsindəki həlledici döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Talış, Suqovuşan və Ağdərə istiqamətlərindəki qanlı vuruşmalarda böyük şücaət göstərib, cəsurluğu və mətinliyi ilə seçilib. Qəhrəman əsgərin son döyüşü oktyabrın 4-də olub. Həmin gün Suqovuşanın azadlığı uğrunda gedən şiddətli döyüşlərdə igidliklə vuruşaraq şəhadətə qovuşub. Naftalan şəhərində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## QULİYEV
## Daşqın Nəcməddin oğlu
(20.12.2001 – 16.10.2020)

Sabran rayonunun Rəhimli kəndində anadan olub. Orta təhsilini 2008-2019-cu illərdə Rəhimli kənd orta məktəbində alıb. 2020-ci ilin yanvarında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, Ağcabədidə xidmət edirdi. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk saatlarından ön xətdə, savaş meydanlarında olub, misilsiz şücaətlə vuruşub. Cəsur əsgər döyüşlərə Füzuli cəbhəsində başlayıb, buradakı həlledici vuruşmalarda hünərlə iştirak edib. Xocavəndin azad olunması uğrundakı qızğın döyüşlərdə şəxsi igidlik nümunəsi göstərib, mətinliyi ilə seçilib. Son savaşı oktyabrın 16-da olub. Həmin gün cəbhənin Xocavənd istiqamətində gedən qanlı döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Doğulduğu Rəhimli kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QULİYEV
## Elçin Etibar oğlu
(24.08.2001 – 10.10.2020)

İmişli rayonunun Məzrəli kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Məzrəli kənd orta məktəbində alıb. 2019-cu ilin oktyabr ayında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə bölgəsində – Tərtərdə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb.





Müharibənin ilk saatlarından ön cəbhədə, döyüş meydanlarında olub, Tərtər-Ağdərə cəbhəsində düşmənlə ölüm-dirim çarpışmasına atılaraq misilsiz igidliklə vuruşub. Rəşadətli əsgər Talış, Suqovuşan və Ağdərənin işğaldan azad olunması uğrunda gedən qanlı döyüşlərdə böyük qəhrəmanlıq nümunələri göstərib, bu həlledici vuruşmalarda öz cəsurluğu və şücaəti ilə xüsusi fərqlənib. Oktyabrın 10-da Tərtər-Ağdərə cəbhəsində, Suqovuşan istiqamətində gedən qızğın döyüşlərin birində hünərlə savaşaraq şəhadətə ucalıb. Doğulub boya-başa çatdığı Məzrəli kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## QULİYEV
## Elçin Rövşən oğlu
(18.10.1992 – 29.09.2020)

Ağdam rayonunun İsmayılbəyli kəndində anadan olub. Orta təhsilini 1998-2009-cu illərdə Ağcabədi rayonu Muğanlı kənd və Bərdə şəhəri 5 saylı orta məktəblərdə alıb. 2009-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci ilin avqustunda yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb. İlk gündən savaş meydanlarında olub, düşmənlə amansız döyüşlərin getdiyi Kəlbəcər cəbhəsi səngərlərinə atılaraq qəhrəmancasına vuruşub. İgid əsgər Murovdağ yüksəklikləri uğrundakı qanlı döyüşlərdə böyük şücaət göstərib. Sentyabrın 29-da Murovdağ döyüşləri zamanı rəşadətlə vuruşaraq şəhadətə qovuşub. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 28-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Ağdam rayonunun Quzanlı qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## QULİYEV
## Elgün Fuad oğlu
### (01.01.2000 – 06.11.2020)

İmişli rayonunun Qaragüvəndikli kəndində anadan olub. Orta təhsilini 2006-2017-ci illərdə Qaragüvəndikli kənd orta məktəbində alıb. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Naxçıvanda xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. İlk günlərdən ön xətdə olan qəhrəman əsgər döyüşlərə Füzuli cəbhəsində başlayıb, igidliklə vuruşub. Daha sonra cəbhənin Cəbrayıl, Qubadlı, Laçın və Şuşa istiqamətlərində gedən şiddətli döyüşlərdə hünərlə iştirak edib, bu qanlı savaşlarda rəşadətlə döyüşüb, cəsurluğu və mətinliyi ilə fərqlənib. Noyabrın 6-da Şuşa ətrafındakı həlledici döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Doğulub boya-başa çatdığı Qaragüvəndikli kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QULİYEV
## Elgün Vasif oğlu
### (17.09.1992 – 09.11.2020)

Şamaxı rayonunun Göylər kəndində anadan olub. Orta təhsilini 1998-2009-cu illərdə Göylər kənd, İsmayıllı şəhəri 6 saylı və Şəki şəhəri 18 saylı orta məktəblərdə alıb. 2014-cü ildə Sumqayıt Dövlət Universitetini bitirib. 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində – Füzulidə xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən





səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Döyüşlərə sentyabrın 29-da Füzuli cəbhəsində başlayıb, bu həlledici döyüşlərdə misilsiz rəşadətlə vuruşub. Xocavənd və Şuşa uğrundakı qanlı savaşlarda böyük qəhrəmanlıq göstərib, şücaəti ilə fərqlənib. Cəsur əsgər noyabrın 9-da Şuşa-Laçın istiqamətindəki qanlı savaşların birində igidliklə döyüşərək şəhadətə qovuşub. Doğulduğu Göylər kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## QULİYEV
## Elnur Eldar oğlu
### (25.07.1984 – 02.10.2020)

Füzuli şəhərində anadan olub. Orta təhsilini 1991-2002-ci illərdə Füzuli şəhəri 8 saylı, Füzuli rayon Kürdlər kənd və Beyləqan rayon Qəhrəmanlı qəsəbə orta məktəblərində alıb. 2006-cı ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirib, 2006-2007-ci illərdə SQ TTM-də kurs keçərək zabit kimi xidmətə başlayıb. Gəncə, Gədəbəy, Ağstafa və Beyləqanda xidmət edib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin mayoru kimi zabit mundirində qarşılayıb. Müharibənin ilk günündən ön cəbhədə, savaş meydanlarında olub, misilsiz igidliklə vuruşub. Döyüşlərə Füzuli cəbhəsində başlayan rəşadətli zabit daha sonra Cəbrayıl uğrundakı qanlı savaşlarda hünərlə iştirak edib, şücaəti ilə seçilib. Oktyabrın 2-də Füzuli cəbhəsində gedən şiddətli döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Füzuli rayonunun Bala Bəhmənli kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Azərbaycan Bayrağı" ordeni (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## QULİYEV
## Elnur Sərdar oğlu
### (03.12.1989 – 28.09.2020)

Beyləqan rayonunun Kəbirli kəndində anadan olub. Orta təhsilini 1996-2007-ci illərdə Kəbirli kənd 1 saylı orta məktəbdə alıb. 2008-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Naxçıvanda xidmət edib. 2018-ci ildə yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Cəbhə bölgəsində - Beyləqanda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından etibarən düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi Füzuli cəbhəsindəki şiddətli döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub, bu qanlı savaşlarda böyük qəhrəmanlıq nümunəsi göstərib. İgid əsgər sentyabrın 28-də Füzulinin azadlığı uğrunda gedən qızğın döyüşlərin birində hünərlə savaşaraq şəhadətə ucalıb. Doğulub boya-başa çatdığı Kəbirli kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QULİYEV
## Eltac Azər oğlu
### (06.03.1998 – 01.11.2020)

Gəncə şəhərində anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Gəncə şəhəri 15 saylı orta məktəbdə alıb. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində - Beyləqanda xidmət edib. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən





ordu sıralarına çağırılıb, sentyabrın 30-da cəbhəyə yollanıb, düşmənlə ölüm-dirim savaşına atılaraq igidliklə vuruşub. Qəhrəman əsgərin döyüş yolu Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı cəbhələrindən keçib, bu qanlı döyüşlərdə böyük şücaət göstərib, cəsurluğu ilə seçilib. Noyabrın 1-də Laçın uğrundakı həlledici savaşların birində misilsiz rəşadətlə döyüşərək şəhid olub. Gəncə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020).*



## QULİYEV
## Eltay Əli oğlu
### (03.06.1989 – 29.09.2020)

Goranboy rayonunun Quşçular kəndində anadan olub. Orta təhsilini 1995-2006-cı illərdə Quşçular kənd və Gəncə şəhəri 33 saylı orta məktəblərdə alıb. 2007-2008-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Milli Qvardiyada xidmət edib. 2016-cı ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Təmas xəttində - Murovda və Goranboyda xidmət edib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kiçik çavuşu kimi əldə silah ön xətdə, döyüş meydanlarında qarşılayıb, savaşın ilk saatlarından etibarən Tərtər-Ağdərə cəbhəsi səngərlərində düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq igidliklə döyüşüb, Talış və Suqovuşan döyüşlərində rəşadət göstərib. Cəsur hərbçi sentyabrın 29-da Suqovuşan uğrunda gedən qanlı döyüşlərdə misilsiz şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Gəncə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QULİYEV
## Elvin Amil oğlu
(24.07.2001 – 01.10.2020)

Daşkəsən rayonunun Əhmədli kəndində anadan olub. 2016-cı ildə Əhmədli kənd orta məktəbinin IX sinfini bitirib. 2019-cu ilin iyul ayında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk saatlarından etibarən ön xətdə, döyüş meydanlarında olub, düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi Füzuli cəbhəsindəki şiddətli döyüşlərə atılaraq misilsiz igidliklə vuruşub, bu cəbhə boyunca həyata keçirilən əks-hücum əməliyyatlarında böyük hünər və rəşadət göstərib, iştirak etdiyi həlledici döyüşlərdə öz cəsurluğu və mətinliyi ilə xüsusi fərqlənib. İgid əsgərin son savaşı da Füzuli cəbhəsində olub. Oktyabrın 1-də Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndinin azad olunması uğrunda gedən qızğın döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Daşkəsən şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## QULİYEV
## Əkbər Güləhməd oğlu
(18.08.2000 – 04.11.2020)

Rusiyanın Tümen vilayətinin Surqut şəhərində anadan olub. Orta təhsilini 2006-2017-ci illərdə Bakı şəhəri 49 saylı və Neftçala rayon Xıllı qəsəbə 1 saylı orta məktəblərində alıb. 2018-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Tərtərdə xidmət edib. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra Vətən





müharibəsi başlayanda savaşın ilk saatlarından Füzuli cəbhəsində düşmənlə amansız döyüşlərə atılaraq misilsiz igidliklə vuruşub. Cəbrayıl və Şuşa uğrundakı qızğın döyüşlərdə qəhrəmanlıq göstərib. Cəsur kiçik çavuş noyabrın 4-də Şuşa ətrafındakı qanlı döyüşlərin birində rəşadətlə vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi 2021-ci il fevralın 16-da müəyyən olunaraq ailəsinə təhvil verilib. II Fəxri xiyabanda dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Füzulinin azad olunmasına görə" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021); "Vətən uğrunda" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021).*



## QULİYEV
## Əli Tədbir oğlu
(09.09.1984 – 27.10.2020)

İmişli rayonunun Otuziki kəndində anadan olub. 2001-ci ildə Otuziki kənd orta məktəbini bitirib. 2002-2004-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Murovda düşmənlə üzbəüz mövqelərdə xidmət edib. Xidməti dövründə gizir hazırlığı kursunu bitirib. 2004-cü ildə yenidən ordu sıralarına qayıdıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin giziri kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən ön xətdə olub, igidliklə vuruşub. Rəşadətli hərbçi Füzuli, Cəbrayıl, Xocavənd, Qubadlı və Zəngilan cəbhələri boyunca həyata keçirilən əks-hücum əməliyyatlarında hünərlə iştirak edib, bu qanlı döyüşlərdə qəhrəmanlıq göstərib. Oktyabrın 27-də Xocavənd cəbhəsindəki şiddətli döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Otuziki kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Azərbaycan Bayrağı" ordeni (2021).*



## QULİYEV
## Əli Turac oğlu
### (20.10.2001 – 26.10.2020)

İranın Məşhəd şəhərində anadan olub. Orta təhsilini 2007-2011-ci illərdə Məşhəd şəhərində, 2011-2018-ci illərdə isə Masallı rayonunun Böyük Kolatan kənd orta məktəbində alıb. 2019-cu ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, Ağcabədidə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından döyüş meydanlarına atılaraq düşmənlə ölüm-dirim mübarizəsinə girib, rəşadətlə vuruşub. Qəhrəman əsgər döyüşlərə cəbhənin Füzuli istiqamətində başlayıb, bu həlledici döyüşlərdə hünərlə iştirak edərək böyük şücaət göstərib. Xocavənd istiqamətindəki şiddətli döyüşlərdə cəsurluğu ilə seçilib. Oktyabrın 26-da Füzulinin Yuxarı Veysəlli kəndi uğrunda gedən qızğın döyüşlərdə misilsiz igidliklə vuruşaraq şəhadətə qovuşub. Masallı rayonunun Böyük Kolatan kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QULİYEV
## Əvdil Qardaşxan oğlu
### (31.07.1972 – 06.11.2020)

Beyləqan rayonunun Təzəkənd kəndində anadan olub. 1989-cu ildə Təzəkənd kənd orta məktəbini, 1994-cü ildə isə Kənd Təsərrüfatı Akademiyasını bitirib, ali təhsillə yanaşı leytenant rütbəsi də alıb. 1996-cı ildə bir zabit kimi Silahlı Qüvvələr sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2000-ci ildə baş leytenant rütbəsində ehtiyata buraxılıb. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik





çərçivəsində ehtiyatda olan zabit kimi yenidən ordu sıralarına çağırılıb. Qəhrəman zabit döyüşlərə oktyabrın 1-də Füzuli cəbhəsi səngərlərində başlayıb. Döyüş yolu daha sonra Cəbrayıl, Qubadlı, Xocavənd cəbhələrindən keçməklə Şuşa savaşlarına qədər uzanıb, bu qanlı döyüşlərdə şəxsi igidlik göstərib, şücaəti ilə seçilib. Noyabrın 6-da Şuşa uğrunda gedən həlledici döyüşlərdə misilsiz hünərlə vuruşaraq şəhadətə ucalıb. Təzəkənd kəndində dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "İgidliyə görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## QULİYEV
## Fəhmin Yunis oğlu
### (22.11.1998 – 07.10.2020)

Yevlax rayonunun Qaramanlı kəndində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Qaramanlı kənd orta məktəbində alıb. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və hərbi təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk saatlarından ön xətdə olub, Kəlbəcər cəbhəsində düşmənə qarşı amansız döyüşlərə atılıb, Murovdağ yüksəklikləri uğrundakı qanlı vuruşmalarda misilsiz şücaət göstərib. İgid əsgərin döyüş yolu daha sonra Tərtər-Ağdərə cəbhəsindən keçib, Talış və Suqovuşan uğrundakı qızğın döyüşlərdə rəşadətlə vuruşub. Oktyabrın 7-də Ağdərə istiqamətində gedən həlledici döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Doğulduğu Qaramanlı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## QULİYEV Fərid Ayazxan oğlu
### (28.10.1994 – 09.10.2020)

Cəlilabad rayonunun Babalı kəndində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Babalı kənd tam orta məktəbində alıb. 2012-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Naxçıvanda xidmət edib. 2019-cu ildə yenidən Silahlı Qüvvələr sıralarına qayıtmağa qərar verib və xidmətini DSX Sərhəd Qoşunları sıralarında davam etdirib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini DSX Sərhəd Qoşunlarının kiçik giziri kimi əldə silah savaş meydanlarında qarşılayıb, ilk gündən ön xətdə olub, Füzuli cəbhəsində düşmənlə ölüm-dirim çarpışmasına atılaraq misilsiz rəşadətlə döyüşüb. Cəbhənin Cəbrayıl və Xocavənd istiqamətlərindəki həlledici əks-hücum əməliyyatlarında igidliklə iştirak edərək qəhrəmanlıq göstərib. Cəsur hərbçi oktyabrın 9-da Hadrut ətrafındakı qanlı döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə ucalıb. Doğulub boya-başa çatdığı Babalı kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020).*



## QULİYEV Həsən Adışirin oğlu
### (11.10.1996 – 04.11.2020)

Ağcabədi rayonunun Sarvanlar kəndində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Sarvanlar kənd orta məktəbində alıb. 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2015-ci ildən MAHHXHQ kimi davam etdirməyə başlayıb. Təmas xəttində – Füzulidə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir hərbçi kimi əldə





silah Füzuli cəbhəsi səngərlərində qarşılayıb, ilk saatlardan düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq şücaətlə vuruşub. Xocavənd uğrunda gedən qızğın savaşlarda şəxsi igidlik nümunəsi göstərib, cəsurluğu ilə fərqlənib. Qəhrəman əsgər noyabrın 4-də Xocavənd cəbhəsindəki şiddətli döyüşlərin birində misilsiz rəşadətlə savaşaraq şəhid olub. Nəşi noyabrın 21-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Sarvanlar kəndində dəfn olunub. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Döyüşdə fərqlənməyə görə" medalı (2021).*



## QULİYEV Həsən İbrahim oğlu
### (30.09.1996 – 30.09.2020)

Naxçıvan MR Şərur rayonunun Qarahəsənli kəndində anadan olub. Orta təhsilini 2003-2012-ci illərdə Qarahəsənli kənd orta məktəbində alıb. Təhsilini 2012-2015-ci illərdə H.Əliyev adına Hərbi Liseydə davam etdirib. 2019-cu ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsi ilə bitirərək zabit kimi xidmətə başlayıb. Cəbhə bölgəsində – Goranboyda xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin leytenantı kimi zabit mundirində qarşılayıb, xidmət etdiyi hərbi hissə ilə birlikdə ilk saatlardan Tərtər-Ağdərə cəbhəsindəki qanlı döyüşlərə atılaraq qəhrəmancasına vuruşub. Talış və Suqovuşanın azadlığı uğrunda gedən ağır və həlledici döyüşlərdə şəxsi igidlik göstərib. Rəşadətli zabitin son döyüşü öz doğum günündə – sentyabrın 30-da olub. Həmin gün Suqovuşan istiqamətindəki qızğın döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Qarahəsənli kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021); 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2021).*



## QULİYEV
## Həsən Yalçın oğlu
### (09.07.2002 – 01.11.2020)

Qobustan rayonunun Sündü kəndində anadan olub. Orta təhsilini 2008-2019-cu illərdə Sündü kənd orta məktəbində alıb. 2020-ci ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, təmas xəttində – Füzulidə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından ön xətdə, döyüş meydanlarında olub, xidmət etdiyi hərbi hissənin tərkibində qızğın döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Cəsur əsgər Füzuli, Xocavənd və Şuşanın azadlığı uğrunda gedən qanlı döyüşlərdə böyük qəhrəmanlıq göstərib. Xüsusilə Füzuli döyüşlərində öz qorxmazlığı və mətinliyi ilə fərqlənib. Noyabrın 1-də Şuşa istiqamətində gedən həlledici döyüşlərin birində igidliklə vuruşaraq şəhadətə qovuşub. Nəşi noyabrın 12-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Sündü kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QULİYEV
## Hətəmxan Məti oğlu
### (24.03.1990 – 29.09.2020)

Sumqayıt şəhərində anadan olub, əslən Cəbrayıl rayonundan idi. 1997-2006-cı illərdə Sumqayıt şəhəri 4 saylı orta məktəbdə, 2006-2008-ci illərdə C.Naxçıvanski adına Hərbi Liseydə təhsil alıb. 2012-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirib. 2012-2013-cü illərdə SQ TTM-də kurs keçərək zabit kimi xidmətə başlayıb. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. Cəbhə bölgəsində – Tərtərdə xidmət edirdi. 2020-ci ilin sentyabrında





başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kapitanı kimi zabit mundirində qarşılayıb, ilk gündən Tərtər-Ağdərə cəbhəsindəki ağır döyüşlərə atılıb, Talış və Suqovuşan uğrunda gedən qızğın döyüşlərdə misilsiz rəşadətlə vuruşub. İgid zabit sentyabrın 29-da Suqovuşan uğrundakı qanlı savaşlarda qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 24-də müəyyən olunaraq ailəsinə təhvil verilib. II Fəxri xiyabanda dəfn edilib. Ailəli idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## QULİYEV
## Hüseyn Aydın oğlu
### (25.08.1991 – 08.10.2020)

Beyləqan rayonunun Örənqala qəsəbəsində anadan olub. Orta təhsilini 1997-2008-ci illərdə Örənqala qəsəbə orta məktəbində alıb. 2017-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2019-cu ildə tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Cəbhə bölgəsində – Beyləqanda xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini bir hərbi qulluqçu kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən qanlı savaşlara atılaraq şücaətlə vuruşub. Qəhrəman əsgərin döyüş yolu əsasən Füzuli, Xocavənd və Cəbrayıl cəbhələri səngərlərindən keçib, bu rayonlar uğrundakı qızğın döyüşlərdə misilsiz rəşadət göstərib. Oktyabrın 8-də Cəbrayıl cəbhəsində gedən şiddətli döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə ucalıb. Doğulduğu Örənqala qəsəbəsində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021), 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2022).*



## QULİYEV
## Hüseyn Həsən oğlu
## (04.03.1999 – 28.09.2020)

Gəncə şəhərində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Gəncə şəhəri 10 və 4 saylı orta məktəblərdə alıb. 2020-ci ildə Bakı Dövlət Universitetini bitirərək magistratura pilləsinə qəbul olunsa da, həmin ilin iyul ayında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. XTQ sıralarında xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk saatlarından ön xətdə olub, düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi Kəlbəcər cəbhəsindəki qanlı döyüşlərə atılaraq qəhrəmancasına vuruşub. Murovdağ yüksəkliklərinin azad olunması uğrunda həlledici döyüşlərdə şəxsi igidlik nümunəsi göstərib, şücaəti və mətinliyi ilə xüsusi fərqlənib. Cəsur əsgər sentyabrın 28-də Murovdağ yüksəklikləri uğrunda gedən qızğın döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Gəncə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020), 3-cü dərəcəli "Rəşadət" ordeni (2022).*



## QULİYEV
## İlkin Rəfail oğlu
## (15.04.2002 – 08.10.2020)

Rusiyanın Moskva şəhərində anadan olub. Orta təhsilini 2008-2019-cu illərdə Bakı şəhəri 310 saylı orta məktəbdə alıb. 2019-cu ildə Qərbi Kaspi Universitetinin kollecinə daxil olsa da, 2020-ci ilin aprelində təhsilini yarımçıq qoyaraq Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə yollanıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən ön xətdə,





savaş meydanlarında olub, qatıldığı qızğın vuruşmalarda böyük hünər göstərib. Vuruşmağa Füzuli cəbhəsində başlayan igid əsgərin döyüş yolu daha sonra Xocavənd cəbhəsi səngərlərindən keçib, bu rayonların azad olunması uğrunda gedən həlledici döyüşlərdə misilsiz rəşadətlə vuruşub, qəhrəmanlığı və cəsurluğu ilə seçilib. Oktyabrın 8-də Füzuli istiqamətində gedən həlledici döyüşlərin birində şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Bakının Bakıxanov qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QULİYEV
## İlqar Akif oğlu
## (03.02.1973 – 27.09.2020)

Goranboy rayonunun Fəxralı kəndində anadan olub. Orta təhsilini 1980-1990-cı illərdə Fəxralı kənd orta məktəbində alıb. 1996-cı ildə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasını bitirib, ali təhsillə yanaşı leytenant rütbəsi də alıb. 1999-cu ildən Azərbaycan Silahlı Qüvvələri sıralarında zabit kimi xidmət etməyə başlayıb. Cəbhə bölgəsində – Füzuli, Ağdam, Qazax, Tərtər və Goranboyda xidmət edib. 2016-cı il Aprel döyüşlərində hünərlə vuruşub. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin mayoru kimi zabit mundirində qarşılayıb. Savaşın ilk günündən ön xətdə, döyüş meydanlarında olub, Füzulinin azadlığı uğrunda gedən həlledici döyüşlərdə qəhrəmancasına vuruşub. Rəşadətli zabit müharibənin elə ilk günü – sentyabrın 27-də Füzuli cəbhəsindəki qanlı döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə qovuşub. Fəxralı kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "İgidliyə görə" medalı (2021); "Azərbaycan Bayrağı" ordeni (2021).*



## QULİYEV
## İman Kürdoğlu oğlu
### (11.07.1999 – 04.11.2020)

Yevlax rayonunun Salahlı kəndində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Salahlı kənd orta məktəbində alıb. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2019-cu ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini bir hərbçi kimi əldə silah səngərlərdə qarşılayıb. İlk saatlardan düşmənlə ölüm-dirim savaşının getdiyi Tərtər-Ağdərə cəbhəsindəki qızğın döyüşlərə atılıb, Talış və Suqovuşan uğrunda misilsiz rəşadətlə vuruşub. Füzuli, Laçın və Qubadlı cəbhələrində gedən qanlı döyüşlərdə şəxsi igidlik və şücaət göstərib. Cəsur əsgər noyabrın 4-də Laçın cəbhəsində növbəti döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına savaşaraq şəhidlik zirvəsinə yüksəlib. Nəşi noyabrın 26-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Salahlı kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2021); "Laçının azad olunmasına görə" medalı (2021); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## QULİYEV
## Kamran Dadaş oğlu
### (11.05.1992 – 06.10.2020)

Salyan şəhərində anadan olub. Orta təhsilini 1999-2009-cu illərdə Salyan şəhəri 7 saylı orta məktəbdə alıb. 2010-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. DİN Daxili Qoşunlarında xidmət edib. 2012-ci ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2016-cı il Aprel və 2020-ci il iyul Tovuz döyüşlərində igidliklə iştirak edib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından Füzuli cəbhəsində düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq misilsiz rəşadətlə vuruşub. Cəbrayıl istiqamətində gedən qızğın döyüşlərdə böyük şücaət göstərib, cəsurluğu və mətinliyi ilə xüsusi fərqlənib. Qəhrəman əsgər oktyabrın 6-da Füzuli cəbhəsindəki şiddətli döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə ucalıb. Salyan şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*







## QULİYEV
## Kənan Vaqif oğlu
### (11.09.1992 – 26.10.2020)

Naxçıvan MR Culfa şəhərində anadan olub. Orta təhsilini 1998-2009-cu illərdə Culfa şəhəri 2 saylı orta məktəbdə alıb. 2010-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2019-cu ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini XTQ sıralarında davam etdirməyə başlayıb. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsinin başladığı ilk gündən ön xətdə olub, bütün cəbhəboyu həyata keçirilən əks-hücum əməliyyatlarında hünərlə iştirak edib. Döyüşlərə Füzuli cəbhəsində başlayıb, buradakı şiddətli döyüşlərdə böyük qəhrəmanlıq göstərib. Cəbrayıl, Xocavənd və Şuşa uğrunda gedən qanlı savaşlarda misilsiz şücaətlə vuruşub. İgid əsgərin son döyüşü oktyabrın 26-da olub. Həmin gün Qubadlı cəbhəsindəki qızğın döyüşlərin birində rəşadətlə savaşaraq şəhid olub. Doğulub boya-başa çatdığı Culfa şəhərində dəfn edilib. Ailəli idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## QULİYEV
## Mehtab Ənvər oğlu
### (06.12.1997 – 30.10.2020)

Gədəbəy rayonunun Kiçik Qaramurad kəndində anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Kiçik Qaramurad kənd orta məktəbində alıb. 2019-cu ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. DSX Sərhəd Qoşunları sıralarında xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən ön xətdə, savaş meydanlarında olub, qatıldığı qızğın döyüşlərdə böyük şücaət və hünər göstərib. Vuruşmağa Füzuli cəbhəsində başlayan igid əsgərin döyüş yolu daha sonra Cəbrayıl və Zəngilan cəbhələri səngərlərindən keçib, bu rayonların azad olunması uğrunda gedən həlledici döyüşlərdə misilsiz rəşadətlə vuruşub. Son döyüşü oktyabrın 30-da olub. Həmin gün cəbhənin Zəngilan istiqamətində gedən şiddətli döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Doğulub boya-başa çatdığı Kiçik Qaramurad kəndində dəfn edilib. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Zəngilanın azad olunmasına görə" medalı (2020).*



## QULİYEV
## Məhəbbət Arzu oğlu
### (17.11.1993 – 05.11.2020)

Ağcabədi rayonunun Aşağı Qiyaməddinli kəndində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Aşağı Qiyaməddinli kənd orta məktəbində alıb. 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb. Müharibənin ilk günlərindən savaş meydanlarında olub, cəsurluqla döyüşüb. Cəbhənin Füzuli və Xocavənd istiqamətlərində həyata keçirilən əks-hücum əməliyyatlarında igidliklə iştirak edib. Rəşadətli əsgərin döyüş yolu Qubadlı savaşlarına qədər uzanıb, bu qanlı döyüşlərdə misilsiz qəhrəmanlıq nümunəsi göstərib. Son döyüşü noyabrın 5-də olub. Həmin gün Qubadlı ətrafında gedən həlledici döyüşlərin birində şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Aşağı Qiyaməddinli kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QULİYEV
## Murad Şahin oğlu
### (11.08.1998 – 04.10.2020)

Beyləqan rayonunun Birinci Şahsevən kəndində anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Birinci Şahsevən kənd orta məktəbində alıb. 2016-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini avqust ayından MAHHXHQ kimi davam etdirməyə başlayıb. Cəbhə bölgəsində – Beyləqanda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb. İlk gündən düşmənlə ölüm-dirim çarpışmasının getdiyi Füzuli cəbhəsindəki həlledici döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub, bu qanlı vuruşmalarda şəxsi igidlik nümunəsi göstərib, cəsurluğu və qəhrəmanlığı ilə seçilib. Qəhrəman əsgər oktyabrın 4-də Füzuli uğrunda gedən qızğın döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə ucalıb. Doğulub boya-başa çatdığı Birinci Şahsevən kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## QULİYEV
## Namiq Natiq oğlu
**(29.12.1994 – 09.11.2020)**

Bakıda anadan olub. Orta təhsilini 2000-2012-ci illərdə Moldovanın Kişinyov şəhərində və Bakı şəhərindəki 2 saylı Texniki Humanitar Liseydə və Z.Əliyeva adına Liseydə alıb. 2016-cı ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetini bitirib. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan çavuşu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini əldə silah səngərlərdə qarşılayıb, ilk gündən düşmənlə ölüm-dirim savaşına atılaraq qəhrəmancasına vuruşub. Cəbhənin Füzuli, Cəbrayıl və Xocavənd istiqamətlərindəki ağır döyüşlərdə böyük şücaət göstərib. Cəsur hərbçinin döyüş yolu Şuşa savaşlarına qədər davam edib. Noyabrın 9-da Şuşa ətrafındakı həlledici döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Nəşi noyabrın 17-də müəyyən olunaraq ailəsinə təhvil verilib. II Fəxri xiyabanda dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QULİYEV
## Namiq Natiq oğlu
**(31.12.2001 – 25.10.2020)**

Sumqayıt şəhərində anadan olub. Orta təhsilini 2008-2019-cu illərdə Sumqayıt şəhəri 13 saylı tam orta məktəbdə alıb. 2020-ci ilin yanvarında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Cəbhə bölgəsində - Tərtərdə düşmənlə üzbəüz mövqelərdə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah döyüş meydanlarında qarşılayıb, ilk gündən ön xətdə olub, düşmənlə ölüm-dirim çarpışmasının getdiyi Tərtər-Ağdərə cəbhəsindəki qızğın döyüşlərə atılaraq misilsiz igidliklə vuruşub. Rəşadətli əsgər Talış və Suqovuşan uğrundakı həlledici döyüşlərdə qəhrəmanlıq göstərib, Xocavənd və Laçın cəbhələrindəki vuruşmalarda mətinliyi ilə seçilib. Son döyüşü oktyabrın 25-də olub. Həmin gün Suqovuşan ətrafında gedən qanlı döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## QULİYEV
## Natiq Ramiz oğlu
**(19.02.2001 – 06.10.2020)**

Sumqayıt şəhərində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Sumqayıt şəhəri 2 saylı orta məktəbdə alıb. 2019-cu ilin aprelində Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə bölgəsində - Tərtərdə düşmənlə üzbəüz mövqelərdə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk saatlarından etibarən ön cəbhədə, düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi Tərtər-Ağdərə cəbhəsinin döyüş meydanlarında olub, bu qanlı savaşlarda rəşadətlə vuruşub. Qəhrəman əsgər Talış, Suqovuşan və Ağdərənin azad olunması uğrundakı həlledici döyüşlərdə böyük hünər göstərib, öz şücaəti və cəsurluğu ilə xüsusi fərqlənib. Son savaşı oktyabrın 6-da olub. Həmin gün Suqovuşan ətrafında gedən şiddətli döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə qovuşub. Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## QULİYEV
## Nicat Nüşrəvan oğlu
**(08.04.1985 – 30.10.2020)**

Yevlax şəhərində anadan olub. Orta təhsilini 1992-2002-ci illərdə Yevlax şəhəri 2 saylı orta məktəbdə alıb. 2003-2004-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Təmas xəttində – Füzulidə düşmənlə üzbəüz mövqelərdə xidmət edib. 2016-cı ildə yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Cəbhə bölgəsində – Goranboyda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kiçik çavuşu kimi əldə silah səngərlərdə qarşılayıb. İlk gündən cəbhənin Kəlbəcər istiqamətindəki şiddətli döyüşlərə atılaraq şücaətlə vuruşub. Murovdağ yüksəklikləri uğrundakı qanlı savaşlarda hünər göstərib. İgid hərbçi oktyabrın 30-da Tərtər-Ağdərə cəbhəsində, Suqovuşan ətrafında gedən qızğın döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Yevlax şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## QULİYEV
## Nurlan Şükür oğlu
**(04.12.1995 – 01.11.2020)**

Ağcabədi rayonunun Qaraxanlı kəndində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Qaraxanlı kənd orta məktəbində alıb. 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2016-cı ildə yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Cəbhə bölgəsində – Beyləqanda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin





hərbi qulluqçusu kimi əldə silah döyüş meydanlarında qarşılayıb, ilk gündən ön xətdə olub, igidliklə vuruşub. Qəhrəman əsgər cəbhənin Füzuli, Cəbrayıl və Qubadlı istiqamətləri boyunca həyata keçirilən əks-hücum əməliyyatlarında hünərlə iştirak edib, bu qanlı savaşlarda cəsurluğu ilə fərqlənib. Daha sonra Şuşa uğrundakı qanlı döyüşlərdə igidliklə vuruşub, şücaət göstərib. Noyabrın 1-də Şuşa istiqamətində gedən həlledici döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Qaraxanlı kəndində dəfn edilib. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QULİYEV
## Orxan Bəxtiyar oğlu
**(25.07.1997 – 13.10.2020)**

Beyləqan rayonunun Aşıqalılar kəndində anadan olub. Orta təhsilini 2003-2014-cü illərdə Aşıqalılar kənd orta məktəbində alıb. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Sentyabrın 29-da Füzuli cəbhəsində düşmənlə ölüm-dirim mübarizəsinə atılıb, bu həlledici döyüşlərdə igidliklə vuruşub. Cəbrayıl uğrundakı şiddətli döyüşlərdə böyük qəhrəmanlıq nümunəsi göstərib, cəsurluğu ilə seçilib. Rəşadətli əsgər oktyabrın 13-də Cəbrayıl cəbhəsində gedən qanlı döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Beyləqan rayonunun Əhmədli kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## QULİYEV
## Rahim Yalçın oğlu
(18.06.2001 – 02.10.2020)

Cəlilabad rayonunun Həziabad kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Bakı şəhəri 23 və 71 saylı orta məktəblərdə alıb. 2019-cu ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. XTQ sıralarında xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi Füzuli cəbhəsindəki qanlı döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Cəsur xüsusi təyinatlı əsgər Cəbrayıl və Xocavəndin azadlığı uğrunda gedən həlledici döyüşlərdə böyük şücaət və qəhrəmanlıq nümunəsi göstərib. Oktyabrın 2-də Cəbrayıl cəbhəsindəki şiddətli döyüşlərin birində müstəsna igidliklə vuruşaraq şəhadətə qovuşub. Doğulduğu Həziabad kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Azərbaycan Bayrağı" ordeni (2021).*



## QULİYEV
## Ramil Nuralı oğlu
(28.01.1981 – 30.09.2020)

Kürdəmir rayonunun Qarasu kəndində anadan olub. Orta təhsilini 1988-1998-ci illərdə Qarasu kənd orta məktəbində alıb. 1999-2000-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2001-ci ildə yenidən ordu sıralarına qayıdıb və SQ TTM-də gizir hazırlığı kursu keçərək xidmətini davam etdirməyə başlayıb. Son xidmət yeri cəbhə bölgəsində – Beyləqanda idi.





2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin baş giziri kimi əldə silah Füzuli cəbhəsi səngərlərində qarşılayıb. Savaşın ilk saatlarından ön xətdə olub, düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq misilsiz şücaətlə vuruşub, bu qanlı döyüşlərdə şəxsi igidlik nümunəsi göstərib. Rəşadətli hərbçi sentyabrın 30-da Füzulinin azadlığı uğrunda gedən həlledici döyüşlərin birində hünərlə savaşaraq şəhadətə ucalıb. Doğulub boya-başa çatdığı Qarasu kəndində dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020).*



## QULİYEV
## Ramin Rizvan oğlu
(07.11.1998 – 05.10.2020)

Bakıda anadan olub. Orta təhsilini 2005-2013-cü illərdə Bakı şəhəri 179 saylı orta məktəbdə alıb. Təhsilini 2013-2016-cı illərdə C.Naxçıvanski adına Hərbi Liseydə davam etdirib. 2020-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. Təmas xəttində – Ağdamda düşmənlə üzbəüz mövqelərdə xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin leytenantı kimi zabit mundirində qarşılayıb, savaşın ilk günündən Tərtər-Ağdərə cəbhəsindəki şiddətli döyüşlərə atılaraq şücaətlə vuruşub. Talış və Suqovuşanın azadlığı uğrunda gedən həlledici döyüşlərdə böyük hünər və şəxsi igidlik nümunəsi göstərib, cəsurluğu ilə seçilib. Qəhrəman zabitin son döyüşü oktyabrın 5-də olub. Həmin gün Suqovuşan ətrafındakı qanlı döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Binəqədi rayonundakı Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## QULİYEV
## Rəcəb Elşən oğlu
**(05.12.1997 – 09.11.2020)**

Şamaxı rayonunun Dəmirçi kəndində anadan olub. 2015-ci ildə Dəmirçi kənd orta məktəbini bitirib. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, xidmətini cəbhə bölgəsində – Beyləqanda başa vurub. 2016-cı il Aprel döyüşlərində igidliklə iştirak edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində Silahlı Qüvvələrin ehtiyatda olan çavuşu kimi yenidən ordu sıralarına çağırılıb, sentyabrın 29-dan düşmənlə amansız savaşa atılaraq qəhrəmancasına vuruşub. Cəsur əsgərin döyüş yolu Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Xocavənd və Şuşa cəbhələrindən keçib, bu qanlı döyüşlərdə böyük hünər göstərib. Noyabrın 9-da Zəngilan istiqamətindəki şiddətli döyüşlərdə misilsiz şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Şamaxı şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Zəngilanın azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020).*



## QULİYEV
## Rəşad Əfras oğlu
**(05.07.1988 – 04.10.2020)**

Cəlilabad rayonunun Uzuntəpə kəndində anadan olub. Orta təhsilini 1994-2005-ci illərdə Uzuntəpə kənd orta məktəbində alıb. 2009-cu ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. Cəbhə bölgəsində – Tərtər, Goranboy və Ağdamda düşmənlə üzbəüz mövqelərdə xidmət edib. 2016-cı il Aprel döyüşlərində qəhrəmanlıq nümunəsi göstərib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kapitanı kimi zabit mundirində qarşılayıb, savaşın ilk günündən Tərtər-Ağdərə cəbhəsində düşmənlə amansız döyüşlərə atılaraq misilsiz şücaətlə vuruşub. Talış və Suqovuşanın azad olunması uğrunda gedən həlledici döyüşlərdə öz cəsurluğu və hünəri ilə xüsusi fərqlənib. Rəşadətli zabitin son savaşı oktyabrın 4-də olub. Həmin gün Suqovuşan uğrundakı qızğın döyüşlərdə igidliklə vuruşaraq şəhadətə qovuşub. Doğulub boya-başa çatdığı Uzuntəpə kəndində dəfn edilib. Ailəli idi.





**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## QULİYEV
## Rəşad Rəşid oğlu
**(23.09.1983 – 07.10.2020)**

Bakıda anadan olub. Orta təhsilini 1990-1998-ci illərdə Bakı şəhəri 263 saylı orta məktəbdə alıb. Təhsilini 1998-2000-ci illərdə C.Naxçıvanski adına Hərbi Liseydə davam etdirib. 2004-cü ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb, xidmətinin çox hissəsi cəbhə bölgəsində keçib. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin polkovnik-leytenantı kimi zabit mundirində qarşılayıb, ilk gündən cəbhənin Cəbrayıl istiqamətindəki ağır döyüşlərə atılaraq rəşadətlə savaşıb. İgid zabitin döyüş yolu daha sonra Füzuli cəbhəsindən keçib, bu qanlı döyüşlərdə hünər göstərib. Oktyabrın 7-də Füzuli uğrundakı həlledici döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. II Fəxri xiyabanda dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Qubadlının azad olunmasına görə" medalı (2021); "Azərbaycan Bayrağı" ordeni (2021).*



## QULİYEV
## Rəvan Mərdan oğlu
### (17.07.2001 – 24.10.2020)

Şirvan şəhərində anadan olub. Orta təhsilini 2007-2016-cı illərdə Bakı şəhəri 51 saylı orta və Neftçala rayon Aşağı Qaramanlı kənd orta məktəblərində alıb. 2020-ci ilin yanvarında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, təmas xəttində - Füzulidə xidmət edirdi. Həmin ilin sentyabrında başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk saatlarından ön xətdə, döyüş meydanlarında olub, xidmət etdiyi hərbi hissənin tərkibində Füzuli cəbhəsində düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq misilsiz rəşadətlə vuruşub. Qəhrəman əsgər Cəbrayıl, Zəngilan və Xocavənd uğrunda gedən qızğın döyüşlərdə şəxsi igidlik nümunəsi göstərib, cəsurluğu ilə seçilib. Son savaşı oktyabrın 24-də olub. Həmin gün Füzuli cəbhəsində gedən qanlı döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə ucalıb. Neftçala rayonunun Astanlı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QULİYEV
## Rusif Asim oğlu
### (09.09.1989 – 05.11.2020)

Ağstafa rayonunun Yenigün kəndində anadan olub. Orta təhsilini 1996-2007-ci illərdə Yenigün kənd orta məktəbində alıb. 2007-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2012-ci ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2016-cı il Aprel və 2020-ci il iyul Tovuz döyüşlərində qəhrəmanlıqla iştirak edib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı





Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk saatlarından düşmənlə ölüm-dirim savaşının getdiyi Kəlbəcər cəbhəsindəki qanlı döyüşlərə atılaraq şücaətlə vuruşub. Döyüş yolu Şuşa savaşlarına qədər davam edib, bu həlledici döyüşlərdə şəxsi igidlik nümunəsi və hünər göstərib. Cəsur əsgər noyabrın 5-də Şuşanın azadlığı uğrunda gedən şiddətli döyüşlərin birində misilsiz rəşadətlə savaşaraq şəhid olub. Yenigün kəndində dəfn edilib. Ailəli olub, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020).*



## QULİYEV
## Ruslan Şaxsəddin oğlu
### (20.11.1984 – 11.10.2020)

Tovuz rayonunun Dondar Quşçu kəndində anadan olub. Orta təhsilini 1991-2002-ci illərdə Dondar Quşçu kənd orta məktəbində alıb. 2003-2004-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində - Goranboyda xidmət edib. 2015-ci ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk saatlarından düşmənlə ölüm-dirim çarpışmasının getdiyi Kəlbəcər cəbhəsindəki qızğın döyüşlərə atılaraq qəhrəmancasına vuruşub. Murovdağ yüksəklikləri uğrunda gedən qanlı döyüşlərdə böyük hünər və şəxsi igidlik nümunəsi göstərib. Rəşadətli əsgər oktyabrın 11-də Murovdağ istiqamətində növbəti döyüş tapşırığını yerinə yetirərkən misilsiz şücaətlə savaşaraq şəhidlik məqamına yüksəlib. Dondar Quşçu kəndində dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020).*



## QULİYEV
## Samir Məhərrəm oğlu
### (25.11.2001 – 27.09.2020)

Lənkəran rayonunun Velədi kəndində anadan olub. 2017-ci ildə Velədi kənd orta məktəbinin IX sinfini bitirib. 2020-ci ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə bölgəsində – Beyləqanda xidmət edirdi. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk saatlarından etibarən ön cəbhədə, döyüş meydanlarında olub, xidmət etdiyi hərbi hissənin tərkibində düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq şücaətlə vuruşub. Qəhrəman əsgər cəbhənin Füzuli istiqamətində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında hünərlə iştirak edib, bu qanlı döyüşlərdə misilsiz rəşadət göstərib, cəsurluğu və mətinliyi ilə xüsusi seçilib. Müharibənin elə ilk günü – sentyabrın 27-də Füzulinin azadlığı uğrunda gedən qızğın döyüşlərin birində igidliklə vuruşaraq şəhadətə qovuşub. Doğulub boya-başa çatdığı Velədi kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## QULİYEV
## Sehrulla Xeyrulla oğlu
### (02.10.1999 – 21.10.2020)

Beyləqan rayonunun Birinci Şahsevən kəndində anadan olub. Orta təhsilini 2006-2017-ci illərdə Birinci Şahsevən kənd orta məktəbində alıb. 2017-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Qazaxda xidmət edib. 2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrin ehtiyatda olan hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağırılıb və hərbi təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini





bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk saatlarından Füzuli cəbhəsində düşmənə qarşı amansız döyüşlərə atılıb, bu qanlı vuruşmalarda misilsiz rəşadətlə döyüşüb. Cəbrayıl və Qubadlının azad olunması uğrunda gedən şiddətli döyüşlərdə böyük şücaət göstərib, cəsurluğu və mətinliyi ilə fərqlənib. İgid əsgərin son savaşı oktyabrın 21-də olub. Həmin gün Qubadlı uğrundakı həlledici döyüşlərin birində qəhrəmancasına savaşaraq şəhidlik zirvəsinə yüksəlib. Doğulub boya-başa çatdığı Birinci Şahsevən kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## QULİYEV
## Şahmar Kəmaləddin oğlu
### (07.11.1991 – 28.09.2020)

Naxçıvan şəhərində anadan olub. Orta təhsilini 1998-2006-cı illərdə Naxçıvan şəhəri 14 saylı orta məktəbdə alıb. Təhsilini 2006-2009-cu illərdə H.Əliyev adına Hərbi Liseydə davam etdirib. 2013-cü ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirib. 2013-2014-cü illərdə SQ TTM-də kurs keçərək zabit kimi xidmətə başlayıb. Cəbhə bölgəsində – Ağcabədi, Ağdam və Beyləqanda xidmət edib. 2016-cı il Aprel döyüşlərində qəhrəmancasına vuruşub. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kapitanı kimi zabit mundirində qarşılayıb, ilk gündən Tərtər-Ağdərə cəbhəsinin savaş meydanlarında olub, igidliklə döyüşüb. Talış və Suqovuşan uğrunda gedən həlledici döyüşlərdə misilsiz şücaət göstərib. Rəşadətli zabit sentyabrın 28-də Suqovuşan uğrundakı qanlı döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə ucalıb. II Fəxri xiyabanda dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## QULİYEV
## Şəhriyar Nəsib oğlu
### (25.05.1990 – 19.10.2020)

Ağdam rayonunun Xaçındərbətli kəndində anadan olub. 2007-ci ildə Sumqayıt şəhəri 15 saylı orta məktəbi bitirib. 2008-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, XTQ sıralarında xidmət edib. 2009-cu ildə yenidən ordu sıralarına qayıdıb və gizir hazırlığı kursunu bitirərək xidmətini XTQ sıralarında davam etdirib. 2016-cı il Aprel döyüşlərində hünərlə savaşıb. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayanda Silahlı Qüvvələrin giziri kimi ilk gündən Füzuli cəbhəsindəki qanlı döyüşlərə atılaraq şücaətlə vuruşub. Cəbrayıl, Xocavənd və Qubadlı uğrundakı həlledici döyüşlərdə şəxsi igidlik göstərib. Cəsur xüsusi təyinatlının son savaşı oktyabrın 19-da olub. Həmin gün Laçın istiqamətindəki şiddətli döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Qarabağ" ordeni (2020); "Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## QULİYEV
## Şirxan İsmixan oğlu
### (02.09.1995 – 07.11.2020)

Ağcabədi rayonunun Kürdlər kəndində anadan olub, əslən Xocavəndin Muğanlı kəndindən idi. Orta təhsilini 2001-2012-ci illərdə Kürdlər kənd orta və Beyləqan rayonundakı Xocavənd qəsəbəsində yerləşən Salakətin kənd orta məktəblərində alıb. 2013-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2016-cı ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini





MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci il iyul Tovuz döyüşlərində mətinliklə iştirak edib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini bir hərbçi kimi əldə silah Füzuli cəbhəsi səngərlərində qarşılayıb, ilk saatlardan qanlı döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Cəbrayıl, Qubadlı və Şuşa döyüşlərində şəxsi igidlik göstərib. Qəhrəman əsgər noyabrın 6-da Şuşa uğrunda şücaətlə vuruşduğu qızğın döyüşlərdə ağır yaralanıb, noyabrın 7-də şəhidlik məqamına yüksəlib. Beyləqandakı Xocavənd qəsəbəsində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021).*



## QULİYEV
## Teymur Zamin oğlu
### (29.10.2001 – 24.10.2020)

Bakıda anadan olub. Orta təhsilini 2007-2016-cı illərdə Abşeron rayonu Hökməli qəsəbə orta və Abşeron rayon Saray qəsəbə 1 saylı tam məktəblərdə alıb. Təhsilini 2016-2019-cu illərdə Ceyranbatan Peşə Liseyində davam etdirib. 2020-ci ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, təmas xəttində – Füzulidə xidmət edirdi. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk saatlarından ön cəbhədə, döyüş meydanlarında olub, şücaətlə vuruşub. İgid əsgər ağır döyüşlərə Füzuli cəbhəsində başlayıb. Cəbrayıl, Qubadlı, Xocavənd və Zəngilanın azadlığı uğrunda gedən qanlı döyüşlərdə böyük hünər göstərib, cəsurluğu və mətinliyi ilə seçilib. Oktyabrın 24-də Füzuli cəbhəsindəki qızğın döyüşlərin birində misilsiz rəşadətlə savaşaraq şəhid olub. Bakının Novxanı qəsəbəsində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QULİYEV
## Təbriz İlqar oğlu
## (05.08.1994 – 27.10.2020)

Ağstafa rayonunun Qırılı kəndində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Qırılı kənd orta məktəbində alıb. 2012-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2018-ci ildə yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah savaş meydanlarında qarşılayıb, ilk gündən Füzuli cəbhəsindəki qanlı döyüşlərə atılaraq hünərlə vuruşub. Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının işğaldan azad olunması uğrunda gedən qızğın döyüşlərdə böyük qəhrəmanlıq göstərib, şücaəti ilə xüsusi fərqlənib. Cəsur əsgərin son savaşı oktyabrın 27-də olub. Həmin gün Qubadlı cəbhəsindəki həlledici döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə qovuşub. Doğulduğu Qırılı kəndində dəfn edilib. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2020); "Zəngilanın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2021).*



## QULİYEV
## Tərlan Bəxtiyar oğlu
## (22.12.1999 – 16.10.2020)

Cəlilabad rayonunun Tahirli kəndində anadan olub. 2017-ci ildə Cəlilabad rayon Cəngan kənd orta məktəbini bitirib. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Goranboy və Ağdamda xidmət edib. 2019-cu ildə tərxis olunandan az sonra XTQ kursu keçərək xidmətini XTQ sıralarında davam etdirib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini bir xüsusi təyinatlı kimi əldə silah döyüş meydanlarında qarşılayıb, ilk saatlardan Kəlbəcər cəbhəsində ölüm-dirim savaşına atılaraq şücaətlə vuruşub. Füzuli, Cəbrayıl, Xocavənd və Zəngilan döyüşlərində misilsiz rəşadət göstərib. İgid əsgər oktyabrın 16-da Füzuli cəbhəsindəki qanlı döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Tahirli kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## QULİYEV
## Tərlan Mehman oğlu
## (26.01.2000 – 13.10.2020)

Astara rayonunun Ərçivan qəsəbəsində anadan olub. Orta təhsilini 2006-2017-ci illərdə Ərçivan qəsəbə 4 saylı orta məktəbdə alıb. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Sentyabrın 29-da Füzuli cəbhəsində düşmənlə amansız savaşlara atılıb, bu qızğın döyüşlərdə qəhrəmancasına iştirak edib. Cəsur əsgər daha sonra Cəbrayıl və Xocavənd cəbhələrində gedən həlledici döyüşlərdə misilsiz rəşadətlə vuruşub, həlledici döyüşlərdə şəxsi igidlik nümunəsi göstərib. Hadrut uğrundakı qanlı savaşlarda şücaəti ilə seçilib. Oktyabrın 13-də Xocavənd istiqamətindəki şiddətli döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə ucalıb. Doğulduğu Ərçivan qəsəbəsində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## QULİYEV
## Turab Əlisafa oğlu
### (10.04.1990 – 02.10.2020)

Hacıqabul rayonunun Ələtli kəndində anadan olub. Orta təhsilini 1996-2005-ci illərdə Ələtli kənd orta məktəbində alıb. Təhsilini 2005-2008-ci illərdə Hacıqabul Peşə Məktəbində davam etdirib. 2008-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2010-cu ildə tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini bir hərbçi kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən ön xətdə, savaş meydanlarında olub, misilsiz rəşadətlə vuruşub. Cəbhənin Füzuli və Cəbrayıl istiqamətlərində həyata keçirilən əks-hücum əməliyyatlarında hünərlə iştirak edib. Cəbrayıl uğrundakı qanlı döyüşlərdə böyük qəhrəmanlıq göstərib. İgid əsgər oktyabrın 2-də Cəbrayıl cəbhəsində gedən həlledici döyüşlərin birində şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Hacıqabul şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QULİYEV
## Tural Mustafa oğlu
### (25.10.1995 – 01.10.2020)

Yevlax rayonunun Aran qəsəbəsində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Aran qəsəbə orta məktəbində alıb. 2013-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini həmin ilin avqustundan MAHHXHQ kimi davam etdirib. Cəbhə bölgəsində – Goranboyda xidmət edirdi. 2020-ci il





sentyabrın 27-də başlayan Vətən müharibəsini bir hərbçi kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk günündən düşmənlə ölüm-dirim çarpışmasının getdiyi Tərtər-Ağdərə cəbhəsinin savaş meydanlarında olub, qatıldığı həlledici döyüşlərdə misilsiz şücaətlə vuruşub. Rəşadətli əsgər oktyabrın 1-də Suqovuşan uğrunda gedən qanlı döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə qovuşub. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 7-də müəyyən edilərək ailəsinə təhvil verilib. Doğulduğu Aran qəsəbəsində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Vətən uğrunda" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## QULİYEV
## Vasif Tahir oğlu
### (19.02.1988 – 28.09.2020)

Beyləqan şəhərində anadan olub. Orta təhsilini 1994-2005-ci illərdə Beyləqan şəhəri 2 saylı orta məktəbdə alıb. 2006-2007-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2008-ci ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Cəbhə zonasında – Beyləqanda xidmət edirdi. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin çavuşu kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk günündən düşmənə qarşı amansız döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Cəbhənin Füzuli istiqamətindəki qanlı döyüşlərdə böyük şücaət və şəxsi igidlik nümunəsi göstərib. Cəsur hərbçi sentyabrın 28-də Füzulinin Seyidəhmədli kəndi uğrunda gedən şiddətli döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Beyləqan şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QULİYEV
## Vəli Vəli oğlu
## (20.07.1997 – 22.10.2020)

Naxçıvan MR Culfa rayonunun Qazançı kəndində anadan olub. 2003-2011-ci illərdə Qazançı kənd və Naxçıvan şəhəri 17 saylı orta məktəblərdə, 2011-2014-cü illərdə H.Əliyev adına Hərbi Liseydə təhsil alıb. 2018-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. Təmas xəttində - Ağdamda xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin leytenantı kimi zabit mundirində qarşılayıb, ilk gündən qanlı döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Qəhrəman zabitin döyüş yolu Füzuli, Cəbrayıl, Xocavənd və Qubadlı cəbhələrindən keçərək Zəngilan döyüşlərinə qədər uzanıb, bu rayonlar uğrundakı həlledici döyüşlərdə igidlik və şücaət göstərib. Oktyabrın 22-də Qubadlı cəbhəsindəki qızğın döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə ucalıb. Nəşi noyabrın 6-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Naxçıvan şəhərində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021); "Azərbaycan Bayrağı" ordeni (2021).*



## QULİYEV
## Vüqar Fizuli oğlu
## (11.12.2001 – 08.11.2020)

Ağsu rayonunun Qaraqaşlı kəndində anadan olub. Orta təhsilini 2008-2019-cu illərdə Ağsu şəhəri 5 və 4 saylı tam orta məktəblərdə alıb. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Təmas xəttində - Füzulidə düşmənlə üzbəüz mövqelərdə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi





əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi Füzuli cəbhəsindəki qanlı döyüşlərə atılaraq şücaətlə vuruşub. Cəbrayıl və Xocavəndin azadlığı uğrunda gedən şiddətli döyüşlərdə böyük qəhrəmanlıq nümunələri göstərib, cəsurluğu və mətinliyi ilə xüsusi fərqlənib. İgid əsgərin son döyüşü noyabrın 8-də olub. Həmin gün Xocavənd cəbhəsində gedən həlledici döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Ağsu şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QULİYEV
## Vüsal Tahir oğlu
## (05.06.1985 – 28.09.2020)

Lənkəran şəhərində anadan olub. Orta təhsilini 1991-2002-ci illərdə Lənkəran şəhəri xarici dillər təmayüllü gimnaziya məktəbində alıb. 2006-cı ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirib. 2006-2007-ci illərdə SQ TTM-də kurs keçərək zabit kimi xidmətə başlayıb. 2016-cı il Aprel döyüşlərində qəhrəmanlıqla iştirak edib. Xidmətini cəbhə bölgəsində - Beyləqan, Goranboy və Tərtərdə davam etdirib. 2020-ci il iyul Tovuz döyüşlərində hünər göstərib. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kapitanı kimi zabit mundirində qarşılayıb, ilk saatlardan düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi Tərtər-Ağdərə cəbhəsindəki həlledici döyüşlərə atılaraq igidliklə vuruşub. Talış və Suqovuşan döyüşlərində qəhrəmanlıq göstərib. Rəşadətli zabit sentyabrın 28-də Suqovuşan uğrundakı qanlı döyüşlərdə misilsiz şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Lənkəran şəhərində dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## QULUYEV
## Azər Zakir oğlu
## (11.10.1996 – 23.10.2020)

Sumqayıtda anadan olub. Orta təhsilini 2003-2011-ci illərdə Sumqayıt şəhəri 37 saylı orta məktəbdə alıb. Təhsilini 2011-2014-cü illərdə Sumqayıt şəhər Peşə Liseyində davam etdirib. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2016-cı il Aprel döyüşlərində qəhrəmanlıqla iştirak edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb, sentyabrın 29-da cəbhəyə yollanıb, ilk günlərdən düşmənlə ölüm-dirim savaşına atılaraq rəşadətlə vuruşub. Cəsur əsgərin döyüş yolu Füzuli, Cəbrayıl və Xocavənd cəbhələrindən keçib, bu rayonlar uğrundakı qanlı döyüşlərdə böyük hünər göstərib, yaralansa da, savaş meydanını tərk etməyib. Oktyabrın 23-də Xocavənd istiqamətindəki şiddətli döyüşlərin birində misilsiz igidliklə döyüşərək şəhadətə qovuşub. Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## QULUYEV
## Elşən Natiq oğlu
## (21.12.1992 – 28.09.2020)

Daşkəsən şəhərində anadan olub. 2008-ci ildə Daşkəsən şəhəri 1 saylı orta məktəbin IX sinfini bitirib. 2011-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2014-cü ildə yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kiçik çavuşu kimi əldə silah ön xətdə, döyüş meydanlarında qarşılayıb,





savaşın ilk saatlarından etibarən Kəlbəcər cəbhəsi səngərlərində düşmənlə ölüm-dirim çarpışmasına atılaraq rəşadətlə vuruşub, Murovdağ döyüşlərində misilsiz şücaət göstərib. Qəhrəman hərbçi sentyabrın 28-də Kəlbəcər cəbhəsində gedən qızğın döyüşlərin birində cəsurluqla vuruşaraq şəhadətə ucalıb. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 12-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Daşkəsən şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Döyüşdə fərqlənməyə görə" medalı (2021).*



## QULUYEV
## Hüseyn Həbib oğlu
## (26.06.2002 – 24.10.2020)

Tovuz rayonunun Ağbaşlar kəndində anadan olub. Orta təhsilini Xırdalan şəhəri 5 saylı orta məktəbdə alıb. 2020-ci ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Ağcabədidə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın elə ilk günündən ön xətdə, savaş meydanlarında olub, düşmənə qarşı amansız döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Cəbhənin Füzuli, Cəbrayıl və Xocavənd istiqamətlərində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında hünərlə iştirak edib. Hadrut uğrundakı qanlı döyüşlərdə böyük şücaət göstərib, cəsurluğu və mətinliyi ilə seçilib. İgid əsgər oktyabrın 24-də Hadrut ətrafında gedən həlledici döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Tovuz rayonunun Dondar Quşçu kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QULUYEV
## Mehman Telman oğlu
## (29.03.1992 – 06.10.2020)

Bərdə rayonunun Əyricə kəndində anadan olub. Orta təhsilini 1998-2009-cu illərdə Əyricə kənd orta məktəbində alıb. 2010-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. DSX Sərhəd Qoşunlarında xidmət edib. 2016-cı il Aprel döyüşlərindən sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah Tərtər-Ağdərə cəbhəsi səngərlərində qarşılayıb, ilk gündən ön xətdə, savaş meydanlarında olub, qatıldığı qızğın döyüşlərdə böyük şücaət və hünər göstərib. Talış və Suqovuşan uğrundakı qızğın savaşlarda misilsiz rəşadətlə vuruşub, mətinliyi ilə fərqlənib. Cəsur əsgər oktyabrın 6-da cəbhənin Ağdam istiqamətində gedən qanlı döyüşlərin birində igidliklə vuruşaraq şəhadətə qovuşub. Əyricə kəndində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Ağdamın azad olunmasına görə" medalı (2021).*



## QULUYEV
## Nofəl İlham oğlu
## (11.06.1994 – 27.10.2020)

Gədəbəy rayonunun Qoşabulaq kəndində anadan olub. 2011-ci ildə Qoşabulaq kənd orta məktəbini, 2015-ci ildə isə Azərbaycan Universitetini bitirib. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2016-cı il Aprel döyüşlərində hünər göstərib. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına qoşulmaq üçün könüllü müraciət edib. Həmin il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş





qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Sentyabrın 29-da Füzuli cəbhəsindəki qanlı döyüşlərə atılaraq igidliklə vuruşub. Cəbrayıl və Qubadlı döyüşlərində şücaət göstərib. Rəşadətli əsgər oktyabrın 18-də Qubadlı cəbhəsində mətinliklə vuruşduğu qanlı döyüşlərdə ağır yaralanıb. Həkimlərin səylərinə baxmayaraq, oktyabrın 27-də şəhadətə qovuşub. Qoşabulaq kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020).*



## QULUYEV
## Ramil Elşən oğlu
## (18.02.1991 – 10.10.2020)

Qubadlı şəhərində anadan olub. Orta təhsilini 1997-2008-ci illərdə Sumqayıt şəhəri 14 və 35 saylı orta məktəblərdə alıb. 2015-ci ildə Ukrayna Regionlararası Heyəti İdarəetmə Akademiyasını bitirib. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Beyləqanda xidmət edib. 2016-cı il Aprel döyüşlərində hünərlə savaşıb. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra orduya qayıtmaq üçün müraciət edib. Həmin il sentyabrında Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində sentyabrın 29-da yenidən orduya çağırılıb. Füzuli, Cəbrayıl və Xocavənd uğrunda qanlı savaşlarda şücaət göstərib. İgid əsgər oktyabrın 10-da Hadrut istiqamətindəki qızğın döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Nəşi oktyabrın 22-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021).*



## QULUZADƏ
## Elmin Şəmsi oğlu
**(01.11.1998 – 16.10.2020)**

Tərtər rayonunun Kəngərli kəndində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Kəngərli kənd orta məktəbində alıb. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il iyul Tovuz döyüşlərindən sonra ordu sıralarına qoşulmaq üçün könüllü olaraq müraciət edib. Həmin il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah savaş meydanlarında qarşılayıb. Müharibənin ilk saatlarından cəbhənin Tərtər-Ağdərə istiqamətindəki qanlı döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Talış və Suqovuşanın azad olunması uğrundakı şiddətli döyüşlərdə şəxsi igidlik nümunəsi göstərib, şücaəti və mətinliyi ilə fərqlənib. Cəsur əsgər oktyabrın 16-da Suqovuşan ətrafındakı şiddətli döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə ucalıb. Doğulduğu Kəngərli kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## QULUZADƏ
## Elşən Qulu oğlu
**(20.10.1998 – 21.01.2021)**

Füzuli rayonunun İkinci Mahmudlu kəndində anadan olub. 2015-ci ildə Füzuli rayon Qarabağ kənd orta məktəbini bitirib. 2016-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. DİN Daxili Qoşunlarında xidmət edib. 2018-ci ildə tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini DİN DQ sıralarında MAHHXHQ kimi davam etdirib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Daxili Qoşunların çavuşu kimi əldə silah Kəlbəcər cəbhəsində qarşılayıb, Murovdağ uğrunda misilsiz





igidliklə vuruşub. Füzuli, Cəbrayıl və Xocavənd döyüşlərində şücaət göstərib. Qəhrəman hərbçi oktyabrın 11-də Hadrut ətrafında rəşadətlə vuruşduğu qızğın döyüşlərdə ağır yaralanıb. Həkimlərin bütün səylərinə baxmayaraq, 2021-ci il yanvarın 21-də şəhadətə qovuşub. Füzuli rayonunun Yuxarı Kürdmahmudlu kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Cəsur döyüşçü" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020) - (hər ikisi sağlığında); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Vətən uğrunda" medalı (2021).*



## QULUZADƏ
## Əlimərdan Fəttah oğlu
**(14.02.1993 – 06.10.2020)**

Masallı rayonunun Birinci Yeddioymaq kəndində anadan olub. Orta təhsilini 2000-2008-ci illərdə Birinci Yeddiqoymaq kənd və Sumqayıt şəhəri 5 saylı orta məktəblərdə alıb. Təhsilini 2008-2011-ci illərdə C.Naxçıvanski adına Hərbi Liseydə davam etdirib. 2015-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. 2016-cı il Aprel döyüşlərində qəhrəmanlıqla iştirak edib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin baş leytenantı kimi zabit mundirində qarşılayıb, ilk gündən savaş meydanlarında olub, misilsiz rəşadətlə vuruşub. Döyüşlərə Füzuli cəbhəsində başlayan igid zabit Cəbrayıl uğrundakı qanlı savaşlarda böyük hünər göstərib, cəsurluğu ilə fərqlənib. Son savaşı oktyabrın 6-da olub. Həmin gün Füzuli cəbhəsindəki həlledici döyüşlərin birində şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Birinci Yeddioymaq kəndində dəfn edilib. Ailəli idi, üç övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## QULUZADƏ
## Kamran Pərviz oğlu
(14.08.1998 – 21.10.2020)

Ağsu rayonunun Gəgəli kəndində anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Gəgəli kənd və Bakı şəhəri 64 saylı orta məktəblərdə alıb. 2019-cu ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. Naxçıvanda XTQ sıralarında xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin leytenantı kimi zabit mundirində qarşılayıb, oktyabrın 11-dən ön cəbhədə olub, Füzuli cəbhəsindəki qanlı döyüşlərə atılaraq qəhrəmancasına vuruşub. Rəşadətli zabitin döyüş yolu daha sonra Cəbrayıl və Xocavənd cəbhələri səngərlərindən keçib, bu ağır döyüşlərdə mətinliyi ilə fərqlənib. Hadrut uğrundakı qanlı döyüşlərdə misilsiz şücaət göstərib. Oktyabrın 21-də Xocavəndin Tuğ kəndi uğrundakı qanlı döyüşlərdə igidliklə vuruşaraq şəhadətə qovuşub. Doğulduğu Gəgəli kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Hərbi xidmətlərə görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021), 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2022).*



## QULUZADƏ
## Qurbanəli Elşad oğlu
(25.06.2001 – 21.10.2020)

Bakıda anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Bakı şəhəri 136 və 121 saylı orta məktəblərdə alıb. 2019-cu ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə





qarşılayıb, ilk saatlardan ön xətdə, savaş meydanlarında olub, düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi Füzuli cəbhəsindəki qanlı döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Döyüş yolu daha sonra Cəbrayıl və Xocavənd cəbhələri səngərlərindən keçib, bu qızğın savaşlarda hünəri ilə fərqlənib. Hadrutun azad olunması uğrunda gedən həlledici döyüşlərdə şücaət göstərib. Cəsur əsgərin son savaşı oktyabrın 21-də olub. Həmin gün Xocavənd istiqamətində gedən şiddətli döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Bakının Binə qəsəbəsində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## QULUZADƏ
## Məhəmməd Cəlal oğlu
(07.08.1999 – 27.09.2020)

Biləsuvar rayonunun Bəydili kəndində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Bəydili kənd orta məktəbində alıb. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində – Tərtərdə xidmət edib. 2020-ci ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirib. Xidmətə başlayandan bir ay sonra – sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk saatlarından düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi Tərtər-Ağdərə cəbhəsindəki qızğın döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Suqovuşanın azad olunması uğrunda gedən qanlı döyüşlərdə şəxsi igidlik nümunəsi və şücaət göstərib. Qəhrəman əsgər sentyabrın 27-də Suqovuşan istiqamətində növbəti döyüş tapşırığını yerinə yetirərkən hünərlə vuruşaraq şəhadətə ucalıb. Doğulub boya-başa çatdığı Bəydili kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## QULUZADƏ
## Orxan Elxan oğlu
**(29.06.1994 – 08.11.2020)**

Lənkəran şəhərində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Lənkəran şəhəri 4 saylı humanitar təmayüllü məktəb-liseydə alıb. 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2017-ci ildə yenidən Silahlı Qüvvələr sıralarına qayıdıb və SQ TTM-də gizir hazırlığı kursunu bitirərək DSX Sərhəd Qoşunlarında xidmət etməyə başlayıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini DSX Sərhəd Qoşunlarının kiçik giziri kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk saatlarından düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi Ağdam cəbhəsindəki qanlı döyüşlərə atılaraq şücaətlə vuruşub. Füzuli və Zəngilan uğrundakı həlledici döyüşlərdə müstəsna qəhrəmanlıq göstərib. İgid sərhədçinin son savaşı noyabrın 8-də olub. Həmin gün Zəngilan istiqamətində gedən qızğın döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Lənkəran şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Qarabağ" ordeni (2020); "Vətən uğrunda" medalı (2020); "Zəngilanın azad olunmasına görə" medalı (2020).*



## QULUZADƏ
## Vəfadar Fəqan oğlu
**(19.08.2001 – 03.10.2020)**

Beyləqan rayonunun Bünyadlı kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Bünyadlı kənd orta məktəbində alıb. 2019-cu ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Cəbhə bölgəsində - Tərtərdə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından etibarən Tərtər-Ağdərə cəbhəsindəki qızğın





döyüşlərə atılaraq düşmənlə ölüm-dirim mübarizəsinə girib, igidliklə vuruşub. Rəşadətli əsgər Talış, Suqovuşan və Ağdərənin işğaldan azad olunması uğrunda gedən qanlı döyüşlərdə hünərlə iştirak edib, bu ağır vuruşmalarda böyük qəhrəmanlıq nümunəsi göstərib, cəsurluğu və mətinliyi ilə xüsusi fərqlənib. Oktyabrın 3-də Suqovuşan uğrundakı həlledici döyüşlərdə misilsiz şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Doğulub boya-başa çatdığı Bünyadlı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## QUMAŞOV
## Anar Saleh oğlu
**(10.10.1997 – 20.10.2020)**

Bakıda anadan olub. 2015-ci ildə Bakı şəhəri 238 saylı orta məktəbi bitirib. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində - Beyləqanda xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb, sentyabrın 29-da cəbhəyə yollanaraq düşmənlə amansız savaşa atılıb, qəhrəmancasına vuruşub. Cəsur əsgərin döyüş yolu Füzuli, Cəbrayıl və Xocavənd cəbhələri səngərlərindən keçib, bu qızğın döyüşlərdə böyük hünər göstərib, Hadrut döyüşlərində mətinliyi ilə seçilib. Oktyabrın 20-də Xocavənd cəbhəsindəki qanlı döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə qovuşub. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 4-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Bakının Keşlə qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## QURBANƏLİYEV
## Tapdıq Dövlətxan oğlu
### (21.12.1978 – 30.09.2020)

Şəki rayonunun Aydınbulaq kəndində anadan olub. 1996-cı ildə Aydınbulaq kənd 1 saylı orta məktəbini bitirib. 1997-1998-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 1998-ci ildə tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb və gizir hazırlığı kursu keçərək xidmətini davam etdirməyə başlayıb. 2016-cı il Aprel və 2020-ci il iyul Tovuz döyüşlərində hünərlə iştirak edib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin baş giziri kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən Tərtər-Ağdərə cəbhəsindəki ağır döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Talış və Suqovuşan döyüşlərində böyük şücaət göstərib. İgid hərbçi sentyabrın 30-da Ağdərə istiqamətində gedən şiddətli döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Nəşi oktyabrın 16-da müəyyən edilərək ailəsinə təhvil verilib. Aydınbulaq kəndində dəfn olunub. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## QURBANLI
## Elvin Mehman oğlu
### (02.02.1999 – 01.10.2020)

Tovuz rayonunun Aşağı Quşçu kəndində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Aşağı Quşçu kəndindəki İ.Bayramov və İ.Mürşüdov adına orta məktəblərdə alıb. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci ilin avqustunda yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi





qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk saatlarından etibarən düşmənlə ölüm-dirim çarpışmasının getdiyi Kəlbəcər cəbhəsindəki həlledici döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub, bu qanlı döyüşlərdə böyük şücaət və şəxsi igidlik nümunəsi göstərib, cəsurluğu və mətinliyi ilə xüsusi fərqlənib. Qəhrəman əsgər oktyabrın 1-də Murovdağ yüksəklikləri uğrunda gedən qızğın döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə ucalıb. Doğulub boya-başa çatdığı Aşağı Quşçu kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "İgidliyə görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020).*



## QURBANLI
## Nurlan Süleyman oğlu
### (27.09.2001 – 05.10.2020)

Xırdalan şəhərində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Abşeron rayonu Nübar qəsəbəsində yerləşən Qubadlı rayon Xanlıq kənd 3 saylı orta məktəbində alıb. Təhsilini 2018-2019-cu illərdə Dəniz Nəqliyyatı, Gəmiqayırma və Liman İşləri üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində davam etdirib. 2019-cu ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. XTQ sıralarında xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini XTQ əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, ilk saatlardan Füzuli cəbhəsindəki qızğın döyüşlərə atılaraq şücaətlə vuruşub. Cəbrayıl uğrunda gedən qanlı döyüşlərdə böyük qəhrəmanlıq göstərib. Cəsur xüsusi təyinatlı əsgər oktyabrın 5-də Cəbrayıl cəbhəsindəki həlledici döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Şamaxı şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## QURBANOV
## Busat Əfsər oğlu
**(10.09.2000 – 27.09.2020)**

Füzuli rayonunun Aşağı Kürdmahmudlu kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Aşağı Kürdmahmudlu kənd orta məktəbində alıb. 2018-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci ilin iyununda yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Təmas xəttində – Füzulidə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb, ilk saatlardan düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq qəhrəmancasına vuruşub. Cəbhənin Füzuli və Cəbrayıl istiqamətlərində həyata keçirilən əks-hücum əməliyyatlarında igidliklə iştirak edib, bu həlledici döyüşlərdə hünər göstərib, cəsurluğu ilə seçilib. Rəşadətli əsgər müharibənin elə ilk günü – sentyabrın 27-də Füzuli cəbhəsində gedən qanlı döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Aşağı Kürdmahmudlu kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QURBANOV
## Cahangir Məmməd oğlu
**(23.09.1994 – 28.09.2020)**

Goranboy rayonunun Borsunlu kəndində anadan olub. Orta təhsilini 2000-2011-ci illərdə Borsunlu kənd orta məktəbində alıb. 2012-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2016-cı ildə yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Cəbhə bölgəsində – Tərtərdə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah savaş meydanlarında qarşılayıb. İlk gündən ön xətdə olub, düşmənlə ölüm-dirim çarpışmasının getdiyi Tərtər-Ağdərə cəbhəsindəki qızğın döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. Qəhrəman əsgər Talış və Suqovuşan uğrundakı qanlı döyüşlərdə böyük şücaət göstərib, cəsurluğu və hünəri ilə fərqlənib. Sentyabrın 28-də Suqovuşan istiqamətində gedən şiddətli döyüşlərin birində igidliklə vuruşaraq şəhadətə qovuşub. Doğulub boya-başa çatdığı Borsunlu kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Laçının azad olunmasına görə" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2021).*



## QURBANOV
## Davud Taryel oğlu
**(15.02.1996 – 03.10.2020)**

Bakıda anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Bakı şəhəri 299 saylı məktəb-liseydə alıb. 2017-ci ildə Azərbaycan Dövlət Neft və Sənaye Universitetini bitirib, 2017-2019-cu illərdə isə həmin universitetin magistr pilləsində təhsil alıb. 2019-cu ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından ön xətdə olub, düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi Tərtər-Ağdərə cəbhəsindəki qanlı döyüşlərə atılaraq şücaətlə vuruşub. Cəsur əsgər Talış və Suqovuşan uğrundakı həlledici döyüşlərdə şəxsi igidlik və misilsiz rəşadət göstərib, mətinliyi ilə seçilib. Son savaşı oktyabrın 3-də olub. Həmin gün Suqovuşan ətrafında gedən qızğın döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Qazax rayonunun Birinci Şıxlı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QURBANOV
## Elçin Məcid oğlu
(22.01.2002 – 04.11.2020)

Qazax rayonunun Xanlıqlar kəndində anadan olub. 2017-ci ildə Xanlıqlar kənd orta məktəbinin IX sinfini bitirib. 2020-ci ilin yanvarında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə bölgəsində – Beyləqanda xidmət edirdi. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb. İlk gündən ön xətdə, döyüş meydanlarında olub, Füzuli cəbhəsində düşmənlə ölüm-dirim savaşına atılaraq misilsiz igidliklə vuruşub. Rəşadətli əsgərin döyüş yolu Cəbrayıl və Xocavənd cəbhələrindən keçib, bu qanlı döyüşlərdə böyük şücaət göstərib, cəsurluğu ilə xüsusi fərqlənib. Şuşa döyüşlərində qəhrəmanlıqla iştirak edib. Son döyüşü noyabrın 4-də olub. Həmin gün Şuşa uğrunda gedən həlledici döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə ucalıb. Doğulduğu Xanlıqlar kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



## QURBANOV
## Elvin Elmar oğlu
(29.04.1999 – 14.10.2020)

Qusar rayonunun Çiləgir kəndində anadan olub. Orta təhsilini 2005-2014-cü illərdə Çiləgir kənd orta məktəbində alıb, təhsilini 2014-2017-ci illərdə Qusar Peşə Liseyində davam etdirib. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində – Füzulidə düşmənlə üzbəüz mövqelərdə





xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb, sentyabrın 28-də cəbhəyə yollanıb. Müharibənin ilk günlərindən Füzuli cəbhəsində düşmənlə ölüm-dirim savaşına atılaraq rəşadətlə vuruşub. Cəbrayılın azadlığı uğrundakı qanlı döyüşlərdə böyük qəhrəmanlıq və hünər göstərib, şücaəti ilə fərqlənib. Cəsur əsgərin son savaşı oktyabrın 14-də olub. Həmin gün Füzuli cəbhəsindəki qızğın döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə qovuşub. Qusar şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## QURBANOV
## Emil Rafael oğlu
(10.12.1999 – 10.10.2020)

Ağdam rayonunun Çəmənli kəndində anadan olub. Orta təhsilini 2006-2017-ci illərdə Çəmənli kənd orta məktəbində alıb. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Naxçıvanda XTQ sıralarında xidmət edib. 2019-cu ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirməyə başlayıb. Cəbhə bölgəsində – Tərtərdə xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini bir hərbi qulluqçu kimi əldə silah savaş meydanlarında qarşılayıb, ilk gündən Kəlbəcər istiqamətindəki qızğın döyüşlərə atılaraq hünərlə vuruşub, Murovdağ döyüşlərində mətinlik göstərib. İgid əsgərin döyüş yolu daha sonra Tərtər-Ağdərə cəbhəsi səngərlərindən keçib. Talış, Suqovuşan və Ağdərə uğrundakı həlledici savaşlarda cəsurluğu ilə seçilib. Oktyabrın 10-da Suqovuşan ətrafındakı qanlı döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Ağdamın Quzanlı qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşan azad olunmasına görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021).*



# QURBANOV
## Emil Vaqif oğlu
### (25.08.1980 – 29.10.2020)

Lənkəran şəhərində anadan olub. 1997-ci ildə Lənkəran şəhəri 7 saylı orta məktəbi, 2002-ci ildə Lənkəran Dövlət Universitetini bitirib. 2002-2003-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, cəbhə bölgəsində - Beyləqanda xidmət edib. Xidməti dövründə kurs keçərək leytenant rütbəsi alıb, xidmətini Tərtərdə zabit kimi başa vuraraq ehtiyata buraxılıb. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində Silahlı Qüvvələrin ehtiyatda olan leytenantı kimi yenidən ordu sıralarına çağırılıb. Sentyabrın 30-da Füzuli uğrundakı qanlı döyüşlərə atılaraq rəşadətlə vuruşub. Qəhrəman zabit daha sonra Cəbrayıl və Qubadlı döyüşlərində hünərlə iştirak edib. Oktyabrın 29-da Qubadlı cəbhəsindəki şiddətli döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Lənkəran şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Azərbaycan Bayrağı" ordeni (2021).*



# QURBANOV
## Fariz Məhəmməd oğlu
### (28.06.1998 – 27.09.2020)

Goranboy rayonunun Qızılhacılı qəsəbəsində anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Qızılhacılı qəsəbə orta məktəbində alıb. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci ildə yenidən ordu sıralarına qayıtmağa qərar verib və xidmətini MAHHXHQ kimi davam





etdirməyə başlayıb. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin hərbi qulluqçusu kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən ön xətdə, savaş meydanlarında olub, Tərtər-Ağdərə cəbhəsində düşmənlə ölüm-dirim çarpışmasına atılaraq misilsiz şücaətlə vuruşub. Rəşadətli əsgər Talış, Suqovuşan və Ağdərə istiqamətlərində gedən qanlı savaşlarda böyük hünər və şəxsi igidlik nümunəsi göstərib, cəsurluğu və mətinliyi ilə seçilib. Sentyabrın 27-də Suqovuşan uğrundakı həlledici döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Doğulub boya-başa çatdığı Qızılhacılı qəsəbəsində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



# QURBANOV
## Xansu Elsevər oğlu
### (23.09.2000 – 09.11.2020)

Naxçıvan şəhərində anadan olub. Orta təhsilini 2006-2017-ci illərdə Naxçıvan şəhəri 15 saylı orta məktəbdə alıb. 2018-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci ilin avqustunda yenidən ordu sıralarına qayıdıb və xidmətini MAHHXHQ kimi davam etdirib. Xüsusi kurs keçərək XTQ sıralarına qəbul olunub. Xidmətə başlayandan bir ay sonra - sentyabrın 27-də başlayan Vətən müharibəsini XTQ-nin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk saatlarından düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq hünərlə vuruşub. Tərtər-Ağdərə, Füzuli və Xocavənd cəbhələrindəki qızğın döyüşlərdə böyük qəhrəmanlıq göstərib. Qanlı Suqovuşan və Hadrut döyüşlərində şücaəti ilə fərqlənib. İgid əsgərin döyüş yolu Şuşa savaşlarına qədər uzanıb. Noyabrın 9-da Şuşa istiqamətində növbəti döyüş tapşırığını yerinə yetirərkən misilsiz rəşadətlə döyüşərək şəhid olub. Naxçıvan şəhərində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## QURBANOV
## İmran İlqar oğlu
### (23.05.1989 – 29.09.2020)

Bakıda anadan olub. Orta təhsilini 1995-2003-cü illərdə Bakı şəhəri 72 saylı orta məktəbdə, 2003-2006-cı illərdə C.Naxçıvanski adına Hərbi Liseydə alıb. 2010-cu ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirib. 2010-2011-ci illərdə SQ TTM-də kurs keçərək zabit kimi xidmətə başlayıb. Təmas xəttində – Füzuli və Beyləqanda xidmət edib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kapitanı kimi zabit mundirində qarşılayıb, ilk saatlardan ön xətdə, savaş meydanlarında olub, düşmənlə ölüm-dirim mübarizəsinin getdiyi Füzuli cəbhəsindəki şiddətli döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub, bu vuruşmalarda böyük şücaət göstərib. Qəhrəman zabit sentyabrın 29-da Füzulinin azadlığı uğrunda gedən qanlı döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə ucalıb. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 12-də müəyyən olunaraq ailəsinə təhvil verilib. II Fəxri xiyabanda dəfn edilib. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021); "Azərbaycan Bayrağı" ordeni (2021).*



## QURBANOV
## İsmayıl Yaşar oğlu
### (06.03.2001 – 27.09.2020)

Qəbələ rayonunun Böyük Pirəli kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Böyük Pirəli kənd orta məktəbində alıb. 2019-cu ilin aprelində Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, cəbhə bölgəsində – Beyləqanda





xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk saatlarından ön xətdə, savaş meydanlarında olub, xidmət etdiyi hərbi hissənin tərkibində qızğın döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub, cəbhənin Füzuli istiqamətində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında hünərlə iştirak edib, bu qanlı döyüşlərdə öz mətinliyi ilə xüsusi seçilib. Cəsur əsgər müharibənin elə ilk günü – sentyabrın 27-də Füzulinin işğaldan azad olunması uğrunda gedən şiddətli döyüşlərin birində şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Qəbələ rayonunun Soltannuxa kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QURBANOV
## İsmət Firuz oğlu
### (22.04.1998 – 25.10.2020)

Şəmkir rayonunun Varlı Həyat kəndində anadan olub. Orta təhsilini 2004-2015-ci illərdə Varlı Həyat kənd orta məktəbində alıb. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra başlayan Vətən müharibəsini əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından Kəlbəcər cəbhəsində düşmənə qarşı amansız döyüşlərə atılıb, Murovdağ yüksəklikləri uğrundakı bu qanlı vuruşmalarda qəhrəmancasına iştirak edib. Rəşadətli əsgər cəbhənin Füzuli və Cəbrayıl istiqamətlərində gedən qanlı döyüşlərdə böyük şücaət göstərib, cəsurluğu və mətinliyi ilə fərqlənib. Son savaşı oktyabrın 25-də olub. Həmin gün Füzuli cəbhəsində gedən qızğın döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə qovuşub. Şəmkir rayonunun Aşağı Seyfəli kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Döyüşdə fərqlənməyə görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020).*



## QURBANOV
## Qamət Şəmşir oğlu
**(25.07.2001 – 29.09.2020)**

Ağsu rayonunun Keşdiməz kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Keşdiməz kənd orta məktəbində alıb. 2019-cu ilin oktyabr ayında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, Mingəçevirdə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk saatlarından ön xətdə, savaş meydanlarında olub, xidmət etdiyi hərbi hissənin tərkibində Tərtər-Ağdərə cəbhəsində düşmənlə qanlı döyüşlərə atılaraq rəşadətlə vuruşub. Talış, Suqovuşan və Ağdərənin azadlığı uğrunda gedən qızğın savaşlarda misilsiz şücaət göstərib, öz hünəri və cəsurluğu ilə xüsusi fərqlənib. İgid əsgər sentyabrın 29-da Tərtər-Ağdərə cəbhəsində, Suqovuşan istiqamətində gedən həlledici döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Doğulub boya-başa çatdığı Keşdiməz kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Suqovuşanın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QURBANOV
## Masim Hafiz oğlu
**(07.01.2001 – 30.10.2020)**

Masallı rayonunun Ərəb kəndində anadan olub. 2016-cı ildə Ərəb kənd orta məktəbinin IX sinfini bitirib. 2019-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb, sentyabrın 29-da cəbhəyə yollanaraq düşmənlə ölüm-dirim savaşına atılıb, igidliklə vuruşub. Qəhrəman əsgərin döyüş yolu Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı cəbhələrindən keçib, bu həlledici döyüşlərdə böyük hünər göstərib. Qubadlı döyüşlərində yaralansa da, savaş meydanını tərk etməyib. Oktyabrın 30-da Qubadlı cəbhəsindəki qanlı vuruşmaların birində misilsiz hünərlə döyüşərək şəhadətə ucalıb. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi 2021-ci il yanvarın 10-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Ərəb kəndində dəfn olunub. Subay idi.





**Təltifləri:** *"Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Qubadlının azad olunmasına görə" medalı (2021); "Vətən uğrunda" medalı (2021).*



## QURBANOV
## Mayıl Mayis oğlu
**(08.06.1996 – 20.10.2020)**

İmişli rayonunun Xosçobanlı kəndində anadan olub. 2013-cü ildə Bakıda yerləşən Qubadlı rayon Xanlıq kənd 1 saylı orta məktəbini bitirib. 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Müharibənin ilk günlərindən savaş meydanlarında olub, şücaətlə döyüşüb. Cəbhənin Füzuli və Qubadlı istiqamətlərində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında igidliklə iştirak edib. Cəsur əsgərin son döyüşü oktyabrın 20-də olub. Həmin gün Qubadlı cəbhəsində gedən şiddətli döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Nəşi noyabrın 3-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Doğulduğu Xosçobanlı kəndində dəfn olunub. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Qubadlının azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QURBANOV
## Murad Asif oğlu
## (23.03.1996 – 11.10.2020)

Salyan şəhərində anadan olub. Orta təhsilini 2002-2011-ci illərdə Salyan şəhəri 2 saylı və Bakı şəhəri 51 saylı orta məktəblərdə alıb. Təhsilini 2012-2015-ci illərdə Maliyyə-İqtisad Kollecində davam etdirib. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, xidmətini cəbhə bölgəsində - Tərtərdə başa vurub. 2016-cı il Aprel döyüşlərində hünərlə iştirak edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində yenidən ordu sıralarına çağırılıb və sentyabrın 29-da cəbhəyə yollanıb. Döyüşlərə Füzuli istiqamətində başlayan rəşadətli əsgər bu cəbhədəki qanlı savaşlarda qəhrəmanlıq nümunəsi göstərib. Xocavənd uğrunda gedən şiddətli döyüşlərdə igidliyi və cəsurluğu ilə seçilib. Oktyabrın 11-də Hadrut ətrafındakı qızğın döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Bakının Badamdar qəsəbəsində dəfn edilib. Nişanlı idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021).*



## QURBANOV
## Ramil Sudeyif oğlu
## (06.01.1987 – 27.09.2020)

Beyləqan rayonunun Dünyamalılar kəndində anadan olub. 2004-cü ildə Dünyamalılar kənd orta məktəbini bitirib. 2005-2006-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Goranboyda xidmət edib. 2008-ci ildə yenidən ordu sıralarına qayıdıb və SQ TTM-də gizir hazırlığı kursunu başa vuraraq xidmətə başlayıb. Xidmətinin çoxunu cəbhə bölgəsində - Ağdam və





Beyləqanda keçirib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin giziri kimi əldə silah səngərlərdə qarşılayıb, ilk saatlardan düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq rəşadətlə vuruşub. Qəhrəman hərbçi cəbhənin Füzuli istiqamətində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında hünərlə iştirak edib, bu şiddətli döyüşlərdə böyük şücaət göstərib. Sentyabrın 27-də həmin cəbhədəki həlledici döyüşlərin birində misilsiz igidliklə vuruşaraq şəhadətə qovuşub. Doğulub boya-başa çatdığı Dünyamalılar kəndində dəfn edilib. Ailəli idi, iki övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



## QURBANOV
## Rauf Vahid oğlu
## (05.10.1995 – 18.10.2020)

Naxçıvan MR Şərur rayonunun Ələkli kəndində anadan olub. Orta təhsilini 2001-2009-cu illərdə Ələkli kənd orta məktəbində, 2009-2012-ci illərdə isə H.Əliyev adına Hərbi Liseydə alıb. 2016-cı ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsində bitirərək zabit kimi xidmətə başlayıb. Cəbhə bölgəsində - Ağcabədi və Füzulidə xidmət edib. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin leytenantı kimi zabit mundirində qarşılayıb, ilk gündən Murovdağ yüksəklikləri istiqamətindəki ağır döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub. İgid zabitin döyüş yolu daha sonra Füzuli, Cəbrayıl və Xocavənd cəbhələrindən keçib, bu rayonların azad olunması uğrundakı həlledici döyüşlərdə şücaət göstərib. Oktyabrın 18-də Füzuli cəbhəsindəki qanlı döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Şərur şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "İgidliyə görə" medalı (2021).*



## QURBANOV
## Rəcəb Elşən oğlu
### (01.01.2001 – 06.10.2020)

Bərdə rayonunun Kələntərli kəndində anadan olub. 2018-ci ildə Kələntərli kənd orta məktəbini bitirib. 2019-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, XTQ sıralarında xidmət edib. 2020-ci ilin iyulunda tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini avqustdan etibarən XTQ-də davam etdirib. Bir aydan sonra başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin kiçik çavuşu kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk günündən Kəlbəcər cəbhəsindəki ağır döyüşlərə atılaraq qəhrəmancasına vuruşub, qanlı Murovdağ döyüşlərində böyük şücaət və şəxsi igidlik nümunəsi göstərib. Cəsur xüsusi təyinatlı Füzuli və Xocavənd uğrunda rəşadətlə döyüşüb. Oktyabrın 6-da Cəbrayıl cəbhəsində gedən şiddətli döyüşlərin birində misilsiz hünərlə vuruşaraq şəhadətə ucalıb. Kələntərli kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## QURBANOV
## Röyal Ziyad oğlu
### (21.08.2001 – 05.10.2020)

Siyəzən rayonunun Beşdam kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Beşdam kənd orta və Siyəzən şəhəri 3 saylı orta məktəblərdə alıb. 2019-cu ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Xidmətə Murovda başlayıb, daha sonra XTQ sıralarına qəbul edilib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini XTQ-nin əsgəri kimi əldə silah ön xətdə, döyüş meydanlarında qarşılayıb, savaşın ilk saatlarından etibarən Füzuli cəbhəsi səngərlərində düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq igidliklə vuruşub. Cəbrayıl döyüşlərində şücaət göstərib, cəsurluğu ilə seçilib. Qəhrəman xüsusi təyinatlının son savaşı oktyabrın 5-də olub. Həmin gün Füzuli uğrunda gedən qızğın döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Doğulub boya-başa çatdığı Beşdam kəndində dəfn edilib. Subay idi.





**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); 3-cü dərəcəli "Rəşadət" ordeni (2021).*



## QURBANOV
## Ruslan Üzeyir oğlu
### (07.09.1991 – 28.09.2020)

Biləsuvar rayonunun Ağalıkənd kəndində anadan olub. Orta təhsilini 1997-2008-ci illərdə Ağalıkənd kənd orta məktəbində alıb. 2009-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Daşkəsəndə xidmət edib. 2013-cü ildə yenidən Silahlı Qüvvələr sıralarına qayıtmağa qərar verib və xidmətini DİN Daxili Qoşunlarının xüsusi təyinatlı dəstəsində davam etdirməyə başlayıb. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Daxili Qoşunların baş çavuşu kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən Kəlbəcər cəbhəsinin savaş meydanlarında olub, xidmət etdiyi taborun heyətində dərhal qanlı döyüşlərə atılaraq qəhrəmancasına vuruşub. Murovdağ yüksəklikləri uğrundakı şiddətli döyüşlərdə şəxsi igidlik nümunəsi göstərib. Rəşadətli xüsusi təyinatlı döyüşçü sentyabrın 28-də Kəlbəcər cəbhəsində gedən həlledici vuruşmaların birində misilsiz şücaətlə savaşaraq şəhidlik məqamına yüksəlib. Ağalıkənd kəndində dəfn edilib. Ailəli idi, özü şəhid olandan az sonra doğulmuş bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2020).*



# QURBANOV
## Tərxan Zabit oğlu
**(29.06.1996 – 06.11.2020)**

Şəki rayonunun Kiçik Dəhnə kəndində anadan olub. Orta təhsilini 2004-2005-ci illərdə Rusiyanın Moskva şəhərində, 2005-2015-ci illərdə Mingəçevir şəhəri 3 saylı orta məktəbdə alıb. 2019-cu ildə Bakı Dövlət Universitetini bitirib. 2019-cu ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Ağcabədidə xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən düşmənlə ölüm-dirim çarpışmasının getdiyi Füzuli cəbhəsindəki savaş meydanlarında olub, qatıldığı ağır döyüşlərdə misilsiz rəşadətlə vuruşub. Cəsur əsgər Cəbrayıl və Xocavənd uğrundakı həlledici savaşlarda böyük hünər göstərib. Son döyüşü noyabrın 6-da olub. Həmin gün Xocavənd cəbhəsində gedən qanlı döyüşlərin birində igidliklə vuruşaraq şəhadətə qovuşub. Adı bir müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 25-də müəyyən edilərək ailəsinə təhvil verilib. Mingəçevir şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020), 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (2022).*



# QURBANOV
## Vahid Elşad oğlu
**(27.01.2001 – 30.10.2020)**

Tovuz rayonunun Əyyublu kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə Əyyublu kənd orta və Gəncə şəhəri 29 saylı tam orta məktəblərdə alıb. 2019-cu ilin aprelində Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Təmas xəttində – Füzulidə düşmənlə üzbəüz mövqelərdə xidmət





edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, savaşın ilk saatlarından ön xətdə olub, Füzuli cəbhəsində düşmənə qarşı amansız döyüşlərə atılaraq misilsiz rəşadətlə vuruşub, bu qanlı savaşlarda böyük şücaət göstərib. İgid əsgər Cəbrayıl və Xocavənd cəbhələrindəki həlledici döyüşlərdə hünərlə iştirak edib, mətinliyi və cəsurluğu ilə fərqlənib. Oktyabrın 30-da Xocavənd istiqamətində gedən şiddətli döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlib. Doğulduğu Əyyublu kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*



# QURBANZADƏ
## Ayxan Fariz oğlu
**(25.07.1998 – 25.10.2020)**

Lənkəran rayonunun Şağlaküçə kəndində anadan olub. Orta təhsilini 2004-2013-cü illərdə Şağlaküçə kənd orta məktəbində alıb, təhsilini 2013-2016-cı illərdə Lənkəran Peşə Liseyində davam etdirib. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Goranboyda xidmət edib. 2020-ci il sentyabrın 21-də ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb və təlimlərə cəlb olunub. Bir həftədən sonra Vətən müharibəsi başlayanda ilk saatlardan Füzuli cəbhəsində düşmənə qarşı amansız döyüşlərə atılıb, bu qanlı vuruşmalarda şəxsi igidlik nümunəsi göstərib. Xocavənd cəbhəsində gedən həlledici döyüşlərdə misilsiz rəşadətlə vuruşub. Qəhrəman əsgər oktyabrın 25-də Hadrut ətrafındakı qızğın döyüşlərin birində hünərlə vuruşaraq şəhadətə ucalıb. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi noyabrın 24-də müəyyən olunaraq ailəsinə təhvil verilib. Şağlaküçə kəndində dəfn edilib. Ailəli idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021).*



## QURBANZADƏ
## Mövlud Söhbət oğlu
## (02.08.1996 – 27.09.2020)

Beyləqan rayonunun Aşağı Çəmənli kəndində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Aşağı Çəmənli kənd orta məktəbində alıb. 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, DSX Sərhəd Qoşunlarında xidmət edib. 2020-ci ildə yenidən ordu sıralarına qayıdıb və xidmətini həmin ilin avqustundan MAHHXHQ kimi davam etdirməyə başlayıb. Cəbhə bölgəsində – Beyləqanda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini bir hərbçi kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk günündən ön xətdə, Füzuli cəbhəsinin döyüş meydanlarında olub, qəhrəmancasına vuruşub. Cəbhənin Cəbrayıl istiqamətindəki qanlı savaşlarda böyük şücaət və şəxsi igidlik nümunəsi göstərib. Cəsur əsgər sentyabrın 27-də Füzuli cəbhəsində gedən həlledici döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Aşağı Çəmənli kəndində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021); "Füzulinin azad olunmasına görə" medalı (2021).*

---



## QURDAYEV
## Ömər Şəhmir oğlu
## (13.07.2002 – 27.09.2020)

Balakən rayonunun Meşəşambul kəndində anadan olub. Orta təhsilini 2008-2019-cu illərdə Meşəşambul kənd orta məktəbində alıb. 2020-ci ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Təmas xəttində – Füzulidə düşmənlə üzbəüz mövqedə xidmət edirdi. 2020-ci il sentyabrın 27-də





başlayan Vətən müharibəsini bir əsgər kimi əldə silah səngərlərdə qarşılayıb. Müharibənin ilk günündən ön xətdə, döyüş meydanlarında olub, ilk saatlardan qanlı savaşlara atılaraq rəşadətlə vuruşub. Döyüşlərə Füzuli cəbhəsində başlayıb, buradakı həlledici savaşlarda böyük şücaət və şəxsi igidlik nümunəsi göstərib. Bu həlledici vuruşmalarda qəhrəmanlığı və cəsurluğu ilə xüsusi fərqlənib. İgid əsgər müharibənin elə ilk günü – sentyabrın 27-də Füzulinin azad olunması uğrunda gedən qanlı döyüşlərin birində misilsiz şücaətlə vuruşaraq şəhidlik məqamına yüksəlib. Doğulduğu Meşəşambul kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2020); "Cəsur döyüşçü" medalı (2021).*

---



## QUREŞLİ
## Firuz Əli oğlu
## (03.12.1993 – 10.10.2020)

Naxçıvan MR Şahbuz rayonunun Külüs kəndində anadan olub. Orta təhsilini 2001-2010-cu illərdə Külüs kənd orta məktəbində, 2010-2013-cü illərdə H.Əliyev adına Hərbi Liseydə alıb. 2013-cü ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2017-ci ildə AAHM-i leytenant rütbəsində bitirib. 2017-2018-ci illərdə SQ TTM-də kurs keçəndən sonra zabit kimi xidmət etməyə başlayıb. Cəbhə bölgəsində – Beyləqanda xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin baş leytenantı kimi zabit mundirində qarşılayıb, ilk gündən Füzuli istiqamətindəki qanlı döyüşlərə atılaraq qəhrəmancasına vuruşub, şücaət göstərib. Rəşadətli zabit oktyabrın 10-da Füzuli istiqamətində igidliklə vuruşduğu şiddətli savaşların birində ağır yaralanaraq hospitala çatdırılıb. Həkimlərin bütün səylərinə baxmayaraq, həyatını xilas etmək mümkün olmayıb, elə həmin gün şəhadətə qovuşub. Doğulduğu Külüs kəndində dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "İgidliyə görə" medalı (2021).*



## LAÇINOV
## Əhməd Qurban oğlu
(28.07.1999 – 02.10.2020)

Zaqatala rayonunun Yuxarı Çardaxlar kəndində anadan olub. Orta təhsilini 2005-2014-cü illərdə Yuxarı Çardaxlar kənd orta məktəbində alıb. Təhsilini 2014-2019-cu illərdə Zaqatala Dövlət İdarəetmə və Texnologiya Kollecində davam etdirib. 2019-cu ilin iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. XTQ sıralarında xidmət edirdi. 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb, ilk gündən düşmənlə ölüm-dirim savaşına atılaraq şücaətlə döyüşüb. Kəlbəcər, Cəbrayıl, Füzuli və Xocavənd cəbhələrindəki qanlı döyüşlərdə şəxsi igidlik göstərib, hünəri ilə seçilib. Cəsur xüsusi təyinatlı əsgər oktyabrın 2-də Hadrut uğrundakı qızğın döyüşlər zamanı misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Yuxarı Çardaxlar kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2020); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021); "İgidliyə görə" medalı (2021); "Azərbaycan Bayrağı" ordeni (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021).*



## LƏLƏYEV
## İbrahim Həzrətqulu oğlu
(25.08.1996 – 10.10.2020)

Masallı rayonunun Hişkədərə kəndində anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Hişkədərə kənd orta məktəbində alıb. 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarlında müddətli həqiqi hərbi xidmətdə olub, döyüş bölgəsində - Qazaxda xidmət edib. 2016-cı il Aprel döyüşlərinin iştirakçısı olub, bu döyüşlərdə şücaəti ilə fərqlənib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi





başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Sentyabrın 29-da cəbhəyə yollanaraq düşmənlə qızğın döyüşlərə atılıb. Füzulinin azad olunması uğrunda gedən qanlı savaşlarda misilsiz rəşadətlə vuruşub. İgid əsgər Cəbrayıl cəbhəsindəki həlledici döyüşlərdə qəhrəmanlıq göstərib. Oktyabrın 10-da Füzuli cəbhəsindəki şiddətli döyüşlərin birində hünərlə savaşaraq şəhadətə qovuşub. Doğulduğu Hişkədərə kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021); "Qubadlının azad olunmasına görə" medalı (2021).*



## LƏTİFLİ
## Orxan Xancan oğlu
(19.07.1996 – 07.11.2020)

İsmayıllı rayonunun Diyallı kəndində anadan olub. 2013-cü ildə Diyallı kənd orta məktəbini bitirib. Elə həmin il İsmayıllı Dövlət Humanitar və Texnologiya Kollecinə daxil olsa da, təhsilini yarımçıq qoyaraq hərbi xidmətə yollanıb. 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Təmas xəttində - Ağdamda xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən orduya çağırılıb. Müharibənin ilk günlərindən düşmənlə ölüm-dirim savaşına atılan rəşadətli əsgər Füzuli, Xocavənd, Qubadlı, Zəngilan cəbhələrindəki qanlı döyüşlərdə misilsiz şücaətlə vuruşub, böyük hünər göstərib. Noyabrın 7-də həlledici Şuşa döyüşlərində qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib. Diyallı kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Füzulinin azad olunmasına görə" medalı (2021); "Xocavəndin azad olunmasına görə" medalı (2021); "Cəbrayılın azad olunmasına görə" medalı (2021); "Cəsur döyüşçü" medalı (2021); "Şuşanın azad olunmasına görə" medalı (2021).*



## LƏTİFOV
### Eynulla Niyətulla oğlu
### (08.09.2001 - 19.10.2020)

Quba rayonunun İkinci Nügədi kəndində anadan olub. Orta təhsilini 2007-2018-ci illərdə İkinci Nügədi kənd orta məktəbində alıb. 2019-cu ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, döyüş bölgəsində - Ağcabədi rayonunda xidmət edirdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini Silahlı Qüvvələrin əsgəri kimi əldə silah səngərlərdə qarşılayıb. Savaşın ilk saatlarından ön xətdə, döyüş meydanlarında olub, düşmənlə ölüm-dirim mübarizəsinə atılaraq mətinliklə vuruşub. Döyüşlərə Füzuli cəbhəsində başlayıb, bu qanlı savaşlarda hünərlə iştirak edib, igidliyi və qorxmazlığı ilə xüsusi seçilib. Füzuli cəbhəsində yaralansa da, savaş meydanını tərk etməyən qəhrəman əsgər Cəbrayıl və Xocavənd uğrundakı həlledici döyüşlərdə misilsiz rəşadət göstərib. Oktyabrın 19-da Xocavənd cəbhəsində gedən şiddətli döyüşlərin birində igidliklə vuruşaraq şəhadətə ucalıb. Doğulub boya-başa çatdığı İkinci Nügədi kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Xocavəndin azad olunmasına görə" medalı (2021).*



## LƏTİFOV
### Rəşid Güləhməd oğlu
### (14.01.2000 - 02.10.2020)

Masallı rayonunun Tatyanoba kəndində anadan olub. Orta təhsilini 2006-2017-ci illərdə Masallı rayon Güllütəpə kənd orta məktəbində alıb. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, Gəncə və Daşkəsəndə xidmət edib. Tərxis olunandan az sonra yenidən ordu sıralarına qayıdıb və xidmətini 2019-cu ilin avqustundan etibarən MAHHXHQ kimi davam etdirib. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayanda Şəmkirdə





XTQ tərkibindəki həmlə taborunda xidmət edirdi. Müharibənin ilk saatlarından Kəlbəcər cəbhəsi səngərlərində olub, ağır döyüşlərə atılaraq rəşadətlə vuruşub. Cəsur xüsusi təyinatlı döyüşçü Murovdağ yüksəklikləri uğrundakı qanlı çarpışmalarda hünərlə iştirak edərək misilsiz igidlik göstərib. Oktyabrın 2-də Murovdağda gedən qızğın döyüşlərdə şücaətlə savaşaraq şəhidlik zirvəsinə yüksəlib. Adı uzun müddət itkin düşmüş sayılan hərbçilərin siyahısında olub. Nəşi dekabrın 29-da müəyyən olunaraq ailəsinə təhvil verilib. Tatyanoba kəndində dəfn edilib. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2021); "Kəlbəcərin azad olunmasına görə" medalı (2021).*



## LƏTİFOV
### Rəvan Ömür oğlu
### (26.08.1991 - 08.11.2020)

Oğuz rayonunun Xaçmaz kəndində anadan olub. Orta təhsilini 1997-2008-ci illərdə Xaçmaz kənd orta məktəbində alıb. 2012-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetini bitirib və elə həmin il də Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılıb, Naxçıvanda xidmət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayandan bir gün sonra ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb, sentyabrın 29-da cəbhəyə yollanıb, ilk günlərdən düşmənlə ölüm-dirim savaşına atılaraq qəhrəmancasına vuruşub. Döyüşlərə Füzuli cəbhəsində başlayıb, buradakı qızğın vuruşmalarda böyük hünər göstərib. İgid əsgərin döyüş yolu Şuşa cəbhəsinə qədər uzanıb, son savaşı da burada olub. Noyabrın 8-də Şuşa uğrundakı qanlı döyüşlərin birində misilsiz rəşadətlə vuruşaraq şəhid olub. Doğulduğu Xaçmaz kəndindəki Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, bir övladı vətənə əmanət qalıb.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020).*



# LİLLAHOV
# Fərid Loğman oğlu
## (06.03.1999 – 08.11.2020)

Oğuz rayonunun Baş Daşağıl kəndində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Baş Daşağıl kənd orta məktəbində alıb. 2019-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, təmas xəttində – Füzulidə xidmət edib. 2020-ci ilin sentyabrında Vətən müharibəsi başlayandan bir gün sonra - sentyabrın 28-də ölkədə elan edilmiş qismən səfərbərlik çərçivəsində ehtiyatda olan hərbi qulluqçu kimi yenidən ordu sıralarına çağırılıb. Sentyabrın 30-dan savaş meydanlarında olub, cəsurluqla döyüşüb. Cəbhənin Cəbrayıl, Füzuli və Xocavənd istiqamətlərində həyata keçirilən həlledici əks-hücum əməliyyatlarında igidliklə iştirak edib. Rəşadətli əsgərin döyüş yolu Şuşa savaşlarına qədər uzanıb. Şuşa uğrundakı qanlı döyüşlərdə misilsiz şücaət göstərib. Son döyüşü də burada olub. Noyabrın 8-də Şuşa ətrafında gedən şiddətli döyüşlərin birində qəhrəmancasına vuruşaraq şəhadətə qovuşub. Doğulduğu Baş Daşağıl kəndində dəfn olunub. Subay idi.

**Təltifləri:** *"Vətən uğrunda" medalı (2020); "Cəsur döyüşçü" medalı (2020); "Şuşanın azad olunmasına görə" medalı (2020).*

"Onların ruhu bu gün şaddır.
Onlar az yaşayıblar,
dünyadan gənc gediblər, şəhid olaraq gediblər.
Amma onlar hər zaman ürəyimizdə yaşayacaqlar...
Çünki, doğrudan da, şəhidlərimiz şüurlu şəkildə ölümə gedirdilər.
Hamımız yaxşı bilirik ki, ağır döyüşlərdə o istehkamları yarmaq, oradan
keçmək, dağlara qalxmaq, dağlara dırmaşmaq,
xüsusilə Şuşa əməliyyatı tarixdə, bəlkə də,
misli görünməmiş qəhrəmanlıq nümunəsidir.
Bunu ancaq milli ruhda böyüyən insanlar edə bilərdilər".

Azərbaycan Respublikasının Prezidenti,
Ali Baş Komandan

İLHAM ƏLİYEV

TEAS PRESS

ISBN 978-9952-563-06-1

9 789952 563061

www.teaspress.az